`

# RAUF ATAKİŞİYEV



***MƏQALƏLƏR***

***XATİRƏLƏR***

***MATERİALLAR***

**ÜZEYİR HACIBƏYLİ adına**
**BAKI MUSİQİ AKADEMİYASI**

**ORTA İXTİSAS MUSİQİ MƏKTƏB-STUDİYASI**
------------------------------------------------------------------------------------------------------

***Görkəmli musiqiçinin 95 illiyinə həsr olunur!***

# RAUF ATAKİŞİYEV

# M Ə Q A L Ə L Ə R
# X A T İ R Ə L Ə R
# M A T E R İ A L L A R

***İkinci nəşr, artırılmış***

***Tərtibçi***
***Tərlan Seyidov***

**Bakı – 2021**

*Kitab Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının
elmi-eksperimental bazası –
Orta ixtisas musiqi məktəb-studiyasında hazırlanmışdır*

**Tərtibçi-redaktor –**
AR Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Tərlan SEYİDOV**

**Elmi redaktor –**
AR Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Kamilə DADAŞZADƏ**

**Tərcümə edənlər**
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
məktəb-studiyanın aparıcı elmi işçisi
**Aytən İBRAHİMOVA**

məktəb-studiyanın baş metodisti
**Natəvan FƏRZƏLİYEVA**

məktəb-studiyanın müəllimi
**Aygün QƏHRƏMANOVA**

**Rəyçilər –**
SSRİ və AR Xalq artisti, professor
**Fərhad BƏDƏLBƏYLİ**
AR Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Zemfira QAFAROVA**

**Rauf Atakişiyev. Məqalələr, xatirələr, materiallar** (ikinci, artırılmış nəşr). *Tərtibçi – Tərlan Seyidov*. Bakı, BMA, 2021, 121 s.

# RAUF ATAKİŞİYEV HAQQINDA MƏQALƏLƏR

**Tərlan SEYİDOV**
*Azərbaycanın Əməkdar incəsənət xadimi,*
*sənətşünaslıq üzrə elmlər doktoru, professor*

## MÜĞƏNNİ, PİANOÇU, PEDAQOQ
***(R.Atakişiyevin həyat və yaradıcılıq oçerki)***

Azərbaycan Respublikasının Xalq artisti, görkəmli musiqi xadimi, professor Rauf (Rafiq) İsrafil oğlu Atakişiyevin adı pianoçu, müğənni və pedaqoq kimi ölkəmizdə və onun hüdudlarından kənarda geniş şöhrət tapmışdır. Onun hərtərəfli fəaliyyəti təqribən yarım əsr davam etmiş və dərin iz qoymuşdur. O, böyük istedad sahibi, parlaq fərdiliyi ilə seçilən mahir sənətkar idi. Vokal, yaxud fortepiano ifaçılığı sahəsindən tutmuş, tələbələrlə iş daxil olmaqla o, bütün sahələrdə öz yolunu taparaq, musiqi mədəniyyətinin müxtəlif sahələrinə dəyərli töhfələr vermişdir. İstər vokal və yaxud fortepiano ifaçılığı sahəsində, istərsə də pedaqoji fəaliyyətində – bunların hər birinə sənətkar özünəməxsus tərzdə yanaşmış və bununla musiqi mədəniyyətinin müxtəlif sahələrinə yenilik gətirmişdir.

Rauf Atakişiyev 15 iyul 1925-ci ildə Göyçay şəhərində, siyasi dövlət xadimi İsrafil Atakişi oğlu Atakişiyevin ailəsində anadan olmuşdur. Raufun valideynləri uşağın musiqiyə ciddi meylini aşkar edirlər və onu Azərbaycan konservatoriyası nəzdində, sonralar onillik musiqi məktəbi kimi fəaliyyət göstərən "İstedadlı uşaqlar qrupu"nun fortepiano sinfinə yazdırırlar. Məktəbdə onun əvəzsiz müəllimi – görkəmli metodika mütəxəssisi və pedaqoq Lidiya Nikolayevna Yeqorova **(1)** idi. "O, pedaqoji fəaliyyətinin ilk günlərindən etibarən özünü musiqi-ifaçıların tərbiyəsində rasional yolların və metodların öyrənilməsinə həsr etmişdir". **(2)** Məhz, Yeqorovanın sayəsində o, hələ uşaq ikən əsaslı piano hazırlığına yiyələnir. R.Atakişiyev Yeqorovanı hər zaman dərin ehtiramla xatırlayırdı, onun böyük səbr tələb edən tərbiyəvi işini lazımi dərəcədə qiymətləndirirdi.

1942-ci ildə R.Atakişiyev Azərbaycan Dövlət Konservatoriyasına daxil olur. Həmin ərəfələrdə burada artıq professional musiqi təhsili üçün tam əlverişli şərait formalaşmışdı – yenidənqurma dövrü başa çatmış, ali məktəbin struktur özülü qoyulmuşdu. Respublikanın musiqi təhsilinin inkişafı naminə ali məktəbin bütün kollektivinin və onun rektoru Ü.Hacıbəylinin atdığı cəsarətli addımların nəticəsində konservatoriyanın akademik həyatı nizama salınmışdı.

Bakıda rus klassik musiqi pedaqogikasının yüksək ənənələri zəminində tərbiyə olunan istedadlı, çox zəkalı və öz məsləyinə sadiq musiqiçilər fəaliyyət göstərirdilər. Azərbaycan pianoçuluq mədəniyyətinin təşəkkülü və inkişafında Leninqrad konservatoriyasının professoru Leonid Nikolayevin sinfinin məzunu, milli fortepiano məktəbinin yaradıcısı Mayor Rafailoviç Brennerin **(3)** əhəmiyyətli rolu olmuşdur. Atakişiyev Brennerin rəhbərliyi altında yüksək mədəniyyəti, ustalıq, yetkin professionalizm və əla texniki hazırlığı ilə fərqlənən mükəmməl ifaçılıq məktəbi keçir. 1945-ci ilin dekabr ayında gənc pianoçunun Moskvada keçirilən musiqiçi-ifaçıların Ümumittifaq müsabiqəsinin iki turunda iştirakı onun yaradıcılığının ilk yetkinlik təcrübəsi olur. **(4)**

Moskvada keçirilən musiqiçi-ifaçıların Ümumittifaq müsabiqəsi başa çatdıqdan sonra Bakıya qayıdan Üzeyir Hacıbəyli, Azərbaycan Dövlət Konservatoriyasının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı olaraq Azərbaycan SSR Nazirlər Kabinetində təsdiq üçün "...1946-cı ildən etibarən xüsusi istedadı ilə seçilən musiqiçi və ifaçıların təkmilləşdirilməsi baxımından onların sistematik olaraq Moskva və Leninqrad konservatoriyasına və bu konservatoriyalar daxilindəki aspiranturaya göndərilməsi" **(5)** təklifini irəli sürür.

1946-cı ildə Atakişiyevin həyatında dönüş baş verir: gənc pianoçu öz təhsilini Moskva konservatoriyasında davam etdirməkdən ötrü qəbul imtahanlarının verilməsi üçün təyinnamə alır. 29 avqust tarixində fortepiano fakültəsinin dekanı professor Neçayev, professor İqumnov, dosent Natanson və dekan müavini Çıçkinin iştirakı ilə təşkil olunmuş imtahan komissiyasının

heyəti qarşısında Atakişiyev Bax-Buzoninin “Çakona” və Listin “Kampanella” (Paqanini) əsərlərini ifa edərək, ciddi seçimdən sonra komissiyanın qərarına əsasən konservatoriyanın III kursuna qəbul edilir. **(6)**

Moskva konservatoriyası o illərdə özünün çiçəklənmə dövrünü yaşayırdı. Musiqi təhsilində yeni formaların axtarışı artıq arxada qalmışdı. Ali musiqi təhslinin yeni sistemi formalaşmışdı və bu sistemə görə professional hazırlıqla yanaşı, musiqiçinin hərtərəfli inkişafına da böyük yer verilirdi. Konservatoriyanın bütün ab-havası yüksək musiqi şövqü, intellektual və qeyri-adi gərginliyə malik emosional axınla çulğalanmışdı. Konservatoriyada dərs verən ustad musiqiçilər bu ab-havada ruh yüksəkliyi, çoşğunluq yaşayırdılar. Xüsusən də fortepiano fakültəsi bu cür ustad sənətkarlarla zəngin idi.

Onlardan biri olan Konstantin Nikolayeviç İqumnov (1873-1948) – öz yolunu hələ XIX əsrin sonlarında başlamış musiqiçi nəslinə mənsub idi. O, P.Çaykovski və Anton Rubinşteynin son günlərini görmüş, fortepianodan N.Zverev, A.Ziloti və P.Pabstdan, kompozisiyadan isə S.Taneyev, A.Arenski və M.İppolitov-İvanovdan dərs almış, kamera ansamblı sinfi üzrə V.Safonovun tələbəsi olmuş, S.Raxmaninov və Skryabinin həmyaşıdı və dostu olmuş və rus klassik pianoçuluq ənənələrini davam etdirmişdir.

Atakişiyev də elə K.N.İqumnovun fortepiano sinfinə qəbul olunur. R.Atakişiyevin Moskva konservatoriyasındakı təhsil illəri onun müəlliminin ifaçılıq baxışlarının tam formalaşdığı dövrə və həyatının son günləri ilə üst-üstə düşmüşdür. İqumnovun özünün də təsdiqlədiyi kimi, o, “öz ifaçılıq görüşlərini yalnız Böyük Vətən müharibəsindən sonra dərk edir və özünü təsdiqləyir**. (7)** Rus fortepiano məktəbinin yüksək ənənələrini yeni nəsl musiqi ifaçılarına ötürən görkəmli musiqiçi və pedaqoq K.İqumnov piano musiqi tarixinə müasir fortepiano məktəbinin ən görkəmli yaradıcılarından biri kimi daxil olmuşdur (L.Oborin, Y.Fliyer, M.Qrinberq, A.İoxeles, O.Boşnyakoviç, N.Ştarkman onun tələbələri olmuşlar). R.Atakişiyev bu böyük musiqi şəxsiyyətinə özünün möhkəm və geniş professional biliyi, dərin bədii təəssüratları ilə borcludur. K.N.İqumnov həvəslə, qayğıkeşliklə, lakin həm də ciddi tələbkarlıqla Atakişiyevin ifaçılıq fərdiliyini yetişdirir, ona qüsursuz zövq aşılayaraq, poetikliyi və səmimiliyini inkişaf etdirir, intonasiya ilə ifa etmədə gerçəkliyi və zənginliyi öyrədir, hər zaman bədii ideal axtarışına sövq edirdi. Professor Atakişiyevin musiqi istedadını, onun təbii, anadangəlmə piano çalmaq məharətini, səsi inkişaf etdirmə bacarığını yüksək qiymətləndirirdi. Müəllim ona deyirdi ki, “Sənin əllərin çox gözəldir”.

Onun dərs metodunun səciyyəvi xüsusiyyəti – tələbəni hərtərəfli inkişaf etdirərək ona həm musiqi, həm intellektual, həm də artistizm cəhətlərini aşılamaq idi. İqumnov tələbənin daxilində olan fantaziyanın üzə çıxardılmasını, təfəkkürün inkişaf etdirilməsini və onun artistlik təbiətinin aşkar edilməsini bacarırdı. K.N.İqumnovun sinfində təhsil alan professor Y.İ.Milşteyn yazırdı: *“Onun sinfində yüksək yaradıcı ab-hava hökm sürürdü. [...] Məşğələ, bir qayda olaraq çox əziyyətli, arasıkəsilməz olurdu. Konstantin Nikolayeviç eyni bir yeri dəfələrlə “axtarıb”, “sınaqdan çıxararaq” çalır və tələbəni öz axtarışlarına cəlb edirdi. Beləcə, tədricən əsərin səs tərzi əmələ gəlir, frazirovka və artikulyasiya aydınlaşır, lazımi temp müəyyənləşir, səs perspektivi əmələ gəlirdi”.* **(8)** İş prosesində pianoçu vərdişlərinin inkişafı və təkmilləşdirilməsinə son dərəcə önəm verən İqumnov, hər şeydən əvvəl *legatoya* – ahəngdarlığın əsası kimi dəyər verirdi və hesab edirdi ki, ondan “əsl pianoçuluq bacarığı yarana bilər”. O, alətin nəfəsini pedalla, “səs perspektivinin üzə çıxarılması” ilə əlaqələndirirdi. Applikatura xüsusi qayğı predmeti idi, o, musiqi frazası, yaxud passajın aydın surətdə uyğunlaşdırılmasını yaradır, daxilində melodik başlanğıcın meydana çıxardılma yollarını ifadə edirdi.

Gənc Atakişiyevin professional cəhətdən formalaşmasında həmçinin A.F.Gedike (orqan sinfi), M.V.Milman (kamera ansamblı) və A.N.İqumnovun assistentləri – R.V.Tamarkin və Y.İ.Milşteyn vacib rol oynamışdır.

Moskva konservatoriyasında təhsil illəri ərzində Atakişiyevin mənəvi dünyası əhəmiyyətli dərəcədə zənginləşir, onun biliyi tək musiqi sahəsində deyil, eyni zamanda incəsənətin başqa sahələrində də genişlənir. O, təkcə şəxsiyyət kimi deyil, həm də sənətkar kimi formalaşır. Atakişiyevin istedadı musiqi mədəniyyətinin yüksəlişi, tələbkarlıq mühitində inkişaf edirdi.

Moskvanın musiqi həyatında həmin illərin bütün zənginliyi onun maraq dairəsinə daxil idi: o, şöhrət qazanmış sənətkarların – dünyanın məşhur dirijor, müğənni, skripkaçı və pianoçuların çıxışlarını dinləyir.

R.Atakişiyev üçün müharibədən sonrakı Moskva həyatı çətinliklərə "tab gətirmək"də sınaq dövrü idi. 12 oktyabr 1946-cı ildə anasına məktubda o, belə yazır: " *[...] qara payok çörəyi (100 qr. ağ çörək kartoçka ilə verilir, böyük növbə olduğundan almaq mümkün deyil), kartof və dağ su ilə dolanıram: burada çay bahadır, onsuz da onu dəmləməyə heç nə yoxdur. [...] Bütün tələbələr bu çətinlikləri yaşayırlar, mən də tab gətirərəm. Bu, yaxşı həyat dərsidir, bu çətinlikdən keçmək lazımdır".* Konservatoriya təhsilinin ödənilməsi və yataqxanaya düzələnə qədər mənzil haqqı ilə bağlı maddi çətinlikləri də buraya əlavə etmək lazımdır.

Onun düşdüyü bütün bu çətinliklərə baxmayaraq, MDK-nda təhsil illəri inadlı və gərgin əməyin nəticəsi idi: o, çoxlu sayda əsərlər öyrənir. Bunlardan Şumanın "ABEGG" variasiyaları, Bethovenin 32 variasiyaları, Şopenin e-moll Konserti, E-dur Noktürnü və Fis-dur Ekspromtu, Listin 2 saylı A-dur konserti və "Matəm marşı", Çaykovski və Raxmaninovun pyeslərini və digər əsərləri göstərmək olar. Atakişiyev məsuliyyətli konsert dinləyişlərində tez-tez çıxış edir. Təhsil illərində Atakişiyevin sinif yoldaşı Oleq Boşnyakoviç onu anasına – Y.P.Atakişiyevaya yazdığı məktubunda çox düzgün səciyyələndirmişdir: *"Rafiq məni hələ ki, sevindirir: mütəmadi və ciddi məşğul olur. Bu gün dərsdə idik. Biz indi K.N.-un xəstəliyi ilə əlaqədar, gözəl musiqiçi və pedaqoq Milşteynlə məşğul oluruq. [...] Cəmi bir həftə ərzində Listin konserti böyük sürətlə irəliləmişdir. Əvvəlki çılğın "idmançı" keyfiyyətlərinin (texnikaya aludəçiliyinin) əvəzinə əsaslı dərinləşmə, təmkinlik və lirik epizodlarda ruh yüksəkliyi meydana çıxıb; bəzi məqamlar var ki, artıq məftunedici səslənir. [...] Milşteyn ondan razı idi [...]".*

Moskva konservatoriyasında Atakişiyev başqa bir ixtisasa da yiyələnməyə başlayır – o, öz qüvvəsini vokal üzrə görkəmli rus müğənnisi Antonina Vasilyevna Nejdanovanın (1873 – 1950) sinfində sınayır. Nejdanova ona rəhbərlik etməyə razılıq verir. Atakişiyev görkəmli rus müğənnisi ilə ilk görüşünü anasına yazdığı məktubda belə ifadə edir: *"Nejdanovanın vokal sinfinin konsertmeysteri – Oleqin (Boşnyakoviçin) rəfiqəsinin vasitəsilə mən Nejdanovanın evinə getdim. Mən bacardığımdan bir o qədər də yaxşı ifa etməsəm də [...], öz səsimlə, musiqi qabiliyyətim və temperamentimlə onda yaxşı təəssürat oyatdım. Sinfində tələbələrin sayının çox olmasına baxmayaraq [...] o, mənimlə, əlavə tələbə kimi, məşğul olmağa razılaşdı".*

1948-ci il idi. Bu ərəfədə Nejdanova artıq pedaqoji fəaliyyətinə qayıtmışdı. O, ömrünün son üç ilini Moskva konservatoriyasının professoru kimi fəaliyyət göstərir. Nejdanovanın rəhbərliyi altında Atakişiyevin keçdiyi vokal məşğələlər ciddi şəkildə düşünülmüşdür və italyan vokal mədəniyyəti ilə rus ifaçılıq sənətinin başlıca prinsiplərinin yaradıcı surətdə uzlaşmasına əsaslanırdı.

Nejdanovanın pedaqogikasında onun müəlllimi, Moskva konservatoriyasının professoru Umberto Mazettinin metodu öz əksini tapmışdır. O, rus musiqisinin xüsusiyyətlərini və rus ifaçılıq üslubunu dərindən hiss edirdi və rus vokal məktəbinin üslub cəhətlərini italyan musiqi mədəniyyəti ilə yaradıcı surətdə uzlaşdırırdı". **(9)** Nejdanova vokal ifaçıların yetişdirilməsində Mazettinin metodunu inkişaf etdirib, onu öz ifaçılıq və pedaqoji təcrübəsinə və rus vokal ifaçılıq sənətinin prinsiplərinə əsasən təkmilləşdirmişdi. *"Müğənninin öz səsinin gözəlliyi ilə fərəhlənməsi cəhəti ilə ziddiyət təşkil edən həqiqət, təbiilik, sadəlik, səmimilik – digər görkəmli rus müğənniləri kimi, Nejdanovanın da ifaçılıq üslubunun səciyyəvi xüsusiyyətlərindəndir. Məzmunun daha dərin və hərtərəfli ifadəsindən ötrü ideal vokal texnikanın ona tabe edilməsi Nejdanovaya bir ifaçı kimi xas idi. Vokal-musiqi obrazının yaradılması, qəhrəmanın xarakterinin, onun əhval-ruhiyyəsinin, həyəcan və hisslərinin təsviri – məhz bu prinsiplər onun yaradıcılığının əsasını təşkil edir. Öz səhnə müqabilləri F.İ.Şalyapin və L.V.Sobinov kimi, Nejdanova vokal – musiqili obrazın səhnədə canlı təcəssümünün harmonikliyinə cəhd göstərirdi".* **(10)** Bütün bu tələblər – mükəmməl vokal səsə və aktyor məharətinə malik olmaq, eyni zamanda böyük ümumi və musiqi mədəniyyətinə sahiblənmək – Atakişiyevin bir müğənni kimi təhsilinin əsasını təşkil edirdi.

Səsin təbiətini son dərəcə dərindən duyan və əla pedaqoq olan Nejdanova (O.Boşnyakoviç

bunun canlı şahidi idi), Atakişiyevin oxuma qabiliyyətini (lirik-dramatik tenor) yüksək qiymətləndirirdi. Nejdanova onun səsini təsir gücünə, diapazonuna (parlaq zil registrlər) və tembrinə görə italyan “canto”su kimi müəyyənləşdirmişdi. Nejdanova onun böyük səhnəyə yolunu qabaqcadan xəbər vermişdi və bu məqsədlə Atakişiyevi öz həyat yoldaşına – Böyük teatrın baş dirijoru Nikolay Semyonoviç Qolovanova göstərmişdi.

Nejdanova gənc müğənni ilə iş prosesində ifadakı bir çox nöqsanları, məsələn, vokal ifada səsin “sürüşdürülməsinə” meyllilik tendensiyasını, səsin gərəksiz yerə gücləndirilməsini, kifayət dərəcədə rəvan olmayan vokal hərəkətləri, orta registrdəki azacıq açıq (xirtdək) səsləri aradan qaldırırdı. Ona professional cəhətdən əla nəfəs, aramsız legato və kantilenaya yiyələnməyi öyrədirdi. Ona görə də məşğələlər zamanı təmrin və vokalizlər xüsusi əhəmiyyət kəsb edirdi”. **(11)** O.Boşnyakoviç Nejdanovanın sinfindəki məşğələləri belə təsvir edir: *“Söyləməliyəm ki, Nejdanova həvəslə məşğul olurdu. İki-üç həftə ərzində Rafiq son dərəcə irəliləyib. [...] O, indi özü sınadı və gördü ki, Nejdanova səs üzərində nə dərəcədə düzgün və təbii bir şəkildə işləyir. Nejdanova tembri əvvəlcə bütün registrlərdə hamarlamağa başlamışdı. Səs tembrinin orta hissəsi bir qədər ağaçalar, ağımtıl xüsusiyyətə malik idi (son dərəcə qaldırılmış qırtlaqla oxuma tərzi). Antonina Vasilyevna bununla çox mübarizə apardı və səs orta registrdə tədricən tamamilə başqa cür səslənməyə başladı: daha dolğun, qabarıq və o dərəcədə gözəl idi ki, burada artıq heç bir fikir mübadiləsi ola bilməzdi. Bu, italyan müğənnilərinin, xüsusən də Cilyinin ifa tərzinə xas olan emosional cəhətdən məhz belə qeyri-adi yumşaq məxməri tondur. Əvvəllər bəziləri hesab edirdi ki, Rafiqin səsi Cilyinin səsini xatırladır. Amma indi Antonina Vasilyevnanın məşğələlərində bu oxşarlıq insanı bəzən mat qoyur. [...] O, Rafkanın zil səslərinə çox da toxunmurdu. Sadəcə olaraq səsin lazımsız güclənməsinə yol vermirdi və çalışırdı ki, zil səsləri götürərkən gövdə sıxılmasın. [...] O, intonasiyada, diksiyada, frazirovkada bir dənə də olsun nöqsanı gözündən qaçırmır – ayrı müəllimlərin diqqət vermədikləri məqamları görür. [...] Sözün qısası, hesab edirəm ki, Rafiq məhz onun tələbəsi olduğuna görə çox xoşbəxtdir. Çünki o, (Allah ona uzun ömür versin!) Rafiqi təkcə vokal ifaçı kimi deyil, sözün əsl mənasında artist kimi yetişdirəcək!”.* **(12)** Təkcə bunu əlavə etmək qalır ki, bu fikir həqiqətən də peyğəmbərcəsinə söylənmişdir.

Nejdanovanın sinif məşğələləri Atakişiyev üçün heç də həmişə sakit keçmirdi. İki sənətin eyni zamanda uzlaşdırılması, məşğələlərin müntəzəmliliyi təbii ki, onun təhsil rejiminin pozulmasına gətirib çıxaracaqdı. Nejdanova üçün bu, son dərəcə yolverilməz idi. Nejdanovanın vokal sinfinin konsertmeysteri V.Podolskaya dərslərdən birini belə təsvir edir: *“Antonina Vasilyevnanın tələbələri müxtəlif xarakterə və temperamentə malik idilər və lazımi metodik göstərişlər vermək üçün onlardan hər birinə müəyyən yanaşma üsulu tapmağı bacarırdı. Bu, isə elə şərait yaradırdı ki, artıq tələbədə onun işinə mane olan heç bir həyəcan qalmırdı. Məsələn, R. adlı çox istedadlı bir tələbə (R.Atakişiyev nəzərdə tutulur – T.S.) özünün qeyri-mütəşəkkilliyi ilə fərqlənirdi. Adətən onun üçün dərsə başlamaq çox çətin ərsəyə gəlirdi. O, elə hey “naxoş” olurdu, “bu gün bir o qədər də yaxşı səslənmir”, “səsi getmir” deyə-deyə, elə hey şikayətlənirdi. Antonina Vasilyevna onunla rəsmi və ciddi olurdu, onun “naxoşluğu”na heç bir məhəl qoymurdu. Rafiqin “bu gün təmrin və vokaliz oxumayaq” xahişinin əvəzinə o, alət arxasına keçib, məhz təmrin və vokalizlərin üzərində lazım bildiyi qədər işləyirdi, onun hər bir etinasızlığına ciddi yanaşırdı. Get-gedə tələbənin diqqəti daha da fəallaşırdı, o, həvəslə məşğul olmağa başlayırdı və dərsin belə tez sona çatmasına görə məyus olurdu”.* **(13)**

Beləliklə, eyni vaxtda iki ixtisas üzrə təhsil alan Atakişiyev, rus vokal və fortepiano məktəbinin ən yaxşı ənənələrini mənimsəyir və bu iki sənət onun bütün həyatı boyu bir-birini qarşılıqlı surətdə zənginləşdirir. Atakişiyevin müxtəlif sahələr üzrə uğurlu təhsilinə bu iki görkəmli sənətkarın – K.N.İqumnov və A.V.Nejdanovanın bədii prinsiplərinin müəyyən mənada yaxınlığı köməklik etmişdir. Y.Milşteynin aşağıdakı mülahizələri bunun təsdiqidir: “Konstantin Nikolayeviç hesab edirdi ki, yalnız lətif ahəngdarlıqdan “həqiqi pianistik ustalıq yetişə bilər”, çünki vokal oxuma sənəti “musiqinin çox mühüm həyatverici özülü, əsas təməlidir”. O, böyük müğənnilərdən hərarətlə söz açırdı, tələbələri onlardan öyrənməyə dəvət edirdi. O, A.V.Nejdanovaya məftun idi və bu son dərəcə valehedici artist qadına olan məhəbbətini bizim

hamımıza sirayət etdirmişdi. Çox vaxt sinifdəki məşğələlər zamanı o, Nejdanovanın ecazkar ifasında Raxmaninovun "Vokaliz"ini xatırlayaraq söyləyirdi ki, Şubert-Listin "Dəyirmançı və çay" əsərinin interpretasiyasına görə ona borcludur". **(14)**

A.V.Nejdanovanın sinfinin konsertmeysteri V.Podolskaya isə öz qeydlərində yazırdı: "Antonina Vasilyevna öz tələbələrinə instrumental ifaçıların çıxış etdiyi konsertlərə getməyi tövsiyə edirdi. Çünki hesab edirdi ki, həqiqi sənətkar üçün musiqi incəsənətinin bütün növlərindən ən yaxşı cəhətləri əxz etmək səciyyəvidir. Məsələn, skripka ifaçısı müğənnidəki kantilenaya sahib olmağın arzusundadır, pianoçu – royalda "oxumaq" istəyi ilə aşıb-daşır, müxtəlif registrlərdə skripka, yaxud violonçel səslənməsinin arzusundadır. Həqiqi müğənni-sənətkar isə yaxşı pianoçu, skripkaçı, violonçel ifaçısının musiqi frazaları üçün səciyyəvi olan incəliklərə can atır".

Burada Şubert-Listin "Dəyirmançı və çay" mahnısının ifasına dair K.N.İqumnovun söylədiyi fikir yada düşür: "Mən bu əsəri Antonina Vasilyevnanın ifasında eşidərkən, royalda nə cür kantilena yaratmaq lazım olduğunu dərk etdim".

Antonina Vasilyevna isə öz növbəsində deyirdi: "...bu mahnını Konstantin Nikolayeviçin ifasında dinləyərkən, mən onun frazirovkasının güclü təsiri altında idim". **(15)**

1948-ci il Atakişiyevin tərcümeyi-halında dönüş anı oldu. Martın 24-də K.N.İqumnov vəfat etdi. R.Atakişiyevin sözlərinə görə: "onun vəfatı ilə royalda ən dərin, əsl və gerçək ifanın sinonimi olan "İqumnov" pianizminin bütöv bir dövrü başa çatdı". **(16)** Bu dövrdən etibarən konservatoriyanı bitirənə qədər İqumnovun vəfatından sonra Atakişiyevin fortepiano üzrə müəllimi onun tələbəsi və " həqiqi ardıcılı" Yakov İsaakoviç Milşteyn olmuşdur. Atakişiyev yazırdı ki, "Onun qarşısında şərəfli, lakin çətin bir vəzifə dururdu – bu vəzifə professor İqumnovun sinfini sonuncu, buraxılış mərhələsinə çatdırmaqdan ibarət idi". **(17)** Atakişiyev xatırlayırdı ki, Y.İ.Milşteynin sinfindəki məşğələlər zamanı ən yaddaqalan, unudulmaz məqam Şubertin Do major Fantaziyasının üzərində iş olmuşdu. Onun ikinci hissəsi 1949-cu ildə K.N.İqumnovun xatirəsinə həsr olunmuş gecədə çox təsirli ifa edilmişdi.

Moskva konservatoriyasını bitirdikdən sonra R.Atakişiyev aspiranturaya irəli sürüldü. Buraya yalnız ən yaxşı məzunlar təqdim edilirdi. Atakişiyevin aspiranturada fortepiano üzrə rəhbəri K.N.İqumnovun tələbəsi – "R.İ.Atakişiyevə həlledici təsir göstərən" Yakov Vladimiroviç Fliyer idi... [...] O, azərbaycanlı musiqiçinin ifaçılıq təşəkkülünün müvəffəqiyyətlə başa çatma cizgilərini bəxş etdi, bu cizgilər onun öz yaradıcı təbiətinə də xeyli dərəcədə xas idi: aydın interpretasiya, artistik genişlik və sərbəstlik, [...] ifanın parlaq emosional şəklə boyanması buna misaldır". **(18)**

Aspiranturada təhsil müddəti ərzində R.Atakişiyev Nejdanovanın sinfində məşğələlərini davam etdirirdi. Məhz bu dövrdə onun opera müğənnisi kimi səhnəyə ilk çıxışı baş tutur. 1950-ci ilin may ayında Moskva konservatoriyasının opera studiyasında o, ilk dəfə olaraq P.Çaykovskinin "Yevgeni Onegin" operasından Lenski rolunda çıxış edir. **(19)**

Həqiqətən də görkəmli pedaqoqların – M.R.Brenner, K.N.İqumnov, Y.İ.Milşteyn, A.V.Nejdanova, Y.V.Fliyerin təsiri altında R.Atakişiyev böyük musiqiçi – pianoçu və müğənni kimi formalaşır. Əgər Atakişiyev-pianoçunun formalaşması əsasən Brennerin sinfində başlamışdısa, bu zaman Atakişiyev-artist barəsində söhbət artıq İqumnovun sinfində təhsil aldığı illərə, sonralar isə – Nejdanova və Fliyerin sinfindəki dövrə təsadüf etdi. Bakıya qayıtdıqdan sonra, 1953-cü ildə Atakişiyev əmək fəaliyyətinə başlayır və opera teatrında solist kimi çıxış edir, eyni zamanda konservatoriyanın fortepiano kafedrasının müəllimi vəzifəsində çalışır. Atakişiyevin Bakıya qayıtması fortepiano kafedrasının pedaqoji heyətinin yüksək ixtisaslı musiqiçilərlə artması ilə üst-üstə düşür. Bunların arasında – N.Usubova, F.Quliyeva, E.Nəzirovanı misal göstərmək olar. Atakişiyevlə bərabər onlar öz yaradıcılıq fəaliyyətləri ilə Azərbaycanda fortepiano təhsilinin növbəti inkişafını müəyyənləşdirmişlər. Atakişiyevin həyatında qırx ildən çox davam edən yeni bir dövr başlanır. Bu dövr Azərbaycan musiqi mədəniyyəti tarixində əhəmiyyətli səhifəni təşkil edir və özündən sonra parlaq silinməz iz qoyur.

R.Atakişiyevin Bakıda, hələ Brennerin sinfində intensiv şəkildə başlayan piano ifaçılığı çoxcəhətli idi. Buraya həm solo konsertlər, həm də simfonik orkestrlə ifa (dirijorlar Niyazi və

Çingiz Hacıbəyov), həm də, pianoçu Fəridə Quliyeva, skripka ifaçıları Azad Əliyev və Rauf Əhmədov, violonçel ifaçıları İssak Turiç, Vladimir Anşeleviç və Karen Əliyevlə kamera-ansambl çıxışları daxil idi. Niyazinin rəhbərliyi altında Bakıda və Orta Asiya Respublikalarında Azərbaycan simfonik orkestri ilə onun çoxsaylı çıxışları xüsusilə qeyd olunmalıdır. Bu çıxışların biri barədə "Sovetskaya muzıka" jurnalında aşağıdakılar yazılmışdır: "Gənc solist R.Atakişiyev konsertdə həm pianoçu, həm də müğənni kimi çıxış etmişdi. Listin Birinci konsertinin ifası zamanı o, əla pianoçuluq texnikası və yüksək ahəngdarlıq nümayiş etdirdi". **(20)**

R.Atakişiyev böyük və müxtəlif çeşidli repertuara malik idi. Repertuar meyllərinin genişliyinə baxmayaraq, hər bir konsert ifaçısında olduğu kimi, onun proqramlarında da müəyyən "dayaq nöqtələri" var idi: Bethoven (32 variasiyalar), Şubert (Fantaziya Do major), Şuman ("ABEGG" variasiyaları), List ("Kampanella", "Matəm yürüşü", "Danteni oxuduqdan sonra" sonatası), Çaykovski ("Rus Skersosu", "Düşüncə", "Vals"), Qlazunov (Sonata mi minor). Lakin onun repertuarında xüsusi yeri konsert janrlı fortepiano əsərləri tuturdu. Onların arasında Qriqin lya minor, Şopenin mi minor, Listin hər iki konsertlərini, Çaykovskinin Bir saylı si bemol minor və Raxmaninovun İki saylı do minor konsertlərini qeyd etmək olar.

Pianoçunun kamera-ansambl repertuarı da məzmunluluğu və cazibədarlığı ilə seçilirdi. Bu – Hendel, Mosart, Şubert, Prokofyev, Şostakoviç, Miyo (F.Quliyeva ilə fortepiano dueti), Mosartın mi minor, Bethovenin 3 saylı mi-bemol major skripka və fortepiano üçün sonataları, Raxmaninovun re minor "Qəmgin trio"su (skripka ifaçısı A.Əliyev və violonçel ifaçısı K.Əliyevlə birgə) və digər müəlliflərin əsərləri idi.

Atakişiyevin musiqi istedadı vokal və piano ifaçısı kimi onun artist fəaliyyəti qədər vacib olan digər peşədə – fortepiano pedaqogikasısında da özünü büruzə vermişdir. Atakişiyevin Bakıdakı fortepiano-ifaçılıq fəaliyyəti zaman ötüb keçdikcə, vokal ifaçılığı və pedaqogikasından sonra ikinci plana keçdi.

Yaradıcılığın iki sahəsini – fortepiano və vokal sənətini uzlaşdıran R.Atakişiyevin nadir musiqiçi keyfiyyəti onun pedaqoji sisteminə də dərin iz qoymuşdur. Hər üç sənətdə – vokal, piano ifaçılığı və pedaqogikada – Atakişiyev – romantik olmuş, musiqidə, ilk növbədə emosional mənanı ifadə etməyə cəhd göstərmişdir (Burada xatırlamaq yerinə düşər ki, o, Moskvada fortepiano romantizminin görkəmli ustadlarının – K.N.İqumnov və Y.V.Fliyerin yanında təkmilləşmişdir). Tələbkar bədii zövqə malik olan Atakişiyev öz tələbələrində geniş əhatəli, miqyaslı dramaturji təfəkkürə xüsusi diqqət ayırırdı. Onun pedaqoq kimi malik olduğu spesifik əlamətləri və hərtərəfli istedadı tələbələr qarşısında qoyulan konkret vəzifələrdə də öz ifadəsini tapmışdır. Məsələn, o, gənc pianoçudan alətin kantilena imkanlarının orkestr səslənməsi ilə üzvi birləşməsinə nail olmağı tələb edirdi.

Müəllimlik sahəsində onun zəngin bədii təbiətinin yeni-yeni tərəfləri üzə çıxırdı. Atakişiyevin, onun sinfində təhsil alan gənc pianoçulara qarşı marağı oyanır, öz biliyini onlara bacarıqla ötürmək istəyi və son dərəcə həssas pedaqoji ədəb-ərkan hissləri baş qaldırır. Bütün bu bacarıqlar bir tam halına gələrək, onun musiqili-pedaqoji fəaliyyətinin uğurunu təmin etmişdir.

Müəllimlik işi Atakişiyevdən repertuarın daha da genişləndirilməsini tələb edirdi. Onun pedaqoji repertuarının xüsusiyyətləri nədən ibarətdir? Bütün tələbələrin proqramlarından xəbərdar olmadan tam cavab vermək mümkün deyil. Lakin professorun pedaqogikasının başlıca təmayüllərinə – onun mütəşəkkilliyi və prinsipiallığına dair fikir söyləməyə bizim tam hüququmuz vardır. Musiqiçinin öyrədilməsi və tərbiyə olunmasında Rauf İsrafiloviç Baxın əsərlərini əsas götürürdü. O, hesab edirdi ki, Bax əsərlərində musiqi ifaçısının tərbiyə olunması üçün bütün zəruri elementlər toplanmışdır. Baxın polifoniyası "Yaxşı temperasiya olunmuş klavir" silsiləsinin timsalında çoxsaylı prelüd və fuqa ilə səciyyələnir. Sinifdə "Xromatik fantaziya və fuqa", süitalar, partitalar, konsertlər üzərində iş gedirdi. Bax əsərlərinin transkripsiyaları arasında Rauf İsrafiloviç List və Buzoninin işləmələrinə üstünlük verirdi.

Vyana klassiklərinin yaradıcılığından söhbət gedərkən, Atakişiyevə daha çox Bethoven irsi həmahəng idi. Bethoven onun üçün hərtərəfli fortepiano məktəbi demək idi. Rauf İsrafiloviçi Bethoven musiqisinin nəhəng dramatizmi, parlaq ziddiyyətləri, irihəcmliliyi məftun edirdi. Atakişiyev tələbələrinə List pianizminə olan sonsuz məftunluğunu, onun rəng çalarlarının

bolluğunu aşılayırdı. Rus musiqisi əsasən Çaykovski və Raxmaninovun fortepiano yaradıcılığı ilə ifadə olunurdu.

Onun sinfində Şuman və xüsusilə də Şopen yaradıcılığına daha geniş yer ayrılırdı. Şopen musiqisinə olan səmimi məhəbbəti Rauf İsrafiloviç bütün ömrü boyu qoruyub saxlamışdır.

Atakişiyevin fortepiano ifaçılığına dair görüşləri rus məktəbinin təsiri altında formalaşmışdır (K.N.İqumnov vasitəsilə). Bu məktəbin əsasında bəstəkarın bədii niyyətlərinə dərindən nüfuz etmək və onların həyata keçirilməsi, musiqi obrazlarının ifa cəhətdən gerçəkləşdirilməsi üçün zəruri olan məqsədyönlü metodların yorulub-usanmadan axtarışı durur. R.Atakişiyevin bədii – ifaçılıq konsepsiyasında texnika əhəmiyyətli rol oynamırdı. O, məşq zamanı bacarıq və sürətli çalğı vərdişi deyil, bəstəkar fikrinin konkret olaraq dəqiq ifadəsi ilə assosiasiya doğurmağa çalışırdı və təbii ki, bütün bunlar xüsusi musiqi-ifaçılıq məsələləri ilə əlaqələndirilirdi.

Azərbaycanlı musiqiçinin bədii prinsipləri öz başlanğıcını həm də K.S.Stanislavskinin aktyor ustalığının tərbiyə olunma sistemindən götürürdü. Şəxsi dostluq, estetik mövqelərin yaxınlığı Atakişiyevi vokal musiqi yaradıcılığından A.V.Nejdanova xətti ilə Stanislavskiyə də bağlayırdı. Pedaqoji fəaliyyəti 1937-ci ildə K.S.Stanislavskinin opera-dramatik studiyasında başlayan Antonina Vasilyevna onun sistemini mənimsəmişdir. Bu sistemə əsasən, bədii təxəyyül yaradıcı işin təməli kimi götürülür və tələbənin kompleksli şəkildə tərbiyə olunmasını nəzərdə tuturdu, "buraya intellektual inkişaf, gözəllik hissinin tərbiyə olunması, təhlillər və müstəqil məşğələlərə əsaslanan şüurlu, dərk olunmuş yaradıcılıq daxil idi". **(21)**

Bu prinsipləri əldə rəhbər tutaraq, Atakişiyev öz tələbələrində, bir qayda olaraq professional bacarıqların geniş spektrinin inkişafını nəzərdə tutan bədii kateqoriyalarla düşünməyi aşılamağa çalışırdı. Sinifdə öyrənilən əsərlər üçün labüd göstərişlər mövcud deyildi. İfa planı tələbənin individuallığına müvafiq olaraq qurulurdu.

Atakişiyev mətnin sərbəst şərhindən qoruduğu kimi, not mətninin formal, sırf mexaniki ifasının da qabağını alırdı. O, müəllif tərəfindən müəyyənləşdirilən zaman nisbətinin sərhədləri, metrik quruluşlar daxilində musiqinin sərbəst axınını mühafizə edərək, bədii interpretasiyaya nail olurdu.

K.N.İqumnovun prinsiplərini davam etdirərək, "həyatının son illərində [...] pedaqoji işin bütün təfsilatı ilə göstərilməsinin həddən artıq ziyanı barəsində tez-tez söhbət açan (özünü qınamaqdan ehtiyat edərək)", **(22)** Atakişiyev öz diqqətini ikinci dərəcəli xırdalıqlara sərf etmirdi, daha çox müəyyən məşğələnin başlıca məqsədinin konkret olaraq müəyyənləşdirilməsi üzərində dayanırdı. Tələbələr qarşısında müəllif fikrinin şairanə obrazlılığı, formanın həm bütövlükdə, həm də bütün təfsilatı ilə dramaturji mənası açılırdı. Xüsusidən ümumi meydana çıxırdı. Tələbələr ayrı-ayrı əsərlərin timsalında üslub xüsusiyyətləri ilə tanış olurdular.

Bu və ya digər əsərdə bədii fikrin tam şəkildə ifadəsi üçün Atakişiyev tələbələrdə obrazlı təsəvvürlərin inkişafına böyük yer verirdi. Onun zəngin intuisiyası nəticəsində rəngarəng müqayisələr, qarşılaşdırmalar, bənzətmələr gənc pianoçuların təxəyyülünü oyadaraq, onların ifasını gerçək məna və maksimal ifadəliliklə zənginləşdirirdi. "Obrazlılığı aydın surətdə ifadə edib, ədəbi-poetik xüsusiyyətlərdən ümumiyyətlə sərbəst bir şəkildə istifadə edərək, R.İ.Atakişiyev onun təcəssümünə mümkün qədər qabarıq və səliscəsinə, özü də təkidlə nail olur. [...] Bununla əlaqədar olaraq, Şubertin "Sərgərdan" fantaziyası (xüsusilə ikinci hissə), Şopenin İkinci sonatasının dördüncü hissəsi, Metnerin "Sonata-xatirə"si üzərində gedən iş yada düşür". **(23)** Atakişiyevin ifaçılıq interpretasiyasında olan qeyri-adi emosionallıq, romantik gümrahlıq təbii sadəliyi və harmonik tarazlılığı ilə tamamlanırdı.

Musiqi əsəri üzərində iş zamanı əhəmiyyətli tərəflərdən biri də səsin kamilliyinin əldə olunmasına olan tələbkarlıq idi. Atakişiyevin öz ifası təravətli, ahəngdar səslənmə, melodik cəhətdən həssas nüanslar, bir növ, royalda ifadəsini tapmış çox gözəl belkanto ilə fərqlənirdi. Ona xas olan piano dillərini "dərindən" hiss etmək duyğusu heç zaman son dərəcə güclü təzyiqə, xüsusən də, səsin "basılıb əzilməsinə" gətirib çıxarmırdı.

"Alətə dolğun səslə toxunmaq - Atakişiyevin pedaqoji sisteminin ən vacib, ən əhəmiyyətli cizgilərindən biridir. Özü də səsin keyfiyyəti bu və ya digər hallarda cürbəcür ola bilir, konkret

vəzifədən asılı olaraq, o, iti, kəskin, ahəngdar, lətif, donuq, tutqun, “bəyaz” [...] ola bilməli və müxəlif vasitələrlə: staccato, secco, portamento, *legato* üsulu ilə götürülməlidir. Lakin istənilən halda səsin maksimal dərinliyi nəzərdə tutulur və pianoçuların adlandırdığı “səsləndirilməmiş hallara” yol verilmir”. **(24)**

Rauf İstafiloviç pedaqoji işə səmimi qəlbdən sadiq idi. O, gəncləri sevirdi, gənclər də ona sevgi ilə cavab verirdilər. Onun məlahətli olması və daha çox, işə can yandırmağı və istedadı tələbələri özünə cəlb edirdi. Onlar növbəti dərsdən bol-bol təəssüratlarla ayrılırdılar. Azərbaycan Dövlət Konservatoriyasında uzun illər fəaliyyəti ərzində Atakişiyevin musiqili-pedaqoji istedadı tam gücü ilə meydana çıxdı. Məhz bu tədris ocağı daxilində o, neçə-neçə yüksək peşəkar musiqiçi nəsli yetişdirmişdir, onların arasında xalq artistləri – pianoçu və bəstəkar Rafiq Babayev, pianoçu və dirijor Yalçın Adıgözəlov, pianoçu, professor Ülviyyə Hacıbəyova, əməkdar artistlər, Beynəlxalq müsabiqə laureatları – Vasif Həsənov və Samirə Aşumova, Zaqafqaziya və Beynəlxalq müsabiqələr laureatları Boris Qusliser, Rauf Qasımov, Lalə Mustafazadə vardır.

Görkəmli musiqiçi, Azərbaycan pianoçuluq məktəbinin yaradıcılarından biri olan R.Atakişiyev Azərbaycan musiqi pedaqogikasına əhəmiyyətli töhfə bəxş etmişdir.

Azərbaycan Dövlət Konservatoriyasındakı fəaliyyəti ilə yanaşı, R.Atakişiyevin yaradıcılığı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə də ayrılmaz surətdə bağlı idi. Onun səhnəsində lirik tenorun aparıcı partiyalarını ifa edərək o, 20-dən çox tamaşada çıxış etmişdir. O, qırx ilə yaxın bədii obrazlar qalereyası yaradaraq, Azərbaycan opera səhnəsini bəzəyir. Parlaq individual artist olan Atakişiyev ifadəli, təsir gücünə malik, dolğun obertonlara, bütün registrlərdə eyni dərəcədə müntəzəm səsə sahib idi. Bu, qibtə oyadan uzun ömürlü müğənni müxtəlif vokal məktəblərin ifaçılıq prinsiplərini mənimsəmişdi. Rus oxuma sənəti və italyan “bel canto”sunun üslub və xarakteri ona xüsusən yaxın idi. R.Atakişiyevin intonasiya ilə ifa etməsindəki psixoloji məzmunluluq, nəfəs genişliyi və melodik frazirovka məhz buradan irəli gəlirdi. Atakişiyevin yaradıcılıq dəst-xəttinin səciyyəvi cəhəti – mətndəki məna artikulyasiyası və sözlərə fikrin yönəldilməsi idi. Vokal sənətin əsas problemlərindən biri olan aydın tələffüz italyan və rus opera sənətinin fərqləndirici xüsusiyyətidir. Atakişiyevdə konkret olaraq bu, ilk növbədə görkəmli müğənnilərin, o cümlədən onun müəllimi A.Nejdanovanın ifaçılıq ənənələri ilə bağlı olmuşdur.

Atakişiyev səhnədə başqa şəklə düşmə bacarığına malik idi. Atakişiyev-artistin ifası bir sıra xüsusiyyətləri – səhnə davranışlarının təbiiliyi, dəqiq təsvir edilmiş obrazlar, musiqiyə və onun emosional təbiətinə dayaqlanmağı ilə fərqlənirdi. Artist musiqini necə bir incəliklə hiss etməsini, yanılmaz zövqünü ansamblda iştirakı ilə də nümayiş etdirirdi və səsinin resursları ilə tərəf müqabillərinin imkanları arasında uyğunluq yarada bilirdi.

Artistin çıxışlarından alınan çoxillik şəxsi təəssüratlardan, dinlənilmiş səsyazılarından, dərc olunmuş resenziyalardan irəli gələrək, bu sətirlərin müəllifi belə qənaətdədir ki, onun vokal sənətinin cazibə qüvvəsi, Nejdanova məktəbinin istiqamətlərini öz fitri istedadı zəminində mənimsəməsində və bunun əsasında tədricən əldə edilən ustalığı ilə üzvi vəhdətindədir.

Atakişiyev – yüksək vokal mədəniyyətə malik müğənnidir. Onun sənətindəki ifa lirizmi, bədii ədəb, qüsursuz zövq və musiqi duyumu həm kantilena, həm də reçitativdə fərqlənirdi.

Atakişiyevin opera səhnəsində yaratdığı parlaq musiqili-səhnə obrazlarının qalereyası əhəmiyyətlidir. Kifayət dərəcədə malik olduğu dramatik istedadı ilə o, öz repertuarını plana uyğun bir surətdə genişləndirirdi.

Atakişiyev öz səhnə karyerasında Çaykovskinin “Yevgeni Onegin” operasından Lenski obrazına olan sevgisini uzun illər boyu qəlbində yaşatmışdır. Tenor repertuarının ən ali nümunələrindən biri olan bu partiya üzərində iş zamanı, Atakişiyev hələ A.V.Nejdanovanın tələbəsi ikən, rus opera səhnəsində Lenski obrazının şərhi ilə yaddaşlarda iz qoyan L.V.Sobinovun ənənələrini davam etdirməyə can atmışdır. Obrazın musiqili ifadəsini yaradaraq Atakişiyev, Çaykovski lirikasının ən incə çalarlarının, onun səmimiliyinin və “işıqlı” kədərinin dərinliklərinə varır. Çaykovski musiqisi bu lirik-dramatik tenor sahibinin səsində olduqca gözəl səslənirdi, melodiyadakı ən xırda incəliklər və dramatik mənalılıq Atakişiyevin səsində asanlıqla

ifadəsini tapırdı. Atakişiyevin oxuma tərzində ifanın səhnə və vokal tərəfləri harmonik ahəngdarlıq yaradırdı. Bunların hamısı Lenskinin "Evinizdə" ariozosundakı sonsuz iztirab və qəm-qüssədə, eləcə də onun lirik-coşqun "Mən sizi sevirəm Olqa" ariozosundakı ilk məhəbbətin bəxş etdiyi sadə məftunluğunda görmək olar. Lenskinin vokal partiyasının kulminasiyası və şairin həyatının yekunu "Mənim baharımın ən xoşbəxt günləri, siz hara qeyb oldunuz" ölümqabağı ariyası Atakişiyevin vokal-dramatik ustalığının və onun Çaykovski musiqisini nə dərəcədə dərk etməsinin yüksək nümunəsidir.

Çaykovskinin musiqi dünyasına, onun stilistikasına dərindən nüfuz etmək qabiliyyətini Atakişiyev "İolanta" operasından (daniyalı yazıçı Henrik Hertsin "Kral Renenin qızı" dramının süjeti əsasında yazılmışdır) Vodemonun partiyasında bir daha nümayiş etdirir. Bu partiyanın məlum çətinliklərinə baxmayaraq, yüksək tessituranın öhdəsindən Atakişiyev böyük məharətlə gələrək, xeyirxah cəngavərin vokal-səhnə obrazını yaratmağa nail olur. Müğənni bu lirik qəhrəmanın çoxplanlı musiqili portretini ifadəli bir şəkildə – məftunedici şövqlə ("Coşqun gözəlliyin ovsunlayıcı oxşaması" romansı), coşqun təlatümlə (ariozo etüdləri), şad könüllə ("Xəlq olunmuşun lətif ilki" ariozosu) təsvir edir. Y.Podkolodnı operanın yeni tamaşasına yazdığı rəyində qeyd edir: "Vodemon partiyasının ifaçısı, artist R.Atakişiyev heç şübhəsiz, obrazın musiqi surətini yaratmağa müvəffəq olmuşdur. Müğənni Çaykovskinin musiqi frazalarının emosional və məzmun cəhətdən məna çalarlarını düzgün duyur. Müğənninin səsi həlim və ifadəli səslənir. Dünya opera tarixində ən çətin səhnələrdən biri olan İolanta ilə dueti Atakişiyev romantik coşqunluqla yaratmışdır". **(25)**

Puşkin mövzusu ("Yevgeni Onegin" operasından sonra) Atakişiyevin opera səhnəsində yaratdığı daha iki obrazda öz əksini tapmışdır. Puşkinin eyniadlı kiçik faciələrinin süjetinə yazılmış Musorqskinin "Boris Qodunov" və Rimski-Korsakovun "Mosart və Salyeri" operaları obrazların dərin psixoloji işlənməsi ilə fərqlənir. "Boris Qodunov"da Yurodivı partiyasına kiçik səhnə materialı həvalə olunmuşdur (cəmi iki səhnə). Rolun məhdudluğuna baxmayaraq Atakişiyev, iztirab çəkən xalqın acısını öz çiynində daşıyan Yurodivının güclü, dərin faciəvi obrazını yaratdı. Atakişiyev özünün yaratdığı Yurodivı obrazını vahid dramaturji tam halında yaşadır və onu operanın mərkəzi konflikti ilə birləşdirir. Müğənni bundan ötrü öz səsi üçün xüsusi tembr çaları axtarıb tapır. Bu tembrdə ruhsuzluq, cansızlıq və soyuqluq hiss olunur. Yurodivının bu kiçik rolunu yüksəklərə ucaldan Atakişiyev bir daha sübut edir ki, ustalığı nümayiş etdirmək üçün elə xırda rol da kifayətdir.

Rimski-Korsakovun "Mosart və Salyeri" operasından Mosart partiyasında da R.Atakişiyev çox gözəl çıxış etmişdir. Bu opera öz lakonikliyi ilə qeyri-adidir. Burada cəmi iki qəhrəman çıxış edir. Tamaşa zamanı alışdığımız dramatik hadisələrin inkişafı öz əksini tapmayıb. Bütün diqqət xeyirxah dahinin və onun paxıllığını çəkən şər adamın qarşılaşdırılmasında cəmləşib. Mosart partiyasını kameralılıq baxımdan dəqiq işləyən Atakişiyev, onun işıqlı, nur saçan simasını melodik ahəngdarlıqla və dramatik cəhətdən dərk olunmuş bir şəkildə yaratmış, insan daxilindəki nikbin, əxlaqi-etik başlanğıcı belə tərənnüm etmişdir: "Dahilik və bədxahlıq - bir araya sığmazdır". Atakişiyev bu musiqi tamaşasında operanın musiqi ideyasının ifadəsində müəyyən rolu olan fortepiano solosunu mükəmməl ifa edərək, pianoçu kimi də çıxış etmişdi.

"Traviata" operasından Alfredin partiyası (A.Düma-atanın "Kameliyalı qadın" pyesinin süjeti əsasında) bizi Verdi lirikasına, italyan "bel canto"suna kökləyir. Bu, qeyri-adi çətin rol yüksək dərəcədə dolğun və məzmunludur. Məlumdur ki, Alfred partiyası – tenor repertuarında ən çətin rollardan biridir. Atakişiyev yaratdığı bu obrazı inkişafda göstərir: öz zərif ifası və nəcib deklamasiyası ilə o, ilk iki pərdədə incə çalarlar ifadə edir, sonrakı pərdələrdə isə tələb olunan dramatik vəziyyətlərdən irəli gələrək, güclü intonasiyalar yarada bilmişdir. Vokal və dramatik ifadəlilik arasında tam sintezə nail olan artist, parlaq, inandırıcı və bədii cəhətdən bitkin obraz əmələ gətirmişdir.

"Sevilya bərbəri" opera-buffasından (P.Bomarşenin eyniadlı komediyasının süjeti əsasında) qraf Almavivanın obrazı üçün sırf italyan üslubunun ifadəsi Atakişiyevin yüksək nailiyyətidir. İtalyan vokal virtuozluğunun ən gözəl nümunələrindən biri olan Qrafın partiyası böyük ifaçılıq qabiliyyəti tələb edir. Atakişiyev bu rolu həm ariozo nömrələrində, həm də

reçitativlərdə öz səsinin çevikliyi və gözəlliyi ilə bəzəyir. Hadisələrin gözlənilməz dəyişikliklərinə doğru dəqiq addımlayan müğənni, yaratdığı qəhrəmanın dəyişkən hisslərini gerçək bir şəkildə ifadə edərək, bu obrazı təravətli, hərtərəfli xarakteristika ilə zənginləşdirir. Atakişiyev böyük aktyorluq məharəti ilə öz qəhrəmanını gah musiqi müəllimi, gah da sərxoş əsgər qiyafəsində yeni şəklə salır. Artist operanın həm lirik, həm də komik epizodlarında ayrılmaz surətdə çıxış edir (Almaviva ilə Bartolonun dueti, qrafın sərxoş əsgər qiyafəsində çıxışı). “Mosart və Salyeri” kimi, Atakişiyev bu tamaşada da öz professional pianoçu keyfiyyətlərini nümayiş etdirərək, qədim musiqi alətində – çelestada çalır.

Atakişiyev Q.Donisettinin “Eşq içkisi” operasından (E.Skribin komediyası əsasında) Nemorino rolunda da uğurla çıxış etmişdir. Müğənni bu italyan bəstəkarının teatr temperamentini, melodramatizmlə vaxtaşırı növbələşən dramatizmini, parlaq və xəfif melodikasını, effektli vokal virtuoz musiqisini dəqiq hiss edirdi. “Sübh kimi o, gözəldir” (“Как заря, она прекрасна”) ariyası və Dulkamarla duet səhnəsi sadəliyi və saflığı ilə fərqlənir. Nemorino isə özünün məşhur “Sevimli Adinanın zərif baxışları” (“Милой Адины нежный взор”) ariyası ilə göz önündə tamamilə başqa cür durur. Bu romansın ifası qəhrəmanın ehtiraslı həyəcanı ilə nəfəs alır. R.Atakişiyev Nemorino obrazının çoxplanlılığını, onun əhval-ruhiyyəsindəki dəyişkənliyi aydın ifadə etmişdir”. **(26)**

Ş.Qunonun “Faust” operasından Faust rolunu Atakişiyevin əhəmiyyətli uğuru hesab etmək olar. Faustun həyata ikinci “dönüşü”ndən sonra onun çılğın aşiqə çevrilən obrazına Atakişiyev sadədil, ürəyiaçıq rəng qatmışdır. Dramatik münaqişə bunun hesabına əhəmiyyətli dərəcədə gərginləşərək, bu rolun relyefliliyinə və ifadəliliyinə gətirib çıxarmışdır. Öz qəhrəmanının bütün zəngin psixoloji əhval-ruhiyyə spektri – fəlsəfi tərkidünyalıqdan başlayıb, həyat nəşəsində bitənə qədər – müğənni tərəfindən tembr çalarlarının fərq incəliyi vasitəsilə göstərilmişdir.

Müğənninin ruh yüksəkliyi ilə dolu lirizmi, sözsüz ki, J.Offenbaxın “Qofmanın nağılları” (“Сказки Гофмана”) adlı lirik-fantastik operasından (E.T.A.Hofmanın novellası əsasında J.Barbye və M.Karrenin pyesi) Hofmanın partiyasında özünü daha çox büruzə vermişdir. Operanın dramaturgiyasının əsasını təşkil edən hər bir novellada Atakişiyev həm vokal, həm də aktyorluq baxımından öz fantaziyalar aləmində yaşayan xəyalpərəst şairin məhəbbətini, puç olan ümidlərini və faciəsini ustalıqla yaradır. Dinamik çalarlara sərbəst malik olması bu saf, sadəlövh, adi gündəlik qayğılardan son dərəcə uzaq olan, qəribəliklərə qədər yumşaq xasiyyətli romantik şairin obrazını vokal cəhətdən təsvir edir. Müğənni öz səhnə hərəkətləri ilə bu boyalara tamlıq gətirir.

R.Atakişiyevin buffa operalarında yaratdığı daha bir “içki düşkünü” obrazı (Almavivadan sonra) S.Prokofyevin “Monastırda nişanlanma” (“Обручение в монастыре”) operasından (ingilis komedioqrafı R.Şeridanın “Duenya” pyesi əsasında) sevilya zadəganıdır. Bu obrazın təsvirində onun vokal və aktyorluq məharəti tam və üzvi vəhdət təşkil edir. Dinləyicilərə lirik partiyaların ifası ilə tanış olan Atakişiyev burada gözlənilmədən iti xarakterli, komediya artisti istedadını da nümayiş etdirir. Müğənni bu roldakı bütün əhval-ruhiyyə spektrini iti musiqili satira ilə ifadə etmişdir. O, mübaliğədən uzaq bir şəkildə deyingən və əsəbi qocanın – acgöz, tamahkar don Jerom obrazını gerçək bir şəkildə yaradır. L.Məlikovanın təbirincə desək: “Artist öz vokal partiyasını məharətlə ifa edərək, tamaşaçını ifadəli intonasiyası, hər sözün ayrı-ayrılıqda relyefli göstərilməsi ilə inandıra bilir. Bu rolun bütün incəliklərini dərindən duyması xüsusilə finalda özünü göstərir. Atakişiyev burada coşqun və işvəli bir şəkildə həm oxuyur, həm də xoru və solistləri öz arxasınca apararaq, metallofonda özünə müşayiət edir”. **(27)**

Atakişiyevin son premyerası – J.Bizenin “Karmen” operasından (fransız yazıçısı Prosper Merimenin eyniadlı novellası əsasında) Xoze rolu tamaşaçıların hafizəsində qalmışdır. Xoze partiyasının ifası 23 may 1982-ci ildə, teatr binasını bürüyən yanğına görə uzun müddətli məcburi bağlanış ərəfəsində baş tutmuşdur. Müğənninin vokal-səhnə keyfiyyətləri həmin dövrdə tam ifadəsini taparaq, özünün yaradıcılıq zirvəsini yaşayırdı. Artist öz partiyasını səmimiyyətlə dolu ifadəli çatdırmaqla yanaşı, həm kamil vokal texnikasını nümayiş etdirir, həm də özünün səhnə temperamentini həqiqi mənada göstərir.

Atakişiyevin opera repertuarının əsl bəzəyi isə Üzeyir Hacıbəylinin “Arşın mal alan”

musiqili komediyasından Əsgərin partiyası olmuşdur. 1945-ci ildə böyük ekranda işıq üzü görən bu dünya şöhrətli kino-operettada Əsgər rolunun əvəzsiz ifaçısı Rəşid Behbudovdan sonra bu rolda çıxış etmək böyük məsuliyyət tələb edirdi və ilk baxışda gənc müğənni üçün xatalı idi. Dinləyicilər tərəfindən tanınan Lenski, Alfred, Almaviva, Vodemon kimi lirik partiyaların istedadlı interpretatoru, müğənni yaradıcılıq təcrübəsi üçün qeyri-adi olan daha bir sahəni də – rövnəqli məişət janrını mənimsəməli olur. Əsgər partiyasının müəyyən mənada yeni bir səpkidə şərhini verərək, Atakişiyev burada yeni cizgilər aşkar edir və onları böyük vokal mədəniyyəti ilə birləşdirir. Məşhur musiqişünas İ.Abezqauzun yazdığı kimi: "Əsərin ən əvvəlində o, Əsgər obrazında başlıca olaraq lirik cizgiləri vurğulayırdı. Amma tədricən bu rolun səhnə və vokal duyumu üçün Atakişiyev daha doğru məqamlar tapa bildi, öz qəhrəmanını səmimi qəlbdən həyəcan keçirməyə vadar etdi və zirək zarafatları ilə durmadan güldürməyə müvəffəq oldu". **(28)** R.Atakişiyev "Arşın mal alan"ın ikinci filminin və "O olmasın, bu olsun" kinooperettasının iştirakçısı olaraq, Ü.Hacıbəylinin ölməz musiqili komediyalarındakı baş qəhrəmanların rolunu yüksək bədii səviyyədə səsləndirir.

Atakişiyevin Azərbaycan opera repertuarındakı başqa rolları sırasında Balaş (F.Əmirov – "Sevil") və Bahadır (S.Ələsgərov – "Bahadır və Sona") partiyalarını qeyd edə bilərik. **(29)**

Atakişiyev özünün çoxillik artistlik fəaliyyəti ərzində konsert çıxışlarına da kifayət qədər yer vermişdir. Özü də burada o, özünü repertuar baxımdan tam sərbəst hiss edirdi: romansdan tutmuş, estrada və xalq mahnılarına qədər geniş diapazonlu repertuara malik idi. Atakişiyev-müğənni konsert estradasında simfonik orkestrlə (dirijorlar Niyazi və R.Abdullayev), Sibirin skripkaçılar ansamblı (bədii rəhbər M.Parxomovski), xor kapellası (bədii rəhbər E.Novruzov) ilə çıxış edirdi. Atakişiyev ən müxtəlif pianoçu-akkompaniatorlarla əlaqə yaradırdı. Uzun illər onun daimi partnyoru - həyat yoldaşı, istedadlı pianoçu Zülfiyyə Atakişiyeva olmuşdur. Artistə Tofiq Quliyev (bəstəkar və pianoçu), Çingiz Sadıxov, Roza Şifrin, orqan ifaçısı Zara Cəfərova kimi musiqiçilərlə çıxış etmək nəsib olmuşdur. Parlaq pianoçu Fərhad Bədəlbəyli ilə Atakişiyev-müğənninin birgə ansamblı əsl sənətkarlıq həmrəyliyi kimi adlandırıla bilərdi. İki görkəmli sənətkarın konsertləri Bakı, Moskva, Leninqrad, Kiyev, Lissabonda həmişə uğurla qarşılanırdı. Musiqiçilərin birliyi 1982-1988-ci illər ərzində davam edərək, yaradıcı hüquq bərabərliyi, qarşılıqlı interpretasiya təşəbbüslüyü, bu iki ifaçının uğurla tapdığı üsulların inkişaf prinsipinə əsaslanırdı. Onların çıxışları hər zaman yüksək səviyyədə olub, müğənni və pianoçu arasındakı "müştərək yaradıcılığın" emosional cəhətdən təsirli ifadəsi idi.

Atakişiyevin romans repertuarının mərkəzində Çaykovski və Raxmaninov dururdu. Bu bəstəkarların yaradıcılığına olan məhəbbət və pərəstişi ona hələ tələbə ikən İqumnov və Nejdanova sevdirmişdi.

Çaykovskinin romanslarında müğənni xüsusi daxili emosional əhval əldə edirdi. Bu isə ifa olunan musiqinin axarını xoşbəxtliyə yetməkdən ötrü şəxsi iztirablara doğru çəkib aparırdı. Onun traktovkasındakı odlu, iztirablı, emosional təzadlar, parlaq səs ziddiyyətləri bol idi! Yarım tonlar üzərində qurulmuş akvarel boyalı, nəvaziş dolu psixoloji lövhə (romans-vals "Səs-küylü balda") ("Средь шумного бала"), sevinc dolu qərb çırpıntısı ("Gün mü hökmranlıq edir") ("День ли царит") və işıqlı, nikbin hisslər ("Erkən baharda olmuşdur") ("То было раннею весной") buna misaldır. Müğənni faciəvi tənhalıq obrazını ("Sarı tarlalara", "Əvvəlki tək, tənha") ("На нивы желтые", "Снова, как прежде один"), keçmişin dərd-qəmini ("Bir kəlmə belə, ey dost", "Biz səninlə oturmuşduq") ("Ни слова, о друг мой", "Мы сидели с тобой"), həyəcanlı intizarını ("Vahiməli dəqiqə") ("Страшная минута") emosional cəhətdən inandırıcı ifadə edirdi.

Müğənni Raxmaninov musiqisinin dəyişkən əhval-ruhiyyəsini ustalıqla ifadə edirdi. Özü də hər bir əsər onun ifasında monodrama çevrilirdi. İfadəli səhnə jestləri, zərif səs palitrası, parlaq vokal texnika – bütün bunlar Raxmaninovun "Hər şey ötür" ("Проходит все"), "Mənə necə ağırdır" ("Как мне больно"), "Mən yenə də tək-tənhayam" ("Я опять одинок") kimi faciəvi romanslarının təkrarolunmaz özünəməxsusluğunu son dərəcə dolğun ifadə edirdi.

Onun ifasında digər rus bəstəkarlarının romansları da çox gözəl səslənirdi. Onlardan bəzilərini yada salaq – Qlinkanın "Gözəl anı xatırlayıram" ("Я помню чудное мгновенье"),

"Mənə səninlə olmaq necə xoşdur" ("Как сладко с тобою мне быть"), Rimski-Korsakovun "Rüzgar deyil göydən əsən" ("Не ветер, вея с высоты"), Qreçaninovun "İti sekira ilə" ("Острою секирой"), "Səninlə olmaq istədim" ("С тобою мне побыть хотелось"), Bulaxovun "Görüş" ("Свидание"), "Oyandırma" ("Не пробуждай") və s. romanslar buna misaldır.

Atakişiyevin ifasında Azərbaycan kamera-vokal lirikası Ü.Hacıbəylinin romans-qəzəlləri, Q.Qarayev və A.Məlikovun romansları ilə təmsil edilmişdir. A.S.Puşkinin "Gürcüstan təpələrində" ("На холмах Грузии") və "Mən sizi sevirdim" ("Я вас любил") lirik şeirlərinə Q.Qarayevin iki romansındakı çarəsiz, cavabsız məhəbbət, lirik dalğınlıq və dramatizm, dərin fikirlilik kimi obrazlar aləminə Atakişiyev ustalıqla nüfuz etmişdir. Atakişiyev A.Məlikovun Nazim Hikmətin şeirlərinə yazdığı vokal silsilənin ilk ifaçısı olmuşdur. "Sən", "Laylay", "Təəssüratlar", "Mən yarımı yuxuda gördüm" romanslarında o, "bu musiqidəki həyəcanlı, iztirablı əhval-ruhiyyəni", **(30)** zərif psixologizm və romantik həyəcanı ifadə etməyi bacararaq, danışıq və musiqi intonasiyalarının üzvi vəhdətinə nail olmuşdur. Atakişiyevin konsert repertuarında T.Quliyevin ("Azərbaycan", "Sənə də qalmaz"), F.Əmirovun ("Azərbaycan elləri"), R.Hacıyevin ("Bakı haqqında mahnı") və başqa bəstəkarların məşhur mahnıları, eləcə də Azərbaycan xalq mahnıları özünə möhkəm yer almışdır.

Atakişiyevin konsert ifaçılığında opera ariyalarını da diqqətdən kənarda qoymaq olmaz. Bunların içərisində Ü.Hacıbəylinin "Koroğlu" operasının II pərdəsindən Koroğlunun ariyası xüsusi yer tuturdu. Estrada səhnəsində bu ariya onun interpretasiyasında tamaşa kontekstindən götürülmüş epizod kimi deyil, əsərin obrazlı və emosional məzmununun bir araya cəmləşməsi kimi qarşıda dururdu. Atakişiyevin konsert estradasında yaratdığı irihəcmli işlər sırasında xor və orkestr üçün yazılmış əsərlərdə tenorun solo partiyasının ifası yaddaqalan olmuşdur. Bunlardan Mosartın "Rekviyem" və Baxın "Maqnifikat" əsərlərini göstərə bilərik.

3 fevral 1994-cü ildə bu nadir istedad sahibi ürək tutmasından qəfil dünyasını dəyişir. Biz yalnız bu böyük sənətkarı itirdiyimiz zaman dünənə qədər nəyə sahib olduğumuzu dərk etdik. Son dərəcə məşhur, bu həssas və coşqun artist həm fortepianoya yaxşı bələd idi, həm də vokal musiqi sənətinin ustası idi, ümumiyyətlə bütün sahələrdə geniş məlumatlı erudit idi. Bütün ömrü ərzində o, bir pianoçu, müğənni və pedaqoq kimi yeni musiqiçilər nəsli üçün ibrətamiz nümunə olmuşdur. Öz gözəl siması ilə o, yeni nəsli hər zaman ruhlandıracaq.

## QEYDLƏR

1. 1928-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını G.G.Şaroyevin fortepiano sinfi üzrə bitirmişdir.
2. *Y.Perevertaylo.* Lidiya Nikolayevna Yeqorova və Regina İvanovna Siroviç – Məcmuə: Видные деятели фортепианной культуры Азербайджана (tərtibçi T.Seyidov), Bakı, 1988, s.69.
3. Onun tələbələri arasında – N.Usubova, F.Quliyeva, E.Səfərova, U.Xəlilov, S.Adıgözəlzadə, F.Bədəlbəyli, O.Abasquliyev, E.Əliyeva, T.Qasımova, M.Süleymanova, Ə.Ələsgərov, T.Seyidov, dosentlər D.Muradova, A.Zülfüqarova, A.Vəkilova və d. vardır.
4. S.Rixter və V.Merjanov pianoçular arasında müsabiqənin laureatları olmuşlar.
5. Azərbaycan arxivi. Bakı: Azərbaycan SSR Nazirlər Kabineti Yanında Baş arxiv idarəsi, 1985, №2-3 (25-26), s.182.
6. R.Atakişiyev bu barədə valideynlərinə məktubda bildirir: "...Mən Moskva konservatoriyasının III kursuna qəbul olundum və doğrusu bu, məni çox sevindirir, çünki burada pianoçulardan demək olar ki, heç kimi qəbul etmirlər. Təsəvvürünüzə gətirin ki, bizim konservatoriyanın IV kurs tələbəsi Yura Getmandov, qəbul imtahanında çox yaxşı çalsa da, Moskva konservatoriyasına qəbul olunmadı: onu Moskva texnikumuna yolladılar. Amma o, bununla qane olmadı. Çox güman ki, o, Bakıya, Brennerin sinfinə qayıdacaq".
7. *L.Qriqoryev, Y.Platek.* Современные пианисты. М., 1985, s.161.
8. *Y.İ.Milşteyn.* Вопросы теории и истории исполнительства. М., 1983, s.93-94.
9. *L.Dmitriyev.* А.В.Нежданова – педагог. – Məcmuə: Антонина Васильевна Нежданова. Материалы и исследования. М., 1967, s.369.
10. *L.Dmitriyev B.* Цит. ст., s.7.

11. R.Atakişiyevin 13 noyabr 1948-ci ildə anasına yazdığı məktubundan: "Nəfəslə bağlı irəliləyişlər hiss edirəm, səs bütün registrlərdə rəvanlaşır".
12. O.Boşnyakovun 28 iyun 1948-ci ildə R.Atakişiyevin anasına məktubundan.
13. *V.Podolskaya.* А.В.Нежданова и ее ученики. Заметки концертмейстера. М., 1964, s.13-14.
14. *Y.İ.Milşteyn.* Вопросы теории и истории исполнительства. М., 1983, s.95.
15. *V.Podolskaya.* Цит. ст., с.16.
16. R.Atakişiyevin 3 aprel 1948-ci ildə anasına yazdığı məktubundan.
17. *R.Atakişiyev.* Памяти дорогого учителя. – Kitab: Я.И.Мильштейн. Статьи, воспоминания, материалы (tərtibçi Y.Kalinkovitskaya, S. Milşteyn). М., 1990, s.34. (Hazırkı məcmuədə R.Atakişiyevin bu məqaləsi yenidən çap edilmişdir).
18. *M.Baqdasarov.* Рауф Исрафилович Атакишиев. – Məc.: Видные деятели фортепианной культуры Азербайджана (tərtibçi T. Seidov), s.101.
19. A.V.Nejdanovanın vəfatından sonra, 26 iyun 1950-ci ildə, R.Atakişiyev vokal üzrə A.V.Nejdanovanın tələbəsi V.V.Barsovadan konsultasiya almışdır.
20. *M.Svetayev, Y.Qolbrayx.* Концерты в городах. Сталинабад. «Советская музыка», 1958, №9, s.119.
21. *V.Podolskaya* Цит.ст., s.5.
22. *Y.İ.Milşteyn.* К.Н.Игумнов и вопросы фортепианной педагогики. – Məc.: Вопросы фортепианного исполнительства (tərtibçi M.Sokolov), вып.1.М., 1965, s.146.
23. *M.Baqdasarov.* Цит.ст., s.97.
24. *M.Baqdasarov.* Цит.ст., s.97.
25. *Y.Podkolodnı.* «Иоланта». «Бакинский рабочий» qəzeti, 1954, 3 noyabr
26. *L.Krivoşeyev.* Многогранность таланта. «Вечерний Баку» qəzeti, 1967, 21 avqust.
27. *L.Məlikova.* Впервые на бакинской сцене. «Советская музыка», 1970, №3, s.43.
28. *İ.Abezqauz.* Рафик Атакишиев. «Советская музыка», 1956, №6, s.116.
29. Atakişiyevin opera səhnəsində ifa etdiyi kiçik rollardan - Sinodal ("Demon" Rubinşteyn), Kassio ("Otello" Verdi), Edmund ("Manon Lesko" Puççini), Anatoli ("İnsanın taleyi" Dzerjinski), yefreytor Bidenko ("Alayın oğlu" Zeydman) və s. yaddaqalan olmuşdur.
30. *N.Ələkbərova.* Ариф Меликов (страницы жизни и творчества). Bakı, 1988, s.73.

**Lalə ATAKİŞİYEVA**

## İNTERYERDƏ AİLƏ PORTRETİ

***"Onların yoxluğunu qüssəylə demə,***
***lakin bir vaxtlar olduqlarını minnətdarlıqla söylə".***
***V.A.Jukovski.***

Mənə atam haqqında yazmağı təklif edəndə düşündüm ki, nə yaxşı, oturub birnəfəsə yazaçağam. Lakin əlimə qələm alıb atamla bağlı xatirələrimi yazmağa başlayanda...anladım ki, bu, o qədər də asan iş deyilmiş. Atamın o təbəssümünü, baxışlarındakı evlad sevgisini, qəlbindəki səxavəti sözlə necə ifadə etmək olar...

Xalq artisti, pedaqoq, vokalçı, pianoçu Rauf İsrafil oğlu Atakişiyev haqqında onun dostları, həmkarları və gözəl musqiçi olan tələbələrinin danışması daha təsirli alınar.

Mənim qarşımda isə başqa bir vəzifə dururdu: sevən və sevilən, doğma atam haqqında qəlbimdə gəzdirdiklərimi sözlə ifadə etməliydim.

Mənə elə gəlir ki, atam haqqında özü danışsaydı daha maraqlı və inandırıcı olardı. Lakin...

Atam ömrünün son illərində xatirələrini yazmağı düşünürdü. Bu barədə onu anam və ən səmimi dostlarından biri – uzun illər mehriban ünsiyyətdə olduğu M.Maqomayev də inandırmağa çalışırdı.

Atamın kağız üzərində yazmağının çətinlik yaratdığını və sonradan xatirələri üzərində dəfələrlə düzəlişlər edəcəyini yaxşı bilən Müslüm Maqomayev: atamın rahat işləyə bilməsi üçün bizə növbəti səfərində müəlliminə diktofon gətirəcəyini qərara almışdı. Təəssüf ki, zaman buna imkan vermədi. Ömür vəfa qılmadı.

Memuarlarını yazmağına, fortepiano əsərlərinin lent yazılarını gerçəkləşdirməyə Ç.Almaszadənin, S.Yeseninin sözlərinə bəstələnmiş vokal silsilələrinin yazılışına amansız ölüm mane oldu. Seymurdan sonra dünyaya gələn nəvələri Sevil və Laləzarı görə bilmədi. Gerçəkləşdirməyə imkan tapa bilmədiyi neçə-neçə arzusu ürəyində qaldı.

Düşünürəm ki, atam özü haqqında xatirlərinə valideynlərindən başlardı. Atam haqqında bioqrafik məlumat "Ensiklopediya"larda yetərincədir. O mənbələrdə babam haqqında, atamın doğulduğu məkan, oxuduğu məktəb, işlədiyi yerlər, çıxışları və mükafatları barəsində məlumatla tanış olmaq mümkündür. Lakin həmin mənbələrdə onun valideynləri və atamın həyatındakı rolu haqqında bir kəlmə də deyilmir.

**Valideynlər və ailə**

Beləliklə, ailə...

Bir qədər geriyə qayıdaq.

...1922-ci il. Şəhərdə yatalağın tüğyan etdiyi bir zaman. Şəhərin mərkəzi küçələrindən birində at yetişdirənlər nəslindən olan Platon Qriqoryeviç Ryabov öz malikanəsində ailəsi ilə birlikdə ömür sürürdü. Lakin firəvan və mehriban ailəyə son bir həftə ərzində bədbəxtlik üz vermişdi. Qardaşı, həyat yoldaşı, böyük qızı, və kiçik oğlu bir-birinin ardınca yatalağdan vəfat etmişdi.

Onlardan əvvəl xəstələnmiş ortancıl qızının getdikcə sağalması əsil möcüzə idi. Ata sağ qalmış yeganə övladını qorumaq üçün onu Rostova qohumlarının yanına göndərməyi qərara alır.

Elə bu vaxt Azərbaycanda yeni hakimiyyətin qurulmasında, bütün inqilabi hadisələrin fəal iştirakçısı olmuş cavan bir oğlan Rostovdan keçməklə Bakıya qayıdırdı. Elə bir boy-buxunu, nəzəri cəlb edən yaraşığıyla seçilməsə də, üzündəki xoş təbəssüm və mehriban baxışları onun xeyirxah bir insan olduğundan xəbər verirdi. O, mənim babam idi.

Nənəm xatırlayır ki, o gənc əyninə "inqilabi şalvar" geyinmiş, meşin pencəkli, belindən naqan asılmış yaşıdlarına bənzəmirdi. Aralarında dissonans duyulurdu. Əlində Peyğəmbərçiçəyindən hörülmüş kiçik bir gül dəstəsi (buketi) vardı. Nənəm heyranlıqla güllərə baxıb soruşdu:

Təbii güllərdir?

O, isə cavabında:

Hə, özü də sizin gözləriniz rəngindədir, dedi.

Onlar beləcə tanış olub Rostovda yubanmadan Bakıya gəldilər. Bu, qarşısıalınmaz gənclik ehtirası idi. Nənəm "Kubinka" deyilən bir məkanda yaşayan ailənin evində məskunlaşdı. O, ailədə babamdan başqa rus dilini heç kim bilmirdi. Nənəm Azərbaycan dilini olduqca tez öyrəndi, yeni şəhərin qayda-qanunlarını, xalqın əxlaq qaydalarını qısa bir müddətdə mənimsədi. Onun qayınanası Ümnisə xanım az savadlı olmasına baxmayaraq, yüksək intuisiyaya malik insan idi. Bu barədə bir qədər sonra.

1924-cü ilin sonlarında İsrafil və Yelizaveta Atakişiyevlər Bakıdan Göyçaya yollanmalı oldular. Babam Göyçay, Ucar və Yevlax rayon partiya komitələrinə birinci katib təyin olunmuşdu. Atam 1925-ci il iyulun 15-də, əmim Tahir isə 1927-ci il avqustun 21-də dünyaya göz açdılar.

1927-ci ilin sonunda Atakişiyevlər ailəsi Bakıya qayıtdı. Təəccüblü də olsa sonralar atam bir dəfə də Göyçaya gedə bilmədi.

Atam deyirdi ki, ilk dəfə radioda simfonik orkestrin konsertini dinləyəndə həddindən çox duyğulanmış və ağlamışdı. Atama musiqinin necə təsir etdiyini görən nənəm onu uşaq musiqi pedaqogikasının banisi, gözəl ifaçı və metodika ustası Lidiya Nikolayevna Yeqorovanın yanına apardı. Görkəmli musiqiçi məsləhətlərinə ehtiyac duyulurdu.

Belə qərara alındı ki, uşağın musiqiyə böyük marağı olduğu üçün bu məsələyə ciddi yanaşılmalıdır.

Bu məqsədlə nənəm illərlə yığıb qoruduğu pulla atama bir pianino aldı. Nənəm ömrünün sonunadək atam səhnəyə çıxanda onu Quran altından keçirər və öz xeyir-duasını verərdi. İndiki ölçülərlə yanaşsaq atam musiqiylə çox gec – yəni 8 yaşında məşğul olmağa başladı.

1933-1934-cü illərdə K.K.Səfərəliyeva Bakıda “İstedadlı uşaqlar” qrupunu yaradırdı. O, atamı L.N.Yeqorovanın rəhbəri olduğu ilk qrupa qəbul etdi. Atam 11 yaşında ikən ilk dəfə simfonik orkestrlə çıxış etdi.

Konservatoriyaya professor M.R.Brennerin sinfinə daxil olandan sonra üçüncü kursda oxuyarkən 1946-cı ildə Ü.Hacıbəyovun şəxsi təqdimatı ilə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına təhsil almağa göndərildi. Paytaxtda gərgin seçim və fərdi dinləmələrdən sonra atam professor K.N.İqumnovun sinfinə qıbul olundu. Bu məşhur musiqişünasın tələbəsi adını daşımaq böyük fəxarət idi. Atamın və əlbəttə ki, nənəmin sevinci yerə-göyə sığmırdi.

Elə buradaca nənəmin “analıq diplomatiyasını”, “etibar et, lakin yoxla” prinsipinə sadiqliyini qeyd etmək yerinə düşər. Nənəm müntəzəm olaraq atamla məktublaşardı. Atam öz həyatı, məişəti, dərsləri və istirahəti haqqında ətraflı yazırdı. Nənəm atamın xəbəri olmadan onunla bir kursda oxuyan yaxın dostu O.Boşnyakoviçlə mütəmadi yazışardı. Hər ikisi K.N.İqumnovun tələbəsi idi. Bundan basqa nənəm atamın kirayədə qaldığı evin sahibəsilə də əlaqə saxlayırdı.

Əslində nənəm atamın vokal sanətini peşəkarcasına öyrənməsinə o qədər də sevinmirdi. Çünki vokal onun fortepiano məşğələlərinə mane ola bilərdi. Bunun son dərəcə doğru fikir olduğuna və önəmli əhəmiyyət daşıdığına nənəmi həmin o O.Boşnyakoviç inandırdı. O, da atamı dahi rus müğənnisi, professor A.V.Nejdanovanın sinfinə gətirdi. Bu da tanrının bəxş etdiyi bir hədiyyə idi. Ona görə deyirlər ki, “Sən saydığını say, gör fələk nə sayır”. Atam hələ orta məktəbli ikən Oneginin ariyasını özü üçün zümzümə edərdi. Özünü bariton səsli sayırdı.

Atamın söylədikləri:

“...Mən səsimin bariton olduğuna əmin idim. Ona görə də bariton səsə uyğun bir-iki ariya oxuyurdum. Qonşuluğumuzda keçmişdə yaxşı müğənni olmuş qoca bir kişi yaşayırdı. O, bir vaxtlar U.Mazettidən dərs alıbmış. Səhv etmirəmsə, soyadı Speranski idi. Günlərin birində o, həyətdə mənə yaxınlaşıb dedi:”

Cavan oğlan, mən sizə qulaq asmaq istəyirəm. Qalxdıq evə. Alayarımçıq bir-iki ariya oxuyandan sonra qətiyyətlə bildirdi:

Siz mütləq oxumağı öyrənməlisiniz. Tanrı sizə səs verib, amma Oneqin deyil, Lenskisiniz, yalnız Lenski. Siz ki açıq-aydın tenorsunuz. A.V.Nejdanova və V.V.Barsova da Mazetti məktəbinin yetirmələri olduğundan belə çıxır ki, atamın da taleyinə görkəmli pedaqoq Mazetti məktəbinin davamçısı olmaq yazılmışdır.

Atam danışırdı ki, nənəmin də cavanlıqda dərin tembrli gözəl səsi varmış. Dramatik sopranoya uyğun romanslar oxuyarmış. Ona opera teatrına işə girməyi dəfələrlə təkid etmişdilər. Lakin babam kəskin surətdə bunun əleyhinə çıxmışdı.

Lakin bir hadisə...

Axşam qaranlığında evimizə oğru soxulmaq istəyirdi. Onu eyvanda görən nənəm qorxaraq bərkdən çığırmışdı. Və beləliklə də onun nəğməkar səsi ömürlük batmışdı. “Qəlbdən oxuyuram, lakin əvvəlki kimi alınmır”.

Moskva Dövlət Konservatoriyasındakı təhsil illərindən söhbət açmadan keçək 50-ci illərə.

1952-ci ildə SSRİ Xalq artisti Y.V.Fliyerdən fortepiano, SSRİ Xalq artisti V.V.Barsovadan vokal dərsləri alandan sonra (A.V.Nejdanova 1950-ci ilə vəfat etmişdi) atam Bakıya qayıtdı. Ona Moskvada qalıb Dövlət Konservatoriyasında fortepiano dərsləri demək və Bolşoy teatrın baş dirijoru və bədii rəhbəri A.V.Nejdanovanın həyat yoldaşı N.S.Qolovanovun rəhbərlik etdiyi o möhtəşəm sənət ocağında işləmək təklif olunsa da, babam bunun tam əleyhinə idi. “Sənə o təhsili respublika verib, zəhmət çək öyrəndiklərini öz doğma vətənində tətbiq elə. Moskvada onuncu olmaqdansa. öz ölkəndə birinci olmağın yaxşıdır” deyirdi. Atamın arxivində bir diqqətçəkən sənəd saxlanılır. Kirov adına (indiki Marinski) opera teatrından ona gələn məktubda yazılıb: “Siz istədiyiniz vaxtda bura gəlib debüt edə bilərsiniz”. Lakin o, Bakıya gəlib konservatoriyada fortepiano dərsləri deməyə başladı. Həm də opera teatrına solist qəbul olundu.

## Atam və anam

Atam 18 yaşında anamla tanış olub. O vaxt anamın 16 yaşı vardı. Əslində onlar xeyli əvvəl tanış idilər. O zaman musiqi məktəbi və konservatoriya eyni binada yerləşirdi. Anam musiqi məktəbinin, atam isə konservatoriyanın tələbəsi olduğu üçün təbii ki, bir-birlərini tanıyırdılar. Anam bunları belə xatırlayırdı:

"O vaxt mənimlə Fikrət (gələcəyin dahi bəstəkarı Fikrət Əmirov) yaxından maraqlanırdı. Amma səmimiyyətlə ona dedim ki, mənim Rafiq xoşuma gəlir."

Atamın dediklərindən:

"Biz tələbə yoldaşımızla konservatoriyanın qarşısında durmuşduq. Bu vaxt musiqi məktəbinin tələbə qızları konservatoriyanın dərs otaqlarına qalxırdılar. Mən yoldaşlarıma bir qızı göstərib dedim: baxın o qız mənim çox xoşuma gəlir."

Atamla anam xasiyyətcə bir-birilərinə çox oxşayırdılar. Hər şeydə həmfikir, həmrəy idilər. Anam atamın ən yaxın, sadiq dostu, konsertmeysteri, həmkarı, qrimyoru, kostyumyeri, evdə şənləndirəni, evdar qadını, üzügülərüz bir sözlə həmdəmi idi. Onlar tələbələri üçün dərs proqramlarını da birgə hazırlardılar. Gecə yarısınadək atamın yaradıcılıq planlarını müzakirə edər, onun konsert proqramları üçün kamera əsərləri seçər, teatrda hansı partiyalara üstünlük verməsini müəyyənləşdirər, tələbələrinə hansı fortepiano əsərlərinin öyrədilməsini dəqiqləşdirərdilər. Və ya sadəcə həyat xatirələrini yada salardılar.

O vaxtlar diktofonum olmadığı üçün çox təəssüflənirəm. Atam maraqlı insanlarla görüşlərindən böyük şövqlə danışırdı. Məsələn: David Oystraxı müşayiət etməsindən, K.N.İqumnovun yaxın dostu S.V.Raxmaninovla bağlı xatirələrini söyləməsindən Moskva Dövlət Konservatoriyasında orqan musiqisi sinfi üzrə Genikdən aldığı dərslədən iftixar hissiylə söhbət açırdı. Aspiranturaya daxil olarkən ingilis dilini öyrənməsi üçün ona xüsusi müəllim ayrılmasını və başqa xatirələrini həvəslə bizimlə bölüşərdi. Atamın dil öyrənməkdə qətiyyən səriştəsi yox idi. O, ingilis dilindən imtahan verərkən kafi qiymət almışdı. Buna görə özünü xoşbəxt hiss edirdi. Sanki imtahandan ən yüksək qiymətlə çıxmışdı.

Atam doğmaları və yaxınları arasında anama "Seneçka" deyərdi. Bir dəfə onun bu adın ağlına hardan gəldiyini soruşanda dedi ki, M.Musorqskinin "Boris Qodunov" operasında baş qəhrəmanın monoloqunda belə bir ifadə var: "O, Ksenya üçün şən nigah mərasimi hazırlamışdı". Bəziləri Ksenya sözünü özünə uyğun tərzdə "qızı"yla əvəz edirdi. Əməkdar artist V.Qurbanov isə həmin tamaşada Boris Qodunovun partiyasında "Kseniyanı" "Seneçka" ilə əvəzləmişdi. Atam danışırdı ki, bu improvizə onun ürəyinə yatdığından anamı da Seneçka deyə çağırmağa başlamışdı.

Anam özünün pedaqoji fəaliyyətində belə bir qaydaya əməl edərdi: dərs dediyi şagirdləri səhnəyə çıxmazdan əvvəl onları mütləq iki-üç dəfə atama yoxlatdırardı. Atam bu işdən boyun qaçırtmağa cəhd etsə də axırda razılaşar və dinləmə günləri təyin edərdi. Dinləmələr həmişə evimizdə keçirilərdi.

Anam şagirdlərinə bu xəbəri çatdırarkən belə deyərdi: "Mən Rauf İsrafiloviçdən sizi dinləməyi xahiş etmişəm və o, razılıq verib. Filan tarixdə o, bizi dinləyəcək. Şagirdlər də, valideynləri də bunu eşidəndə həyəcanlanardılar. Kağız-qələm götürüb hazırlaşmağa başlardılar". Amma ən çox narahatlıq keçirən anam idi. Atamın bu dinləmələrini anam özü üçün də peşəkarlıq imtahanı kimi dəyərləndirirdi. Atamın rəy və təkliflərini anam mütləq həqiqət kimi qəbul edər, onun məsləhətlərindən faydalanardı.

Atamın dinləmələrinin özü də maraqlı bir proses idi. Anam əvvəlcə kabinetdə şagirdləri ilə məşq edər, sonra atam gəlib gənc ifaçıları dinləyərdi. Bu zaman o, pianoya yaxın oturar və köhnə qayda ilə şagirdə deyərdi: "Buyuracaqsınız". Əvvəlcə o, əsəri əvvəldən axıradək dinləyər, hətta şagird texniki səhvə yol verəndə də ifanı yarıda saxlamazdı. Sonra mütləq hər şeyin yaxşı olduğunu deyər, ardınca ifa zamanı yol verilən qüsurları mülayim şəkildə şagirdin nəzərinə çatdırardı. Nəticədə şagird sanki özünü dahi ifaçı sanar, amma deyilən nöqsanlardan düzgün nəticə çıxarar və yekunda əsər yeni çalarlarla dolğunlaşardı. Elə buna görə də anamın şagirdləri sonradan konservatoriyaya daxil olub atamın sinfində oxuyanda onu həmişə "Rafiq əmi" kimi çağırardılar.

Atamın professor Y.İ.Milşteynlə Moskva konservatoriyasından başlanan dostluq münasibətlərinin maraqlı tarixçəsi vardı. Y.İ.Milşteyn K.N.İqumnovun assistenti idi. Y.İ.Milşteynin vəfatından sonra Yakov Bsakoviç ustadının tələbələrinin konservatoriya təhsilini başa vuranadək onlara qayğı göstərdi. Y.İ.Milşteyn Bakıya növbəti səfərlərinin birində tələbələrin atama "Rafiq müəllim" deyə müraciət etdiklərini eşidəndə soruşmuşdu: "Rafiq, bura sənin uşaq bağçandır, yaxud konservatoriya sinfi?" Atam həmişə öz pedaqoqları və tələbəlik yoldaşları ilə səmimi, mehriban və xoş münasibətdə olub.

Atam ömrünün son günlərinədək aspiranturada onun müəllimi olmuş professor Yakov Vladimiroviç Fliyerlə dostluq edib.

1977-ci ildə Leninqradda musiqi ifaçılarının Ümumittifaq müsaqbiqəsinə atam jürinin üzvü qismində dəvət olunmuşdu. Jürinin sədri Y.V.Fliyer olmalı idi. Lakin ağır xəstə olduğu üçün Leninqrada gələ bilməmişdi. Anamla mən də Neva sahillərinə yollanmışdıq. Günlərin birində mehmanxana nömrəsində telefon zəng çaldı. Atam dəstəyi qaldırıb – "buyurun, dinləyirəm, əzizim Yakov Vladimiroviç! Necəsiniz, dedi?" Araya sakitlik çökdü. Söhbətin sonunda atam dedi:

– Sizi başa düşdüm. Narahat olmayın. Tezliklə sağalın! Görüşənədək!

Atam dəstəyi asanda nəsə bir bəd xəbər eşitdiyi onun üzündən oxunurdu. Anam narahat olub nə baş verdiyini soruşdu. Atam Yakov Vladimiroviçin səhhətinin ağırlaşdığını bildirdi. Professor xahiş edirdi ki, onun çox istedadlı şagirdinin çıxışına son dərəcə diqqətlə yanaşsın. Sən demə həmin o bacarıqlı oğlanın bəzi qəriblikləri də varmış. Onun ifası pis alınmamalıdır. Fliyer üçün atamın fikri dəyərli idi.

Söhbət M.Pletnyovdan gedirdi. Müsabiqədə gözəl ifasıyla hamını valeh edərək birinci mükafata layiq görüldü. Üstündən xeyli müddət keçəndən sonra M.Pletnyovun Bakı filarmoniyasında çıxışı başa çatandan sonra atam istedadlı musiqiçini anamla tanış etdi. Onun atama necə dərin ehtiramla münasibət göstərməsindən anam çox sevinmişdi.

İndi də bir qədər valideynlərimin birgə ifaçılıq əməkdaşlığı haqqında. Moskva. Fevral. Mərkəzi incəsənət işçiləri evi. Atamın Fərhad Bədəlbəyli ilə solo konsertindən bir gün əvvəl anamla mən də həmin zalda idik. Atam və Fərhad Şəmsiyeviç səhnədə royalın səsini və zalın akustikasını yoxlayırdılar. Atam ayrı-ayrı romansların müəyyən hissələrini oxuyur, eyni zamanda tez-tez anama tərəf baxırdı. Birinci sırada oturan anam atamın ifasına heç bir reaksiya göstərmirdi. Üzündən razılıq hissi duyulmurdu. Atam əsəbi halda soruşdu:

Xoşuna gəlmədi? Anamın cavabı konkret oldu:

Yox.

Atam "mənim də" dedi.

Sonralar bu dialoqu tez-tez xatırlayar və gülərdilər. Keçmişə nəzər salanda bir daha əmin oluram ki, atam peşəkarlıq yollarında talenin necə sınaqlarından ləyaqətlə çıxmağı bacarıbmış.

1951-ci ildə Gənclərin və tələbələrin III Ümumdünya festivalı Berlində keçirilirdi. Atam həmin tədbirə vokalçı qismində ezam olunmuşdu. SSRİ-dan Berlinə göndərilən bütün iştirakçılar Moskovada həkim müayinəsundən keçməli idilər. Lorinqoloqun yekun nəticəsi atamı bərk məyus etmişdi. Onun boğazında səs bağlarının bərkişməsi qeydə alınmışdı. O vaxt 20 yaşı yenicə tamam olmuşdu. Atam həkimdən oxuya biləcəyini soruşanda daha ağır cavab almışdı:

–Siz yaşaya bilib-bilməyəcəyinizi soruşsanız daha məqsədəuyğun olardı. Ctress! Biopsiya analizi! (Vokalçılarda tez-tez müşahidə olunan peşə xəstəliyi... əməliyyat.) Səs bağlarında səs bağlarındakı kiçik düyünün əməliyyat yoluyla çıxarılması uğurla nəticələndi. Həmin festivalda atam fəxri diploma layiq görüldü. (Bu diplom beynəlxalq müsabiqələrin laureatlarına verilən mükafatlarla eyni tutulurdu.)

Moskvada festival zamanı "İzvestiya" qəzetinin binası qarşısında böyük lövhələrdə SSRİ-dən olan festival iştirakçılarının fotoşəkilləri asılmışdı. Azərbaycan nümayəndələrinin hamısı milli geyimlərdə idi. Bu foto lövhələrinin qarşısı həmişə izdihamlı olardı. Anam xatırlayır ki, o vaxt hamıya atamın şəklini göstərib, əri ilə fəxr etdiyini bildirmək istəyirdi. Lakin hər dəfə təvazökarlıq edib, fikrindən dönürdü. Amma təəssüf.

1965-ci ildə Gəncədə “Arşın mal alan” filminin ikinci variantı çəkilirdi. Atam Əsgərin ariyasını oxuduğu üçün anamla birlikdə Gəncə şəhərində idi. Atam saqqal saxlamağı və velosiped sürməyi qərara almışdı. Görünür Gəncənin saf havasının təsirindən ilhama gəlmişdi. Atamla idman anlayışı əks qütblərdə olduğu üçün onun bu sahədə özünü sınaması uğursuz nəticələndi. O vaxt atam mahir velosipedçi olduğunu anama nümayiş etdirmək istəmişdi. Meşəlik ərazidə velosipedlə yoxuşdan enmək istərkən yıxılmış və sol biləyini sındırmışdı. Ağır sınıq idi. Əli gipsdə qoyulandan sonra sümüklər düzgün birləşmədiyindən əməliyyat iki dəfə təkrar olunmuşdu. Sümüklərin pərçimləndiyi yer təzədən sındırılmış, nəhayət üçüncü cəhddə yerinə oturdulmuşdu. Pianoçular bu əməliyyatın ağrılı olduğunu yaxşı bilirlər. Çoxlarına elə gəlirdi ki, atam konsertlərdə pianoçu kimi karyerasını başa vuracaq. Amma şükürlər olsun ki, hər şey yaxşı qurtardı.

Ümumiyyətlə atamın idmanla “dostluğu” həmişə maraqlı sonluqla nəticələnərdi. Bununla bağlı bir əhvalatı hələ də xatırlayıram.

Yadımdadır, dünya futbol çempionatı sona yaxınlaşırdı. Atamın futbol haqqında adi təsəvvürü də yox idi. O vaxt hamı fütboldan danışır, qızğın mübahisələr gedir, ehtiraslar coşurdu. Atam özü də hiss etmədən qeyri-ixtiyarı bu axına qoşuldu. Və çempionatın final matçının reportajına baxmağı qərara aldı. Televizorda oyunun birinci hissəsində oyun meydanda baş verənlərə reaksiyasından, üzünün ifadəsindən oxunurdu. Lakin fasilədən sonra o həvəs getdikcə sönməyə başladı. Maçta axıra qədər baxsa da, oyunun necə qurtardığını bilmədi. Nəticədə, ertəsi gün atam futbol azarkeşi olan Rafiq Quliyevə zəng vurub, eşidirəm ki, soruşur:”Dünən kim qalib gəldi?”. Atam bax, belə “fanat” idi.

**Rauf və Tahir Atakişiyevlər**

Mən əminəm ki, övladlarını atam və əmim kimi mehriban, bir-birilərinə sonsuz məhəbbət, hörmət və sədaqət ruhunda tərbiyə etmək – bu ana fədakarlığıdır. İki oğlunu da böyüdüb, onlara eyni dərəcədə təhsil vermək isə (ikisi də P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoritasında təhsil almışdılar), – analıq şücaətidir.

Nənəmin iş gününün necə gərgin keçdiyini təsəvvürünüzə gətirirn: səhərdən axşamacan evdə pianonun səsi kəsilmir. Gah atam məşğul olur, gah da əmim. Üstəlik də sonradan atam həm də oxumağa başladı. Evimiz əsil dəlixana idi.

Babam jurnalist olduğu üçün, söz düşmüşkən o, Böyük vətən müharibəsi iştirakçısı, tanınmış partiya xadimi idi. Gah Moskvada “Qırmızı Professura” kurslarında, gah cəbhədə (“Qafqazın müdafiəsi uğrunda” medalına layiq görülmüşdür) gah da Zərdabda olurdu. Nənəm isə daima övladlarının yanında olurdu. Atamla əmimin dostluğunu qardaşların ideal münasibətləri kimi nümunə göstərmək olar.

Əmimin hətta işi başından aşsa da atama lazım olduğunu bilən kimi dərhal özünü onun yanında çatdırardı.

Əmimin də atama ehtiyacı olanda bütün işini-gücünü bir kənara atıb düşünmədən onun yanına qaçardı.

Amma maraqlıdır ki, hər ikisi gözəl musiqiçi olsalar da heç vaxt bir ansamblda bir not belə ifa etməyiblər.

Niyə?

Müəyyən müddətdən sonra mən bunun səbəbini başa düşdüm. Hər ikisi səhnədə bir-birinə görə o qədər həyəcan keçirirdi ki, bu narahatlıq onların birgə çıxışına mane ola bilərdi. Atamla Tahir əmim bir-birilərinin pedaqoji və ifaçılıq yaradıcılıqlarına həssaslıqla yanaşar, uğurlarına sevinərdilər və qürür duyardılar. Bununla belə, fərqli insanlar idilər. Atam bütün həyatını ifaçılıq yaradıcılığına həsr etmişdi. Əlindən başqa iş gəlmirdi. Heç xarab olmuş lampanı dəyişməyi də bacarmırdı. Mən hələ divara bir mismar çalmasını demirəm. Əmim Tahirin isə əlləri qızıl idi. Su kranını dəyişdirməyi, müxtəlif ev cihazlarını, hətta avtomobilini təmir etməyi də bacarırdı.

**Atam və nəvələri**

O, son dərəcə özünəməxsus baba idi. Nəvəsi Seymuru çox sevər, saatlarla onunla oynayar, öpər, qucaqlayardı. Atam nəvəsini dünyanın ən ağıllı və ən gözəl uşağı sayardı. Təəssüf ki, ona sonrakı nəvələri Sevil və Laləzarı görmək qismət olmadı. Qızlarımızın hər ikisi atam həyatla

vidalaşandan sonra dünyaya gəlmişdi. Sevil bizim Akademiyada təhsil alarkən konservatoriyanın dəhlizində asılmış ölməz sənətkarılarımızın portretləri qarşısında ayaq saxlayar, Rauf babasının şəklinə baxmaqdan doymazdı. Sevil inanırdı ki, babası sağ olsaydı onların arasında möhkəm dostluq əlaqələri yaranardı. Qızım yaradıcılığa meyilli insan olduğu üçün babasının faydalı məsləhətlərindən, maraqlı söhbətlərindən çox yararlanardı. Əminəm ki, atam nəvəsi ilə fəxr edər, ona bir dost və həmdəm kimi hər sahədə dəstək olar, qayğısını çəkərdi.

**R.İ.Atakişiyev və M.M.Maqomayev**

Mən sizə əbədi dostluğun maraqlı tarixçəsindən danışmaq istəyirəm.

Onlar ilk dəfə tanış olarkən Müslüm Məhəmməd oğlunun 16, atamın isə 43 yaşı vardı. Atam gələcəyin dünya şöhrətli musiqiçisindən 17 yaş böyük idi. Lakin bu fərq qarşılıqlı hörmət, sədaqət, səmimiyyət və təmənnasız münasibət ruhunda yaranan dostluğun uzunömürlü olmasına mane ola bilmədi. Onların dostluğu əbədiyyətə çevrildi.

Müslüm Maqomayev valideynlərimə həmişə “siz” deyə müraciət edirdi. Atamla anam isə sanki kiçik qardaşlarıyla danışırmış kimi ona “sən” deyirdilər. Müslüm Maqomayevlə valideynlərim arasında son dərəcə mehriban və səmimi münasibətlər yaranmışdı.

Bir ənənə olaraq Müslüm Maqomayev Moskvadan Bakıya eyni reyslə uçardı. Və bir gün əvvəl telefonla zəng vurub atamı xəbərdar edərdi. Atam da həmişə hava limanında onu qarşılamağa yollanardı. Müslüm Maqomayev Bakıya çatan kimi baqajını evində qoyub bizə gələrdi. Bakıda olduğu müddətdə hər gün bizdə gecə yarıyadək şirin söhbət edərdilər. Və hər dəfə də royal arxasına keçib müəyyən bir əsəri ifa edər, bildiklərini bölüşərdilər. Evimizdə Müslüm Maqomayevlə atamın birgə duetlərini, ariya və romanslarını çox eşitmişəm. M.Qlinkanın “Məni yoldan çıxartma” romansını, Donisettinin “Sevgi şərbəti” operasından Belkore və Nemorinonun duetlərini dəfələrlə dinləsək də doymazdıq. Atamla M.Maqomayevin maraq dairələri, milli dəyərlərə münasibəti, hətta xatirələri də bir-birinə uyğun gəlirdi.

İnternetdə musiqi mədəniyyətimizin tarixilə bağlı materialları araşdırarkən diqqətimi bir foto cəlb etdi: royal arxasında atam, yanındakılar isə M.Maqomayev, A.Puqaçova və İ.Reznik idi. Təbii ki, söhbət musiqidən gedirdi. Fotonun altında şərhlər verilir və royalın arxasında kimin olduğu soruşulurdu. Sonra da atamın adı göstərilir və onun Müslüm Maqomayevin ustad hamisi, həm də yaxın dostu olduğu bildirilirdi. Atam M.Maqomayevin heç bir hamiyə ehtiyacı olmadığını desə də, əslində o, həqiqətən qayğıkeş hami idi. Çünki M.Maqomayev təkcə yaradıcılığı ilə deyil, şəxsi həyatıyla da bağlı atamdan məsləhətlər alar və onun tövsiyələrinə əməl edərdi. Bu, həqiqətən belə idi.

**R.İ.Atakişiyev və F.Ş.Bədəlbəyli**

Yaşları arasında böyük fərq olmasına baxmayaraq onlar dostluq telləri ilə bir-birinə bağlı sənətkarlar idi. Konservatoriya onları daha da doğmalaşdırmışdı. Hər ikisi bizim doğma musiqi ocağımızda, professor M.R.Brennerin sinfində oxumuş, təhsillərini Moskva Dövlət Konservatoriyasında davam etdirmişdi. Yəni onlar eyni məktəbdən, eyni yaradıcılıq birliyindən bəhrələnmişdi. Bu, iki istedadlı musiqi ifaçısının, vokalçı və konsertmeysterin deyil, məhz musiqi ifaçısının çoxillik yaradıcılıq ittifaqı idi. Əslində bu müştərək ifaçılıq ideyasının nə vaxt və necə yaranmasının tarixini dəqiq bilməsəm də, həmfikirlərin yaradıcılıq əməkdaşlığının nəticəsində yaranan konsertlərin təkcə Bakıda deyil, Azərbaycandan kənarda da böyük maraq və rəğbətlə qarşılaşdığı şübhəsizdir.

**“Alma mater”**

Atamın sözün əsl mənasında bütün həyatının konservatoriya ilə bağlı olması bir alın yazısı idi. Onu səkkiz yaşında ikən bura gətirmiş və burdan da son mənzilə yola salmışlar. “İstedadlı uşaqlar qrupu”na daxil olub, sonra professor M.R.Brennerin sinfində oxuyub. Onun ən sevimli tələbəsi olub. M.R.Brenner atamın Moskva Dövlət Konservatoriyasının aspiranturasına daxil olmasının əleyhinə idi. Qayıdıb onun sinfində assistent işləməsini istəyirdi. Bu barədə atamdan xahiş də etmişdi. (Anamın atama məktubundan).

Konservatoriya atamın həyatında ayrıca böyük bir fəsildir.

**R.İ.Atakişiyev M.F.Axundov adına Opera və Balet Teatrının solisti**

Teatr atamın həyatında mühüm rol oynayıb.

Bir çoxları bilmir ki, atam özünün çıxış etdiyi gün teatra, tamaşanın başlanmasına 3.5-4 saat qalmış gəlirdi. O, qrimlənər (adətən onu anam qrimləyərdi), sonra tamaşa kostyumunu geyinər və eynəyini taxıb tam hazır vəziyyətdə səhnəyə çıxardı. Tamaşa boyu təmasda olacağı qurğuları, hər bir detalı əlləri ilə yoxlayardı. Daha sonra qrim otağına qayıdar, eynəyini çıxarar və yaradacağı obrazı xəyallarında canlandırardı. Atamın görmə qabiliyyəti çox zəif olduğu üçün eynəksiz çıxış etmək nə qədər çətin olsa da, bütün hərəkətlərini əzbərdən bilirdi. O, dirijoru da yalnız siluet, yəni kölgə şəklində görürdü. Gözlərinin biri mənfi 14, digəri isə mənfi 11 idi. Belə bir vəziyyətdə səhnədə eynəksiz hərəkət etməyin özü bir möcüzə kimi dəyərləndirilə bilərdi. Atamın opera fəaliyyətində baş vermiş bir hadisə onu az qala səhnədən birdəfəlik uzaqlaşdıracaqdı. Atam tamaşadan əvvəl səhnədəki qurğu və dekorların yerini yoxlayandan sonra onların qurulduğu məkanlarda dəyişiklik etmək olmazdı. Yəni, bütün dekorlar olduqları yerdə qalmalıydı.

Ş.Qunonun "Faust" operasının tamaşası. Marqaritanın bağı. Gecədir. Faust və Mefistofel qaranlıqda bağa girirlər. Atam – Faust, əməkdar artist Valeri Qurbanov isə Mefistofel rolundadır. Bağa səhnədəki pilləkənlə əvvəlcə Mefistofel, ardınca Faust daxil olmalıydı. Mefistofel tamaşaçının zaldan görə bilmədiyi pillələrlə qalxıb geri dönür. Fausta müraciət etmək istərkən onu yerində görmür. Sonradan məlum olur ki, pillələr arasındakı boşluq görünmədiyindən atamın ayağı həmin deşiyə düşübmüş. Ağır xəsarətə və dəhşətli ağrılara baxmayaraq atam səhnəyə qalxıb, eyforiya vəziyyətində öz aktını ifa etməyi bacarır. Pərdə endirilir. Bir dəqiqədən sonra tamaşanın aparıcısı səhnəyə çıxıb tamaşaçılara müraciət edir: "Zalda həkim varsa, dərhal kulis arxasına gəlməsi xahiş olunur".

Atam "təcili yardım"la aparıldı. Mürəkkəb cərrahiyyə əməliyyatdan sonra bir neçə ay bərpa prosesi keçməli oldu. Bu, qəzavü-qədərə səbəb isə səhnə qurucularının pilləli dekoru dəyişmələri idi. Atamın bir neçə saat öncə yoxladığı təkərli pilləkən başqasıyla əvəz olunmuşdu.

Atamı həmişə anam qrimləyirdi. Bunun səbəbini soruşanda zarafatla deyirdi ki, üzünü yalnız anama etibar edir. Lakin bu zarafatın özündə də müəyyən həqiqət vardı. Atam teatrda fəaliyyətə başlayanda ilk dəfə P.İ.Çaykovskinin "Yevgeni Onegin" operasında Lenskinin obrazını yaratmalı oldu. O vaxt atam cavan idi. Şux qaməti, yaraşıqlı saçları vardı. Zalda oturan anam atamın bu görkəminin Lenski obrazına uyğun gəlmədiyini dərhal hiss etmişdi. Lenski bu qiyafətdə ola bilməzdi. Tamaşadan sonra qrim ustasına iradını bildirib, bu işi öz öhdəsinə götürəcəyini demişdi. Teatr mövsümünün sonu olduğu üçün anam kinostudiyaya getmiş, orda müvafiq qrimçilər kursuna yazılmışdı. O vaxtdan da anam atamın şəxsi qrimyoru "statusu"na yiyələnmişdi. Sonralar atamla müxtəlif şəhərlərdə qastrol səfərlərində olarkən mütləq ixtisaslaşmış teatr mağazalarına baş çəkər, qrimlə bağlı nə lazım idisə alar, ehtiyatını tutardı.

Teatr qastrollarını xüsusi qeyd etməyə ehtiyac duyuram. Beləliklə, qastrollar. Opera və balet teatrı truppasının qastrolları nə deməkdir? Məncə bu proses zamanı əsil həngamə qopur. Dekorasiyalar, rekvizitlər, kostyumlar maşınlara yüklənir, balet və opera truppaları, xor, opkestr, mimanslar, kostyumçular, fəhlələr, bilet yoxlayanlar, adminstrasiya və s. yola hazırlaşardı. Bəziləri qastrola ailələrilə yollanardı. Bir sözlə, bir aylıq "köç" hamının ürəyincə olardı. Sizcə başqa şəhərə qədəm qoyan insan ilk növbədə ne edir? Təbii ki, otelə çatan kimi bir qədər dincəlir, yeni mühitə alışmağa çalışır. Anamın isə təxirə salınmaz işi mehmanxana otağının onsuz da təmiz olan qapı-pəncərələrini, sanitar qovşağını, mebelini təzədən yuyub parıldatmaq olardı. Bu işini qurtaran kimi tez özünü yaxınlıqdakı ərzaq və kulinariya mağazalarına çatdırar, yolüstü bir elektrik plitəsi də alıb otelə gətirərdi. Azca nəfəsini dərib axşama yemək hazırlamağa başlardı. Qaldığımız nömrə həmişə qonaq-qaralı olardı. Hamı şənlənər, deyib-gülərdi.

Tamaşadan bir gün əvvəl atam "sakitlik rejimi"nə keçərdi. Hamıyla "kinetik dil"lə danışmağa üstünlük verərdi. Həmin gün evdə və ya oteldə parfümdən və ətirli məişət kimyasından istifadə etmək olmazdı. 1978-ci ildə Bakıda C.Rossininin "Sevilya bərbəri" tamaşası oynanılacaqdı. Bu tamaşa Fiqaro rolunun mahir ifaçısı M.Maqomayevin səhnəyə qayıdışı ilə əlamətdar idi. Bənzərsiz Maqomayev dəfələrlə demişdi ki, bu qayıdışın təşəbbüskarı

və ilhamçısı atam idi. Tamaşa teatr mövsümünün açılışına təsadüf edirdi. Bir qədər əvvəl yay ayında isə Müslüm Maqomayev növbəti dəfə Bakıya gələndə onlar hər gün məşq edəcəklərini qərara almışdılar. Bununla əlaqədar əlavə vaxt itkisinə yol verməmək üçün Zuğulba pansionatına – ifaçının qaldığı nömrəyə Bakıdan royal da gətirilmişdi. Böyük təntənə ilə ikinci mərtəbəyə qaldırılıb köklənən royal hazır vəziyyətə gətirildi. Lakin yenə də təkrar edirəm, sən saydığını say, gör fələk nə sayır. Ertəsi gün şəhərdə elə bir fırtına başladı ki, hər yan xırda qum dənəciklərilə örtüldü. Bu zərrəciklər pansionatın royal qoyulmuş otağına da hardansa yol tapırdı. Və beləliklə, iki həftə davam edən fırtına nəticəsində royala yaxın düşən olmadı. Royal təmtəraqla gətirildiyi kimi, elə o cür təmtəraqla da maşına yükləndirilib şəhərə yola salındı.

Nəhayət ki, tamaşanın elan olunduğu o həyəcanlı gün gəlib çatdı. Tamaşaya dövlət başçısı H.Əliyev də ailəsi ilə dəvət olunmuşdu. Hamı gərgin vəziyyətdə idi. Atam xüsusilə çox əsəbləşirdi. Bu da təbii idi. Əlli üç yaşında Almavivanın texniki baxımdan son dərəcə mürəkkəb partiyasını oxumaq asan deyildi. Üstəlik də atamın çəkisinin ağırlığı əlavə çətinliklər yaradırdı. Həm də bu təklifin təşəbbüskarı kimi atamın məsuliyyət daşıması onu daha çox narahat edirdi. O, Müslüm Maqomayevə görə də bərk həyəcan keçirirdi.

Atam səhnəyə çıxmağa hazır vəziyyətdə ikən anama kömək edən kostyumçu qadın atamın özünü daha rahat hiss etməsi üçün çiynindəki plaşı iynəylə əsas kostyumuna bənd etmək istədi. Özü də bilmədən qayığı (iynəni) düz atamın çiyninə sancdı. Stres, əsəb, həyəcan... Bir sözlə atamın səsi batdı. Həm də büsbütün itdi. Bu zaman tamaşanın aparacısı həyəcanlı halda qrim otağına daxil olub, Heydər Əliyevin artıq teatra yaxınlaşdığını bildirdi. Bir nömrəli hazırlıq elan olundu: "Mimans artistləri, balet artistləri, xor və solistlər səhnəyə dəvət edilir!"

Atam baxışlarıyla mənə işarə etdi ki, Müslüm Maqomayevi çağırım. Çıxılmaz vəziyyət yaranmışdı: atamın dublyoru yox, vaxt az, tamaşa baş tutmaya bilər.

Müslüm Maqomayev ümüdsiz bir halda soruşdu: "Neyləməliyik?"

Sən demə hər şey tanrının hökmündəymiş. Tamaşa gerçəkləşməliymiş!

Araya çökən nisbi sakitliyi atamın öskürək səsi pozdu. Və sanki heç nə olmayıbmış kimi təmkinlə dilləndi: "Nəyi gözləyirik? Hazırsınızsa, getdik səhnəyə. ALLAH amanında. Bizə dua edin".

Bu tamaşada atam eyni zamanda pianoçu qismində çıxış edirdi. Səhnədə "Çelesta" (qədim musiqi aləti) ifaçısı obrazını yaradırdı.

Atam peşəkarlığı sözün həqiqi mənasında özünün həyat qayəsi sayırdı. Rimski-Korsakovun "Mosart və Salyeri" operasında atam Mosartın partiyasını ifa edirdi. Mosartın Salyeriyə öz yeni əsərini təqdim edərkən tamaşanın gedişində atam fortepianoda Mosartın "Fantaziya"sını səsləndirirdi. Bu, son dərəcə mahiranə bir ifa idi.

S.Prokofyevin "Monastırda nişanlanma" operasında Don Jeromun ifası zamanı adətən mimansın (balet ifaçısının) çıxışı təsvir vasitəsilə tamaşaçıya çatdırılırdı. Lakin atam Don Jerom rolunu ifa etməyə başlayanda musiqini orkestr üzvlərinin səsləndirməsi təşəbbüsünü irəli sürdü. O, bu variantın daha böyük effekt verəcəyinə orkestr üzvlərini inandıra bildi. İncimısinlər deyə onlar üçün mühasibatdan əlavə qonorar ayrılmasına da nail oldu. Tamaşa zamanı klarnet ifasının inandırıcı alınması üçün səhnədən orkestrin yanına düşər və ifaçının hər bir hərəkətini diqqətlə izləyirdi. Tamaşanın sonunda – toy şənliyi səhnəsində "metallofon"da (kiçik zərb aləti) atam özü ifa edərdi.

Atam orkestri dərindən duyurdu. Müharibə illərində Bakıdakı orkestrlərdə hələ arfa olmadığından atam bu musiqi alətinə aid olan partiyaları fortepianoda ifa edərdi.

O illərdə hamı – xüsusilə də tələbələr maddi çətinlik içində yaşayırdılar. Məşqlərə gedəndə çox vaxt tramvaya minərdilər. Çünki tramvayda bəzən biletsiz də getmək olurdu. Konduktorun başı qarışıq olanda onun diqqətindən yayınmaq elə də çətin deyildi. Amma hərdən biletsizləri yaxalayıb cərimələyirdilər. Atam da az cərimələnməyib. Növbəti dəfə konduktorun "qəzəbinə" tuş gələndə əl-qol hərəkətlərilə konsertmeyster olduğunu bildirmişdi. Konduktor bu işarələrin nə demək olduğunu anlayana qədər atam yerə sıçrayıb aradan çıxmışdı. Atam partituraları yaxşı oxuyurdu. Ölümündən bir il öncə o, dirijor pultu arxasına keçmək istəyirdi. Raxmaninov, Çaykovski, Şopen, Listin əsərlərini pianoçu kimi özünəməxsus mahiranə tərzdə ifa edirdi. Bir

müddət sonra həmin əsərləri dirijor kimi dəyərləndirmək həvəsinə düşdü. Bu, ona çox maraqlı gəlsə də, istəyinə çata bilmədi. Ömür vəfa qılmadı.

Atamın teatrdakı fəaliyyətini xatırlayanda belə bir cəhəti qeyd etməyi vacib sayıram.

Müslüm Maqomayev öz məqaləsində atamın "uzunömürlü vokalçı" olmasının sirrini açmağa çalışmışdı. Atamın yaşa dolmasına baxmayaraq səsinin təravətini qoruyub saxlaması çoxlarını heyrətləndirirdi.

Atamın sözlərini xatırlayıram. O söyləyirdi ki, müəllimi A.V.Nejdanova C.Verdinin "Riqoletto" operasında Hersoqun partiyasını oxumamaq, Radamesə, Kavaradossiyə, Xozeyə, Germana çox bənd olmamaq! tövsiyə edirdi. O, həqiqətən də adları çəkilən ariyaları müstəsna hallarda konsert repertuarına daxil edərdi. Xozenin ariyası atamın ifasında 1983-cü ildə səsləndi. 1988-1989-cu illərdə P.İ.Çaykovskinin "Qaratoxmaq qadın" operasında Qermanın ariyası və Puççininin "Çio-çio-san" operasında Pinkertonun partiyası qızğın hazırlıq gedirdi. Sonuncu ariya artıq səhnədə məşq edilirdi. Lakin ağır infarkt keçirməsi atamın bütün planlarını alt-üst etdi. Teatrın direktoru A.T.Məlikovun qədirbilənliyi sayəsində atam səhnə ilə vidalaşmadı.

## Estrada ifaçılığı

Atam estrada ilə hələ gənc yaşlarından dostluq etməyə başlamışdı. 1957-ci ildə "Mən bir qıza rast gəldim" filmində A.Babayevin titul mahnısını ifa etmişdi. Həmin notların avtoqrafı bu günədək atamın arxivində saxlanılır. Atamı T.Quliyev, R.Hacıyev, S.Ələsgərov, A.Rzayev, M.Mirzəyev, A.Məlikov və başqa bəstəkarlarla uzun illərin yaradıcı dostluq telləri bağlayırdı. Tofiq Quliyevlə dostluq Moskva Dövlət Konservatoriyasında oxuduğu illərdən başlamış və ömrünün sonunadək davam etmişdir. Atamın o görkəmli bəstəkarın mahnılarından ibarət konserti AZTV-nin qızıl fondunda saxlanılır. Həmin konsert zamanı atamı T.Quliyevin özü fortepianoda müşayiət etmişdi.

Məşhur "Arşın mal alan" filminin ikinci variantı ekranlara çıxandan sonra həmin filmdə Əskərin ariyasını ifa etmiş atamdan tez-tez R.M.Behbudovla münasibətlərinin nə yerdə olduğunu soruşurdular. Çoxları iki bənzərsiz ifaçının möhkəm dostluğunun hələ də davam etdiyinə əmin olmaq istəyir, bəziləri isə atamdan başqa cavab gözləyirdi. Onların dostluğunu gözü götürməyənlər də vardır. Halbuki bu sənətkarların bir-birilərinə qarşılıqlı hörməti, mehriban dostluq əlaqələri və əsl sənət əsərini peşəkarcasına dəyərləndirmək bacarığı hamıya nümunə göstərilə bilərdi.

R.Behbudova həsr olunan televiziya verlişlərinin birində dahi sənətkarın qızı Rəşidə xanımın dedikləri:

"Arşın mal alan"ın ikinci variantının çəkilişinə başlayanda Əskərin ariyasını oxumağı atama təklif etmişdilər. O, isə yaşa dolduqca səsinin "bərkidiyini" əsas gətirərək ariyanı R.Atakişiyevin ifa etməsini məsləhət görmüşdü.

Rəşid Behbudovun orkestrində çalışmış pianoçular – Xalq artisti Rafiq Babayev və O.İsmayılovun hər ikisi atamın tələbəsi olub. Və atam R.Behbudovun xahişinə əsasən onları orkestrə təqdim edib.

## İnandırmaq bacarığı

Atam xoş rəftarı və səmimiyyəti ilə hamını inandırmağı bacarırdı. 1977-ci ilin yayı, Leninqrad. O vaxt muzeylərə düşmək müşkül məsələ idi. Bunun üçün saatlarla növbəyə durmaq lazım gəlirdi. Biz bir gündə həm İsaakiyevski qəsrini, həm də Petropavlovsk qalasını ziyarət etməliydik. Belə planlaşdırılmışdı. Əgər İsaakiyevski qəsrinə türk turist qrupuna qoşulmaqla daxil ola bildiksə, Petropavlovsk qalasına gəldikdə bəxtimiz gətirmədi. Amma atam bu uğursuzluqdan ruhdan düşmədi. Muzeyin administrasiyasına gedib, qastrolda olduqlarını, Qalaya baxmağı çoxdan arzuladığını, lakin növbəyə durmağa vaxtı olmadığını söylədi. Elə səmimiyyətlə, inandırıcı şəkildə danışdı ki, muzeyin rəhbərliyi bizə fərdi bələdçi ayırıb qalanı ziyarət etməyə imkan yaratdı. Ümumiyyətlə atam insanlarla ünsiyyət qurmaqdan zövq alırdı. Müsahibinin sosial statusu onun üçün elə də böyük əhəmiyyət daşımırdı. Çoxsaylı misallardan birini nəzərinizə çatdırım.

Günlərin birində axşam atam həyətə gəzintiyə çıxmışdı. Tez qayıdacağını desə də, nədənsə çox yubandı. Anam narahat olub onu axtarmağa getmək istərkən birdən atam peyda oldu. Belə

gec qayıtmasının səbəbini soruşdu. Nə baş verdiyini, ürəyinin ağrıyıb-ağrımadığını öyrənmək istədi. Məlum oldu ki, həyətin gecə keşikçisi ilə söhbət edirmiş. Atam o kişinin söhbətlərindən çox məmnun qalmışdı. Kişinin həyatda bir çox çətinliklərlə qarşılaşdığını və xəstə olduğunu dedi. Və ona dərman alacağına söz verdiyini bildirdi. Bizə tapşırdı ki, səhər ona dərman almalı olduğunu xatırladaq. Yoxsa, kişinin yanında yalançı çıxa bilər.

Atam haqqında xatirələrimi çözələmək mənimçün çox çətindir. Atamla bağlı o qədər xatirəm var ki...

Atam bir qədər sadəlövh, hər şeyə inanan, sadədil, sözdən tez təsirlənən insan idi. Lap uşaq xasiyyətində idi. Əslində elə böyük uşaq idi. Başqalarının uğuruna sevinər, kədərinə şərik olar, hiss və duyğularını gizlətməyi bacarmazdı. Heç kimə həsəd aparmaz, köməyə ehtiyacı olanlara yardım əlini uzadardı. Qonaqpərəst idi. İnsanlar onunla asanlıqla ünsiyyət qurardılar. Heyvanları çox sevər, onlara yazığı gələrdi. Təbiətin gözəlliyindən heyranlıqla danışardı. İntellektual, erudit, ədəbiyyatdan, tarixdən, rəngkarlıqdan söhbət açmağı çox xoşlardı. Musiqini həyatı qədər sevərdi. Bütün işləri mükəmməl görməyi özünə borc sayardı. İstər dostluq olsun, istər səhnə fəaliyyəti, ifaçılıq, istərsə də həyatın özünü. Atam musiqi kəhkəşanında nurlu bir ulduz kimi parladı, ətrafa işıq saçdı və təəssüf ki, tez də söndü. Ona ömrüm boyu minnətdar olacağam.

**QEYDLƏR**

1. P.R.Ryabov. 1942-ci ildə Voronejin işğalı zamanı həlak olub.
2. Ginetik dil. Dodaqların və əl-qol hərəkətlərinin vasitəsilə danışıq dili.
3. İ.A.Atakişiyev. Qələbəni Praqada qarşıladı.

**İzabella ABEZQAUZ**
Sənətşünaslıq namizədi, dosent

## RAFİQ ATAKİŞİYEV

1951-ci ildə Berlində keçirilən Demokratik gənclərin və tələbələrin Üçüncü Ümumdünya festivalında gənc Azərbaycan müğənnisi Rafiq Atakişiyev milli musiqi ifaçılarının müsabiqəsində iştirak etdiyinə görə fəxri diplomla təltif olunmuşdur. Ü.Hacıbəylinin eyniadlı operasından Koroğlunun qəhrəmani ariyasını, bəstəkar T.Quliyevin "Azərbaycan" mahnı-poemasını, "Alagöz" xalq mahnısının səmimi və füsunkar ifası müğənniyə böyük uğur gətirmişdir.

Rafiq Atakişiyev – canlı və ehtiraslı musiqiçi olub, gözəl, dolğun səsə (lirik-dramatik tenor) malikdir. O, Moskva Konservatoriyasında, A.Nejdanovanın sinfində musiqi təhsili almış, onun vəfatından sonra isə V.Barsovanın sinfində dərslərini davam etdirmişdir.

Konservatoriyanı bitirdikdən sonra Atakişiyev doğma Bakıya qayıtmışdır. O, radioda, konsert estradasında geniş kamera repertuarı ilə çıxış edərək, qısa müddət ərzində Opera teatrının səhnəsində bir sıra rollar yaradaraq dinləyici auditoriyasının rəğbətini qazanmışdır.

Rafiq Atakişiyevi Bakıda hələ onun pianoçu kimi ilk tələbəlik çıxışlarından, Çaykovskinin, Listin fortepiano konsertlərinin, klassik və sovet bəstəkarlarının mürəkkəb və virtuoz əsərlərinin ifaçısı kimi yaxşı tanıyırdılar. Fortepiano ifaçılığı indi də R.Atakişiyevin həyatında böyük yer tutur. Axı o, Moskva Konservatoriyasında

K.İqumnovun sinfində təhsil almış, aspiranturada Y.Fliyerin rəhbərliyi altında çalışmışdı. İndi isə peşəkar müğənni olaraq, R.Atakişiyev teatrdakı və radiodakı işini Azərbaycan Konservatoriyasında fortepiano pedaqogikası ilə uzlaşdırır.

Əlbəttə ki, əsaslı musiqi təhsili alması, alətə mükəmməl yiyələnməsi Atakişiyevə vokal ustalığını mənimsəməkdə çox kömək oldu. Düşünürəm ki, intonasiyanın saflığı, musiqi

frazasının aydınlığı ona üzvi surətdə xas olan cəhətlərdir.

Lirik ekspressiya, yüksəliş və gənclik ehtirası – Atakişiyevin ifaçılıq simasının ən cəlbedici cizgiləri kimi xarakterizə oluna bilər. P.Çaykovskinin və S.Raxmaninovun romanslarında, Lenskinin partiyasında, Y.Şaporinin «Далекая юность» ("Uzaq gənclik") və «Заклинании» ("Sehrli kəlmələr") romanslar silsiləsində, Ü.Hacıbəylinin qəzəllərində və digər Azərbaycan bəstəkarlarının lirik mahnı və romanslarında R.Atakişiyev həmişə dinləyiciyə insan qəlbinin canlı döyüntüsünü çatdırmaq istəyir. Onun ifaçılıq təfsiri parlaq səs təzadları üzərində - "cingildəyən" emosional qığılcımlarla, hamar və gözəl piano nüansında incə surətdə sönən səslərin növbələşməsi əsasında qurulur.

Müğənni yaxşı üslub hissiyyatına malikdir. O, İtalyan operalarından ariyaları oxuduğu zaman səslənən obrazın gözəllik hissiyyatını dinləyiciyə dolğunluqla çatdıra bilir. Rus bəstəkarlarının romanslarında, klassik rus operalarından ariya və səhnələrdə müğənni intonasiyanın sadəliyinə və səmimiliyinə can ataraq, hər bir tələffüz etdiyi frazanın ifadəli mənasına xüsusi diqqət yetirir. R.Atakişiyev Azərbaycan melodiyalarının zərif ritmikasını və rəngarəng məqam cizgilərini dərindən hiss edərək, bəzən (xüsusilə yuxarı registrdə) xalq ifaçılarının falset oxuma üslubuna yaxınlaşır. O, rus və ukrayna xalq mahnılarını da eyni müvəffəqiyyətlə ifa edir.

Opera teatrındakı işi gənc müğənninin yaradıcılıq diapazonunu əhəmiyyətli dərəcədə genişləndirmiş və onun qarşısında yeni və mürəkkəb ifaçılıq məqsədləri qoymuşdur.

R.Atakişiyevin opera rollarının siyahısına Lenski və Vodemon, Almaviva və Alfredlə yanaşı, Azərbaycanda çox məşhur olan, Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının qəhrəmanı Əsgər obrazı da daxil oldu. Adət etdiyi saf lirika aləmindən canlı məişət janrı sahəsinə keçid gənc aktyor üçün bir qədər çətin olmuşdur. Əvvəlcə o, Əsgər obrazında əsasən lirik cizgiləri vurğulayırdı. Lakin sonralar R.Atakişiyev bu rolun səhnə və vokal həllində bir çox cəhətləri düzgün hiss edərək üzə çıxarda bildi, onun qəhrəmanı həm səmimi həyəcanları ilə, həm də iti zarafatları və tükənməz şənliyi ilə canlandı.

1955-ci ildə R.Atakişiyevə bəstəkar B.Zeydmanın "Alay oğlu" (V.Katayevin povesti əsasında) operasında yefreytor Bidenko partiyası tapşırıldı. Sovet əsgərinin obrazı ifaçıdan vokalın yeni ifadəli üsullarının mənimsənilməsini tələb edirdi. Müğənni reçitativin kəskin ifadəliliyi üzərində əsaslı surətdə çalışmış, partiyanın solo epizodlarına isə sovet kütləvi mahnılarına xas olan sadə və qətiyyətli ifaçılıq üslubu aşılamışdır. Nəticədə bu obraz özünəməxsus inandırıcı realist xüsusiyyətlər kəsb etmişdir.

R.Atakişiyev hələ ki, hər zaman sırf səhnə planında qoyulmuş məqsədlərə nail ola bilmir. Zahirən hərəkətlərin məhdudluğunu dəf edərək, vokal ifaçılığın inandırıcılığını və gözəlliyini rolun ifadəli səhnə quruluşu ilə uzlaşdırmağı bacarması həm öz sənətinə qarşı tələbkar münasibətindən, həm də Bakı teatrının təcrübəli aktyor və rejissorlarının rəhbərliyindən irəli gəlir.

Opera səhnəsində yeni rollar yaradaraq, R.Atakişiyev öz konsert repertuarına ayrı-ayrı opera ariyalarını da daxil edir. O, F.Əmirovun "Sevil" operasından Balaşın iki ariyasını, Ü.Hacıbəylinin operasının üçüncü pərdəsindən Koroğlunun ariyasını ifadəli surətdə oxuyur ki, bunlar Azərbaycanda və onun hüdudlarından kənarda da çox məşhurdur. Lenskinin lirikasından Koroğlunun qəhrəmani xarakterinə çatmaq üçün müğənni həm Ü.Hacıbəylinin musiqisinin milli təbiətini dərindən hiss etmiş, həmçinin, obrazı iradəli intonasiyalarla, cəsur və qüvvətli cizgilərlə dolğunlaşdırmağa nail olmuşdur.

Rafiq Atakişiyev – Sovet Azərbaycanı gənclərinin ən yaxşı məharətli aktyor

nümayəndələrindən biridir.

İstedadlı pianoçu və müğənni, köhnə Bakı bolşevikinin oğlu olub, öz qabiliyyətini inkişaf etdirmək üçün bütün imkanları əldə etmişdir. Qarşıda onu vokal texnikanın və aktyor ustalığının təkmilləşdirilməsi üçün bədii obrazlar aləminə daha dərin və düşüncəli surətdə nüfuz etməsi yolunda böyük işlər gözləyir.

*«Советская музыка», 1956, № 6*

**Müslüm MAQOMAYEV**
SSRİ və Azərbaycanın Xalq artisti

## İSTEDAD

Mən həmişə bu fikirdə olmuşam ki, portret oçerkləri yazmaq – sənətşünasların, jurnalistlərin, tənqidçilərin işidir. Bu, qəzet səhifələrində həmin janrda mənim birinci çıxışımdır. İlk dəfə olaraq, mən bu qeyri-adi insan haqqında – nadir çoxcəhətli istedadlı, fövqəladə dərəcədə təvazökar və nəzakətli insan haqqında danışmaq istədim. Onu sizə təqdim edim.

Rauf Atakişiyev Azərbaycan Respublikasının Xalq artisti, Opera və Balet Teatrının solisti (30 ildir tenor repertuarının aparıcı ifaçısıdır), konsert müğənnisi, Azərbaycan Konservatoriyasının professoru, Fortepiano kafedrasının müdiridir...

Sonuncu fikirdə heç bir səhv yoxdur. R.Atakişiyev peşəkar müğənni və peşəkar pianoçudur və bu "ikisi birində" tamamilə eyni mənaya malikdir. Bu cəhətlərin arxasında heç zaman öz nadir istedadı ilə qürurlanmayan, musiqini ehtirasla sevən, özünü bütövlükdə səhnəyə və yeni musiqiçi nəsillərin yetişdirilməsinə həsr edən bir insan dayanır.

Gənc istedadın formalaşması onunla yanaşı duran insandan çox asılı olur. Bəziləri sənət yoluna qədəm qoyanda öz şəxsi hissiyyatına və zövqünə arxayın olur. Digərlərinə elə insanlar rast gəlir ki, geriyə baxmadan onlardan qaçmaq istəyirsən, üçüncülər isə təbiətin bəxşişi hesab edilən insanlarla rastlaşır.

Həqiqətən də Rauf Atakişiyevin taleyi xoşbəxt olmuşdur. Qırx il əvvəl gənc istedadlı pianoçunu Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəyli dinləmiş və respublika rəhbərliyinə onu Moskva Konservatoriyasına göndərməyi tövsiyə etmişdir.

Rauf imtahan vermək üçün Moskvaya gəlmişdir. O, əlbəttə ki, daxil olub-olmayacağı ilə bağlı həyəcan keçirirdi, çünki müsabiqə asan deyildi. Lakin gənc oğlan qibtə olunası optimizmə malik idi və yalnız professor K.N.İqumnovun sinfinə düşməyi arzulayırdı. Hələ imtahan dinləmələrindən əvvəl Rauf onunla görüşməyə nail oldu və onu öz sinfinə qəbul etməyi xahiş etdi, ancaq o, bilmirdi ki, İqumnovun sinfinə daxil olmaq üçün bir yerə 26 namizəd vardır. Konstantin Nikolayeviç nəzakətlə ona belə cavab verdi: "Cavan oğlan, mən çox sayda tələbə ilə məşğul olmaqdan ötrü çox qocayam – onlar isə kifayət qədərdir".

Dinləyişdən sonra İqumnov gənc pianoçunu yanına çağıraraq soruşdu: "Əgər mən sizi öz sinfimə götürsəm, siz məşğul olacaqsınız?". Rauf sevincək: "Əlbəttə ki, yoxsa mən buraya nə üçün gəlmişəm" – dedi. Professor təbəssümlə izah etdi: "Siz qafqazlılar hər zaman məşğul olmağa söz verirsiniz, ancaq sonra tənbəllik edirsiniz..."

Lakin R.Atakişiyev tənbəllik etmədi, o, bir gün, bir saat, bir dəqiqə də itirməyərək, böyük həvəslə və canfəşanlıqla məşğul olurdu.

Tale isə ona qarşı daha da əlaçıq oldu.

Musiqini sonsuz dərəcədə sevən Rauf vokalı da sevməyə bilməzdi. Konservatoriyanın boş otaqlarında o, Oleq Boşnyakoviçin müşayiəti altında, qəlboxşayan tenor səslə operalardan ariyaları, romansları, azərbaycan və rus xalq mahnılarını oxuyurdu. Onun dinləyiciləri tələbə həmkarları idi. O, sadəcə, səmimiyyətlə oxuyurdu, lakin onun vokal qabiliyyəti və oxuma istedadı dinləyicilərin diqqətini cəlb edirdi. İqumnovun sinfindəki pianoçunun dərsdən azad vaxtlarda "bülbül" kimi oxuması haqqında xəbər professor A.V.Nejdanovaya da çatdı...

Dinləyiş onun evində, həyat yoldaşı, görkəmli dirijor, həmin vaxt SSRİ Böyük Teatrının baş dirijoru olan N.S.Qolovanovun iştirakı ilə keçdi. Antonina Vasilyevna vaxt itirmədən vokal məşğələlərinə başlamağı təklif etdi.

Beləliklə, A.V.Nejdanova və K.N.İqumnov ilə məşğələlər, N.S.Qolovanovun daimi müşahidələri, Böyük Teatrın, eləcə də digər Moskva teatrlarının – Akademik Bədii Teatrının, Kiçik Teatrın, Vaxtanqov Teatrının tamaşalarına getməyi öz bəhrəsini verdi. Rauf Atakişiyev Moskva Konservatoriyasını parlaq nailiyyətlərlə, iki diplom alaraq bitirdi. Lakin diplom – zəruri formal amildir. Əsas məsələ – Raufun Moskvadakı tələbəlik illərini necə rəğbətlə və səmimi minnətdarlıqla xatırlamasıdır. O, deyir: "Bu, mənim həyatımın ən xoşbəxt dövrüdür. Görkəmli şəxsiyyətlərlə tanışlıq, görüşlər, dərslər, söhbətlər, məsləhətlər. Mənim qəlbim, sözün əsl mənasında, dərin həyat və musiqi təəssüratları ilə dolmuşdu. Təbii ki, hər şeydən əvvəl, mənim müəllimlərimdən gələn təəssüratlar idi – öz sənətkarlıq və insani keyfiyyətlərinə görə onlar görkəmli şəxsiyyətlər idi. Mən onların qarşısında baş əyərək, onlara pərəstiş edirəm, sonsuz dərəcədə minnətdaram və özümü borclu hiss edirəm".

İndi Azərbaycan SSR Xalq artisti, Konservatoriyanın professoru R.İ.Atakişiyev dahi müəllimlərindən əxz etdiyi bütün qiymətli biliyi öz tələbələrinə ötürür.

Mənim Rauf Atakişiyevlə ilk görüşüm – bütün həyatımız boyu rastlaşdığımız çox saylı təsadüflərdən biri oldu, lakin bu "təsadüf" əhəmiyyətli dərəcədə mənim yaradıcılıq tərcümeyi-halımı müəyyənləşdirdi.

Köhnə Bakı evi, bir neçə mənzili birləşdirən səciyyəvi qalereya. Mən, on altı yaşlı gənc oğlan, mütəmadi olaraq, bu mənzillərdən birinə gələrək, mənim birinci vokal müəllimim Susanna Arkadyevna Mikaelyanla məşğul olurdum. Bu dərslərdən birində, mən həmişəki kimi, darıxdırıcı qamma və arpecioları səylə oxumağa çalışdığım zaman, otağa dolu bədənli, xoşsima bir adam daxil oldu. Onun üzü həqiqi heyrət hissi ifadə edirdi: "Bunu hardan tapmısınız?" – deyə o, mənim müəllimimə müraciət etdi. Və cavab gözləmədən, yüngül hərəkətlə Susanna Arkadyevnanı kənarlaşdıraraq, özü royal arxasına keçdi, gözəl tenor səslə Donisettinin "Məhəbbət şərbəti" operasından Nemorino və Belkorenin duetinin reçitativinin başlanğıc frazasını oxudu. Bu musiqini mən yaxşı bilirdim, baritonun replikasını oxudum və artıq bir dəqiqədən sonra dərsdə olduğumu unutdum. Yalnız bizim improvizə olunmuş konsertimiz bitəndən sonra mən müəllimimə diqqət yetirdim, onun üzündən həm çox üzüldüyü, həm də olduqca razı qaldığı görünürdü. Axı necə əsəbiləşməmək olardı? Onun gözləri önündə gənc tələbəsinin yolu dəyişilirdi – məgər tədrisin ilkin mərhələsində mürəkkəb əsərlərin oxunmasına yol vermək olardımı? Mən isə, necə deyərlər, göyün yeddinci qatında idim – məşhur opera artisti və eyni dərəcədə tanınmış pianoçunu "canlı olaraq" görmüş, onunla danışmış və birgə oxumuşdum. Həmin vaxtdan, hər dəfə öz müəllimimin yanına dərsə gələrkən, mən ehtiyatla soruşurdum ki, onun məşhur qonşusu evdədir ya yox. Çox zaman çalışmaları səliqə ilə icra etdikdən sonra mükafat olaraq, dərsin sonunda bu gözəl musiqiçi ilə çalıb-oxumaq imkanı əldə edirdim.

Yaş fərqinə baxmayaraq, biz çox dostlaşdıq. Biz hər ikimiz "oxumağı sevən" müğənnilər

idik, bütün günü ifaçılıqla məşğul olub, səsyazılarını dinləyər, musiqi haqqında söhbətlər apara bilərdik. Eyni zanamda, məni çox təəccübləndirirdi ki, mənim böyük dostum, təcrübəli və tanınmış vokalçı mütəmadi olaraq, həmin Susanna Arkadyevna ilə məşğul olur, onun qeydlərini dinləyir və diqqətlə səhvlərini düzəldirdi. Bəzən ustadın "məktəb" dərslərində mənə onu müşayiət etmək xoşbəxtliyi nəsib olmuşdu. Həmin dəqiqələrdə nə qədər sevinc, həm də nə gizlədim, qürur hissləri keçirirdim! Elm və siyasət məsələlərində gözəl erudisiyalı, incəsənəti, ədəbiyyatı möhtəşəm surətdə bilən, zəngin kitabxanaya, fonotekaya malik bir insan olaraq, o, həmin dövrdə mənim gözümü çox açdı. Onun evində mən ilk dəfə dahi italyan belkanto ustadı Benyamino Cilyinin böyük həcmdə səs yazılarını, Luis Armstronqun sehrli trubasını və dahiyanə "səssizliyini" dinləmişdim. Respublikada çox tanınmış bu insan kiminlə ünsiyyətdə olurdusa – tələbələrilə, həmkarları ilə, və ya sadəcə incəsənəti sevənlərlə, o, həmişə insanlara faydalı olmaq istəyi ilə yaşayırdı, hamıya qarşı olduqca sadə, qayğıkeş və diqqətli idi.

Mən İtaliyadan qayıtdıqdan sonra, biz onunla həmişə "Sevilya bərbəri" tamaşasında tərəf-müqabil olmuşuq. Mən, yeni başlayan opera artisti olaraq, özümə qarşı nə qədər hörmət və nəzakət hiss etmişəm! Rauf Atakişiyevlə ansamblda, geniş səsə malik müğənni heç zaman öz tərəf-müqabilini "susdurmağa", səsinə görə üstünlük əldə etməyə can atmırdı. Əksinə, o, həmkarına kömək etməyə, öz incə musiqi duyumunu və artistizmini onlara aşılamağa çalışırdı.

R.Atakişiyev kompromissiz və fədakarcasına dostluq edir. Mən 10 illik fasilədən sonra (coşqun estrada-konsert fəaliyyətimlə əlaqədar) opera səhnəsinə qayıtmağı qərara aldıqda, Rauf bu cür çətin və riskli addımın təşəbbüskarlarından biri olmaqla yanaşı, həm də böyük qardaş kimi ciddi-cəhdlə bunu həyata keçirməyinə kömək etdi. O, mənimlə gündəlik məşğələlərə çox zaman sərf edirdi ki, itirdiyim opera oxumağı vərdişlərini tezliklə qaytara bilim. Mənim opera teatrında ikinci debütümün baş tutmasında Rauf Atakişiyevin böyük xidmətləri vardır. O – böyük hərflə yazılacaq Müəllimdir. Bu sözün ən nəcib mənasında, Müəllimdir.

Mən onun ailə çərçivəsində keçirilən yubileyində olmuşam. Adama elə gəlirdi ki, onun çox sadə mənzilinə sevimli professoru təbrikə gəlmiş bütün tələbələr sığışmaz. Onların arasında artıq peşəkar musiqiçilər – beynəlxalq və ümumittifaq müsabiqələrin laureatları da vardır. Tələbələr də onun ailəsinin üzvüdürlər, çünki özünü bütövlükdə pedaqoji fəaliyyətə həsr edən bu insan bütün boş günlərini, saatlarını, dəqiqələrini tələbələrinə verir. Onun həyat yoldaşı Zülfiyə Lvovna da müəllimdir – Azərbaycan Konservatoriyasının nəzdindəki musiqi məktəbində dərs deyir. Onun bəzi istedadlı şagirdləri sonradan konservatoriyada professor R.Atakişiyevin sinfinə daxil olurlar. Bu, artıq ənənədir. Buna görə də onların evi həmişə gənclərlə dolu olur: yetirmələri, sözün əsl mənasında, "gecə-gündüz" bu xeyirxah məkanda qalırlar. Bəlkə elə buna görə Atakişiyevlərin – bu gözəl insanların qəlbləri və xarakterləri bu cür gəncdir.

Professor ədalətli hakim şöhrəti qazanmışdır – buna görə də onu daim bizim ölkəmizdə və xaricdə ümumittifaq və beynəlxalq müsabiqələrin münsiflər heyətinə dəvət edirlər.

Adətən müğənnilər, "əllidən sonrakı" yaş həddini ötən zaman kədərlə səhnə həyatının qalan vaxtını hesablamağa başlayırlar... Müğənni Rauf Atakişiyev, əksinə, bu yaxınlarda Bizenin "Karmen" operasında Xoze partiyasında parlaq surətdə debüt etdi. Bu mürəkkəb rolu o, çoxdan səhnədə təcəssüm etdirmək arzusunda idi, lakin görünür, belə hesab edirdi ki, onun səsi bu partiyanın dramatizmini və ekspressiyasını tam olaraq açmaq üçün çox lirikdir. İndi isə, nə qədər paradoksal olsa da, onun səsi amansız zaman keçdikcə, "pozulmamış", "titrəməmiş", əksinə, daha yüksək, dolğun və zəngin olmuşdur.

Xatırlayıram ki, biz tələbələr sevimli müğənninin tamaşalarına necə dəstə ilə gedirdik. Onun ilhamlı Lenski obrazını, yazıq görünüşlü, qorxunc həqiqəti söyləyən Yurodivını

xatırlayıram; onun Vodemon kimi ən çətin partiyalarını dinləmişəm. R.Atakişiyev Donisettinin və Rossininin musiqisinə xas olan, böyük səs üçün nəzərdə tutulan mürəkkəb passajları, bəzəkləri parlaq tərzdə ifa edərək, Nemorino və Almaviva partiyalarını oxuyub; biz onun Faustunu və Alfredini alqışlamışıq. Bu siyahı çox uzundur, belə ki, o, həmin illərdə səhnədə, demək olar ki, bütün rus, sovet və qərbi avropa repertuarını təcəssüm etdirən ilk müğənnilərdən biri idi.

Qeyd etmək istərdim ki, opera artisti R.Atakişiyevin istedadını doğma respublikada yüksək qiymətləndirməklə yanaşı, onu ölkəmizin bir çox şəhərlərində və onun hüdudlarından kənarda rəğbətlə qarşılayırdılar. O, Polşanın və Çexoslovakiyanın opera teatrlarında müvəffəqiyyətlə çıxış etmiş, Bolqarıstan, Monqolustan, İngiltərə, Belçika, Lüksenburq, Seneqal və Nigeriyanın konsert zallarında rəğbətlə qarşılanmışdır.

Bu yaxınlarda Rauf Atakişiyev Leninqradın, Kiyevin, Bakının və Moskvanın filarmonik zallarında kamera konsertləri ilə çıxış etdi.

Mən onun Moskvadakı konsertində olmuşam, görkəmli sovet müğənnisi Nadejda Appollinariyevna Kazansevanın onun haqqında rəyini eşitmək mənim üçün çox xoş oldu. O dedi: "Mən Azərbaycan müğənnisini dinləməyə gəldim və açığı, düşünürdüm ki, o, Qlinkanın, Çaykovskinin, Raxmaninovun romanslarının rus ruhunu necə anlaya bilər? İndi isə deyə bilərəm ki, Atakişiyev bizə dərs verdi".

Bəli, incə qəlbli, erudisiyalı musiqiçiyə bütün xalqların və bütün dövrlərin musiqisi yaxındır. Azərbaycan xalqının oğlu olaraq, Rauf Atakişiyev məhz elə musiqiçilərdəndir ki, ona həm Hacıbəyovun doğma musiqisinin, həm də Çaykovskinin – əsl rus musiqisinin təsirli ifası xasdır. Müxtəlif xalqlara, üslublara, xarakterlərə, dəst-xəttə məxsus olan əsərləri o, öz proqramlarına daxil edirdi. Görünür, təbiət Raufa həm də incəsənətdə uzunömürlülük bəxş etmişdir. Əlbəttə ki, ona bu hədiyyədən heç bir sıxıntısız və tam şəkildə bəhrələnməyi arzu etmək istəyirəm.

*«Советская культура», 1986, 1 may*

**Könül NƏSİROVA**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor*

## DÜNYADAN GƏLƏN SƏS

Məktublar, müxtəlif sənədlər, fotoşəkillər, afişalar, müsabiqələrə dair qeydlər və şərhlər, qəzet məqalələri. Bunlar, sanki həyat kitabından səhifələrdir. Onları vərəqləyərkən gözəl pianoçu, müğənni, pedaqoq, böyük zəka və yüksək mədəniyyətə malik Azərbaycanın Xalq artisti, professor Rauf Atakişiyevin bənzərsiz və dolğun həyatının şahidi olursan.

Rauf hələ kiçik yaşlarından böyük arzularla yaşayırdı. O, tez-tez Romen Rollanın "Arzular həyata keçməlidir" kəlamını xatırlayırdı. Yumşaq, mülayim xasiyyətli, həyatda xeyirxahlığı ilə seçilən R.Atakişiyev yorulmadan hədəfə doğru gedirdi və öz məqsədinə çatmışdır – dünyanın ən yaxşı təhsil ocaqlarından birini – P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasını bitirir. Orada iki ixtisas üzrə – pianoçu və vokalçı kimi təhsil alır. Bu təəccüblü deyil, çünki istedad çoxşaxəlidir...

R.Atakişiyevin şəxsi arxivində saxlanılan bir fotoşəkildə o, valideynləri və qardaşı Tahir ilə həkk olunmuşdur. Balaca Rauf anasının boynunu məhəbbətlə qucaqlamış, Tahir isə atasına söykənmişdir.

Ailənin böyük oğlu Rauf 15 iyul 1925-ci ildə Göyçay şəhərində dünyaya göz açmışdır. Ailə bir müddət rayonda yaşadıqdan sonra Bakıya qayıtmışdır. Valideynləri onun musiqiyə həvəs göstərdiyini duyur və tezliklə balaca Raufu Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki onillik musiqi məktəbinə qoyurlar. İlk müəllimi – gözəl pedaqoq Lidiya Yegorova uzun illərə dayanan müəllimlik fəaliyyətində maraqlı tədris metodikası yaratmışdır. Onun R.Atakişiyevə təsiri musiqi dərslərinə çox erkən yaşında peşəkar münasibətin formalaşmasında özünü göstərir. O, Raufda "musiqi alətinin duyumunu" oyadır və fortepiano onun hiss və düşüncələrinin ifadəsinə çevrilir.

Qığılcımlar daşların bir-birinə vurulmasından yarandığı kimi, istedad da əməklə cilalanır. Az keçmişdir ki, öz bəhrəsini verməyə başlayır. 1937-ci ildə gənc istedadların baxışındakı uğurlu çıxışı gənc Raufa maraq oyadır və musiqi aləminin diqqətini özünə cəlb edir.

1942-ci ildə o, Azərbaycan Dövlət Konservatoriyasında Peterburq piano məktəbinin görkəmli nümayəndəsi M.Brennerin sinfinə daxil olur. 1945-ci ildə üçüncü kurs tələbəsi R.Atakişiyevin çıxışı ifaçılar müsabiqəsində xüsusilə qeyd edilir. Gənc nəslə son dərəcə diqqətlə yanaşan konservatoriyanın rektoru dahi Üzeyir Hacıbəyli, Raufun fitri istedadını, sənətinə ciddi və həssas münasibətini yüksək qiymətləndirir. Bu zaman Azərbaycanda peşəkar milli musiqi kadrlarına ehtiyacı duyulur. Böyük bəstəkar və xeyirxah insanın təşəbbüsü ilə istedadlı gənclər təhsillərini davam etdirmək üçün Moskvaya göndərildi.

"Mən üç dəfə Üzeyir bəyin yanında oldum. Hər şeydən bəllidir ki, əgər Bakıya qayıtsam, ona daha xoş olardı [...], amma hər halda da o, buna qarşı çıxmaz" – bu sözləri üçüncü kurs tələbəsi R.Atakişiyev Moskvadan qohumlarına yazmışdır.

1946-cı ildə gənc musiqiçi, otuz nəfərin bir yerə iddia etdiyi çətin imtahandan uğurla keçır və Moskva konservatoriyasının fortepiano şöbəsinin üçüncü kursuna qəbul olunur. Arzusu gerçəkləşir. O, görkəmli musiqiçi və müəllim, SSRİ Xalq artisti K.N.İqumnovun sinfində təhsil almağa başlayır. Həmin günlərin sevincini sonradan belə xatırlayırdı: «O vaxtdan çox aylar və illər keçdi, tamaşalar oldu və uğurlar [...], amma o anın xoşbəxtliyini heç bir yerdə və heç zaman mən daha yaşamadım».

Taleyi həmişə onun üzünə gülmüş və R.Atakişiyev həyat yolunda Ü.Hacıbəyli, M.Brenner, K.İqumnov, Y.Fliyer, A.Nejdanova, Y.Milşteyn kimi böyük müəllimlər və musiqiçilərdən dərslər almışdır. Onun mənəvi və peşəkar musiqiçi keyfiyyətlərinin formalaşmasında bu görkəmli şəxsiyyətlərin həlledici rolu olmuşdur. Gənc pianoçunun istedadını duyan pedaqoqlar, Raufun fərdi yaradıcılıq keyfiyyətlərini qorumuş və inkişaf etdirməyə çalışmışlar. Onlar öz biliklərini ona ötürmüş, dərindən düşünməyi öyrətmiş, bununla da pianoçu və vokalçı üçün əla ifaçılıq bünövrəsi yaratmışlar. R.Atakişiyevə xas musiqinin parlaq, təsəvvürlü qavrayışı, həyat təcrübəsinin ifaçı üçün vacibliyi və qazanılmış qeyri musiqili təəssüratları şübhəsiz ki, K.İqumnov və A. Nejdanovanın pedaqogikası ilə sıx bağlıdır.

XX əsrin 40-cı illərindəki Moskvanın bədii ab-havası, zəngin konsert və teatr həyatı R. Atakişiyevin formalaşmasına müsbət təsir göstərmişdir. Gənc pianoçu o dövrün ən böyük sənətkarları ilə yaxından tanış olur. Üstəlik, onlardan bəziləri ilə birbaşa əlaqə qurur və bu barədə anasına yazır: «Sizə deməliyəm ki, mən D.Oystraxa Soltanın Bakıda yazdığı violino konsertini çaldım [...] Oystrax konserti bəyəndi. Bunun sayəsində mən indi D.F.Oystrax ilə çox yaxşı tanışam».

Sonralar R.Atakişiyev konservatoriyanın dəhlizlərində S.Prokofyev, N.Myaskovski, S.Neyqauz, V.Sofroniski, A.Qoldenveyzeri gördüyü illəri ehtiramla xatırlayırdı. O, çox çalışır, daima konsert dinləmələrində çıxış edir. Konservatoriyanın yaxınlığında yaşadığına görə sevinir və qohumlarına yazır ki, daha ona «səhər saat 7-dən axşam 10-a qədər konservatoriyada hər gün oxumaq asandır».

Taleyin hökmü ilə R.Atakişiyev – K.N.İqumnovun sinfinin son məzunlarından biri olur. 1948-ci ildə sevimli müəlliminin vəfatından sonra o, K.N.İqumnovun assistenti Y.İ.Milşteynin fortepiano sinfinə keçir.

1948-ci ildə təhsili başa çatan R.Atakişiyev Moskva konservatoriyasının aspiranturasına tövsiyə olunan ən yaxşı məzunlar sırasında idi. Burada o, K.İqumnovun tələbəsi, məşhur pianoçu və pedaqoq Y.Fliyerin rəhbərliyi altında fortepiano təhsilini başa çatdırır.

Həmin il inanılmaz bir hadisə baş verir. Konservatoriyada bir pianoçu tələbənin dostlarını əyləndirmək məqsədi ilə vokal miniatürlər oxuması barədə xəbər yayılır. Bu təhsil ocağının professoru Antonina Vasilyevna Nejdanova, rus “bel canto” üslubunun canlı nümayəndəsi, R.Atakişiyevi dinləmək istəyini ifadə edir. Beləliklə, pianoçunun istedadının başqa bir tərəfi üzə çıxır.

XX əsrin görkəmli vokalçısı, SSRİ Xalq artisti A.Nejdanova bir çox gözəl keyfiyyətləri – Rusiya və Avropa tamaşaçılarını fəth edən gözəl səs tembri, dramatik istedadı və idrakı, yüksək mədəniyyəti və professionallığı özündə cəmləşdirən sənətkar idi. “Oxuyan pianoçu”nun istedadını dərhal qiymətləndirmək onun üçün çətin deyildi. Həyatının yeni bir mərhələsi başlayır. İndi o, mürəkkəb fortepiano proqramlarını öyrənməklə yanaşı, həm də müəllimlərinin tələblərini yerinə yetirməli idi.

Kağız parçası. A.Nejdanovanın səliqəli xətti ilə yazılmış dərs cədvəli. Həftədə üç dəfə o, tələbələri – Yermolayeva, Dolidze, Tarasova və R.Atakişiyev ilə məşğul olur. Həmin illərin fotolarından birində dərsin qısa bir parçası əks olunur – R.Atakişiyev oxuyur, A.Nejdanova isə onu fortepianoda müşayiət edir. Müəllimin xoş, diqqətli gözləri həyəcanla ağıllı və musiqidən ruhlanmış gəncin üzünə dikilmişdir.

“Konsertlərim çox uğurlu oldu. Mən Kiçik zalda Donisettinin “Sevgi içkisindən” Nemorinonun romansını, Çaykovskinin “Çereviçki”sindən Vakulanın ariozosunu, Qlierin “Ürəyin incə ehtirası”nı, təkrarən isə “Arlezianka” operasından Federikonun ariyasını ifa etdim və sonra tamaşaçılar sakitləşə bilmirdilər, uzun zaman məni səhnəyə “çağırırdılar”, ümumiyyətlə coşqu ilə reaksiya verirdilər. Nejdanova bu konsertdə idi, çox təbriklər aldı, məndən artıq dərəcədə məmnun qaldı! İndi hətta mənə paxıllıq edən insanlar yekdilliklə məni konservatoriyanın ən yaxşı tenoru kimi tanıdılar” – 1950-ci ilin iyun ayında Moskva konservatoriyasının fortepiano üzrə aspirantı və vokal şöbəsinin tələbəsi R.Atakişiyev anasına belə yazır. Növbəti addım P.Çaykovskinin “Yevgeni Onegin” operasından Lenskinin mürəkkəb partiyası idi və o, anlayırdı ki, “bu [...] əlbəttə, daha çətin olacaq”.

R.Atakişiyevin səsini italyan “*canto*” kimi müəyyənləşdirən A.Nejdanova, onu düzgün oxumağa, yuxarı notlara doğru səsin meylini dəyişməyə, vokal xəttini hamar ifa etməyə, ortada açıq səslə oxumamağı aradan götürməyə çalışırdı. O, daim onun nəfəsi, səs mədəniyyəti üzərində işləyir, səs texnikasının gedişatını izah edir və metodoloji prinsiplərini praktiki şəkildə göstərirdi. Tədricən, R.Atakişiyevin səsi daha sabit və peşəkar hala gəlir. Sonradan, müxtəlif əsərləri interpretasiya edərkən, o, həmişə musiqi tonlarının səslənmələrinin müxtəlif variantlarını işləmiş, nüansların incə dərəcələrini axtarıb tapmışdır. Beləliklə, R.Atakişiyev, böyük müəllimləri

K.İqumnov, Y.Milştein və A.Nejdanovadan, bu gün nadir hallarda rast gəldiyimiz səs mədəniyyətinə yiyələnir.

1950-ci ildə konservatoriyanın kiçik zalında gənc ifaçıların konsertində o, "əla vokal göstəriciləri, səsi idarə etmək bacarığı və ifaçılıq məharətini" nümayiş etdirdi. Rus musiqisinə xas olan poetik və musiqi başlanğıclarının qarşılıqlı əlaqəsi R.Atakişiyev üçün əsl sənətkarlıq məktəbi oldu və Lenski partiyasına yaxınlaşdırdı. 1950-ci ildə Moskva konservatoriyasının Opera studiyasında səhnələşdirilən P.Çaykovskinin "Yevgeni Onegin" operasında məhz bu rolda gənc müğənninin debütü baş tutdu. Dinləyiciləri R.Atakişiyevin səsinin açıq emosionallığı, tembrinin gözəlliyi, geniş nəfəsi heyran etdi. Lenskinin bütün partiyasını o, A.Nejdanovanın sinifində öyrəndi. Lakin o günlərin sevinci qısa olmuşdur, çünki bir müddətdən sonra sevimli müəllimi vəfat etdi. Bu işıqlı insanın və böyük bir pedaqoqun parlaq siması R.Atakişiyevin yaddaşında əbədi olaraq həkk olundu.

1951-ci ildə Berlində keçirilən Gənclər və Tələbələrin III Ümumdünya Festivalında R.Atakişiyev laureat adına layiq görüldü və bundan sonra məşhurluğu daha da artdı. Vokalçı və pianoçu kimi çıxışları tənqidçilər və dinləyicilər tərəfindən yekdilliklə tanındı.

Konservatoriyanı "sözün əsl mənasında bir sənətkar" olaraq bitirdikdən sonra, gənc artist Stanislavski və Nemiroviç - Dançenko teatrına və Bolşoy Teatrda işləmək üçün dəvət aldı.

Ancaq Bakıda yüksək peşəkar kadrlara ehtiyac duyduğunu anlayan R.Atakişiyev bu fürsətdən imtina edərək, vətənə qayıtdı. Onun çoxşaxəli ifaçılıq fəaliyyəti, müstəqil yaradıcılıq axtarışları dövrü başladı və o, təhsil illərində topladığı bilikləri həyata keçirməyə başladı. Klassik musiqinin şedevrləri onun zəngin repertuarının əsası olsada, R.Atakişiyev özünü müasir insanın psixoloji dünyasının müxtəlif çalarlarını əks etdirən sənətkar kimi tanıdır.

1953-cü ildən ömrünün sonuna qədər R.Atakişiyev Azərbaycan Dövlət Konservatoriyasında dərs deyir, uzun illər xüsusi fortepiano kafedrasına rəhbərlik edir və eyni zamanda, Azərbaycan Opera və Balet Teatrının solisti olur. Həftədə bir dəfə opera tamaşasında vokalçı kimi çıxış edir, daima yeni opera partiyalarını öyrənir, kamera musiqisi konsertləri ilə tamaşaçıları sevindirir və gənc müğənnilərə məsləhətlər verir. Bu, məqsədyönlü və gərgin iş illərində, onun fəaliyyətinin genişliyinə təəcüblənən insanlara R.Atakişiyev bir fikri xatırladır: "Əsas odur ki, vaxtınızı düzgün təşkil edib dəyərləndirəsiniz".

Gənc müğənninin opera teatrında debütü 1953-cü ildə P.Çaykovskinin "Yevgeni Onegin" operasında oldu. Bu, operanın Bakı səhnəsində ilk quruluşu olmasada, amma şahidlərin sözlərinə görə, şübhəsiz ki, yüksək səviyyəli tamaşası idi. Azərbaycanın Xalq artisti, dirijor Kamal Abdullayevin rəhbərlik etdiyi bütün kollektiv çox gərgin işləmişlər və "gözəl, zəngin səsin sahibi, R.Atakişiyev Lenski partiyasını həvəslə və maraqlı şəkildə təqdim etmişdir".

Bu uğur təsadüfi deyildi, çünki rol gözəl şəkildə gənc müğənninin həm xarakteri, həm güclü, yumşaq və lirik səsi, həm də onun insani xüsusiyyətləri ilə üst-üstə düşürdü. Müasirlərinin fikrincə, duel səhnəsindəki ariyası həsrət hissi ilə dolu idi. Qəhrəmanının psixikasının dərinliklərinə nüfuz edən R.Atakişiyev, obrazın xarici görünüşünü də yaxşı canlandırırdı.

1954-cü ildə Opera və Balet Teatrının səhnəsində P.Çaykovskinin "İolanta" operası göstərilmişdir. Azərbaycanın Xalq artisti, dirijor Əşrəf Həsənovun və rejissor, Ukraynanın Əməkdar artisti Arnold Azrikanın rəhbərlik etdiyi simfonik orkestri tamaşaçılara partituranın gözəlliyini ustalıqla çatdırdı və dərindən düşünülmüş bir tamaşa yaratdı. R.Atakişiyev qəflətən aşiq olan cəngavər Vodemonun mürəkkəb vokal – səhnə obrazını özünəməxsus bir şəkildə yaratdı. O, P.Çaykovski musiqisinin emosionallığını və semantik məzmununu düzgün hiss və

ifadə edə bildi. Tənqidçilər yazır: “Dünya opera ədəbiyyatında ən çətin səhnələrdən biri – İolanta (M.Titarenko) ilə duet səhnəsini R.Atakişiyev xüsusi romantik ruhda oynadı”.

1957-ci ildə Ümumrusiya Teatr Cəmiyyətinin dəvəti ilə R.Atakişiyev Moskvada A.Nejdanova tələbələrinin konsertində çıxış etdi və bundan sonra Varşava, Lodz, Krakovda (Polşa) C.Rossininin “Sevilya bərbəri” və C.Verdinin “Traviata” tamaşalarında iştirak etmək təklifini aldı.

Böyük sənətkarın çıxış etdiyi ilk Polşa şəhəri, İkinci Dünya Müharibəsindən sonra yenidən qurulan və Avropanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Lodz idi. Müğənninin C.Verdinin “Traviata”dakı tərəfdaşları Sofya Rudniskaya (Violetta) və Stanislav Qaymberger (Jermon) idi. “Dünən Lodz operasında bir qonaq ifaçı – [...] tenor R.Atakişiyev çıxış etdi. Qonaq təmiz, gözəl səsi və özünün böyük mədəniyyəti ilə sənətkarlığını sübut etdi. Operanın sonunda tamaşaçılar [...] artisti uzunmüddətli alqışlarla mükafatlandırdılar”, – bu sözləri tamaşadan sonra Polşa qəzetlərindən biri yazmışdır.

Buna görə də o, teatrın təcrübəli dirijoru, tamaşanı yüksək səviyyədə idarə edən və vahid yaradıcı qüvvəni düzgün səmtə yönəldən Varşava konservatoriyasının professoru Vladislav Raçkovskini minnətdarlıq hissi ilə xatırlayırdı.

Polşanın qədim paytaxtı Krakovda, o, iki dəfə C.Rossininin “Sevilya bərbəri” operasında Almaviva partiyasında çıxış etmişdir. Burada o, gözəl ifaçılara vərdiş etmiş Krakov dinləyicilərini təəccübləndirməyi bacardı. Tamaşanın dirijoru, Rossini musiqisinin bilicisi Peter Mura idi (Macarıstan). Güclü aktyor heyətinə gözəl səsləri olan sənətçilər – Yanino Stano (Rozina), Jerji Kuleşa (Fiqaro) ilə birlikdə, R.Atakişiyev (Almaviva) daxil idi və onlar ahəngdar bir ansambl təşkil edirdilər. Tamaşaçılar ifaçıları hərarətlə qarşıladılar və “Krakov operasının sənətçiləri üçün [...] artist (R.Atakişyiev – K.N.) ilə birgə çıxış böyük imtahan oldu və imtahan beş üstəgələ layiq görüldü”.

Onun çıxış etdiyi son Polşa şəhəri Varşava idi. Burada o, C.Verdinin “Traviata”sında Alfred və Rossininin “Sevilya bərbəri” operasında Almaviva partiyalarını səsləndirdi. Bu rollar son dərəcə çətindir, çünki bir çox dünya şöhrətli ifaçıların repertuarına daxildir. Buna baxmayaraq, Polşa mətbuatı yazır ki, “R.Atakişiyevin sənətini ən yüksək meyarlara görə qiymətləndirmək, mübaliğəsiz onu görkəmli müğənnilər sırasına daxil etmək mümkündür. Gözəl tembrli, düzgün qoyulmuş tenor səsi, istedadının lirik mahiyyəti, yüksək emosionallığı Atakişiyevə Alfredin unudulmaz obrazını yaratmağa imkan verdi”.

“Traviata”da sənətçini təəccübləndirən Alina Bolexovska olmuşdur, hansı ki, “mükəmməl şəkildə oxumuş və dördüncü pərdədə (Violettanın ölümü səhnəsində) tamaşaçıları sarsıtmışdır”. Polşalılar, Almavivanın texniki cəhətdən mürəkkəb partiyasını asanlıqla səslənməsinə heyrətləndilər. Onlar etiraf etdilər ki, R.Atakişiyevin çıxışı sayəsində “Sevilya bərbəri” Varşavada nümayiş olunan ən yaxşı tamaşalardan birinə çevrildi.

1960-cı ildə Bakıda musiqi və teatr mövsümü rejissor, Rusiyanın Xalq artisti P.Zlatogorov və Azərbaycanın Əməkdar incəsənət xadimi, dirijor Kazım Əliverdibəyovun ifasında S.Prokofyevin "Monastırda nişanlanma" operasının qoyulması ilə əlamətdar oldu.

Əsas Don Jeromun rolunu R.Atakişiyev canlandırdı. Bu da Bakı tamaşaçıları üçün böyük sürpriz oldu. İstedadının pərəstişkarları artisti gözlənilməz bir tərəfdən kəşf etdilər. O, Sevilyadan olan yaşlı bir zadəgan və sözünə qulaq asmayan qızı Luizanın atası rolunda çıxış etdi.

Don Jeromun qəzəbli şikayətləri, “tamaşanın ən parlaq simalarından biri, R.Atakişiyev tərəfindən komediya teatrındakı adi şarj kimi deyil, insan hisslərinin real ifadəsi olaraq qəbul edildi. Artist insanları bu obrazda gizlənən əhval-ruhiyyənin mürəkkəbliyinə, [...] qəhrəmanının

hisslərinin həqiqiliyinə inandıra bildi”. Beləliklə, illər keçdikcə R.Atakişiyevin oyunu həm ustalığı, həm də janr müxtəlifliyi ilə seçilir.

1986-cı ildə “Monastırda nişanlanma” lirik – komik opera yenidən səhnəyə qoyuldu. O, bir daha Don Jeromun partiyasında çıxış etdi. Opera ariozo-mahnı zənginliyi ilə seçilir və burada müğənnilər üçün səslərini, kantilenalı ifalarını nümayiş etdirməyə geniş imkanlar açırdı. Burada əsərin əvvəlində Mendozaya qızının cazibələrindən bəhs edən məşhur “Jeromun Skerso”su, Antonionun ariya və serenadası, yeddinci şəklin əvvəlində Klaranın ariozosunu xatırlamaq olar.

Musiqi rəhbəri və dirijoru K.Əliverdibəyov, quruluşçu rejissor P.Zlatoqorov, S.Prokofyevin musiqi ruhuna tam uyğun maraqlı, məzəli, şən bir tamaşa yaratdılar. R.Atakişiyev “Bir qızın varsa ...” ariyasını gözəl ifa etdi. Don Jerom və Duenyanın, hansının ki rolunu İ.Karaseva oynayırdı, komik dueti gözəl səsləndi. Don Jeromun mürəkkəb partiyasının təfsiri “emosional, mənalı intonasiya və bədii cəhətdən inandırıcı oxuma üslubu, vokal nüansların zənginliyi ilə fərqlənirdi” – bu sözləri tənqidçilərdən biri R.Atakişiyevin Mordoviyadakı ifasından sonra yazmışdır. Süni komizmdən uzaq olan Don Jeromun partiyası sənətkarın səhnə uğurlarından birinə çevrildi.

Opera teatrının solisti kimi R.Atakişiyev, demək olar ki, hər il tamaşaçıları yeni rollarla sevindirirdi. 1961-ci ildə o, Ş.Qunonun eyni adlı operasında gənc Faust partiyasında çıxış etdi. İfaçı üçün olduqca çətin rol bir daha təsdiqlədi ki, R.Atakişiyev gözəl səsi və böyük istedadı olan birinci dərəcəli sənətkardır. Təbii intuisiya və dərin biliklər artistə bu obrazın interpretasiyasında stereotiplərdən yayınmağa imkan verdi.

1962-ci ildə opera teatrında Azərbaycanın Xalq artisti Soltan Dadaşev və dirijor Ə.Həsənov tərəfindən quruluşu verilmiş N.A.Rimski-Korsakovun “Mosart və Salyeri” operasının premyerası olmuşdur. Mosartın partiyasını R.Atakişiyev, Salyerini isə V.Y.Lubyanoy ifa etdilər. “Mosart və Salyeri” operası, sanki əla pianoçu və gözəl vokalçı istedadını üzvi şəkildə özündə birləşdirən R.Atakişiyev üçün yazılmışdı. Mosartın rolunda onun güclü istedadının iki tərəfini – həm oxumadığını, həm də fortepianoda solo ifasını müşahidə etmək olurdu. Operanın mühüm bir epizodunu Mosart ruhunda N.Rimski-Korsakov tərəfindən bəstələnmiş və R.Atakişiyevin ustalıqla ifa etdiyi fortepiano fantaziyası təşkil edirdi.

1964-cü ildə şəhərin hər tərəfinə asılmış afişalar, bakılılara M.Maqomayevin "Sevilya bərbəri" operasında çıxış edəcəyini xəbər verirdi. Təkcə M.Maqomayev üçün deyil, həm də opera teatrı üçün premyeraya çevrilən tamaşa Azərbaycanın Xalq artistləri, dirijor Əfrasiyab Bədəlbəyli və rejissor Şəmsi Bədəlbəylinin rəhbərliyi ilə həyata keçirildi. Yüksək ifaçılıq mədəniyyəti və peşəkarlığı ilə italyan dilində M.Maqomayevin ifasında Fiqaro və R.Atakişiyevin ifasında Almaviva rolu səsləndi. "Rauf Atakişiyevin pianist kimi bacarığından da çox uğurla istifadə edildi. ... Üçüncü pərdədə, Almavivanın Rozinaya dərs keçdiyi epizodda, o, səhnədə qədim bir alət – çelesta ilə özünü müşayiət edir". Fiqaro və Almavivanın ifaçıları – həyatda dostluq edən M.Maqomayev və R.Atakişiyevi gözəl və güclü tembrli səsləri, incə zövq, mükəmməl texnika, musiqinin dərin hissiyatı fərqləndirdi.

1965-ci ildə C.Rossininin "Sevilya bərbəri" Budapeşt Opera və Balet Teatrının solisti Jujji Erdesin iştirakı ilə Bakıda göstərildi. R.Atakişiyevin düşüncəli oyunu və virtuoz ifası opera tamaşasına yeni nəfəs gətirdi. SSRİ Xalq artisti Şövkət Məmmədova qeyd edirdi ki, “R.Atakişiyev qraf Almaviva rolunda özünün böyük vokal mədəniyyətini göstərdi və J.Erdesin səhnədə layiqli tərəfdaşı oldu”.

Bir il sonra, 1966-cı ildə Sofiya operasının solisti Sabin Markov C.Verdinin “Traviata” operasında iştirak etmək üçün Bakıya qastrol səfərinə gəldi. Jermonun ifaçısı S.Markov, Alfredi

oynayan R.Atakişiyevlə ansamblda çıxış etdi. "R.Atakişiyev, həmişə olduğu kimi, yüksək ifa mədəniyyəti, təbiiliyi və səhnə mədəniyyəti ilə tamaşaçıları valeh etdi".

Onun yaratdığı Alfred obrazı, yaşadığı hisslər, ümidsizlik R.Atakişiyevin gözəl səsi və aktyor oyunu vasitəsilə dəqiq şəkildə çatdırıldı. Əvvəllər o, bu partiyanı Buxarest operasının solisti Lella Çinku və Bolşoy teatrın solisti Y.V.Şumskaya Bakıya qastrol səfərinə gələndə, oxumuşdur. 1965-ci ildə R.Atakişiyev Azərbaycan mədəniyyətinin Bratislavada keçirilən ongünlüyündə, yenidən bu partiyada çıxış edir. Hazırlıq üçün çox vaxt olmadığına baxmayaraq, onun səsi, ifası tamaşaçıları valeh etdi.

1965-ci ildə Bakının opera səhnəsində yenidən A.Rubinşteynin lirik – dramatik "Demon" operası oynanıldı. 1875-ci ildə M.Lermontovun şeiri əsasında yaradılan bu operanın musiqisi tənha bir insanın düşmən bir dünya ilə mübarizəsi fikrini əks etdirirdi. Rejissor və quruluşçu rejissor S.Dadaşev operanın ümumi ruhunu diqqətlə yarada bilmişlər. Tamara rolunu SSRİ Xalq artisti Firəngiz Əhmədova, Demon rolunu Azərbaycanın Xalq artisti Mürsəl Bədirov oynamışlar. R.Atakişiyev Tamaranın nişanlısı knyaz Sinodalın rolunu ifa etdi. O, Sinodalın ariozosundaki Şərq xarakterli melodiyanı çox incə, poetik duyğu ilə səsləndirdi. Ölüm səhnəsində, Tamaranı xatırlayan qəhrəmanın melodiyası artistin təfsirində olduqca ifadəli olmuşdur.

R.Atakişiyevin opera teatrında yeni yaradıcılıq uğuru 1966-cı ildə səhnəyə qoyulmuş "Boris Qodunov" operasında Yurodivının partiyası idi. Opera M.Musorqskinin dramaturji konsepsiyasını təhrif edən ənənəvi ixtisarlar olmadan getmişdir. Tamaşanın dirijoru S.Berqolts, quruluşçu rejissoru – S.Dadaşev, baş rolların ifaçıları – V.Qurbanov (Boris), G.Əliyev (Samozvanes), İ.Karaseva (Mariya Mnişek), R.Atakişiyev (Yurodivı) musiqinin ruhunu dəqiq çatdırmışlar. R.Atakişiyevin səsi kiçik, lakin öz mahiyyətinə görə əhəmiyyətli partiyada zəngin, isti pastel tonlarla seçilirdi. Sənətkar, rus opera ənənəsini xalq mahnı mədəniyyəti ilə bağlayan Musorqskini düzgün anlamışdır. Müasirlərinin xatirələrinə görə, R.Atakişiyev bu partiyada yaradıcı potensialını dərk edən və oynadığı obrazın ideyasını ifadə etməyi bacaran kamil bir sənətkar kimi özünü göstərmişdir.

Bir neçə onilliklər ərzində R.Atakişiyev Azərbaycan və Avropa bəstəkarlarının operalarında tenor partiyalarını ifa edir. Otuz unudulmaz rol: Lenski, Vodemon, Yurodivı, Almaviva, Sinodal, Don Jerom, Faust, Mosart, Nemorino, Knyaz, Kassio, Edmund, Xoze, Hofman, Əsgər, Balaş, Bahadır və başqaları.

Ancaq o, nəinki opera səhnəsində çıxış edirdi. R.Atakişiyev qədim italyan ustaları, Hendel, Şubert musiqisinin əzəmətli təbiətini orqanın müşayiəti ilə məharətlə dinləyicilərə çatdırırdı. Bakı, Moskva, Leninqrad, Kiyev, Bolqarıstan, İngiltərə, Belçika, Seneqal, Monqolustandaki kamera konsertləri onu rus və Qərbi Avropa musiqisinin incə ifaçısı kimi tanıtmışdır. R.Atakişiyev ilhamla R.Şumanın "Şairin məhəbbəti" vokal silsiləsini, M.Qlinka, P.Çaykovski, S.Raxmaninov, N.Rimski-Korsakovun romanslarını ifa etmişdir. Fitri istedadı, incə musiqi hissiyatı, səslərin müxtəlif nüansları, lirik intonasiyaları R.Atakişiyevin konsert səhnəsindəki fərqli cəhətləri idi.

R.Atakişiyevin repertuarının təməl nöqtəsini Azərbaycan bəstəkarlarının əsərləri təşkil etmişdir və onların təfsiri onun yaradıcılıq uğurlarına aiddir. Ü.Hacıbəyli, F.Əmirov, T.Quliyev, R.Hacıyevin vokal miniatürlərini ustalıqla səsləndirmişdi. "Evləri var xana-xana" Azərbaycan xalq mahnısının ifası dünyanın müxtəlif şəhərlərindəki konsert salonlarında tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdı.

R.Atakişiyev üçün 1955-ci ildə opera teatrında səhnələşdirilən Ü.Hacıbəylinin "Arşın mal alan" operettası bir növ "yaradıcı imtahan" olmuşdur. SSRİ Xalq artisti Rəşid Behbudovun

“Arşın mal alan” (1945) filmində yaratdığı etalon nümunədən sonra bu populyar operettada çıxış etmək olduqca çətin idi. Bununla belə, R.Atakişiyev ilk pərdədə Əsgərin ariyasında “qəhrəmanın hisslərinin dərinliyini və poetikliyini səmimiyyətlə vurğulamağı” bacardı, Gülçöhrə ilə “səmimi və hərarətli” lirik səhnələri səsləndirdi”.

Dirijor Ə.Bədəlbəyli və rejissor S.Dadaşevin rəhbərlik etdiyi bu quruluş böyük maraq oyatdı, tamaşaçılar R.Atakişiyev (Əsgər) və F.Əhmədovanın (Gülçohrə) duetini qeyri-şərtsiz qəbul etdi. Əsgərin məşhur rolunda yeni məqamların tapılacağını heç kim inanmırdı, lakin R. Atakişiyevin ilhamlı oyununun mükəmməlliyi, yeni “rənglər” tapmaq bacarığı tamaşaçıların gözləntilərini üstələdi. Təsadüfi deyil ki, sonralar “Arşın mal alan” operettasının yeni çəkilişində Əsgərin rolunu məhz R.Atakişiyev ifa etdi. Bu dəfə Ü.Hacıbəylinin musiqili komediyasının redaksiyasının müəllifi SSRİ Xalq artisti F.Əmirov olmuşdur. Kinematoqrafiya Komitəsinin Moskva Simfonik Orkestri və azərbaycanlı müğənnilər Moskvada bütün operettanın musiqisini lentə yazdılar.

R.Atakişiyev R.Hacıyevin yaradıcılığını sevir və bəstəkarın rəhbərlik etdiyi Azərbaycan Dövlət Estrada Orkestrinin müşayiəti ilə “Bakı haqqında mahnı”sını məmnuniyyətlə ifa edirdi. Uzun illər bu orkestrin solisti olaraq, o, dəfələrlə uğurlu qastrol səfərlərinə gedir. Nəcib, təmkinli oxuma tərzi, böyük qüvvə və parlaqlığa malik səsi ona eyni zamanda Azərbaycan xalq mahnılarını, T.Quliyev, F.Əmirov, Niyazi, R.Hacıyev və digər bəstəkarların vokal miniatürlərini ifa etməyə imkan verir.

R.Atakişiyevin fəaliyyətinin maraqlı cəhətlərindən biri müxtəlif müsabiqələrin münsiflər heyətində iştirak etməsi idi. 1981-ci ildə onu, nüfuzlu bir musiqiçi kimi, Mariya Kallas adına Beynəlxalq vokal müsabiqəsinin heyətinə daxil etdilər. Səkkiz nəfərdən ibarət münsiflər heyətinə Tito Qobbi, İrma Kolassi və s. böyük musiqiçilər daxil idi.

R.Atakişiyev müsabiqənin heyətində iştirak etməsinə əsl peşəkar kimi məsuliyyətlə yanaşdı. O illərin hadisələrinin “şahidi” olan sənədlərdə R.Atakişiyev dünyanın müxtəlif ölkələrindən – İtaliya, Yaponiya, ABŞ, Fransa, Kanada, Kuba, Rumıniya, Yunanıstan, SSRİ və s. gəlmiş altmış iştirakçının adını yazmışdır. Hər birinə R.Atakişiyev özünəməxsus, dəqiq xarakteristikalar vermişdir: “maraqsız səs”, “gözəl, lakin hazırlıqsız səs”, “gözəl səs (violonçel)” və s. O, müxtəlif ifaçıların proqramlarında qeydlər etmiş, çıxışlarını rəqəmlərlə qiymətləndirmişdir.

1981-ci il Mariya Kallas adına Beynəlxalq vokal müsabiqəsi onun üçün xüsusilə gərgin idi. Çünki Moskvada seçmə “imtahandan” keçərək həmyerlisi Xuraman Qasımova burada iştirak hüququnu qazanmışdır. R.Atakişiyev onu ürəkdən dəstəkləyir, peşəkar məsləhətlər verir, xoş sözlərlə ruhlandırmağa çalışırdı. “Sanki indiki kimi onun səsini eşidirəm: “Bu müsabiqənin kimin adını daşıyacağına bax. Burada iştirak etməyin çox böyük uğurdur”. Sonra isə... Birdən iki mükafatı – Birinci və Qran-Prini aldığımda o, necə də sevindi” – deyərək, Azərbaycanın Xalq artisti X.Qasımova xatırlayırdı.

“Ən xoşbəxt insan ən çox insanı xoşbəxt edən adam sayılır” deyirlər. Bu gün nadir hallarda rast gəlinən yüksək ünsiyyət mədəniyyətinə sahib olan mehriban, qayğıkeş R.Atakişiyev fortepiano sənəti, ecazkar səsi və pedaqoji fəaliyyəti ilə bir çox insanlara sevinc bəxş etmişdir.

O, milli ifaçılıq sənətinin inkişafına əvəzsiz töhfələr vermişdir. İstedadından az olmayan insanlıq cazibəsinə malik R.Atakişiyev özü haqqında danışmağı sevmirdi, buna ehtiyac yox idi. Çünki sənəti onun əvəzinə “danışırdı”. Bu, Xalqlar dostluğu ordeninin sahibi, səsi Azərbaycan sənətinin qızıl fonduna və Rusiyanın Qırmızı Kitabına daxil edilmiş, əməlləri Azərbaycan musiqi tarixinin parlaq səhifəsini təşkil edən böyük bir insanın və musiqiçinin təvazökarlığı idi.

# RAUF ATAKİŞİYEV
# HƏMKARLARIN VƏ TƏLƏBƏLƏRİN XATİRƏLƏRİNDƏ

**Fərhad BƏDƏLBƏYLİ**
*SSRİ və Azərbaycanın Xalq artisti, professor*

## "SƏNSİZ DÜNYA TƏNHADIR"

Yaradıcı, pedaqoji, mənəvi, iqtisadi və insani tərəfdən itirdiklərimizi qiymətləndirmək çox çətin və qeyri-mümkündür. Əsl istedadı heç bir maddi dəyərlə müqayisə etmək mümkün olmasa da, Rauf müəllimin gedişi ilə biz hər gün yalnız ona xas olan xüsusiyyətlə qarşılaşırıq. Axı Atakişiyev – sadəcə bir istedad deyil, bir fenomendir. Bənzərsiz (unikal) fenomendir. Hətta biz – onun tələbələri, dostları, həmkarları bir insanda bu qədər istedadın necə birləşə biləcəyinə təəccüblənməkdən əl çəkmədik: ecazkar müğənni, parlaq pianoçu, möhtəşəm müəllim... O, təkcə azərbaycanlılarımızın deyil, bütün dünya mədəniyyətinin bir fenomenidir. Bənzərsiz, hər şeyə qarşı səxavətli olmayan təbiətin bizə onun kimi bir insan bəxş etməsi kim bilir nə qədər zaman alar.

Bəs onun müəllimləri, mənəvi rəhbərləri, dostları? Axı Atakişiyevə böyük müğənni Antonina Nejdanovanın və məşhur rus pianoçu məktəbinin görkəmli nümayəndələrindən biri olan İqumnovun tələbəsi olmaq qismət olmuşdur. Fliyer, Zak, Milşteyn ilə dostluq, qeyri-adi, görkəmli insanlarla ünsiyyət imkanı – bunlar Atakişiyevin istedadının dayaqlandığı təməldir.

Nejdanova və İqumnov müəllim kimi Rauf müəllimə necə münasibət göstərmişdilərsə, Rauf müəllim şəxsən özü də öz tələbələrinə elə münasibət göstərirdi. Ensiklopedik biliklərini və yüksək musiqi peşəkarlığını bacardığı qədər tələbələrinə necə ötürəcəyini bilirdi. Boris Qusliser, Samirə Aşumova, Vasif Həsənov, Lalə Mustafazadə, Ülviyyə Vəliyeva, Hacıbaba Əliyev – bu gün bu adlar – onun tələbələrinin adları – musiqi dünyasında tanınır.

Mükəmməl bir vokal ustası olmasına baxmayaraq yalnız fortepianodan dərs keçirdi. Və bu da onun görkəmli şəxsiyyətinin sirridir. Buna baxmayaraq, o, müğənnilərdən məsləhətini heç bir zaman əsirgəmirdi.

Royal və vokal. Burada hansının əsas olduğunu, nəyin ona daha yaxın olduğunu və nədə daha çox mükəmməlliyə çatdığını müəyyən etmək mümkün deyil. Mənim fikrimcə, bərabər, ekvivalent və eyni dərəcədə möhtəşəmdir. Onun əllərinin altında royal oxuyurdu: klaviaturada bir növ sehrli sürüşmə, inanılmaz texnika və eyni zamanda musiqi ifadəsinin dərinliyinə nüfuz. Həmişə parlaq forması və bacarığı başqalarının dayanmasına və sakitləşməsinə imkan vermirdi.

Onun vokal partiyalarında görkəmli bir dramatik istedadı ortaya çıxırdı. Güclü, gözəl səs tembri, orijinal və dəqiq yerləşdirilmiş semantik vurğuların, musiqi materialının hərtərəfli mənimsənilməsinin və əlbəttə ki, ifaçı şəxsiyyətinin cazibəsinin qeyri-adi yaradıcı sintezi həqiqi bir möcüzə doğururdu. CDRİ direktoru, ecazkar müğənni N.Kazantseva Atakişiyevin Çaykovskinin romanslarını səsləndirdiyi Moskvadakı konsertdən sonra dedi: "Biləndə ki, Azərbaycandan bir müğənni belə proqramla çıxış edəcək düşündüm: buna baxın necə təkminləşiblərsə rus romanslarını ifa etməyə cürət edirlər. Ancaq maestro Atakişiyevi dinlədim... və dəqiq, düzgün bir musiqi hecasının digərinə çevrildiyini, bir cümlənin digərinə itirilmədən birləşdiyini yalnız vokalist anlaya bilər ki, bu necə möhtəşəmdir. Hamımıza rus musiqi üslubunun, rus poeziyasının mahiyyətinə nüfuz etmək kimi bir dərs verildi. Rus müğənniləri Bakıdan gələn vokalçıya paxıllıqla həsəd aparmalıdırlar". Bu, Azərbaycan müğənnisinin ustalığına, Azərbaycanın musiqi və mənəvi mədəniyyətinə verilən ən yüksək qiymət deyilmi!

Rauf müəllimin vətəndaş mövqeyi ən çox onun adına uyğun yüksək qonorar üçün konsert vermək və xaricdə dərs demək üçün dəfələrlə edilən dəvətlərdən imtina etməsi ilə (onun son illərində, hamımız kimi, məlum səbəbə görə həyatı çox da rahat deyildi) sübut olunur. Tələbələrini, konservatoriyanı, şəhərini qoyub gedə bilmirdi.

Konservatoriya yetim qaldı. Adama elə gəlir ki, onsuz hər yer soyuyub, ona görə ki, o, başqa bir istedada – xeyirxahlıq istedadına malik idi. Bu insan bütün dünyaya sarılmaq, hər kəsə kömək etmək, hər kəsə xoş söz demək istəyən bir insan idi. Qonaqpərvər, məzhəkəli, şən – onun evində həmişə stolətrafı yığıncaqlar keçirilirdi hansı ki, o, bayramların olmasını çox sevirdi.

**Yazdı N.Rüstəmova**

*"Azərbaycan", 1994, 12 mart*

**Polad BÜLBÜLOĞLU**

*Azərbaycanın Xalq artisti, professor*

## İLHAMLANDIRAN... UNUDULMAZ...

Görünür Çexov`un dediyi: "İnsanda hər şey yaxşı olmalıdır...", – sözləri məhz Rauf Atakişiyev kimi ecazkar insanlar haqqındadır. Təəssüf ki, belə şəxsiyyətlər dünyaya tez-tez gəlmirlər.

Və əgər bizə verilən Yer üzündə tale bizi bu cür insanlarla bir araya gətirirsə – bu öz-özlüyündə xoşbəxtlikdir.

Bu insan kimdir?

Rauf Atakişiyev. Azərbaycan Respublikasının Xalq artisti, professor...

Biz adların və soyadların qarşısında titul və fəxri adları önə çıxartmağa öyrəşmişik... Lakin Rauf müəllimdən söz düşəndə bütün fəxri adlardan öncə insanın gözünün qarşısında onun işıq saçan siması canlanır. Çünki çoxlarının arzuladığı şöhrət parlaqlığı, Rauf İsrafil oğlunun şəxsiyyət cazibəsi və insani ləyaqətinin kölgəsində qalır – böyük hərflə İnsanı xatırlayırıq.

O, həqiqi bir ziyalı, yüksək mədəniyyətli, geniş dünyagörüşlü və böyük ürəkli insan idi. Tərifdən nifrət edirdi, məcazi mənada birinci sırada "görünməyi" sevmirdi ... Daxili mədəniyyəti o qədər zəngin idi ki, onunla ünsiyyət qurmaq bir zövq idi. O, həmişə arzulanan həmsöhbət, qonaq və dost idi.

Rauf Atakişiyevin şəxsiyyətinin cəlbediciliyi və sehri, eyni zamanda, ilhamlanmış sənəti, yüksək peşəkarlığı ilə şərtləndirilirdi.

Azərbaycan Dövlət Konservatoriyasında bütöv bir pianoçu kollektivini yetişdirən Rauf İsrafil oğlunun qeyri-adi pedaqoji bacarığı, musiqiyə sevgi aşılamaq, özündə musiqini sevmək bacarığı bu günə qədər çoxları üçün bir model olaraq qalır. O, özündə iki çətin yaradıcılıq peşəsinin - pianoçu və vokalçının istedadını birləşdirirdi.

Əgər uzun illər Azərbaycan Akademik Opera və Balet Teatrının aparıcı solisti olan Rauf Atakişiyevin ifasında Lenski və Vodemon, Almaviva və Alfred, Faust və Nemorino rolları Rusiya və Qərbi Avropa bəstəkarlarının yaradıcılıq aləminə dərin nüfuz etdiyinə dəlalət edirdisə, o zaman musiqili səhnə obrazları olan Əsgər və Balaş müğənninin bütün varlığı və ruhu ilə doğma yurdu, Azərbaycan milli musiqisi ilə bağlı olduğunu bir daha nümayiş etdirirdi.

Sovet sənət ustalarının nümayəndə heyətlərinin tərkibində çox vaxt Rauf İsrafil oğlu Atakişiyev doğma Azərbaycanı xarici ölkələrdə qastrol səfərlərində layiqincə təmsil edirdi.

"Я встретил девушку" (Bir qızla tanış oldum) kinofilmində olan və başqa populyar mahnılarla eyni səslənən mahnının Rauf Atakişiyev tərəfindən ifa olunduğunu indi az insan xatırlayır.

Ümumiyyətlə, o, həm xalq, həm də müəllif mahnılarını diqqətəlayiq şəkildə ifa edirdi, onlara yüksək ifa mədəniyyəti qazandırırdı. Bəstəkarın düşündüyü ən incə nüansları belə necə çatdıracağını bilirdi.

80-ci illərin ortalarında Moskvadakı ifasını xatırlayıram, burada müğənni rus bəstəkarlarının romanslarını ifa edirdi. Konsert möhtəşəm keçdi. Uğur böyük idi. Bütün Moskva musiqiçiləri müğənninin fövqəladə diksiyasını, üslub anlayışını, ifa olunan əsərin mahiyyətinə dərindən nüfuz etməsini qeyd edirdilər.

Rauf müəllimin ilhamlı səsini dinləyəndə Azərbaycanda belə bir müğənninin olmasından qürur duyurdum və tale mənə onunla tanış olmaq şansı verdi.

... İllər keçir ... Amansız zaman bizi ailədən, sevdiklərimizdən, misilsiz insanlardan ayırır. Ancaq onlar haqqında parlaq xatirələr əbədi olaraq bizimlə qalır.

**Ramazan XƏLİLOV**
*Azərbaycan Əməkdar incəsənət işçisi, professor*

## RAUF ATAKİŞİYEV HAQQINDA SÖZ

İllərdir yaxından tanıdığınız birinin xatirələrini yazmaq çox çətindir. Söhbət üzündə geniş təbəssümlə, ruhunda səmimi sevinclə dostlarla görüşən mehriban, nəzakətli və hörmətli bir insandan gedir. Gözəl insan, incə musiqiçi, parlaq pianoçu, möhtəşəm vokalçı, Azərbaycan Respublikasının Xalq artisti, professor Rafik İsrafil oğlu Atakişiyevdən bəhs edirəm.

Ürəyimdə sancılı kədər, hələ də bir məhrumiyyət hissi ilə düşünürəm ki, həqiqətən də, görüşlərimizdə belə sevincli, sevgi dolu qucaqları bir daha hiss etməyəcəyəm. O, son dərəcə səmimi bir insan idi. Bu səmimiyyət onunla ünsiyyətdə hər zaman özünü göstərirdi. O, qeyri-adi dərəcədə incə ruhlu şəxsiyyət, çox həssas və mehriban idi. İnsanları sevirdi, dostlarına dəyər verirdi və heyvanlara qayğı ilə yanaşırdı.

Mənim R.Atakişiyevlə tanışlığım onun yaradıcılıq təşəkkülü dövründə baş tutmuşdur. Yadımdadır ki, Üzeyir bəyin tövsiyəsi ilə konservatoriyada onun birinci müavini olaraq Moskva və Leninqradda oxumağa gedən gənclərimizə hər cür kömək etməyə çalışırdım. Bu çoxlarının arzusu idi. İş ondadır ki, bir neçə ildir məzunların aspiranturaya daxil olması üçün yol aça bilmirdik. Bizə bir yer ayrılırdı, lakin o da həmişə dolu olurdu.

Sonra musiqi müəssisələri şöbəsinin müdiri Zaven Vartanyanın həmyerlilərini yerimizə düzəltməyə nail olduğu məlum oldu. Böyük şəxsi dostum, Təhsil Müəssisələri Baş İdarəsinin rəhbəri Sergey Petroviç Lebedyanskiyə müraciət etməli oldum və o, bu praktikanı qadağan etdi. Əlbəttə ki, burada Üzeyir bəyin özünün şəxsi müdaxiləsi mühüm rol oynadı. Üzeyir bəyin Moskvada xəstələndiyinə baxmayaraq ünsiyyət qurduğu tanınmış bir elm adamı və pianoçu, professor A.B.Qoldenveyzer, həmyerlilərinin uğurları və ehtiyacları barədə soruşurdu. Dörd aspirantımızdan Fəridə Quliyeva, Asya Zülfüqarova və Nigar Usubova Qoldenveyzer`in, Rauf isə Fliyer`in sinfinə daxil oldular.

R.Atakişiyevin Moskvada aldığı təhsil müddətində onun yaradıcılığının formalaşması mənim gözlərimin qarşısında keçmişdir. R.Atakişiyev çox çalışqan idi. Həmişə deyirdi ki, bir insan üçün təkcə istedad kifayət deyil: yalnız zəhmətkeş əməklə cəmləşən istedad istənilən nəticəni verə bilər. Və o, çox çalışırdı, teatrları, konsertləri ziyarət etmək üçün çətinliklə vaxt ayırırdı. O, oxumağa çox can atırdı və o, çox yaxşı səsə sahib idi. Deyirlər, bu, ona anasından keçmişdir.

Moskvada olarkən Atakişiyev, aspiranturada təhsili ilə paralel olaraq, böyük rus müğənnisi A.V.Nejdanovadan dərs alırdı. Təbii ki, dərslər uğursuz olmurdu. Düzdür, bəzən dərslərə ciddi yanaşmırdı. Ancaq özünün dediyi kimi: "Nejdanova çox tələbkar idi və dərsləri buraxdığım zaman bunu heç sevmirdi. Olurdu ki, etiraf edirdim, bir dizimin üstündə dururdum, əlini öpürdüm və məni bağışlayırdı".

A.V.Nejdanovadan alınan dərslərin çox faydalı olduğu ortaya çıxdı. Səsini bütün genişliyi, gücü və gözəlliyi ilə açmağı bacardı. Və Atakişiyev konservatoriyanın müəllimi və opera teatrının solisti olaraq Bakıya qayıtdı.

1956-cı ildə məni opera teatrına idarəedici rəhbər kimi dəvət etdilər və burada ünsiyyətimiz xüsusilə yaxınlaşdı. Bundan əlavə o, həm də Opera və Balet Teatrının aparıcı solisti və mənim həyat yoldaşım Yelena Konstantinovna Yemelyanova ilə səhnədə tərəf-müqabil olmuşdur.

Demək lazımdır ki, hər hansı bir teatrın tamaşaçı uğuru əsasən aparıcı solistlərdən asılıdır. Opera teatrı o dövrdə həm bədii, həm də maddi baxımdan çox çətin bir böhran keçirirdi.

Mən teatra rəhbərlik etdiyim zaman C.Puççininin yalnız 12 nəfərin qatıldığı "Çio-Çio-San" tamaşası var idi. Açığını deyim ki, R.Atakişiyev anşlaqları etdi. Xalq onun iştirak etdiyi tamaşalara məmnuniyyətlə qatılırdı. Aparıcı qəzetlərdə də müvafiq təriflər var idi.

Sovet Ordusu Günü münasibətilə "Zabitlər Evi"ndə R.Atakişiyevin iştirakı ilə keçirilən konsertlərdən birini xatırlayıram. O, Koroğlu ariyasının parlaq bir ifası da daxil olmaqla bir sıra əsərlər səsləndirdi. Ariyanın ifası həvəslə qarşılandı: uzun müddət alqışlandı. İlk dəfə bu ariyanı onun təfsirindəki üçüncü aktdan eşitdim və çox təəccübləndim və fərəhləndim. Sonradan öyrəndim ki, Rauf bu hissəni tam ifa etmək arzusundadır. Bu fikri çoxdan ürəyində daşıyırdı və bu rola daxilən hazır idi. Ancaq təəssüf ki, bir sıra şərtlər üzündən xəyalını reallaşdıra bilmədi.

Raufun bacım oğlu Müslüm Maqomayevlə olan böyük dostluğu da məni çox sevindirirdi. Onların gözəl yaradıcılıq əməkdaşlığı çox səmərəli oldu. Bir-birilərinə çox kömək edirdilər.

Bəli, mərhum dostum haqqında çox səmimi sözlər söyləmək istərdim, amma itki ağrısı buludlu bir gündə duman kimidir və onları deməyimə mane olur. Rauf, heyrətamiz dərəcədə şən, böyük bir yumor hissi ilə seçilən bir insan idi. Qeyri-adi dərəcədə xeyirxah bir qəlbi vardı.

Dünya və milli opera klassiklərinin ən yaxşı əsərlərindən parlaq vokal partiyaları sayəsində özündən böyük bir xatirə qoyub getdi. Onun xatirəsi bu gün müəlliminin ecazkar ənənələrini davam etdirən yetişdirdiyi pianoçu yetirmələrinin əməllərində hələ də yaşayır.

**Süleyman ƏLƏSGƏROV**
*Azərbaycanın Xalq artisti, professor*

## NADİR İSTEDAD SƏNƏTKARI

İnsanlar sənətimizin çiçəklənməsi üçün yorulmadan çalışan və bizi vaxtsız tərk edən görkəmli şəxsiyyətlərdən bəhs etdikdə, xatirələr canlandıqca insanı kədərli hisslər bürüyür. Əbədi gənclik tərəfindən pərəstiş olunan ölməz sənətlərini, yaradıcılıqlarının bəhrələrini xatırlayarkən bu kədər sevinc və əmin-amanlıqla əvəzlənir.

Azərbaycanın Xalq artisti, xalqımızın qüruru, sevimli professor Rauf Atakişiyev belə sənətkarlardan biridir.

Rauf İsrafil oğlu Atakişiyev yalnız məşhur bir müğənni deyil, eyni zamanda diqqətli, həssas, qayğıkeş bir müəllim, musiqiçilərin-ifaçıların böyük dostu idi.

R.Atakişiyev uzun müddət Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında xüsusi fortepiano kafedrasının müdiri və professoru olmuşdur. O, məşhur pianoçu kollektivini yetişdirdi: bunlardan altısı beynəlxalq müsabiqələr laureatlarıdır. R. Atakişiyev eyni vaxtda uzun müddət Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti işləmişdir. Xatirələrimdə, ilk növbədə Rauf Atakişiyevin opera teatrındakı fəaliyyətindən danışmağı lazım bilirəm.

R.Atakişiyev ən yüksək səhnə mədəniyyətinə malik opera müğənnisidir. Bu sahədəki yaradıcılıq dairəsi çox genişdir. R.Atakişiyev həm Azərbaycan bəstəkarlarının operalarında, həm də dünya mədəniyyətinin görkəmli nümunələrində – Qərbi Avropa müəlliflərinin operalarında ifa edirdi. Müasir opera müğənnisinin ifa vasitələrinin bütün imkanlarını mükəmməl mənimsəyən R. Atakişiyev sanki tamaşaçıları özünə cəlb edirdi. Ən böyük ustalıqla ifa etdiyi musiqi obrazlarını tamaşaçılara çatdırarkən qəhrəmanlarının hiss və düşüncələrini də yaşayırdı.

Bir bəstəkar kimi Nəriman Nərimanovun eyniadlı pyesi əsasında hazırladığım "Bahadır və Sona" operamda böyük uğurla çıxış edən Rauf Atakişiyevi həmişə minnətdarlıqla xatırlayacağam. Xüsusi vurğulamaq istərdim ki, 1961-ci ildə ilk məşqlər zamanı müxtəlif hissələr barədə verdiyi faydalı məsləhət və təkliflər operanın uğurlu səhnələşdirməsinə kömək etmişdir.

“Melodiya” firması Rauf Atakişiyevin iştirakı ilə "Bahadır və Sona" operasının yazılarını və fonetikamızın qızıl fonduna daxil olan onun ifa etdiyi əsərləri böyük tirajla buraxdı.

Azərbaycan musiqi mədəniyyətinin görkəmli xadimi, professor Rauf Atakişiyevin xidmətləri böyükdür. Onun sönməyən sənəti həmişə müğənni və pianoçu yetirmələri üçün böyük bir məktəb olacaqdır.

İllər keçəcək, amma Rauf Atakişiyevin adı minnətdar Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır.

**Arif MƏLİKOV**
SSRİ və Azərbaycanın Xalq artisti, akademik

## O, DİNLƏYİCİLƏR QARŞISINDA MƏSULİYYƏT HİSS EDİRDİ

Hərtərəfli yaradıcılıq fəaliyyəti ilə R.İ.Atakişiyev Azərbaycan musiqi mədəniyyəti tarixinə parlaq bir səhifə yazmışdır. Bu gün, zaman retrospektivində zəngin istedada malik, geniş bilikli və yüksək dərəcədə ağıllı bir insanın yaradıcılıq obrazı xüsusilə aydın şəkildə vurğulanır. R.İ.Atakişiyev, bu gün tez-tez qarşılaşdığımız devalvasiyaya uğrayan yüksək mənəvi mədəniyyət və mənəvi-əxlaqi dəyərlər dünyasını özü ilə apardı.

Uzun illər musiqiçinin yaradıcılıq təkamülünü izləmək bəxtimə düşdü. Musiqi sahəsindəki ilk addımları inandırıcı şəkildə Azərbaycan sənətində parlaq bir yaradıcılıq fərdiliyinin meydana çıxdığını sübut etdi. R.İ.Atakişiyevin opera səhnəsində yaratdığı obrazlar qalereyası, kamera müğənnisi və pianoçu kimi çoxsaylı çıxışları unudulmazdır. Onun ifa tərzi emosional və rasional prinsiplərin xüsusi tarazlığı, fərqli müəlliflərin əsərlərinin təfsirində qüsursuz üslub hissi ilə xarakterizə olunurdu. Çıxışlarının hər birinin arxasında nəhəng bir əsər, ifa olunan əsərin bütün ən kiçik tərəflərini diqqətlə cilalamaq dururdu. O, tamaşaçılar qarşısında məsuliyyət hiss edirdi. Yüksək intellektual potensial və təbii istedada vurulan fədakar əmək əla nəticələr vermişdir. Sevindirici haldır ki, R.İ.Atakişiyev təkcə ifaçılıqla deyil, həm də pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan konservatoriyası R.İ.Atakişiyevin timsalında öz dahi müəllimlərinin – K.İgumnov və A.Nejdanovanın zəngin ənənələrini davam etdirən böyük musiqi və mənəvi mədəniyyətli pedaqoqunu itirdi. Belə bir şəxsiyyətin konservatoriyada işləməsi yalnız tələbələrinin yaradıcı inkişafına kömək etmədi, həm də digər siniflərin tələbələrinə faydalı təsir göstərdi. Tamamilə təbiidir (qanunauyğundur) ki, incəsənət emalatxanasından (professor R.İ.Atakişiyevin sinfini başqa bir şəkildə adlandırmaq mümkün deyil) Azərbaycan pianizminin bugünkü simasını böyük ölçüdə müəyyənləşdirən bütöv bir ifaçı toplumu meydana çıxmışdır.

R.Atakişiyevin ifaçılıq və pedaqoji fəaliyyətini müşahidə etməklə yanaşı onunla yaradıcılıq əlaqəsində olmaq da mənə qismət oldu. 1962-ci ildə N.Hikmətin sözlərinə ilk romans silsiləmi yazdım və ifaçı-vokalçı kimi Rauf İsrafiloviçə müraciət etdim. O, təklifimə böyük həvəs və məsuliyyətlə yanaşdı. Miniatürlərin təfsirində mahir usta olan R.Atakişiyev, silsilənin hər bir romansını tamamilə bitkin ifa etdi və eyni zamanda bütün əsərə arxitektonik qamət verməyi bacardı. Silsilənin ilk dinləyişi Azərbaycan Konservatoriyasının divarları içərisində fikri mənim üçün xüsusilə dəyərli olan müəllimim Q.Ə.Qarayev də daxil olmaqla bir çox musiqiçinin iştirakı ilə baş tutdu. Əsər haqqında çox xoş sözlər söyləyən Qara Əbülfəzoviç, ən yaxşı tərəflərinin R.İ.Atakişiyevin yüksək ifaçılıq mədəniyyəti sayəsində daha çox üzə çıxdığını qeyd etdi. Sonralar konsertlərdə dəfələrlə bu silsiləni ifa etdik, Azərbaycan radiosunun fonduna yazdıq. N.Hikmətin sözlərinə yazılmış vokal silsiləyə həm Bakıda, həm də xaricdə bir çox müğənni müraciət etmişdir. Lakin səmimi desəm, bu əsərə həyat başlanğıcı verən R.Atakişiyevin təfsiri bu günə qədər üstün və standart olaraq qalır. Rauf İsrafiloviç N.Hikmətin sözlərinə ikinci vokal silsiləm üzrə işə də eyni məsuliyyətlə və həvəslə yanaşdı. Musiqiyə müraciətində şeiriyyatı gözəl hiss edərək, şeir mətninə dalıb, daxilindəki alt mətni açmağa nail olurdu. Silsilə üzərində iş son dərəcə maraqlı gedirdi. Lakin vaxtsız ölüm başladığımız işi tamamlamağımıza mane oldu.

Deyirlər, istedadlı insanlar çox cəhətdən istedadlı olurlar. R.Atakişiyev həm də insanlarla ünsiyyət qurma qabiliyyətinə sahib idi. Görünüşü fədakarlığın parlaq bir nümunəsi ola biləcək fövqəladə xeyirxah bir adamı idi. Rauf İsrafiloviçlə ünsiyyət quran hər kəs onun erudisiyası ilə, sənət və həyat fenomenlərinə orijinal baxışı ilə təəccüblü dərəcədə maraqlı bir həmsöhbət olduğunu bilir. Xoşbəxtəm ki, ömrünün sonuna qədər xatirəsi mənim üçün son dərəcə əziz olan isti dostluq münasibətlərimizi davam etdirə bildik.

Doğrudan da, bir insan onun xatirəsi sağ olduğu müddətdə yaşayır... R.Atakişiyevin həyatı həmkarlarının, tələbələrinin və səxavətli istedadının bütün pərəstişkarlarının əməllərində və düşüncələrində davam edir.

**Yelena YEMELYANOVA**
*Dosent*

## BÖYÜK MƏDƏNİYYƏTƏ MALİK MÜĞƏNNİ

R.İ.Atakişiyevlə tanışlığım 1955-ci ilin yayında baş verdi. O zaman Azərbaycan Opera və Balet Teatrı Kislovodskda qastrol səfərində idi. Mən, Z.Paliaşvili adına Tiflis Opera və Balet Teatrının solisti ikən C.Verdinin "Traviata" operasından Violetta və C.Rossininin "Sevilya bərbəri" operasından Rozina partiyalarını oynamaq üçün Kislovodska dəvət olundum. Bu operalarda qraf Almaviva və Alfred rollarındakı ortağım, qeyri-adi yumşaq tembrli lirik tenora sahib olan, böyük hərəkətlilik və üstün aktyorluq bacarığına malik o vaxtkı gənc müğənni R.Atakişiyev idi. Xatırlayıram ki, tamaşalarımız olduqca səriştəli Kislovodsk dinləyiciləri tərəfindən böyük uğur qazandı.

Sonralar, 1956-cı ildən bəri taleyimi həmişəlik Azərbaycan Opera və Balet Teatrı ilə bağladım və R.Atakişiyevlə ünsiyyətim daha nizamlı oldu. Demək lazımdır ki, opera teatrımızın tarixindəki bu dövr yeni maraqlı tamaşaların səhnələşdirilməsi ilə nəticələnən intensiv və məhsuldar axtarışlar dövrü idi. Bu dövr eyni zamanda bir çox dünya şöhrətli müğənnilərin uğurlu qastrol səfərləri ilə əlamətdar oldu.

Əlbəttə ki, o illərin yüksək bədii tamaşalarının yaranmasında böyük səhnə mədəniyyətinə malik müğənni olan R.Atakişiyevin də əməyi olub. R.Atakişiyevin C.Rossininin şah əsəri "Sevilya bərbəri"ndəki Fiqaro rolunu oynayan Rumıniyadan məşhur bariton Yeniqareskunun iştirakı ilə qraf Almaviva partiyası xüsusilə yaddaqalan oldu.

Qraf və Fiqaronun dueti, əsgərlərlə "sərxoş süvari"nin səhnələri, Rozina ilə "oxuma dərsi" kimi opera nömrələrində, R.Atakişiyev, parlaq aktyorluqla zərif vokal texnikasının ən yüksək sintezini əldə etməyi bacardı.

R.Atakişiyevin opera səhnəsindəki istedadının lirik tərəfi, bizim fikrimizcə, ən çox "Traviata" operasındakı Alfred rolunda açılmışdır. Bu partiya bir daha inandırıcı şəkildə sübut etdi: R.Atakişiyev musiqidə ifadə olunan düşüncəni necə hiss etməyi və çatdırmağı bilən qeyri-adi dərəcədə incə bir musiqiçidir. Violetta rolunun ifaçısı kimi mənim üçün, R.Atakişiyevin operanın lirik səhnələrinin şərhinə gətirdiyi yüksək emosional əhval-ruhiyyə və ilham xüsusilə açıq idi.

Vokal sənətini sevənlər üçün R.Atakişiyev yalnız opera müğənnisi kimi deyil, həm də kamera müğənnisi kimi əziz idi. Yaradıcılıq həyatı boyunca R.Atakişiyev maraqlı bir konsert fəaliyyəti ilə məşğul idi. Müğənninin yaradıcı bioqrafiyasında mühüm bir mərhələ, proqramı rus bəstəkarlarının vokal lirikası nümunələrindən ibarət olan Moskvada keçirilən solo konsertləri hesab edilə bilər. Zərif Moskva tamaşaçıları müğənninin ayrılmaz bədii obraz, mükəmməl diksiya, söz və səsin ayrılmaz sintezini əldə etmək bacarığını yüksək qiymətləndirmişdir.

Bəli, təbiət R.Atakişiyevi təkcə çoxtərəfli bir musiqi istedadı ilə deyil, həm də işləmək istedadı ilə səxavətlə mükafatlandırdı. Və onun bütün mənalı həyatı İncəsənətə fədakar xidmətin sönməz nümunəsi ola bilər.

**Abram NEYMAN**
*Professor*

## DOST VƏ HƏMKAR HAQQINDA

Rauf İsrafiloviç Atakişiyevi Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki Musiqi Məktəbində musiqini öyrənməyə başladığım 1937-ci ildən tanıyıram. O zaman bu məktəb kiçik idi, burada yüzə yaxın şagird var idi və hamımız bir-birimizi yaxşı tanıyırdıq. Raufun qardaşı Tahirlə bir sinifdə oxuyurdum və tez-tez Atakişiyevlərin evində olurdum. Tez-tez görüşdüyümüz bu ev qonaqpərvər, çox mehriban ev idi.

Rauf məndən bir neçə yaş böyük idi, lakin bu, ölümünə qədər davam edən yaxın dostluğumuza mane olmadı. Rauf həmişə məktəbdə və daha sonra konservatoriyada ən yaxşı tələbələrdən biri olmuşdur. Onun son dərəcədə mülayim bir xasiyyəti var idi. Səsini yüksəyə qaldırmağını, kiməsə qışqırmağını, kimsə ilə dalaşmağını xatırlamıram. Özünün gözəl, parlaq həyatı boyu o, belə idi.

Onunla bağlı çox xatirələrim var. Müharibənin son ilində bir dəfə mənə belə dediyini xatırlayıram: "Bizə gəl, mən sənə nə isə göstərmək istəyirəm". Raufun evinə gələndə o, dedi: "Mənə elə gəlir ki, səsim var, icazə ver, sənə oxuyum". O vaxt o, düşünürdü ki, bariton səsi var, alətin qarşısına oturdu və özünü müşayiət edərək P.İ.Çaykovskinin eyniadlı operasından Mazepanın ariozosunu oxudu. Çox musiqili, gözəl, parlaq oxuyurdu. Dərhal dedim ki, əlbəttə, səs var, lakin öyrənmək lazımdır. Tezliklə, Rauf vokal ilə məşğul olmağa başladı, amma digər təcrübəsiz vokalistlərdən fərqli olaraq musiqinin əsaslarını öyrənməyə ehtiyac yox idi, çünki o zamana qədər o, tamamilə formalaşmış bir pianoçu idi. Beləliklə, Raufu bir müğənni kimi dinləyən ilklərdən biri və bəlkə də birincisi mən idim. Uzun illər sonra Moskva Konservatoriyasını və aspiranturasını bitirdikdən sonra respublikanın ən yaxşı pianoçularından olmaqla yanaşı, həm də opera teatrımızın aparıcı solisti oldu. O, çox ılıq, lirik, ruha yaxın bir səs tonuna sahib idi. Hər şey son dərəcə səmimi səslənirdi, hələ fitri musiqiliyi yalnız mahnı oxumaqda deyil, həm də fortepiano ifasında özünü göstərirdiyini demirəm. Raufun yalnız solo pianoçu kimi deyil (F.Listin konsertini ifa etmişdi), həm də vokalçı kimi çıxış etdiyi Niyazinin rəhbərliyi ilə orkestrimizin Orta Asiya respublikaları boyunca qastrol səfərini xatırlayıram. Hər iki təcəssümdəki çıxışları çox isti qarşılanmışdı. Rauf yaxşı artistik istedad nümayiş etdirərək müxtəlif opera tamaşalarında bir çox aparıcı rollar ifa etmişdir. Xüsusilə, S.Prokofyevin “Monastırda nişanlanma” operasını xatırlayıram, burada Raufun mükəmməl aktyorluq oyunu gözəl ifa ilə birləşdirən Mendozanın parlaq komik obrazı yaratmışdır. Bu tamaşadan sonra xeyli zaman onunla görüşəndə replikasını (ifadəsini) təkrarlayırdıq: "Daha nə, daha nə? .."

Rauf İsrafiloviç Konservatoriyanın ən hörmətli müəllimlərindən biri idi. O, professor və müəllimlərdən tutmuş tələbələrə qədər hamı tərəfindən sevilirdi. Hər tələbənin xüsusiyyətlərinə həssas, tələbkar yanaşan, yüksək savadlı pedaqoq idi. Rauf İsrafiloviçin tələbələri kamera ansambl sinfimə gələndə hər zaman bilirdim ki, onlar ecazkar professorlarının sinfində əla məktəb almış vəzifələrini başa düşən, savadlı insanlar olacaqlar.

Rauf İsrafiloviç dəfələrlə müxtəlif müsabiqələr və seçimlərin münsiflər heyətinin üzvü olmuşdur, ölkəmizdə və xaricdəki bir çox görkəmli musiqiçilər tərəfindən yaxşı tanınmışdır. O, heç vaxt ona müraciət edən kimsədən məsləhət və köməyini əsirgəməyib. Bu da onu böyük bir qəlbli insan kimi xarakterizə edirdi.

Onunla, ailəsi ilə bağlı çox xoş xatirələrim var. Raufun xatirəsi həmişə onu tanıyan, onunla dost olan, işləyən, onda təhsil alanların ruhunda olacaqdır.

Ölümündən bir müddət əvvəl o, AAK üçün rəy yazacağını mənə söz verdi. Rəy yazıldı, çap edildi, lakin Rauf artıq onu imzalaya bilmədi ...

**Azər RZAYEV**
*Azərbaycanın Xalq artisti,*
*professor*

## MUSİQİ ONUN HƏYATININ ANLAMINI, MƏZMUNUNU TƏŞKİL EDİRDİ

Gözəl bir insan, böyük musiqiçi haqqında xatirələrimi Rauf İsrafiloviç kimi bu qədər titrək, mülayim, xeyirxah, müqəddəs ruhlu ikinci bir insanla qarşılaşmamağımla başlamaq istəyirəm.

Hər sənətkarın həyatını sədaqətlə xidmət edərək həsr etməsi üçün çağırıldığı müəyyən bir həyat tapşırığı olmalıdır. R.Atakişiyev məhz bu hədəflə bütün gücünü və böyük istedadını xalqının musiqi-ifaçılıq sənətinə həsr edərək xidmət edir. Rauf İsrafiloviçin yaradıcılıq dairəsi fövqəladə genişliyi ilə seçilirdi. Onun görkəmli musiqi istedadı, yüksək bacarığı və əla pedaqoji qabiliyyəti var idi. Musiqi onun həyatının anlamını, məzmununu təşkil edirdi. R.Atakişiyevin istedadı nə qədər parıldasa da, fəaliyyəti nə qədər çox olsa da, o, hər şeydən əvvəl əla bir musiqiçi-ifaçı idi, burada fitri istedad yüksək səhnə mədəniyyəti və böyük cazibəsinə sahib ustadla xoşbəxt vəhdət təşkil edirdi. Onun yaradıcılığının misilsiz cəhətləri Azərbaycanın doğma ifaçılıq sənətini zənginləşdirmişdir.

Səhnəyə o, əsasən müğənni kimi çıxdı. Rauf İsrafiloviç ilhamla oxuyurdu, onun səsi uçurdu, çox incə çalarlarla parıldayırdı. Bütün diapazon boyu onun səsi bərabər səslənirdi, cilalanmış vokal bacarığını, ustadın sərbəst səs aparması hiss olunurdu. Azərbaycan Opera və Balet Teatrı R.Atakişiyevin simasında gözəl bir müğənni-aktyor qazandı. Və o da teatr səhnəsinə ruhən bağlı idi.

Teatr, Rauf İsrafiloviçin mənəvi həyatının, sənətkarın həqiqi məmnunluğunu hiss etdiyi sahəsi idi. Teatrda çalışdığı bütün illər ərzində o, bir çox yaddaqalan obrazlar yaratdı. Təəssüf ki, yaratdığından demək olar ki, videoyazılarda heçnə qalmayıb. İstisna yalnız bir neçə konsert ifalarıdır. Bu, həmin iş sahəsinə birbaşa cavabdeh olanların, habelə müdaxiləsi ilə vəziyyəti ən azı müəyyən dərəcədə yaxşılaşdıranların günahıdır.

Rauf İsrafiloviçlə çoxillik, böyük dostluğum var idi. Yadımdadır, 1962-ci ildə, ilk dəfə mədəniyyət işçiləri nümayəndə heyətinin tərkibində xaricə, Bolqarıstana getmişdim. Orada şair Vladimir Sibinlə "Əlvida, dostlar" mahnısını yazmışdıq. Hava limanında vidalaşarkən nümayəndə heyətimiz bu mahnını oxudu. Bakıya qayıtdıqdan bir müddət sonra, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında SSRİ və Bolqarıstan xalqları arasındakı dostluğa həsr olunmuş bir gecə keçirilmişdir. Həmin gecədə Rauf İsrafiloviç bu mahnını mənim müşayiətimlə möhtəşəm şəkildə oxudu. Rəyasət heyətində oturan respublika rəhbərliyi, o cümlədən A.C.Lemberanski (o vaxt şəhərin bələdiyyə sədri idi) daxil olmaqla, deyəsən, razı qalmışdır. Ertəsi gün A.C.Lemberanski, mənə gənc bəstəkar kimi bir mənzil ayrıldığını söylədi. İndiyə kimi inanıram ki, bunda mahnının ifaçısının – R.Atakişiyevin böyük xidmətləri var idi.

Uzun illər biz – Rauf İsrafiloviç və mən – Azərbaycan Dövlət Konservatoriyasında birlikdə işləyirdik. Daha sonra təxminən 16 il opera teatrında çalışmışıq.

R.Atakişiyev yaxşı bir həmsöhbət idi. Onunla ünsiyyət qurarkən biz müxtəlif mövzulara toxunurduq. Son vaxtlar səslənən ümidsizlik notları onun içindəki həyat təsdiqi səsini boğa bilmirdi.

Biz ailə şənliklərində də görüşürdük. Lakin ikimiz də 15 iyulda doğulduğumuz üçün heç vaxt bir-birimizin ad günündə iştirak edə bilmirdik. Ancaq o gün hər dəfə onu mümkün qədər tez zəng edib təbrik etməyə çalışırdım, çünki məndən qabağa düşə biləcəyini bilirdim.

Bir sözlə, mənim üçün o bir dostdan da artıq idi.

Onunla bağlı kiçik xatirəmi, elə başladığım kimi bitirmək istərdim. Rauf Atakişiyev kimi bu qədər titrək, mülayim, xeyirxah, nurani bir ruha sahib ikinci insanla qarşılaşmamışam.

**Rafiq QULİYEV**
*Azərbaycanın Əməkdar artisti,*
*professor*

## RUHUN NƏCİBLİYİ

Hazırda Rauf İsrafil oğlu Atakişiyev haqqında yaza biləcəyim hər şeyi xatirələr adlandırmaq çətindir. Bu, çox güman ki, uzun illər sonra xatirələrə çevriləcək qismən toplanmış və ümumiləşdirilmiş təəssüratların sonsuz zənciridir. O illər hələ keçmişdə qalmayıb.

Mən onun səsini eşidir, şən gülüşünü görürəm. O, cazibə bəxş edirdi. O, şagirdləri, dostları, tanışları və yaxınları, ictimaiyyət tərəfindən sevilirdi. Bədii zövqlərimiz çox vaxt üst-üstə düşürdü. Onun alovlu, ehtiraslı, ilham verici sənəti məni çoxdan valeh etmişdir. Görkəmli sənətkar və ecazkar insanla ünsiyyətdə olmaq hər zaman xüsusi bir sevinc bəxş edirdi.

Təbiət R.Atakişiyevə gözəl musiqi duyumu, məftun edici ifa tərzi bəxş etmişdir. Lakin əsl sənətkar kimi R.Atakişiyev, sanki qeyri-adi bir şəkildə öz peşəkarlığını şəraitdən asılı olmayaraq, hər zaman və hər yerdə qoruyub saxlamağa imkan verən sirrə malik idi.

Onun musiqi ədəbiyyatı sahəsində olan bilikləri barədə şərhə ehtiyac yoxdur. R.Atakişiyevin janr əhatə dairəsi olduqca geniş idi. Onu bütün musiqi və ifaçılar maraqlandırırdı: Artur Rubinşteyn və Qlenn Quld`dan Oskar Peterson və Erroll Qarner`ə, Maria Kallas və Renata Tebaldi`dən Sarah Vaughan və Ella Fitzgerald`a qədər.

Rauf Atakişiyev sonsuz dərəcədə alicənab bir insan idi. Bu nəciblik özünü ilk növbədə onun yaradıcılığında, alətə hər toxunuşunda, opera səhnəsində ifa etdiyi hər bir frazaya əməyini, ürəyini və ruhunu qoyan zaman büruzə verirdi. Görkəmli müəllimləri K.N.İqumnov və A.V.Nejdanovanın layiqli tələbəsi idi. Onun alicənablığı öz musiqi bilikləri və professional bacarıq sirrlərini həm tələbələri həm də ona məsləhət üçün müraciət edən sevimli musiqiçiləri ilə daima həvəs və məmnuniyyətlə bölüşən zaman belə tükənmirdi.

Tələbələrinin yaddaşında həmişəlik olaraq R.Atakişiyevin dərsləri yalnız bir söz, bir toxunuş, bir fraza ilə izah edərək ifa etdiyi əsərin obraz və mahiyyətini aça bilməsi ilə qalacaq. Başqalarının uzun aylar ərzində əldə edə bildiklərinə o bir neçə dərsə nail olurdu. Bu yüksək manevr göstəricisi idi. Həmçinin tələbələri də hər biri öz qabiliyyətinə görə ilahiləşdirdikləri professoruna cavab verə bilirdi.

Bir insan və musiqiçi kimi R.Atakişiyev haqqında yazarkən onun həyat yoldaşı Z.Lvovnanı yada salmamaq qeyri mümkündür. Deyirlər ki, bəzən xarakterlərin bənzərliyi deyil fərqliliyi insanları bir-birinə yaxınlaşdırır. Burada, hər halda, qarşımızda heyrətamiz birlik nümunəsi durur.

Z.Lvovna nəcib ruhlu, qonaqpərvər, insanlara olan sevgisi ilə xarakterizə olunur. R.Atakişiyev xəstə olduğu çətin günlərdə daima ölümlə üz-üzə idi. Özü də bir musiqiçi kimi anlayırdı ki, insanlar üçün ərməğan olunanı qorumaq olduqca vacibdir.

R.Atakişiyev təbiəti çox sevirdi. Xüsusilə dənizi. Öz bağ evi yox idi, fikrimcə, iş şəraiti imkan versəydi, böyük məmnuniyyətlə şəhərdəki mənzilindən imtina edib Bakıdan bir neçə

kilometr uzaq məsafədə yerləşərdi. Hər həftənin sonunda şəhərdən dənizə üz tutmağı və "biraz nəfəs almağı" necə də xəyal edərdi. R.Atakişiyevin daha bir məhəbbət və diqqət obyekti olan itlərdən bəhs etməmək qeyri mümkündür. Onlara pərəstiş edir, böyük nəvaziş və həssaslıqla yanaşır, dünyanın ən minnətdar məxluqları olan itlər də ona eyni sədaqətlə cavab verirdi.

R.Atakişiyev mənim üçün yalnız ecazkar musiqiçi kimi deyil, həm də 40 ildən çoxdur ki, ünsiyyət qurmağı bacardığım xeyirxah bir yoldaş kimi əzizdir. Onun kimi insanlar dünyasını dəyişdiyi zaman ölümü ilə həyatımızın müəyyən bir mərhələsinin sona çatdığını, bir daha geri dönməyəcək şəkildə getdiyini dərk edirik.

Həkimlər onu dəfələrlə xəbərdar edir, xəstə və yorğun ürəyinə qayğı ilə yanaşmalı olduğunu xatırladırdı. O yaşlanmır və bunu heç istəmirdi, çünki hər şeyə qalib gələn mükəmməl temperamentə malik idi.

R.Atakişiyev günümüzdə baş verən hadisələrin geniş spektri ilə təbii surətdə hədsiz maraqlanırdı, çünki bu gününü anlamadan əbədiyyəti dərk etmək, azı bilmədən çoxa varmaq, eyni zamanda kədərsiz sevginin olmadığı kimi ölümsüz həyatın da olmağı mümkün deyil.

**Oqtay ABASQULİYEV**
*Azərbaycanın Əməkdar incəsənət xadimi,*
*professor*

## BÖYÜK HƏRFLƏRLƏ İNSAN

Musiqi sənətinin görkəmli simalarından biri Azərbaycan Respublikasının Xalq artisti, professor Rauf İsrafil oğlu Atakişiyevin musiqi və incəsənət aləmində qoyduğu izlər hələ uzun illər qalacaqdır.

Mən, ixtisas fortepianodan R.Atakişiyevin sinfində təhsil almasam da onunla həm kafedranın həm də ümumilikdə fortepiano fakültəsinin işləri zamanı sıx ünsiyyətdə olmuşam. Bu münasibət yalnız peşəkar baxımdan deyil, hər şeydən əvvəl şəxsi, insani cəhətdən də sevinc hissi doğururdu. Təbiətcə humanist bir insan olan (görünür bu da xüsusi bir istedaddır) R.Atakişiyev bütün görkəmi, davranış tərzi ilə xeyirxahlıq nümayiş etdirirdi. Sinfinin qapıları da evinin qapıları kimi bütün ixtisasdan olan musiqiçilər üçün hər zaman açıq idi.

Mükəmməl ifaçı, sözün geniş mənasında əsl sənətkar olan R.Atakişiyev vokalçıların ifalarını dinləmək, düzəlişlər etmək, məsləhət vermək kimi istək və xahişlərinə hər zaman böyük həvəslə cavab verirdi. Sirr deyil ki, bir çox vokalçılar beynəlxalq və ümumittifaq dinləmələrinə çıxmazdan əvvəl proqramı professor R.Atakişiyevə göstərməyi özlərinə borc bilirdilər. Onlar arasında təkcə müğənnilər deyil, bəstəkarlar, dirijorlar, ansambl ifaçıları da var idi. Hər kəs bu insanın peşəkar təcrübəsini, qüsursuz zövqünü, əlbəttə ki, sadəlövlüyü və fədakarlığını yüksək qiymətləndirirdi.

Hal-hazırda professor R.Atakişiyevin həyatda olmadığı bir zamanda onun şəxsiyyətinin əhəmiyyəti təkcə konservatoriya dünyası daxilində deyil, bütün Respublika miqyasında kəskin şəkildə hiss edilir. Hazırkı olduqca mürəkkəb və gərgin dövrdə bu dərəcədə bir insanı, musiqiçini itirən zaman onu əvəz etmək qeyri mümkündür.

Şəxsən mənim üçün R.Atakişiyevin yalnız musiqi, ifaçılıq sahəsində təkzibedilməz səlahiyyət sahibi olduğunu deyil, həm də gündəlik və nizamlanmış problemlər dəryasında xeyirxah, böyük bir dost olduğunu vurğulamalıyam. Biz birlikdə 25 ilə yaxın çiyin-çiyinə çalışmışıq. Mən fortepiano fakültəsinin dekanı kimi hər hansı bir mühüm qərar verməzdən öncə R.Atakişiyevlə məsləhətləşmədiyimi xatırlamıram.

R.Atakişiyev haqqında keçmiş zamanda yazmaq olduqca çətindir. Heç bir xatirə onun bədii şəxsiyyətinə xas zəngin sərvətinin müxtəlif cəhətlərini əks etdirə bilməz. Şübhəsiz ki, o, şanlı rus fortepiano və vokal məktəbi ənənələrinin davamçılarından biri, öz pedaqoji üslubunun yaradıcısı, görkəmli musiqiçilər nəslinin yetişdiricisidir. O, böyük erudisiyalı, əsl ziyalı, böyük hərflərlə yazılmış İNSAN idi.

**Tərlan SEYİDOV**
*Azərbaycanın Əməkdar incəsənət xadimi,*
*sənətşünaslıq üzrə elmlər doktoru,*
*professor*

## MÜKƏMMƏL MUSİQİÇİ VƏ İNSAN

Rauf İsrafil oğlu Atakişiyev sənəti bizim üçün görkəmli sənətkarlıq, istedad, eyni zamanda zəngin və dərin insanlığın sinonimidir. R.Atakişiyevin sənəti haqqında çox şey yazılıb və bundan sonra da yazılacaqdır. Mən istərdim onunla ünsiyyət zamanı hafizəmdən silinməyən dəyərli məqamlar üzərində dayanım. Mənə iyirmi beş il konservatoriyada R.Atakişiyevin rəhbərlik etdiyi kafedrada çalışmaq nəsib olmuşdur. Lakin onun sənətinə olan heyranlıq və şəxsiyyətinə duyduğum pərəstişkarlıq hələ uşaq vaxtlarımdan özünü büruzə verirdi.

Onun sənəti ilə ilk tanışlıq 50-ci illərin sonlarında, musiqi məktəbinin şagirdi ikən R.Atakişiyevi ilk dəfə olaraq müğənni kimi dinləyən zaman baş tutdu. Anladığım ilk şey onun ifasının qeyri-adi cazibəsi idi, baxmayaraq ki, o zaman bunu sözlə dəqiq ifadə edə bilməmişdim. Onun ifası məndə olduqca zəngin təəssürat yaratdı. R.Atakişiyevin şəxsiyyətinə marağım elə həmin illərdə onun istedadının digər növləri olan mükəmməl pianoçu və pedaqoq kimi tanıdığım vaxtlarda belə ölçüyəgəlməz dərəcədə artdı. İstər-istəməz ona yaxınlaşmaq istəyirdim. Xəyalım reallaşır: R.Atakişiyevlə ilk görüş 1959-cu il, qardaşı T.Atakişiyev vasitəsilə onun Azərbaycan Dövlət Konservatoriyası nəzdində Orta İxtisas Musiqi Məktəbinin (indiki Bülbül adına) direktoru olduğu dövrdə təhsil aldığım vaxta təsadüf edir. Ondan bəzi məsləhətlər almaq mənə nəsib oldu. Mosartın Fa major və Qriqin mi minor sonatası ifa olundu. Hələ də yaddaşımda əsərlərin ifasının yüngüllüyü və təravəti qalmaqdadır. İlk növbədə o, frazanın gərgin işlənilməsinə, cizgilərin qüsursuzluğuna, intonasiyanın ifadəliliyinə nail olmaq sevgisini aşılamağa çalışırdı. Eyni zamanda işin təfsirinin dramaturji mənasına da böyük diqqət yetirirdi.

R.Atakişiyev laqeyd və simasız təfsirə dözmür, texnikanın təbiiliyinə, bunun özü-özlüyündə gözə çarpmamasına və musiqidən yayınmamasına çalışırdı. Frazanın mərkəzi ifadə mənbəyinə, kulminasiya nöqtəsinə əhəmiyyətli dərəcədə diqqət yetirirdi. Səs mədəniyyətinə xüsusi diqqət yetirirdi. Dərs zamanı həm ahəngdar, həm də texniki epizodların yüksək keyfiyyətli səslənməsinə xüsusi diqqət yetirirdi. Texnika anlayışı onun tərəfindən geniş şəkildə izah olunurdu. Diqqətimi məhz o çəkdi ki, tələbələr texniki keçidlər üzərində işləyərkən ahəngdarlığın, yalnız onun mahiyyəti ilə əlaqəli deyil, həm də dinamikaya, artikulyasiyaya, xarakterə və s. münasibətdə diqqət tələb edən mühüm texniki sahə olduğunu tez-tez unudurlar.

Əgər R.Atakişiyevin bütün xüsusiyyətlərini cəmləşdirib və onları bir sözlə müəyyən etmək mümkün olsaydı, deyərdim ki, bu söz xeyirxahlıqdır. İstər səhnədə istərsə də gündəlik həyatda olmasından asılı olmayaraq hər zaman xeyirxahlıq nümayiş etdirirdi. Onun artistik cazibəsinin də sirri elə bu deyilmi? Ümumiyyətlə, R.Atakişiyevin xeyirxahlığı hər kəsə məlum idi. Bəzən ona bir o qədər də nəzakətli olmayan şəxsi istəkləri ilə müraciət edənlər olur və o bütün bunları yerinə yetirməyə çalışır, bəzən hətta buna layiq olmayan insanlara belə tövsiyələr verməkdən çəkinmirdi. İncəlik, insanlara qarşı xeyirxahlıq və bəzən kimisə narahat etmək qorxusu R.Atakişiyevin özünə qarşı çevrilirdi.

R.Atakişiyevin yumoru xüsusilə mülayim xarakter daşıyırdı: o, hadisələrin gedişatını çox vaxt şən tərəfdən qiymətləndirir, lakin bu və ya digər insanların şəxsi keyfiyyətlərini heç vaxt lağa qoymurdu (hazırcavab kimi tanınmağın ən asan yolu!).

R.Atakişiyevin bütün həyatı musiqiyə həsr olunmuşdu. Bu zaman musiqi onu daim öz ifası ilə (oxuyarkən və ya fortepianoda ifa edərkən), tələbələrlə məşğələlərdə, qeydlərin dinlənilməsi şəklində müşayiət edirdi. R.Atakişiyevin musiqiyə olan maraq dairəsinin genişliyi ədəbiyyat, mədəniyyət və incəsənətin müxtəlif sahələrində yeni və əlamətdar olan hər şeyə diqqətlə yanaşması ilə də heyrətləndirirdi.

R.Atakişiyev, həqiqətən qeyri-adi bir şəxsiyyət idi. Onun fortepianoda ifa etməsində, oxumasında, hətta kiminləsə sadəcə söhbət etməsində belə, bir sözlə hər şeydə onun zəngin və müdrik təbiəti öz əksini tapırdı. Onu da əlavə etmək istəyirəm ki: mən xoşbəxtəm ki, bizim aramızda R.Atakişiyev var olmuşdur. O, bir çoxları kimi mənim üçün də mükəmməl musiqiçi və insan olaraq yadda qalıb və əbədi qalacaqdır.

**Xuraman QASIMOVA**
*Azərbaycanın Xalq artisti, professor*

## UNUDULMAZ ŞƏXSİYYƏTLƏR VƏ XATİRƏLƏR

Atakişiyevlər ailəsi ilə biz ailəvi olaraq uşaqlıqdan tanış idik. Məlumdur ki, mənim böyük bacım Fidan özünün musiqi və ümumi təhsilini yeddi yaşından skripkada çalmağı öyrənməklə xüsusi istedadlı uşaqlar üçün olan xüsusi musiqi məktəbində almışdır. Hazırda bu məktəb Bülbülün adını daşıyır. Onun müəllimi Rauf İsrafiloviçin böyük qardaşı – Tahir İsrafiloviç Atakişiyev idi. Gözəl insan, tələbkar pedaqoq və məktəb direktoru. Onun həmin məktəbə rəhbərlik etdiyi dövr ərzində sonradan Azərbaycanın musiqi incəsənətini şöhrətləndirmiş bütöv bir möhtəşəm musiqiçilər qalaktikası yetişdirilmişdir. Pedaqoqun özünün istedadlı tələbəsi ilə münasibətləri sonradan bizim ailələrimiz arasında möhkəm bir dostluğa çevrildi. Biz tez-tez gah bizdə, gah da onlarda ailə təntənələrinə yığışırdıq. Belə səmimi gecələr şənlik, gülüşlə dolu olurdu və əlbəttə ki, musiqisiz də keçmirdi. Fortepiano çalır, rəqs edir, oxuyurduq, kim nəyi bacarırdısa, onu da nümayiş etdirirdi. Mən ailədə hamıdan kiçik idim, böyük bacım Fidandan fərqli olaraq daha az utancaqdım və onlar musiqiyə başlayan kimi mən də o dövrlərdə məşhur olan estrada, neopolitan və xalq mahnılarını oxumağa başlayırdım. Sonra möhtəşəm səsi olan atam (dramatik tenor) və Rauf İsrafiloviç mənə qoşulardı. Daha sonra onlar klassik repertuara: operalardan ariyalara, romanslara və s. keçirdilər. Musiqini mənim böyük qardaşım Əlibəy və ya Rauf İsrafiloviçin həyat yoldaşı Zülfiyə Lvovna ifa edirdilər. Bu möcüzəli, sehrli idi. Və bir dəfə necə oldusa, Fidan da bizə qoşulmaq qərarına gəldi. Hamı dərhal susdu və diqqətlə qulaq asmağa başladı. Rauf İsrafiloviç xoş təəccüblənmişdi: "Tahir, axı sən mənə heç deməmişdin ki, tələbənin belə xoş, təmiz səsi var". "Mən onu çoxdan, o hələ uşaq xorunda xüsusilə fərqlənərkən eşitmişdim, lakin susdum, dedim ki, qoy böyüsün və özü səsini göstərmək istəyəcək" – Tahir İsrafiloviç cavab verdi. O vaxtdan illər keçdi. Fidan skripka sinfi üzrə konservatoriyanın ifaçılıq fakültəsinə daxil oldu, həm də oxumaqla ciddi şəkildə məşğul olmaq istədi. Cövdət Hacıyev (o illərdə rektor) onun parlaq ifadəli vokal göstəricilərinə görə iki fakültədə oxumasına icazə verdi. O vaxta qədər mən də böyümüşdüm və bacımın arxasınca konservatoriyanın vokal fakültəsinə daxil olmağı düşünürdüm. Biz burada Rauf İsrafiloviçi tez-tez görürdük. O, xüsusi fortepiano kafedrasının müdiri və həm də M.F.Axundov adına Opera və Balet Teatrının solisti idi. Həmin illərdə konservatoriyanın fortepiano siniflərinin yerləşdiyi ikinci mərtəbənin dəhlizlərini Rauf İsrafiloviç olmadan təsəvvür etmək çətin idi. Elə gəlirdi ki, o, öz tələbələri ilə məşğul olmaqla gecədən keçənə qədər burada olur. Onu hamı sevirdi. Onu sevməmək mümkün deyildi. O, sevimli idi. Mehriban, həssas, cazibədar insan və tələbkar pedaqoq, metr.

Onun yetişdirdiyi gözəl şagirdlərin, pedaqoqların və pianoçuların sayını saymaq çətindir. O, böyük nüfuz sahibi idi, cəmiyyətdə, konservatoriya və teatrın kollektivləri arasında böyük hörmətə malik idi. Gözəl pianoçu və ifaçı kimi o, teatrın səhnəsində çoxlu sayda tenor üçün yazılmış başlıca ariyaları ifa etmişdir. Səsi parlaq, cingiltili, uçan idi və zalın hər bir bucağını doldururdu. Oxuduğu zaman heç kim onun köklüyünü hiss etmirdi, bu hətta ona yaraşır, onu hərarətli, rahat edirdi. Ona sıxılmaq və onun böyük qəlbinin hərarəti ilə isinmək istəyirdin. Belə gülümsər, səmimi, böyük yumor hissi olan Rauf İsrafiloviç heç bir zaman yeni, məzəli lətifəni paylaşmaq imkanını əldən buraxmırdı, hal-əhvalı yüksəldir, sonra ciddi şəkildə dərsə keçirdi. O, möhtəşəm pedaqoq idi. Əsl musiqiçi, ifaçı, məşğələlərdə tam gücünü sərf edirdi. İncəsənəti

sədaqətlə sevərək, o, əlbəttə ki, vokal kafedrasının tələbələrinə də böyük maraq göstərirdi. Pilləkənlərlə öz auditoriyasına qalxarkən, olurdu ki, üçüncü mərtəbədən yaxşı, gözəl bir səs gəlirdi, səbirsizcəsinə, kimin oxuduğunu görə bilmək üçün yuxarı qalxır və qəfildən qapını açaraq vokal sinifinə daxil olurdu. Bax beləcə qəfildən o, bizim yanımıza, İ.A.Lvoviçin sinfinə, Fidan və ya məni dinləməyə gəlirdi. Bizim səsimiz onun çox xoşuna gəlirdi. Hər zaman səslərimizin gözəlliyini, intonasiya təmizliyini, hamarlığını və müxtəlif olsalar da obertonlarla zəngin, uçan tembrlərimizi qeyd edirdi...

O özü kamera vokal musiqisinin möhtəşəm ifaçısı idi. Onun səsi üçün olan çoxsaylı mahnı və romansların: Şubert, Şuman, Brams, Qlinka, Çaykovski, Raxmaninov və s. lent yazıları qalıb ki, onlar musiqi çəhətdən olduqca dəqiq, savadlı, ziyalıcasına interpretasiya edilib. O, musiqi ilə yaşayırdı. Gənc musiqiçi və ya ifaçı tərəfindən yaxşı musiqi səsləndiriləndə o, laqeyd qala bilmir, təriflərə xəsislik etmir və səmimi qəlbdən dəyərli məsləhətlər verirdi.

Bizim yaradıcılıq yüksəlişimiz və uğurlarımızı o, xüsusi maraqla izləyirdi. Bizim hər ikimizi, demək olar ki, eyni zamanda opera teatrının truppasına işləməyə dəvət etdilər və biz tez bir şəkildə repertuara daxil olduq və aparıcı solistlərə çevrildik. Rauf İsrafiloviç həmin dövrdə teatrın artıq kifayət qədər tanınmış və təcrübəli solisti idi.

Bizim teatrdakı işimizin lap əvvəlindən o, bizim iştirakımızla olan premyeraların heç birini buraxmırdı. Tamaşadan sonra bizi öpmək və tərifləmək üçün pərdə arxasına yanımıza tələsirdi. İradları demək olar ki, olmurdu. Elə tamaşalar da olurdu ki, biz səhnədə tərəf-müqabili olurduq, misal üçün: Bizenin “Karmen”i – o, Kavaradossi, Fidan – Mikaela; Puççininin “Bohema”sı – o, Rudolf, Fidan – Mimi, mən isə – Mimi və Myuzetta; F.Əmirovun “Sevil”i – o, Balaş, Fidan – Sevil, mən isə Sevil və Dilbər.

1980-ci ildə F.Əmirovun “Sevil” operasının ikinci, yeni quruluşda, onların sayı cəmi üç olub (sonuncusu 1998-ci ildə F.Bədəlbəylinin redaksiyasında) məşqləri zamanı baş vermiş unudulmaz bir hadisəni yada salmaq istəyirəm. Belə ki, 1980-ci ilin quruluşunda Fidan xanımla biz hər ikimiz başlıca Sevil partiyasını ifa edirdik, bundan əlavə mən həm də Dilbərin – dramın süjeti üzrə onun rəqibinin partiyasını oxuyurdum. İfaçıların iki tərkibi vardı, onlardan birində Balaş partiyasını SSRİ Xalq artisti Lütfiyar İmanov və Rauf İsrafiloviç ifa edirdilər. Operanın həmin redaksiyadakı quruluşçuları dekorasiyaların orijinal həllini tapdılar, onu, elə bil ki, iki mərtəbəyə böldülər: birincisi – alçaldılmış Sevilin dünyası, ikincisi – “dünyəvi” Dilbər və Balaş dünyası. Səhnə dekorasiyaları məşqlər zamanı şərti quraşdırılırdı, o hesabla ki, aktyorlar təxmini adət edə bilsinlər, buna görə də əsaslı, möhkəm bərkidilmirdilər.

Dilbərin birinci dəfə Sevili – Balaşın bacısı Gülüşün onu gətirdiyi zaman – ikinci mərtəbədə zalın girişində gördüyü səhnənin məşqləri gedirdi. Qorxaq Sevil utanaraq kəndara gəlir, qonaqlara təqdim edilir, onları salamlayır və burada qaçaraq tələsik zala Balaş (Rauf İsrafiloviç) daxil olur ki, onları otaqdan çıxarsın. Bu zaman biz hiss etdik ki, ayaqlarımızın altında yer tərpəndi. Dekorasiyanın bir hissəsi – harda ki, biz güclə birlikdə durmuşduq – əsas hissədən aralanır və biz – Sevil, Gülüş, Balaş – beş metrlik hündürlükdən aşağıya birbaşa səhnəyə uçuruq. Əvvəl biz yerə düşdük, Rauf İsrafiloviç isə bizim, iki gənc, arıq solistlərin üzərinə yumşaqca yıxılır, tam əminliklə ki, bizi əzmişdir. Nəhayət biz onun altında uzanmış vəziyyətdə səsimizi çıxardıq, o, dərhal qalxdı, sevindi ki, bizi öldürməyib. Amma düzünü deyim ki, ciddi zədə və göyərtilərsiz keçmədi. İstehsalat zədələrini biz yenə də almış olduq, iki həftə müalicə aldıq. Burada məşhur bir məsəl yerinə düşərdi: “İncəsənət qurban tələb edir”. Lakin o, yazıq, çox qorxmuşdu, həyəcan keçirir və hər gün bizə zəng edir, üzrxahlığını bildirir, narahat olurdu. Teatr həyatımızda belə bir hadisə də baş verib.

1977-ci ildə gənc Fidan Qasımova İtaliyanın Verçelli şəhərində V.Viotti adına ifaçıların Beynəlxalq müsabiqəsində iştirak üçün Moskvada ümumittifaq seçimlərdən keçdi. O, bir çox iştirakçılar arasından mürəkkəb seçimə tab gətirmiş yeganə ifaçı idi. Bu zaman Sovet İttifaqından münsiflər heyətinə namizədin irəli sürülməsi məsələsi ortaya çıxdı. Bu kifayət qədər tanınmış, nüfuzlu, ad-sanı olan bir şəxsiyyət olmalı idi. Hər şeydən əvvəl Moskva məktəbini keçmiş böyük musiqiçi, vokal ustası və pedaqoq olması nəzərə alınmaqla Rauf İsrafiloviçin namizədliyi təklif edildi. Bu düzgün düşünülmüş və moskvalı həmkarlar tərəfindən də razılıqla

qarşılanan bir seçim idi, çünki Rauf İsrafiloviç onların da arasında böyük və layiqli nüfuza malik idi. Müsabiqənin idarə heyətində də məmnun idilər ki, Fidanla yanaşı ölkəni münsiflər heyətində yüksək bir peşəkar təmsil edəcək. Onlar İtaliyaya yola düşdülər və iki həftə sonra "Bel canto" ölkəsindən birinci yer və laureat adı ilə vətənə döndülər. Fidan elə ilk turdan yüksək ballar toplayaraq irəli çıxdı, özünün müxtəlif ölkələrdən olan rəqiblərini arxada buraxdı. Rauf İsrafiloviç Fidanla fəxr edir və qəzetlərə müsahibələr verərək onun layiqli qələbəsindən, onun sözün hərfi mənasında münsiflər heyəti üzvlərinin qəlblərini fəth etməsindən, eləcə də dinləyicilərin yüksək ifaçılıq və musiqi mədəniyyətindən danışırdı.

O zamanlar, bütün xalqların "Sovet İttifaqı" adlanan böyük bir ölkədə yaşadıqları dövrdə müttəfiq respublikalardan olan gənc müsuqiçilər üçün özünə "günəş altında yer" qazanmaq, məşhurluq və tanınmağa nail olmaq çətin idi. Gənc istedadlı musiqiçilərin, ifaçıların, mədəniyyət və incəsənət xadimlərinin ölkə hüdudlarından xaricdə müxtəlif müsabiqələrdə qələbələrlə özlərini göstərməsi zəruri idi. Həmin illərdə çoxmilyonluq bir ölkədə bu olduqca ağır, demək olar ki, mümkünsüz məsələ idi. Belə qələbələr gənc artistə daha tez bir məşhurluq gətirirdi. Adətən belə imkanlar Rusiya Federasiyasının nümayəndələrinin payına düşürdü, müttəfiq respublikalardan olan gənclərin önə çıxması – bu nadir və müstəsna hadisə sayılırdı. Bununla əlaqədar olaraq bizim ilk cığır açanlarımızın qələbələrini qeyd etmək istərdim: Fərhad Bədəlbəyli – möhtəşəm pianoçu – 1968-ci ildə Portuqaliyada Beynəlxalq müsabiqədə və 1977-ci ildə Fidan Qasımova İtaliyada qalib gəldilər. Onların fantastik qələbələri bizim mədəniyyətimizə böyük uğur, onların özlərinə isə böyük bir ölkədə və onun hüdudlarından kənarda məşhurluq gətirdi. 70-ci illərin sonu, 80-ci illərin əvvəlindən Fidan xanım əminliklə düz yola düşdü və İttifaqın ən yaxşı ifaçıları sırasında özünə möhkəm yer elədi. Rauf İsrafiloviç öz müsahibələrində həmişə bizim musiqi məktəbimizin uğurlarını qeyd edir, gənc istedadlarımızın Azərbaycandan kənarda qazandıqları uğurlara görə sevinirdi. Potensial var idi və o, ürəkdən buna şad olurdu.

1980 və 1981-ci illər mənim yaradıcılıq tərcümeyi-halımda ən çox yadda qalanlardan oldu. Bu vaxta qədər mən artıq musiqiçi-ifaçıların V Zaqafqaziya müsabiqəsinin laureatı (I yer) və M.Qlinka adına vokalçıların Ümumittifaq müsabiqəsinin laureatı (III yer) adlarını qazanmışdım. Bu qələbələr ildən ilə mənə əminlik verir və mən artıq qüvvəmi xaricdə hər hansı bir beynəlxalq müsabiqədə sınaqdan keçirməyi arzulayırdım. Axı "general olmağı arzulamayan əsgər pis əsgərdir!". 1980-ci ilin payızı. Yeni tədris ili başladı. Biz öyrəndik ki, SSRİ Mədəniyyət nazirliyinin beynəlxalq müsabiqələr üzrə idarəsi Rauf Atakişiyevə 1981-ci ilin yazında Yunanıstanın Afina şəhərində keçiriləcək Mariya Kallas adına vokalçıların müsabiqəsində münsiflər heyətinin üzvü olmaq təklifini edib. Danışırdılar ki, bu boşu-boşuna deyil, görünür ki, o, bu müsabiqəyə Qasımova bacılarından birini aparacaq.

Müxtəlif şayiələrə qulaq asmamaq üçün mən özüm ona zəng etmək və hər şeyi ətraflı şəkildə şəxsən onun özündən öyrənmək qərarına gəldim. Məlum oldu ki, o, həqiqətən belə bir təklif alıb, lakin bizim barəmizdə o heç nə bilmir. Mən proqramı əldə etdim və seçimlərə hazırlaşmağa başladım.

Mən Moskva şəhərində Moskva konservatoriyasının Kiçik zalında keçirilən seçimlərə gələndə öyrəndim ki, ciddi və səlahiyyətli münsiflər heyəti 57 gənc iştirakçını dinləməyə hazırlaşır. Mənim soyadımı çəkdilər və mən çıxdım, 2 ariya: C.Puççininin "Bohema" operasından Miminin hekayəsini və V.Bellininin "Norma" operasından eyniadlı qəhrəmanın kavatinasını ifa etdim. Hamı oxudu və münsiflərin qərarını gözləyirik. Gecə saatlarında seçimdən keçən iki ifaçının adları məlum oldu – bunlar opera bölməsindən mən və kamera bölməsindən Pribaltikadan olan bariton Vladimir Prudnikov olduq.

Və qəfildən səhnə arxasına Rauf İsrafiloviç qaçaraq, demək olar ki, göz yaşları içərisində gəlir. "Hanı mənim qızım? Ağıllım! Sən hamını heyran qoymusan!" – məni öpüşlərə qərq edir. "Sən niyə məni xəbərdar etmədin ki, bura gəlməyə hazırlaşırsan?" – o, soruşdu. "Mən sizi xoş təəcübləndirmək və sürpriz etmək istədim" – mən cavab verdim.

Və tale yenidən məni Rauf İsrafiloviçlə birləşdirdi. Biz birlikdə Yunanıstana yola düşdük – o, beynəlxalq münsiflər heyətinin üzvü kimi, mən isə – 37 ölkədən olan çoxsaylı müsabiqəçilər arasından iştirakçı kimi. Biz orada öyrəndik ki, sədr Tito Qobbi – keçmişdə Mariya Kallasın bir

çox opera tamaşalarında tərəf müqabili olmuş məşhur bariton olacaq tərkibinə Rauf İsrafiloviçin də daxil olduğu münsiflər heyətində doqquz ölkədən olan təmsilçilər vardı. Bu iki həftə mənim üçün böyük gərginlik və həyəcanla dolu oldu. İki tur tamaşaçılar və musiqi olmadan keçdi, üçüncü turda finalçı-iştirakçılar simfonik orkestrin müşayiəti ilə çıxış etdilər. Münsiflər heyətinin üzvləri və müsabiqə iştirakçıları başqa-başqa otellərdə qalırdılar və biz Rauf İsrafiloviçlə məşqlərdə ünsiyyətdə olur və telefonla danışa bilirdik. Onlara ətraflı danışmaq qadağan edilmişdi. Lakin o, başa düşərək ki, mən güclü həyəcan keçirirəm, özünün zarafatları ilə məni ruhlandırmağa çalışırdı. "Möhkəm ol, bala, axı sən artıq finala keçmisən, özü də harda, Kallas adına müsabiqədə". "Diqqətini cəmlə və özünün bütün bacarıqlarını tam dərəcədə nümayiş etdir. Mən bilirəm ki, sən bunu bacaracaqsan!". Üçüncü turda mən tam qüvvəmlə çalışdım. Mənim çıxışımı ən yaxşı çıxış kimi tanıdılar və biz Vətənə birinci mükafatla, eləcə də müsabiqənin ən yüksək mükafatı – "Qran-Pri" və qızıl medalla qayıtdıq. Başlıcası isə bu Tito Qobbinin özünün qərarı idi. Rauf İsrafiloviç danışırdı ki, maestro Qobbi mənim səsimin tembrinin gözəlliyini, musiqiliyini qeyd edib, buna görə də ən yüksək qiyməti verib. Demək olmaz ki, mən sakit idim, bu qədər məsuliyyətli müsabiqədə iştirak zamanı həyəcan keçirmirdim. Belə şey olmur. Lakin mən bilirdim ki, zalda mənim üçün doğma olan insan, həmyerlim var ki, o, mənə görə həyəcan keçirir, narahatdır və bu mənə əminlik verirdi. Mən bilirdim ki, o necə mənim üçün sevinir və azarkeşlik edir, tərləyir, çırpınır, mən oxuyanda yerində sakit otura bilmirdi.

Mən çox şadam ki, mənə inananların, məni dəstəkləyənlərin ümidlərini puç etmədim. SSRİ-nin Yunanıstandakı səfirliyinə Azərbaycanın və Sovet İttifaqının görkəmli xadimlərindən mənim adıma təbrik teleqramları gəlirdi. Mən onların hamısını bu günə qədər saxlayıram. Qayıdıb gələndən sonra Rauf İsrafiloviç bütün qəzetlərə müsahibə verərkən özünün heyranlığını saxlaya bilmir, mənim layiqli qələbəmi xüsusi ilə qeyd edirdi. Axı o illərdə İttifaqdan olan heç bir iştirakçı bu qədər nüfuzlu müsabiqədə qalib gəlməmiş, xüsusən də bu qədər yüksək laureat adını qazanmamışdı. Mən Mariya Kallas adına Beynəlxalq müsabiqənin I mükafatı, eləcə də "Qran-Pri" və qızıl medalını qazanan ilk gənc ifaçı idim. Yadımdadır ki, bizi hətta o zaman SovİKP MK Siyasi şurasının üzvü, SSRİ mədəniyyət naziri P.N.Demiçev ən xoş təbriklərlə qəbul etdi. Mən çox fəxr edirdim ki, yenidən Azərbaycanın vokal məktəbi barəsində danışmağa başlamışdılar, mənlə Fidan isə bu işdə kiçik bir xidmət göstərmişik. Həm də sevinirdim ki, Rauf İsrafiloviç bizim xaricdəki qələbələrimizin canlı şahidi olub və bizə hərtərəfli dəstək verib.

İllər keçirdi və tale elə gətirirdi ki, biz bundan sonra Rauf Atakişiyevlə biri birimizə daha da yaxın olduq.

F.Əmirov küçəsindəki yeni mənzillərə köçən zaman biz gözləmədiyimiz halda qonşu olduq. Atakişiyevlər 10-cu, Fidan xanım isə 12-ci mərtəbədə yaşayırdılar. O, qonşu kimi də çox gözəl idi! Bax amma onunla liftə minmək bir qədər qorxulu idi, üç nəfər çətinliklə yerləşirdi – liftin gücü çatacaq ya yox? Lakin qorxu hissi tez keçirdi, ona görə ki, o, bir-iki yeni lətifə danışmağa macal tapırdı. Onun necə qonaqpərvər, duz-çörəkli olmasını isə hamı bilirdi. O, qonaqları sevirdi, heç bir zaman yemək yeməyə tək oturmazdı, Zülfiyə xanımdan xahiş edərdi ki, kimisə dəvət etsin və yarım saat içində şən bir yemək-içmək məclisi düzələrdi. Onların mərtəbəsindən həmişə dadlı yemək iyləri gəlirdi. Zulya xanım sehrli pianoçu idi və çox gözəl yemək bişirirdi, Rauf İsrafiloviç isə qurman idi və dadlı yeməyi dəhşətli dərəcədə çox sevirdi. Qonaqlar yığışana qədər masa "özü dolub-boşalan süfrə" kimi dadlı təamlar və delikateslərlə dolurdu. Biz də bu zaman orda olurduq və buna gərə bunları qonşu kimi cəsarətlə söyləyirəm. Mühüm olan da o idi ki, belə məclislər musiqi fasiləsi olmadan keçməzdi. Yayda musiqi səsləri küçədə də eşidilirdi. Yoldan keçənlər evin qarşısındakı skamyada oturub dincəlməklə başlarını yuxarı qaldırır, qulaq asır və konsertdə olduğu kimi zövq alırdılar.

Daha bir maraqlı və heyrətamiz hadisəni yada salmaya bilmərəm. Rauf İsrafiloviçin evində daha bir ailə üzvü – Filya adında sevimli bir it yaşayırdı. O elə gözəl idi ki, tünd-kürən, uzun qulaqları, əsas olanı da olduqca ağıllı. Onu bütün qonşular sevirdilər. Onunla bir evdə yaşamaq olduqca rahat idi. Bir dəfə xoş bir qış axşamında Rauf İsrafiloviç evin qarşısında Filya ilə gəzirdi. Birdən küçədən səs-küy, qışqırıq, it hürməsi və kükrəməsini eşitdik. Mən balkona qaçdım ki, görüm nə baş verir və dəhşətli bir görüntü ilə qarşılaşdım. Filyanın üzərində

haradansa bir iri küçə iti hücum çəkib, dişlərini ona keçirib və parçalamaq istəyir. Yazıq Rauf İsrafiloviç isə quduzlaşmış iti Filyadan uzaqlaşdırmaq istəyir, lakin gücü çatmır. Yoldan keçənlər baxır və qorxusundan heç kim kömək etmək üçün yaxınlaşmırdı. O, vurnuxur, quduz iti özünün norka papağı ilə qovmağa çalışır, lakin küçə iti əl çəkmirdi. Gücdən düşmüş Rauf İsrafiloviç sözün həqiqi mənasında öz itini küçə itinin dişlərindən qoparıb Filyanı özünün nəhəng bədəni ilə örtür, soyuq yerdə uzanaraq onu özünün dəri kürkünün altında gizlədir. Beləcə o, yazıq-yazıq səs çıxaran öz itini xilas etdi. Küçə iti yazıq Filyanı möhkəm yaralamışdı. Bu qorxunc səhnəyə baxmaq dəhşətli idi. Düzünü deyim, film üçün təsirli bir süjetdir. Sonra insanlar gəldilər və Rauf İsrafiloviçə ayağa qalxmağa köməklik etdilər. Bu mənə çox təsir etdi, mən sonra uzun müddət bu hadisəni yaddan çıxara bilmirdim. Heyvanlara olan sevgi – insanın mehriban ruhunun göstəricisidir!

Mən hesab edirəm ki, bizim nəslimiz olduqca xoşbəxt olub. Biz gözəl bir çağda, Azərbaycan mədəniyyəti və incəsənətinin çiçəklənməsinin “qızıl əsrində” böyümüşük. Bizim ünsiyyət qurmaq səadətinə qovuşduğumuz görkəmli şəxsiyyətlər dövrü, həyat məktəbi keçdik, peşə təhsili aldıq. Biz onları dinləyir, hər bir sözünü yaddaşımıza həkk edir və onların iradlarına qulaq asırdıq. Onların sayəsində bizim kimi istedadlı musiqiçilər, ifaçılar nəsli yetişdi, hansı ki, bu gün özünün təcrübəsini, biliyini, bacarıqlarını bölüşür və artıq istedadlı gənclərin yeni nəslini yetişdirirlər.

Mən öz xatirələrimdə bizim yaradıcılıq tərcümeyi-halımız və həyatımızın yalnız bir neçə səhifəsini təsvir etdim ki, burada da xüsusi yeri bizim müasirimiz, görkəmli musiqiçi, pianoçu, ifaçı, pedaqoq, professor, Azərbaycanın Xalq artisti, mehriban, gözəl insan Rauf İsrafiloviç Atakişiyev tuturdu.

**Validə PAŞAYEVA**
*Azərbaycanın Əməkdar artisti (Rusiya)*

## GÖRKƏMLİ PEDAQOQ

Rauf Atakişiyevlə bağlı xatirələr məni yaradıcılıq yolumun əvvəlinə aparır. Yekaterinburqdakı Dövlət Konservatoriyasını bitirdikdən sonra məni Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına dəvət etdilər.

Təbiətən gözəl bir səsə sahib olmaq və mükəmməl vokal ustalığı məktəbini keçmək bəzən ifaçı olmaq üçün kifayət etmir, çünki aktyor-vokalistin əsl həyatı yalnız teatrdan başlayır.

Bir sənətkarın yaradıcı karyerasının formalaşması, əsasən, ona faydalı təsir göstərən şəxsiyyətlərdən asılıdır.

R.Atakişiyev mənim üçün məhz belə bir şəxsiyyət idi. R.Atakişiyev gözəl səsə, böyük səhnə ustalığı istedadına, qeyri-adi musiqi biliyinə malik olmaqla öz təcrübəsini gənc solistlərlə aramla bölüşürdü. Pedaqoq böyük hərflərlə qeyd edirdi: "Həmişə mövcud olanlardan narazı olun. Narazılıq – insan ruhunun ən məhsuldar vəziyyətidir".

Mən R.Atakişiyevlə konservatoriyada, opera teatrı sinfində olan dərslərimi, konsert proqramına, opera partiyasına hazırlaşmağımızı xüsusi bir həyəcanla xatırlayıram. R.Atakişiyevlə eyni səhnəni bölüşmək mənə nəsib oldu. İlk dəfə onunla Stavropolda qastrol səfərində olarkən "Sevilya bərbəri" operasında Rozina partiyası ilə çıxış etdim. Böyük bir ustadın varlığı səhnədə olduqca zəruri olan özünə inam və sakitliyi mənə aşılamışdı.

Növbəti xoşbəxt məqamlardan biri də sevimli müəllimimlə daha bir opera S.Prokofyevin “Monastırda nişanlanma” operasını ifa etməyim olmuşdur. Uzun müddət Klara obrazında R.Atakişiyevin də dediyi kimi “ispan ruhu”na xəyanət edə bilmədim. Mənim möhtəşəm müəllimim Prokofyevin romantik, əzəmətli və eyni zamanda müasir musiqi ab-havasını yenidən yaratmağa nail ola bilmişdi. R.Atakişiyev, mənim yaradıcı Olimpusa necə əzabla qalxdığımı və onun üçün də yaxın və əziz olan yaradıcılıq prinsiplərimi necə inadla təsdiq etməyə çalışdığımı mükəmməl şəkildə görürdü.

C.Verdi qəhrəmanları obrazlarının yaradılmasında R.Atakişiyev tərəfindən mənə çox böyük kömək göstərilirdi: "Trubadur" operasından– Azuçena və xüsusilə "Aida" operasından – Amneris. Bütün bu işlər daha çox məmnunluq və ümid hissi bəxş edirdi.

Çox təəssüf edirəm ki, R.Atakişiyevlə birgə "Karmen" ifa etmək arzum reallaşmadı. Onun xəstəliyi bu opera şedevrini konsertdə ifa etməyimizə mane oldu.

Atakişiyevlərin evi olduqca qonaqpərvər idi. Qastrol səfərlərində R.Atakişiyev və onun möhtəşəm həyat yoldaşı Z.Lvovnanın otel otağı aktyorlarla dolu olardı və onlara yaxın olmaq hər kəsə sevinc bəxş edərdi. Xatırlayıram, tamaşadan sonra səhnədə baş verən hadisələrə gülürdük. Heyrətamiz məruzəçi və alim – bu görkəmli şəxsiyyətin istedadının daha da mühüm tərəfləridir. Onunla ünsiyyətdə olarkən çalışmaq əzmi, təkmilləşmək istəyi yaranırdı və ondan ayrıldıqda mən özümü mənəvi cəhətdən zənginləşmiş hiss edirdim.

R.Atakişiyevin iştirak etmədiyi konsert, tamaşa yox idi. Bir neçə dəfə çıxışdan sonra, necə deyərlər, isti izlərlə R.Atakişiyev səhvlərimi düzəldir, lakin o, bunu tamamilə yaradıcılıq fərdiliyimə təzyiq göstərmədən, böyük bir nəzakətlə edirdi.

Sonda demək istəyirəm ki, kim olmağıma görə bu möhtəşəm ifaçıya, müəllimə və insana borcluyam.

Allah yaradıcı həyata başlayan hər bir gənc sənətkara öz yolunda R.Atakişiyev kimi geniş miqyaslı şəxsiyyətlə qarşılaşmağı nəsib etsin.

**Həqiqət MƏHƏRRƏMOVA**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Atatürk Universitetinin professoru (Türkiyə)*

## TƏKRAROLUNMAZ...

***...Sən mənim xatirəmə çevrilmisən.***
***A.Axmatova***

Rauf Atakişiyevin ömrü yaradıcılıq fəaliyyətinin ən qaynar dövründə yarımçıq qaldı. Xəyalən 1994-cü ilin o dəhşətli fevral gününə qayıdarkən onun ölümünün mənə ən əziz adamımın itkisi kimi təsir etdiyini xatırlayıram. Bu hadisədən artıq iyirmi beş il keçməsinə baxmayaraq hələ də içimdə heç nə ilə doldurulmayan böyük bir boşluq, dərin kədər, ağrı hiss edirəm, və gün keçdikcə bu ağrı sakitləşmək, azalmaq əvəzinə daha da güclənir və dərinləşir.

Dünyanın ən nüfuzlu musiqi akademiyalarından biri – Moskva Konservatoriyasında mükəmməl məktəb keçmiş, fitri istedada malik olan Rauf Atakişiyev, birmənalı olaraq Azərbaycanın musiqi sənətində böyük bir hadisədir! Bu gün tam əminliklə deyə bilərəm ki, bizim fakültəmizdə onun qədər işıqlı, mülayim, istər tələbələrlə, istərsə də həmkarları ilə münasibətdə son dərəcə sadə bir insan yox idi. Onunla ünsiyyət, hətta onu kənardan müşahidə etmək belə axtarışda olan bir musiqiçiyə çox şey verə bilərdi. Qeyri-adi işıqlı bir görünüşə, yüksək pedaqoji istedada, artistlik cazibəsinə malik olan bu insan həm tələbələrinə, həm də həmkarlarına onların istək və iradəsindən asılı olmayaraq çox gözəl təsir göstərməyi bacarırdı. İstedadlı şəxsiyyət olmağın sirri də məhz elə bundadır.

Zənnimcə, iyirmi il onunla çiyin-çiyinə fortepiano kafedrasında çalışmağım bunu deməyə əsas verir ki, məhz Rauf İsrafiloviçin sənət düşüncələri o zamanlar bütün fakültədə hökm sürən yaradıcılıq mühitinə, əsl sənət sevgisinə bir çox cəhətdən təkan verirdi.

Atakişiyev sadəcə şöbəyə rəhbərlik etmir, daim yüksək bir xeyirxahlıq əks etdirərək yaradıcı axtarışlar üçün əlverişli şərait yaradır və həmkarlarını səxavətlə öz dərin bilikləri ilə zənginləşdirirdi.

Bəs bu necə baş verirdi? İndi o illəri xatırlayıb təhlil edərkən, hər şeydən öncə, professorun bir rəhbər üçün son dərəcə əhəmiyyətli olan xüsusi bir istedadını – qiymətləndirməyi bacarmaq istedadını qeyd etmək istəyirəm. Axı heç də sirr deyil ki, çox gözəl bir ifaçı ola-ola, qiymətləndirməyi, rəy bildirməyi bacarmamaq mümkün olan bir haldır. Təəssüf ki, bir keyfiyyətin olması digərlərinin də mövcudluğuna dəlalət eləmir. Bütün bunlar ona görə baş verir ki, çox vaxt rəy verilərkən mahiyyət deyil, qiymətləndirən şəxsin ifa tərzinə yaxın olan xırda detallar əsas götürülür.

Rauf İsrafiloviç isə tam fərqli bir musiqiçi idi. Hər hansı bir əsəri öz görmə və eşitmə qabiliyyətindən çıxış edərək dəyərləndirən zaman o, hətta öz ifa tərzinə yaxın olmayan incəlikləri belə düzgün şəkildə anlamağı, qeyd etməyi, qəbul edərək qiymətləndirməyi bacarırdı. Onun özünəməxsus – nəzakətli, təmənnasız və bu gün Rauf müəllimin bizimlə olmadığı bir zamanda, yeganə doğru hesab edilə bilən bir qiymətləndirmə sistemi var idi. Qeyri-ixtiyari olaraq belə bir fikir yaranırdı ki, onun dinlədiyi kimi dinləməyi heç kim bacarmayacaq. Buna görə də, biz, onun bütün kolleqaları və tələbələri, imtahan və konsertlərdə onu görməyi, rəylərini eşitməyi arzu edirdik, çünki onun fikirlərinə hər şeydən çox önəm verirdik. Bu görkəmli musiqiçinin məziyyətlərinə onun hər bir ifaçının bədii fərdiliyini duymaq qabiliyyətini də əlavə etmək olar. Rauf Atakişiyevin bir məkanda sadəcə olması belə gözlə görünməyən, yalnız şüuraltı şəkildə hiss edilən, xüsusi, möhtəşəm bir aura yaradırdı. Bu parlaq şəxsiyyətin bir çox əməlləri məni heyran edirdi, məsələn: Rauf İsrafiloviçin xəstə olduğunu bildiyim üçün, onu mənim İncəsənət Muzeyində keçirilən solo konsertimdə görəcəyimə qətiyyən ümid etmirdim. Buna görə də konsertdən sonra bizim cazibədar, nurlu və müdrik kafedra müdürümüzün mənə yaxınlaşdığını görəndə çox təəccübləndim. O, öz gənc həmkarının konsertinə gəlməyə bilməzdi. Fakültə ilə, ümumiyyətlə doğma konservatoriya ilə bağlı hər şey onu maraqlandırırdı.

Çox gözəl pianoçu olan Rauf Atakişiyev sinfinin məzunlarına bütün fortepiano konsertlərinin orkestr partiyalarını böyük emosionallıqla şəxsən özü müşayiət edirdi. Artıq klavişlərə ilk toxunuşu ilə o, səslərə xüsusi oberton zənginlik bəxş edərək bütün ifanın tonunu təyin edir, dinləyicini bəstəkarın bədii obrazları aləminə aparırdı. Bilirəm ki, onunla birgə ifa etmək tələbələr üçün hər zaman böyük bir bayram idi.

Ömrünün son ili, 1993 ilin mayında keçirdiyi infarktdan sonra o məndən öz tələbələrinə Dövlət imtahanında üç konserti müşayiət etməyimi xahiş etdi. O dövrdə həddindən artıq çox işim olmasına baxmayaraq, mən ona etiraz edə bilmədim və heç etmək də istəmədim. Rauf İsrafiloviçi sinifdə görmək, onun işi ilə, necə deyərlər, içəridən tanış olmaq mənim üçün çox maraqlı idi. Özü də mən onu xəbərdar etdim ki, Bramsın re-minor konsertini əvvəllər heç vaxt ifa etməmişəm. "Narahat olma! – deyə o məni sakitləşdirdi, – biz səninlə bir dəfə görüşərik və mən hər şeyi sənə göstərərəm".

Gün və saat təyin edildi. Onun 305 nömrəli sinif otağında görüşdük. Bu dərsi heç bir sözlə ifadə etmək olmaz, çünki Rauf müəllimin danışıq üslubunun intonasiya və nüanslarını, onun emosional dolğunluğunu təsvir etmək mümkün deyil. Artıq neçənci dəfə idi ki, mən Atakişiyevə bir musiqiçi və bir insan kimi heyran qalırdım. Onun mehribanlığına, mənəviyyatına dərin musiqi biliyinə, incə yumor hissinə, ləyaqətinə və sadəliyinə məftun olurdum. Bütün bu keyfiyyətlər Rauf Atakişiyevdə bir harmoniya təşkil edirdi və ona qarşı maraq oyadırdı. Tələbkar sənətkarın yüksək ustalığı və incə nəzakəti ona insan qəlbinin ən gizli guşələrinə yol tapmaq imkanı verirdi. Cəmi bir-iki saat ərzində o Bramsın konsertində ifaçıdan tələb olunan hər şeyi mənə izah etdi. Atakişiyevin re-minor konsertini göstərməsi həyatımın ən unudulmaz anlarından biridir. Onun yalnız özünə agah olan bir üsulla, yalnız onun bacardığı bir yolla Rauf İsrafiloviç

orkestr partiyasını detallı bir təhlillə keçərək Brams partiturasının bütün müxtəlifliyini açıqladı. Bax o zaman mən Rauf müəllimi hər gün sinifdə görüb eşitmək xoşbəxtliyindən məhrum olduğum üçün çox böyük təəssüf hissi keçirtdim.

Məqaləni demək olar ki, bitirib redaktor T.Seyidova göndərməyə hazırlaşarkən, təsadüfən hüdudsuz internet məkanında Rauf Atakişiyevin xatirəsinə və 90 illiyinə həsr olunmuş konsertə rast gəldim və növbəti dəfə böyük musiqiçinin sənət dünyası ilə qarşılaşdım. Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində iştirakçıların çıxışları və Rauf Atakişiyevin öz həmkarı, əvəzsiz dostu və həyat yoldaşı Zulya Lvovna ilə duet performansını əks etdirən kadrlar bir-birini əvəz edirdi. Və mən qeyri-ixtiyari xəyalən böyük ustada xitab etdim: *"Əziz, unudulmaz Rauf İsrafiloviç, mən, sizi tanıyan və sevən biri, deyəsən əslində sizi tanımamışam. Bu möhtəşəm ansambl məharətinizə vuruldum... Yüksək ifaçılıq sənəti, mədəniyyət, kübarlıq və intellektinizə heyran qaldım. Lakin dərin ağrı hissi ilə qeyd etmək istəyirəm ki, bu gün bütün bu sadaladığımız keyfiyyətlər bir-birinə qarışaraq yox olur..."*

Rauf Atakişiyev adı mənim üçün müqəddəsdir və ona olan hörmət hissim sarsılmazdır... Bu böyük istedadlı şəxsiyyətlə tanışlığıma görə taleyimə təşəkkür etməkdən yorulmuram! Onun yerini tuta biləcək birini görmürəm, yaxud görə bilmirəm və ya görmək istəmirəm...

*... "Son nəfəsimədək düşünəcəm mən,*
*Bu zülmət söndürə bilməz qətiyyən*
*Sevimli Vətənin o ulduzunu,*
*Onun qəlbimdəki parlaq izini".*

**Sergey KOVALENKO**
*Moldovanın Əməkdar artisti,*
*Kişinyov Konservatoriyasının professoru*

## TALE MƏNƏ ONUNLA GÖRÜŞMƏYİ BƏXŞ ETDİYİ ÜÇÜN MİNNƏTDARAM...

Mənim Rauf Atakişiyevlə bağlı olduqca dəyərli xatirələrim vardır!!! O, bir Şəxsiyyət kimi mahiyyət etibarilə mənə daha yaxındır. Həm Bakıda, həm də Kişinyovda baş tutan bütün görüş və ünsiyyətimizi ən dərin hisslərlə xatırlayıram... Hazırda, bu cür Şəxsiyyətlər çox azdır və bəzən nadir hallarda gələcək nəslin müəyyən səviyyədə formalaşması və inkişafında belə şəxsiyyətlərin mahiyyətinin nə qədər böyük və vacib olduğunu düşünürlər....

Minnətdaram ki, onunla görüş mənə nəsib oldu…

Əbədi yaddaşlarda qalsın və məkanı cənnət olsun.

Bu cür insanlarla ünsiyyətdə olarkən və xatırlayarkən səssizliyi dinləməyi bacarmaq necə də vacibdir…

**Ülviyyə HACIBƏYOVA**
*Azərbaycanın Xalq artisti, professor*

## BİR PAYIZ GÜNÜ...

Bir payız günlərində sevimli müəlliməm Liliya Lvovna məni “böyük, əsl musiqiçi” adlandırdığı bir şəxsin evinə qonaq apardı. Bu gülərüz, işıqlı simalı insan Rauf Atakişiyev idi...

XX əsr Azərbaycan incəsənətində sevilən görkəmli simalardan biri də Azərbaycanın Xalq artisti, professor R.Atakişiyev olmuşdur.

Onunla həmsöhbət olmaq, onun dəyərli fikirlərinə, məsləhətlərinə qulaq asmaq, nəhayət, ən başlıcası, fortepiano ifaçılığının əlçatmaz “sirlərinə” yiyələnmək, bu və ya digər əsər haqqında saatlarla danışaraq mülahizələrimizi bölüşdürmək – mənim həyatımın gözəl anlarından biri kimi beynimdə əbədi həkk olunmuşdur.

R.Atakişiyev əfsanəvi Nejdanovadan vokal dərsləri almış, pianoçuların bir növ məbədgahı olan K.N.İqumnovdan isə fortepiano ifaçılığı sirlərinə yiyələnmişdir. Görün bir bu insan nə qədər dəyərli bilik, savad mənbəyi ilə zəngin olmuşdur?

Bəlkə elə bu keyfiyyətlərini özünün də anladığına görə daxili səmimiyyət, sadəlik, arxayınlıq ondan kənar qaçmırdı.

Rauf müəllim bəxtimdən mənim valideynlərim tək çox qonaqpərvər insan idi. Onun evi həmişə üzümüzə açıq olardı. Biz burada dadlı təamlarla birgə məşhur mədəniyyət xadimləri ilə də tanış olaraq öz ünsiyyət dairəmizi genişləndirirdik.

Tələbə yoldaşlarımla birgə 10-15 nəfər yığışıb bir oyuncağa bənzər, tələbəsayağı lazımsız bir hədiyyə alar, sevimli müəllimimizi böyük qonaqlıqla xərcə salar, saatlarla oturub Müslüm Maqomayev, Gennadi Rojdestvenski və kimlər-kimlərlə danışıb gülərdik...

Ustadın hər bir sözü, hər bir kəlməsi indi də yadımdadır. Öz tələbələrinə dərs keçəndə onun simasını xatırlar, royalda Bethoven sonatalarının, xüsusilə II hissələrin akkordlarının səsləndirilməsinin xüsusi yollarının sirlərinə necə yiyələnməyi mənə başa saldığı anları yada salıram və düşünürəm ki, Tanrıya mənə bu böyük ustadı müəllim kimi göndərdiyi üçün minnətdaram.

Düşünürəm ki, geniş qəlbli əziz Rauf İsrafiloviç, böyük alim Y.İ.Milşteynlə məni görüşdürüb sonrakı fəaliyyətimi onunla bağlamağıma səbəb olduğu üçün də həmişə minnətdarlıqla onu xatırlayacağam.

Düşünürəm ki, hər bir azərbaycanlı Rauf İsrafil oğlu Atakişiyev kimi ziyalısı ilə fəxr etmiş və edəcəkdir.

Düşünürəm ki, Azərbaycan üçün böyük xidmətlər göstərmiş hər bir vətən oğlunun qədrini bilmək və onu unutmamaq hər bir kəsin borcudur.

Arzu edirəm ki, istedadlar məskəni – Xətailər, Nizamilər, Üzeyirlər kimi dahiləri olan Azərbaycanın məşəli daim yansın, daha da çox şölələnsin.

**Fəridə ƏHMƏDBƏYOVA**
*Beynəlxalq müsabiqələr laureatı,*
*sənətşünaslıq namizədi, professor*

## MƏNİM MÜƏLLİMİM

Mənə Rauf Atakişiyevin sinfində təhsil almaq xoşbəxtliyi nəsib olmuşdur. Yadımdadır ki, Rauf müəllim ilə tanışlığım Asəf Zeynallı adına musiqi texnikumun fortepiano şöbəsində gözəl pedaqoq Harri Bayramoviç Həbibovun sinfində oxuyan zaman olmuşdur. Təhsil alan illərdə mən müxtəlif konsertlərə gedirdim, eləcə də Rauf Atakişiyevin tələbələrinin konsertləri ilə tanış olmuşdum və çox bəyənmişdım. Təhsilimi Rauf Atakişiyevin sinfində davam etdirməyi arzu edirdim. Asəf Zeynallı adına Musiqi texnikumunu fərqlənmə diplomu ilə bitirdikdən sonra Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına əla qiymətlərlə daxil oldum. O zaman Rauf Atakişiyevin sinfində konservatoriyanın ən istedadlı tələbələri təhsil alırdı və onun sinfi tərkibinə görə konservatoriyanın ən öndə gedən sinfi idi. Rauf Atakişiyevin sinfinə qəbul olunmaq olduqca çətin idi. O zaman Rauf müəllım onun sinfində oxumaq arzusunda olan tələbələrin ifaçılıq qabiliyyətini, texniki və musiqi ustalıq səviyyəsini, pianizm vərdişlərini nəzərdən keçirdikdən və bəyəndikdən sonra onunla məşğul olmağa razılıq verirdi. Rauf müəllım məni dinləyəndən sonra öz sinfində oxumaga razılıq verdi.

Rauf Atakişiyev gözəl insani keyfiyyətləri ilə seçilən, insanlara münasibətdə xeyirxahlığı, sadəliyi, nəzakəti ilə fərqlənən bir adam idi. O, həmişə tələbələrini özünə cəzb edirdi, hamı onun

sinfində oxumağı arzulayırdı. Tələbələr onu təkcə görkəmli bir musiqiçi kimi deyil, gözəl insan kimi də sevirdilər. Rauf Atakişiyevin hər dərsi tələbələr üçün əsl yaradıcılıq prosesi və nadir istedada malik musiqisi ilə ünsiyyətdə olmaq demək idi. Gərgin iş şəraitində çalışan, böyük enerji və yüksək yaradıcılıq fəaliyyəti göstərən, yorulmaq bilməyən Rauf Atakişiyev yetirmələri ilə böyük həvəslə və əzmlə çalışırdı.

Qeyd olunmalıdır ki, Rauf Atakişiyevə Moskva konservatoriyasının görkəmli sənətkarlarından, ən nüfuzlu pedaqoqlarından olan, böyük opera vokal ustası Antonina Vasilyevna Nejdanova və məşhur pianoçu Konstantin Nikolayeviç İqumnovdan təhsil almaq xoşbəxtliyi nəsib olmuşdur. Görkəmli müğənni və gözəl pianoçu Rauf Atakişiyevə xas olan yüksək ifaçılıq keyfiyyətlərini əldə etməkdə böyük nüfuza malik olan, əvəzolunmaz, rus pianoçu, pedaqoq, fortepianoda "kantilena" sirrinin ustadı Konstantin İqumnovun təsiri olmuşdur. Rauf Atakişiyev həm ifaçılıq, həm də pedaqoji prinsiplərində bir növ Konstantin İqumnovun davamçısı olmuşdur. Rauf müəllim pedaqoq kimi ifaçılara opera mügənnilərinə daha çox qulaq asmağa tövsiyə edirdi, çünki insan səsi təbiətin yaranan ən gözəl alətidir. Yalnız bənzərsiz vokalçılardan mahir frazalaşdırma, incə nüanslar, "nəfəsin" sirlərini öyrənmək olar.

Son dərəcə gözəl xarakterə malik olan Rauf Atakişiyev dərslərdə əsərin interpretasiya üzərində işləyərək heç vaxt öz fikrini tələbələrə qəbul etdirməyə can atmırdı. O, peşəkar ustalığın sirlərini açaraq, sanki yeni, daha dərin təsvirini tapmağı təklif edirdi.

Mahir bir müğənni olan Rauf müəllım əsas diqqəti musiqinin ən mühüm elementi olan melodiyaya yönəldirdi. Sadəlik və təbiilik, gözəllik və anlaşıqlı ifa tərzi, musiqi fikrinin aydın ifadə olunması bu böyük sənətkarın dəyərli cəhətləri idi. Rauf müəllim məşğələlərdə not mətninə, frazalaşdırmanın incəliyinə, bunun insan səsinə bənzədilməsinə, bilək hərəkətlərinə, "rubato"nun düzgün mütənasibliyinə, pedallaşdırmanın təmizliyinə və ifanın başqa keyfiyyətlərinə də xüsusi diqqət yetirirdi. Melodiyanın frazalaşdırması üzərində səylə çalışdığımız zaman Rauf Atakişiyev çox vaxt öz yumşaq, həzin səsi ilə oxuyurdu. Tələbələr də musiqi əsərini çalan zaman ona diqqətlə qulaq asır, gözəl müğənninin hər notunu incəliyənədək dinləməyə çalışırdılar və dərhal bir andaca hər şey – frazalaşdırma da, melodiyanın "nəfəsi" də və demək olar ki, əsərin bədii qayəsi də tamam dəyişirdı.

Rauf Atakişiyevin pedaqoji repertuarı çox geniş və maraqlı idi. Tədris müddətində tələbələr çoxlu sayda polifonik əsər, konsert, sonata, etüd, iri həcmli pyeslər və s. çalırdılar. Tələbələrin repertuarına yalnız qədim musiqi deyil, müasir nümunələr, və azərbaycan bəstəkarlarının əsərləri də daxil edilirdi. Rauf müəllim dərs zamanı tələbə ilə yalnız imtahan və ya konsertlər üçün nəzərdə tutulan proqram üzərində çalışmaqla kifayətlənmirdi, ifa etdiyi əsərlərdən başqa diqər bəstəkarların müxtəlif əsərlərinə də müraciət edirdi.

Böyük fədakarlıqla çalışan, yorulmaq bilməyən Rauf müəllimin royalda ifası unudulmaz təəssürat yaradırdı. Rauf Atakişiyev özünün məlahətli ifası ilə tələbələrə təsir göstərən yüksək ifaçılıq mədəniyyətinə sahib olan pedaqoq idi. Mahir pianoçunun iri, yumşaq və eyni zamanda güclü barmaqları royalın dilləri üzərində gəzir və gözəl müğənninin ecazkar səsi eşidilirdi. O, oxuyanda da, royalda çalanda da öz işinin mahir sənətkarı kimi yüksək peşəkarlıq, güclü temperament, gözəl zövq, əsl artistizm və musiqiyə məhəbbət nümayiş etdirirdi. Rauf müəllimin ifasında L.Bethovenin 27 saylı sonatanın (e-moll) birinci hissəsinin səslənməsini unutmaq çətindir. Böyük ilhamla, incə zövqlə, bənzərsiz kontrast obrazı, orkestr çalarları ilə səslənən pianistin heyranedici ifası yaddaşımda silinməz iz qoymuşdur.

Rauf Atakişiyev tələbələrinin ifa etdiyi ən mürəkkəb konsertlərini həmişə özü müşayiət edirdi. Onunla bir ansamblda çalmaq çox maraqlı idi. Yadıma gəlir ki, mənimlə L.V.Bethovenin fortepiano üçün 5 saylı konsertini (Es-dur) birlikdə ifa edən zaman royal arxasına keçməzdən əvvəl Rauf müəllim zarafatla deyərdi: "İndi səni Boston simfonik orkestri müşayiət edəcək!" Həqiqətən də, bu görkəmli sənətkarın əlləri toxunan zaman royal sanki simfonik orkestr kimi səslənirdi. Bu alətin səslənməsini Rauf Atakişiyev nəfəs, zərb alətlərin, violin, violonçelin tembrlərinə yaxınlaşdıra bilirdi. Onu dinləyərkən səslənmənin dərinliyi və genişliyi, sadəliyi, fikrin aydınlığı, coşqunluğu və möhtəşəmliyi bizi heyran edirdi.

Tələbəlik illərini xatırlayaraq, 1978-ci ilin noyabrın 10-da Azərbaycan Dövlət Konservatoriyasının Böyük zalında Rauf Atakişiyevin tələbələrinin iştiraki ilə sinif konserti keçirilmişdir. Həmin tədbirdə demək olar ki, Rauf müəllimin bütün tələbələri iştirak etmişdir. Onların sırasında Yalçın Adıgözəlov, Ülviyyə Hacıbəyova (Vəliyeva), Fəridə Əhmədbəyova, Safura Sultanova, Natiq Rzazadə və başqaları böyük uğurla çıxış etmişdilər. Geniş konsert proqramında mənim ifamda səslənən Friderik Şopenin 2 saylı Skersosu (es-moll) dinləyicilər tərəfdən bəyənilmişdir. Ümumiyyətlə, demək olar ki, o dövrdə Rauf Atakişiyevin sinfində konservatoriyanın ən istedadlı tələbələri təhsil alırdı və onun sinfi konservatoriyanın aparıcı siniflərindən biri olmuşdur. Rauf məllimin yetirmələri daim yüksək musiqiçi keyfiyyətləri ilə, bilik və qabiliyyəti, ifaçılıq ustalığı ilə fərqlənirdi. Onun tələbələrinin iştirakı ilə keçən konsertlər geniş əks-səda doğururdu və bu konsertlərin proqramları müxtəlif dövrlərin bəstəkarlarının əsərlərindən ibarət olurdu. Konsertlərdən öncə Rauf müəllim hər bir ifaçını ruhlandırmaq, səhnə çıxışına hazırlamaq baxımından böyük bir peşəkar idi. O, söhbətləri ilə ifaçının səhnədə soyuq-qanlı olmağa, diqqətini yalnız yüksək artistizm və uğur əldə etməyə yönəldirdi. Rauf Atakişiyevin hər bir tələbəyə olan münasibəti olduqca həssas idi.

Həmin dövrün yadda qalan hadisələrindən biri olan 1980-ci ilin aprelin 10-da konservatoriyanın fortepiano fakültəsinin tələbələrinin iştirakı ilə məşhur alman bəstəkarı Robert Şumanın anadan olmasının 170 illiyinə həsr olunmuş yubiley konserti idi. Orada konservatoriyanın ən nüfuzlu olan pedaqoqları R.Atakişiyevin, E.Səfərovanın, U.Xəlilovun, T.Seyidovun, T.Qasımovanın tələbələri Robert Şumanın fortepiano əsərlərini böyük uğurla ifa etmişdilər. Belə tematik tədbirlər konservatoriyanın konsert həyatında həm tarixi, həm də təcrübi baxımından olduqca əlamətdar və əhəmiyyətli hadisə idi. Böyük konsert proqramında mən də Rauf Atakişiyevin tələbəsi kimi R.Şumanın "Karnaval" əsərini uğurla ifa etmişdim. Rauf müəllim bu əsərin ifası zamanı zənqin tembr çalarlarına nail olmasını, incə və rəngarəng, dərin səslənmə ilə kantilena ifa olunmasını, musiqi fikrini bir növ teatrallaşdırmasını tələb edirdi. Bu əsərin ifasında Rauf Atakişiyev müxtəlif sənət növlərindən nümunələr gətirirdi, obrazlı qavrama yolu ilə bədii ifadəliyə, melodik axının təbii səsləndirilməsinə izahlar verirdi. Bununla bərabər o, əsərin ideya məzmununun açılmasında rejissor rolu oynayırdı, onu səslənmə, musiqi fikri, bədii ifa maraqlandırırdı. Professor ifa olunan frazanın bitkinliyini, pauzalarda zaman hissiyatını vacib hesab edirdi.

Rauf müəllimin hər dəfə yeni il ərəfəsində tələbələrini evinə toplamaq ənənəsi onun sadəliyini və qonaqpərvərliyini sübut edən amillərdən biri idi. Rauf müəllimin yoldaşı, Bülbül adına Orta ixtisas musiqi məktəbinin müəllimi, qonaqpərvər insan Zulya Lvovna Atakişiyevanın hazırladığı dadlı yeməklər təkrarolunmaz idi. Burada dünya şöhrətli, əfsanəvi vokalçı Müslüm Maqomayevin, Rauf müəllimin assistenti, beynəlxalq müsabiqələrin laureatı, gözəl pedaqoq Vasif Həsənovun, çoxlu sayda tələbələrin və diqər musiqiçilərin iştirakı bizim üçün əlamətdar bir hadisə idi.

Rauf Atakişiyevdən dərs aldığım illər mənim yaddaşımda fortepiano üzrə Dövlət buraxılış imtahanının keçirilməsi qalmışdır. O zaman konservatoriyada Dövlət buraxılış imtahanlarına münsiflər heyətinin sədri SSRİ-nin ən nüfuzlu olan pedaqoqları dəvət olunurdu. Mən konservatoriyanı bitirən il Dövlət buraxılış imtahanlarının sədri məşhur sovet pianoçusu, Ukraynanın əməkdar artisti Nikolay Petroviç Suk idi. Mənim ifa etdiyim buraxılış imtahanındakı proqramım çox maraqlı idi: İ.S.Bax – Prelüd və fuqa b-moll (II tom), L.V.Bethoven – 31 saylı sonata As-dur, op.110, F.Şopen – 1 saylı skerso h-moll, S.Prokofyev – 2 saylı sonata d-moll, op.14, F.List – Fortepiano üçün 1 saylı Konsert Es-dur. Bu proqramı ifa etmək üçün mən Rauf müəllim ilə çox ciddi hazırlaşmışdım. Adları sadalanan bəstəkarların musiqisinə böyük rəğbətlə yanaşan Rauf Atakişiyev, belə geniş proqramın üzərində çalışmağı və müxtəlif dövrlərin bəstəkarlarının fikir və üslublarını duymağı və hiss etməyi öyrədirdi. O məşğələ zamanı bütövlüklə əsəri bir neçə dəfə əvvəldən axıra kimi ifa etməyi də məsləhət görürdü ki, bu da həm ifaçının fiziki və psixoloji dözümlüyünü möhkəmləndirməyə, həm də əsərin formasının, ideya və məzmununun düzgün hiss edilməsinə və kompakt ifa olunmasına hesablanırdı. Ümumiyyətlə, professor hər bir əsərin sistematik olaraq hər gün kompleksli şəkildə nəzərdən keçirlməsinin

vacibliyini tövsiyə edirdi. Nəticədə mən Dövlət buraxılış imtahanını uğurla ifa etdim və münsiflər heyəti tərəfindən qeyd olunan tələbələrdən biri oldum.

Ümumiyyətlə, bir mütəxəssis kimi, fortepiano və vokal sənətinin peşəkarı olan Rauf Atakişiyev dünyanın görkəmli musiqiçilər tərəfindən nəinki bizim respublikada, hətta bir sıra xarici ölkələrdə ifaçıların ciddi beynəlxalq müsabiqələrində münsiflər heyətinin üzvlüyünə dəfələrlə dəvət olunmuşdur. Məsələn, Moskva şəhərində keçirilən S.Raxmaninov adına pianoçuların Ümümittifaq müsabiqəsi, Bakıda keçirilən M.Qlinka adına vokalçıların XII Ümümittifaq müsabiqəsi, Polşada keçirilən F.Şopen adına pianoçuların müsabiqəsi, Almaniyada keçirilən Şuman adına Beynəlxalq müsabiqəsi, Yunanıstanda keçirilən Mariya Kallas adına vokalçıların Beynəlxalq müsabiqəsi, Braziliyada, Kanadada, İspaniyada və diqər ölkələrdə keçirilən müsabiqələrin adlarını çəkmək olar. O, münsiflər heyətinin üzvü kimi öz təəssüratlarının maraqlı fərqlərini məqalələrdə, resenziyalarda, intervyularda paylaşmışdır.

Əvəzolunmaz musiqiçi, bütün həyatı boyu öz sənətinə sadiq olan Rauf Atakişiyev, 40 ildən çox pedaqoji fəaliyyəti ərzində bütün qüvvə və bacarığını musiqiçilər nəslinin tərbiyəsinə həsr etmişdir. Tələbələri ondan bir xəzinə kimi bəhrələnirdilər. Ömrünün son qünlərinədək musiqiyə xidmət göstərən böyük sənətkarın pedaqoji prinsipləri, ifaçılıq xüsusiyyətləri tələbə nəslinin yetişdirdiyi musiqiçilərin fəalliyətində davam edir.

Ümumiyyətlə, pedaqoq kimi böyük uğurla, yüksək nəticələrə imza atan professor Rauf Atakişiyevin tələbələri nəinki respublikada, hətta onun hüdudlarından kənarda müvəffəqiyyətlə çalışırlar. Onun sinfinin məzunları sırasında dünya miqyasında görkəmli şəxsiyyətlər də mövcuddur: Azərbaycanın Xalq artisti, pianoçu, bəstəkar Rafiq Babayev, Azərbaycanın Xalq artisti, dirijor, professor Yalçın Adıgözəlov, Azərbaycanın Xalq artisti, professor Murad Adıgözəlzadə, Azərbaycanın Xalq artisti, fəlsəfə doktoru, professor Ülviyyə Hacıbəyova, Əməkdar artist, professor Vasif Həsənov, Əməkdar artist, incəsənət üzrə sənətşünaslıq namizədi, professor Samirə Aşumova, Beynəlxalq müsabiqələr laureatları Boris Qusliser, Rauf Qasımov, Lalə Mustafazadə, Mark Belenkiy, Emin Məmmədov, Hacıbaba Əliyev, ABŞ-ın Florida universitetinin professoru Pərvin Muradova (Hacıyeva), Ülviyyə Manafova (Rzayeva), incəsənət üzrə sənətşünaslıq namizədi, Beynəlxalq müsabiqələr laureatı, professor Fəridə Əhmədbəyova, Leyla Əliyeva, Safura Sultanova, Natiq Rzazadə və s. Yuxarıda sadalanan şəxsiyyətlərin adları bu böyük müəllimin, əvəzolunmaz musiqiçinin pedaqoji fəaliyyətinin və geniş dairəsinin göstəriciləridir.

Demək lazımdır ki, Rauf Atakişiyevi dəfələrlə xarici ölkələrdə dərs deməyə dəvət etmişdilər, lakin o daim Vətəndə, Xəzərin sahilində, ğözəl Bakımızda yaşayıb-yaratmağı üstün tutur, öz biliyi və yaradıcılıq qüvvəsini istedadlı Azərbaycan xalqına bəxş etmək istəyirdi.

Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, ölməz sənətkar Rauf İsrafil oğlu Atakişiyevin xatirəsi onu sevənlərin və onun əlçatmaz sənətinə heyran olanların qəlbində əbədi olaraq yaşayacaqdır.

**Samirə AŞUMOVA**
*Azərbaycanın Əməkdar artisti,*
*Beynəlxalq müsabiqələr laureatı,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*professor*

## MƏNİM MÜƏLLİMİM HAQQINDA

Əzəmətli ifaçı, pianoçu, daha doğrusu, sadəcə görkəmli musiqiçi, birdən çox pianoçu nəsli yetişdirmiş, hazırkı laureatların əhəmiyyətli hissəsi onun sinfindən məzun olmuş pedaqoq, Rauf Atakişiyev, milli incəsənət tarixinə onun parlaq nümayəndələrindən biri kimi daxil olmuşdur.

R.İ.Atakişiyev uzun illər Opera və Balet Teatrındakı səhnə fəaliyyətini konservatoriyanın fortepiano kafedrasındakı fəaliyyəti ilə birlikdə uğurla davam etdirmişdir. Əlbəttə, bu iki fəaliyyət sahəsi Atakişiyevin pedaqoji palitrasını zənginləşdirmişdir: hər iki sahənin bütün ifadəli – bədii obrazlı və texniki vasitələrindən istifadə edərək Rauf Atakişiyev hər zaman tələbələrlə sinif işində də yüksək nəticələr əldə etmişdir. Rauf Atakişiyev gözəl tembrə, bütün registrlərdə parlaq və dəqiq səslənən səsə malik olmaqla klassik və milli repertuarın ən müxtəlif səciyyəvi partiyalarını ifa edə bilirdi. Böyük oxuma mədəniyyəti, yüksək peşəkarlıqdan danışarkən R.Atakişiyevin ifası hər zaman əsərin ideoloji və bədii konsepsiyasına dərin nüfuz etməsi ilə fərqləndiyi qeyd olunur. Vokal mədəniyyəti şübhəsiz ki, R.Atakişiyevin fortepiano ifasında da xüsusi ifadəliliyə və obrazlılığa nail olmaqda kömək edirdi, yeri gəlmişkən, onun sinfinin bir çox tələbələrinin yaradıcı obrazı üçün də bu xarakterik idi.

Mən, Rauf Atakişiyevlə ilk dəfə Bülbül adına Orta ixtisas musiqi məktəbinin 6-cı sinif şagirdi olarkən görüşmüşdüm. Biz, həyat yoldaşı Z.L.Atakişiyeva sinfinin bütün şagirdləri onun "himayəsi altında idik", o, kimə vəd verirdisə konsertlərdən əvvəl, müsabiqələrə, imtahanlara hazırlıq zamanı daha tez-tez məsləhətləşirdi. O, bizi, həmçinin uşaqlarıda dinləyir, nəinki mətnin düzgün icra edilməsinə nəzər yetirir, eyni zamanda diqqəti əsərin məzmununa, onun obrazlı tərəfi və xarakterinə yönəltməyə çalışır, əsərin üslubuna riayət etməyi tələb edirdi. Artıq o zaman nəzər yetirdim ki, onun üçün əsər üzərində işə yanaşmasında vacib olan mətnin dəqiqliyinə hərtərəfli diqqət, təmiz pedal, müəllifin göstərdiyi tempə uyğunluq, əsas məsələ məzmunlu obrazlı başlanğıcın olması idi.

Yaşa dolduqda, Respublika müsabiqələri və daha sonra Zaqafqaziya müsabiqəsinə qatıldığımda mən artıq 11-ci sinif şagirdi idim, Rauf Atakişiyevlə ondan məsləhət və göstərişlər almaq üçün daha tez-tez görüşürdüm. Konservatoriyaya, onun sinfinə daxil olarkən orada cəmi bir il təhsil aldım (birinci kursda, P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına köçürülməzdən əvvəl), mən onunla tələbələrin məcburi proqramına daxil edilmiş və bir sıra əlavə əsərlər keçirdim.

Və bir daha onun musiqiçi kimi peşəkarlığı, formanı tam şəkildə əhatə edə bilməsi, əsəri onun gələcək dinamikasında, məntiqi bir bütün olaraq, "tikişsiz" təqdim etməsi məni valeh etdi.

Şopenin do minor noktürnü üzərində işləmə zamanı verdiyi təlimatları və fikirləri hələ də xatırlayıram. Rauf Atakişiyev mənə qətiyyətlə təlqin edirdi ki, Şopenin əsas ifadə vasitəsi melodiya, özü də getdikcə inkişaf edən düşüncə kimi melodiyadır. Rauf Atakişiyev metodik musiqi kətanının naxışlarını dinləyərək onun mahnıvariliyini vurğulamağı məsləhət görürdü. Canlı, plastik bir fırça oxunaqlı keçidləri, melodik xəttin saydığı bütün döngələri çəkməyə kömək etməlidir. Tez-tez o, kantilen melodiyalarında *bel canto* ilə *legatonu* müqayisə edərək, ifaçıdan eyni ifanı tələb edirdi. Çox vaxt təbii səs tembrinə malik gözəl ifası ilə bir çox parçaları olduqca ifadəli bir şəkildə zümzümə edirdi. Lakin tələbələrlə işində mövcud nisbət hissini hər zaman tələb edirdi. Rauf Atakişiyev tələbələri əsla qandallamayan, hərfi təqlid tələb etməyən, ifaçılıq mədəniyyətinə nümunə olaraq, bunu hamımıza aşılayırdı. Tez-tez konsertdə çıxış etməzdən öncə və ya imtahandan əvvəl deyirdi: "Mən sizə hər şeyi söylədim və indi bunu öz yolunuzla tətbiq edin, imkanlarınız daxilində istifadə edin". Lakin bu zaman bizə qətiyyətlə təlqin edilirdi ki, heç vaxt ifrata meyillənmək lazım deyil, həmişə özünə nəzarət olunmalıdır. Bunlar Rauf Atakişiyev yaradıcılığının əsas prinsipləri idi.

Beləliklə, biz onunla Şuman musiqisi üzərində işlədik. Şumanın psixoloji fikir və lirikasının dərinliyi, Rauf Atakişiyevin məsləhəti ilə onun ən incə dərəcələrlə poetikliyi ifaçı tərəfindən həssaslıqla, nisbət və nəzakət hissi ilə ötürülməli idi.

Tez-tez onun daha iki və ya üç yetirməsinin iştirak etdiyi dərslərdə Rauf Atakişiyev fortepianodan ayrılaraq, növbəti tələbənin ifasını müzakirə etmiş, onunla nüansları, dinamikanı, fermatanın mütənasibliyini, sezura və s. dəqiqləşdirmişdir. Tələbəyə verdiyi müəyyən azadlıqda o, heç bir halda ritmik nizamsızlıq, müəllif düşüncə təfsirində sərbəstlik, pedalizasiyada "çirk"ə icazə vermirdi.

Tələbələrinin insani keyfiyyətlərini, musiqi meyllərini və imkanlarını yaxşı bilən Rauf Atakişiyev hər kəsə necə "açar" seçəcəyini bilir, müraciətdə hər zaman incə, ədəbli idi. Ondan

işləmək istəyini öldürə biləcək kəskin, kobud sözlər, istehza, tənqidi iradlar eşitmək mümkün deyildi. Mehribanlıq, mülayimlik, heyrətamiz nəvaziş, müraciətdə səmimilik, peşəkarlığın qiymətləndirilməsi üçün daima yüksək meyarlar, Rauf Atakişiyevin həmkarları ilə münasibətlərində də norma idi.

Musiqiçi yetişdirmək – Rauf Atakişiyevin hər zaman qarşısına qoyduğu və bizi buna dəvət etdiyi məqsəd idi, mən bir daha buna Moskvada təhsili başa vurduqdan, onunla assistent qismində çalışmağa başladıqdan sonra əmin oldum. Əvvəllər də olduğu kimi, mən, onun pedaqoji ustalığına, böyük musiqiçi istedadına valeh olmuşdum.

Beynəlxalq müsabiqədən laureat adı ilə qayıtdıqdan sonra onun əsl sevincini xatırlayıram. O, ifa etdiyim hər bir əsər haqqında, bütün digər iştirakçıların proqramları haqqında ətraflı sorğu-sual edərək, ifaçılığın bütün detallarına nəzər salırdı.

Musiqiyə canlı maraq – Rauf Atakişiyevin həmişə özünə cəlb edən və ətrafdakılara sirayət edən əsas xarakterik xüsusiyyətlərindən biri idi.

Dərslərinin, konsertlərinin, tamaşalarının xatirəsi onun yüksək peşəkarlığına, hərtərəfli istedadına ürəkdən heyran olanların qəlbində daim yaşayacaqdır.

**Hacıbaba ƏLİYEV**
*Zaqafqaziya və Beynəlxalq müsabiqələr laureatı, professor (Türkiyə)*

## YADDAŞLARDA QALAN MÜƏLLİM

Rauf İsrafil oğlu Atakişiyevin yaradıcılığı haqqında kifayət qədər danışmaq, yazmaq olar və çətin ki, onun istedadının çoxcəhətliliyini, musiqi savadını, düşüncə və qabiliyyətini tam təsvir etmək mümkün olsun. Möhtəşəm ifaçı, pianoçu və mən çəkinmədən deyərdim, dünya miqyaslı pedaqoq, üç həyat yaşamış insandır. Mənim fikrimcə, onun pedaqoq kimi üstünlüyü ondan ibarət idi ki, o, tələbələrin potensial və bacarıqlarını öncədən görmək qabiliyyətinə malik idi və onların hər birinə fərdi imkanlarını göstərmək fürsəti yaradırdı. Onun pedaqoq kimi əsas xüsusiyyətlərindən biri də formanın düzgün dərk edilməsi və hiss edilməsi zəruriliyinə inandırmaq bacarığı idi. O, heç vaxt öz şərhini zorla qəbul etdirmirdi, lakin fortepianoya qeyri-adi toxunuşu və səsin yüksəlişi, musiqi əsərinin formasını hiss etməsi ona kifayət edirdi ki, haqlı olduğu dərhal sübut olunsun. R.Atakişiyev fortepianoda ifa edərkən sanki qeyri-adi tembrli sevimli səsi ilə oxuyurmuş təəssüratı yaradırdı. Rauf Atakişiyev əsərlərin texniki mürəkkəbliyinin aradan qaldırılması üsullarını nümayiş etdirə bilərdi, lakin işin bu mərhələsi həmişə son məqsədə – ifa olunan opusun ideya-obrazlı tərəfinin açılmasına tabe edilmişdir.

Mənə on iki il bu möhtəşəm musiqiçinin yaradıcılığını müşahidə etmək və ondan dərs almaq nəsib olmuşdur. Eyni zamanda, mən, Moskva konservatoriyasının müəllimlərindən məsləhətlər alırdım və buna görə də müqayisə baxımından deyə bilərəm ki, R.Atakişiyev kimi çox az insan fortepianoda ifanın ən mürəkkəb texniki üsullarını belə səmərəli şəkildə göstərə və səsin gözəlliyinə nail olmaq qanunlarını aşkar edə bilirdi. İş prosesində o, öz gücünü əsirgəmir və bəzən saatlarla tələbələri ilə həvəslə çalışa bilirdi.

Onun böyüklüyü həm də ondan ibarət idi ki, o, tələbələrinə təkcə pedaqoq kimi deyil, həm də bir ata kimi yanaşır, təhsildə, həyatda və ailədə yaranan problemləri ilə maraqlanır, qayğı göstərirdi. İstənilən problemlə bağlı R.Atakişiyevlə söhbətləşib ondan ağıllı, yaxşı məsləhət almaq olardı.

Mənə keçmiş Sovet İttifaqının bir çox şəhərlərində çıxış etmək nəsib olmuş və R.Atakişiyevin tələbəsi olduğumu öyrənən hər kəs nə qədər şanslı olduğumu vurğulamışdı. R.Atakişiyev, professorlar Y.İ.Milşteyn, L.N.Naumov, S.L.Dorenski, L.N.Vlasenko, V.V.Qornostayeva və s. kimi musiqiçilər tərəfindən yüksək qiymətləndirilmişdir.

O, fortepianoda klassik ifanın tərəfdarı idi. R.Atakişiyev ifada lüzumsuzluğu, manera və təqribiliyi sevmirdi, hər bir ifadəni oxumağa, akkordlarda olan bütün səsləri dinləməyə üstünlük

verirdi. O, əllərin və belin vəziyyətinə diqqət yetirir, pedaldan düzgün və vaxtında istifadə etməyi öyrədir, fortepianoda taqqıltıya dözə bilmir, hesab edirdi ki, hər bir səs boş olmamalı, doldurulmalı və məntiqi cəhətdən inandırıcı olmalıdır. Musiqiçinin incə zövqü onun təfsirini fərqləndirir, minlərlə başqaları arasından seçilə bilən edirdi. Münsiflər heyətinin üzvü olaraq dəfələrlə müxtəlif beynəlxalq müsabiqələrə dəvət edilirdi. Onun tələbələrinin müxtəlif Beynəlxalq və Zaqafqaziya müsabiqələrində qazandığı qələbələr, opera səhnəsində və estrada konsertlərində çıxışları – bütün bunlar, şübhəsiz ki, Rauf Atakişiyevin musiqi istedadının dünya əhəmiyyətli olduğundan xəbər verir.

Bir nüansı da qeyd etmək istəyirəm. Xeyirxahlıq və Rauf Atakişiyev... Bu keyfiyyət olmadan R.Atakişiyevi təsəvvür etmək qeyri mümkündür. R.Atakişiyevin kimisə incitdiyini xatırlamıram. O, qeyri-adi dərəcədə xeyirxah bir adam idi, insanları sevirdi, təbiətə və həyata aşiq idi. Allaha dərindən inanır və hər kəsin öz əməllərinə görə cavab verməli olduğunu düşünürdü. Bəzən özümə sual verirdim ki, onda bu qədər yaradıcı güc, enerji, mənəviyyat, musiqiyə vurğunluq haradan qaynaqlanır? Heç kimə sirr deyil ki, doğma sənətimizin müəyyən çətinliklərlə üzləşdiyi ağır dövrdə musiqiçilərin iqtisadi vəziyyəti arzu olunan deyildi. İnanılmaz nikbinlik, gələcəyə inam, öyrənmək və öyrətmək istəyi R.Atakişiyevin fövqəladə və digərlərindən fərqli bir həyat yaşamasına kömək edirdi. O, bunu bacarırdı. O, özündən sonra yaratdığı məktəbini qoydu. Onun tədrisini yaşadıb davam etdirəcək məktəb, öz dəst-xətti, siması, tərzi – Rauf Atakişiyevin təkrarolunmaz üslubu olan bir məktəbdir.

**Vasif HƏSƏNOV**
*Zaqafqaziya və Beynəlxalq müsabiqələr laureatı,*
*Azərbaycanın Əməkdar artisti,*
*professor (Türkiyə)*

## MÜƏLLİMİN UNUDULMAZ DƏRSLƏRİ

Mənim həyatımın çox əhəmiyyətli və uzun bir hissəsi pedaqoq, pianoçu, vokalist Rauf İsrafil oğlu Atakişiyevlə bağlıdır.

Müəllimim R.S.Levinin olduğu Asəf Zeynallı adına Bakı Musiqi Kollecini bitirdikdən sonra konservatoriyaya Xalq artisti, Azərbaycan fortepiano məktəbinin banilərindən olan professor M.R.Brennerin sinfinə daxil oldum.

Mən Mayor Brenner ilə birlikdə çalışdığım müddətdə bəstəkar mətninin diqqətlə oxunması, ştrixlərin üslubi cəhətdən düzgün yerinə yetirilməsi, pedal və digər bir çox bacarıqlara (polifonik əsərlərdəki bütün səslərin dinlənilməsi, ifanın sabitliyi), yəni, musiqiçi-ifaçının daha da dolğun və hərtərəfli inkişafı üçün zəruri olan möhkəm təməl təşkil edən hər şeyə yiyələndim.

M.R.Brennerin vaxtsız vəfatından sonra bir zamanlar P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına getməmişdən əvvəl Mayor Brennerin tələbəsi olan Xalq artisti, professor R.İ.Atakişiyevin sinfində təhsilimi davam etdirmək qərarına gəldim.

Burada mən Brennerdən tamamilə fərqli tədris metodikasına rast gəldim: duyduğum hisslərin tam azadlığı, ifa olunan əsərin bəstəkarlıq ideyasına dərindən nüfuz etməsi.

Rauf Atakişiyev, onunla romantizmə xas olan ehtiraslarla dolu Şumanın g-moll sonatasını keçməyimizi tövsiyə etdi.

R.İ.Atakişiyev özü incəsənətdə romantizm tendensiyalarına açıq-aşkar meyl göstərən musiqiçi idi. O, mənə də bunu "yoluxdurmağı" bacarmışdı.

P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspirantura pilləsinə, Rusiyanın Xalq artisti, professor D.A.Başkirovun sinfinə daxil olarkən o zaman D.Başkirov, bu cür möhtəşəm musiqiçilərdən dərs aldığım üçün çox şanslı olduğumu söylədi.

Səciyyəvi haldır ki, Moskva Dövlət Konservatoriyasında məni pianoçu-romantik hesab edirdilər. Əlbəttə, bu, ilk növbədə, Rauf Atakişiyevin xidmətidir.

Dövlət imtahanına Listin h-moll sonatasını çıxardıq. Rauf Atakişiyev bu əsərdə mənə qibtə, şövq, zəriflik, ağılsızlıq, müdriklik kimi bir çox insani hiss və təcrübələri açmış oldu. Təsadüfi deyil ki, mən, bu əsəri indi də Şekspirin "Otello" faciəsindən ilhamlanaraq şərh edirəm.

İtaliyanın Verçelli şəhərində baş tutan Viotti adına pianoçuların Beynəlxalq Müsabiqəsinə Rauf Atakişiyevin rəhbərliyi ilə iştirak etməyə hazırlaşarkən unudulmaz dərslər keçirildi.

Hazırlıq prosesində hər şey ifa olunan əsərlərin bəstəkar ideyasının açılmasına, onların üslubiyyatına, səs quruluşuna tabe idi.

Tələbələrlə pedaqoji işin əsaslarını öyrəndiyim R.İ.Atakişiyevin sinfində assistent kimi bir neçə il çalışdığım üçün şanslı idim. Onu da demək lazımdır ki, Rauf Atakişiyev mənə məhdudiyyət qoymur, ancaq bəzən çox yumşaq bir şəkildə yönləndirir və tələbəyə daha aydın və anlaşıqlı şəkildə izah etməyi, ifa olunan əsərdə nəyi, harada və necə "nümayiş etdirmək" lazım olduğunu göstərirdi.

Çox pozitiv bir insan idi, hər zaman köməklik göstərəcəyini bilərək, ona hər hansı bir sual ilə müraciət etmək olardı.

D.A.Başkirov onu çox yüksək qiymətləndirirdi: "Sovet İttifaqında eyni zamanda həm mükəmməl opera ifaçısı, həm də mükəmməl klassik pianoçu olan yeganə musiqiçidir".

R.İ.Atakişiyev, mənim qəlbimdə parlaq silinməz iz, ən dərin hörmət və minnətdarlıq hissi qoymuşdur.

**Yalçın ADIGÖZƏLOV**
*Azərbaycanın Xalq artisti, professor*

## BÖYÜK ŞƏXSİYYƏTLƏ ÜNSİYYƏT

Güman edirəm ki, mən xoşbəxt ulduz altında dünyaya göz açmışam. Tale mənə görkəmli pedaqoqlarla, bütünlüklə ulduzlarla ünsiyyət qura bilmək səadətini hazırlamışdır. Sevimlilərimdən biri də əziz Rauf Atakişiyev idi.

Professor Atakişiyevin sinfində təhsil aldığım illər ən xoşbəxt, işıqlı və gənclik cazibəsi ilə dolu olan illər kimi yaddaşlarda qalmışdır. Əslində, mən hələ Bülbül adına musiqi məktəbinin şagirdi olarkən Rauf Atakişiyevin sinfində təhsil alacağımı bilirdim. Mənim müəllimim Rauf Atakişiyevin ən istedadlı və parlaq şagirdlərindən olan, o zamana qədər artıq keçmiş List müsabiqəsinin laureatı olmuş Boris Lvoviç Qusliser idi. Son iki dərs ilində o, məni Moskva konservatoriyasına daxil olmağa hazırlayırdı. Bununla yanaşı, bir şərtdə var idi ki, əgər mən Bakı konservatoriyasına daxil olmaq qərarına gəlsəm, onda bu yalnız Rauf Atakişiyevin sinfi olacaq.

Tale elə gətirdi ki, mən professor Atakişiyevin sinfində oldum. Görkəmli şəxsiyyətlə dördillik təhsil və ünsiyyət, musiqi ilə dolu anlar mənim üçün böyük həyat məktəbi idi. Sinif çox geniş bir mehriban ailə kimi idi. Biz hamımız Rauf Atakişiyevin istedadlı, parlaq, ensiklopedik biliyə malik və həyatsevər şəxsiyyətinin cazibəsi altında idik. Yeni il ərəfəsində onun evində yığışardıq və opera, teatr, kino, görkəmli Azərbaycan musiqiçiləri haqqında uzun-uzadı söhbətlər edərdik...

Konservatoriyanın Böyük zalında, D.Şostakoviçin "24 prelüd və fuqa"sını ifa etdiyim ilk konsertdə müəllimim məni çox diqqətlə dinlədi və sonra xülasələşdirdi: "Sənin royalın böyük bir orkestr kimi səslənirdi." O vaxtlar mən artıq dirijorluq barəsində cəsarətli idim.

Bu tərif mənə yeni ümidlər vəd edir və arzularıma böyük inam yaradırdı. Bu, əsl musiqiçi-peşəkarın tövsiyəsi idi. Axı Rauf Atakişiyev çox istedadlı zərif musiqiçi və böyük intellektual idi. Məktəb illərin də mən onu "Sevilya bərbəri"ndən qraf Almaviva və "Məhəbbət şərabı"ndan təkrar olunmaz Nemorino, tələbəlik illərində isə müəllimimi dəfələrlə "Monastırda nişanlanma" operasında dinləyərək son dərəcə heyran qalmışdım.

Daha sonra, 1989-cu ilin oktyabrında, konservatoriyanın dirijorluq fakültəsini bitirdikdən sonra Leninqraddan gəlişimlə Filarmoniyada ilk konsertimi verdim. Rauf Atakişiyev buraya

gəldi. Raxmaninovun İkinci simfoniyasından sonra parlayan gözlərini və tələbəsi ilə duyduğu qürur hissini xatırlayıram. İkimiz də xoşbəxtidik.

Valideynlər və müəllimlər hər birimizin həyatında ən müqəddəs insanlardır. Onlar bizim yaddaşımızda və qəlbimizdə minnətdarlıqla əbədi yaşayacaqlar.

**Pərvin HACIYEVA**
*Florida Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyasının mədəniyyət və təhsil üzrə müdiri,*
*Florida Texnologiya Universitetinin musiqi professoru,*
*Nyu-York, Bruklin musiqiçilər Gildiyasının vitse-prezidenti,*
*"Musiqi təhsili və autizm"fondu,*
*"Florida Keys" Beynəlxalq musiqi festivalının təsisçisi və müdiri*

## HƏR ŞEYƏ GÖRƏ MÜƏLLİMİMƏ BORCLUYAM

Görkəmli musiqiçi, müğənni, sevimli pedaqoqumuz Rauf Atakişiyevin həmkarlarının və şagirdlərinin xatirə – esselərinin nəşri kimi gözəl layihədə iştirak etməyə dəvət etdiyinə görə cənab Tərlan Seyidova təşəkkürümü bildirmək istəyirəm. Təsadüflərə inanmıram, lakin mən tələbə ilə Bethovenin №17 re minor sonatası üzərində işləyərkən bu dəvəti aldım. Rauf Atakişiyev vaxtilə mənə bu sonatanı seçərək, onun mənə ruhən yaxın olduğunu söylədi.

Müəllimim haqqında keçmiş zamanda yaza bilmirəm, çünki hər dərsimdə, hər musiqi frazasında, ornamentasiya, pauza, seçilmiş əsərin təfsirində onun varlığını hiss edirəm. Bülbül adına musiqi məktəbində təhsil almaq hələ bu məktəb konservatoriya ilə bir binada yerləşərkən mənə nəsib oldu. Biz uşaqlıqdan, birinci mərtəbədə *Alma Mater`in* əsaslarını, onun ən yaxşı ənənələrini, ali peşəkar səviyyə və yüksək tələblərini mənimsəyərək məşğul olurduq. Məktəb və konservatoriya vahid bir orqanizm kimi idi. Gözlərimiz qarşısında ən yaxşı nümunələr var idi və konservatoriyanın bütün mühüm tədbirlərinin iştirakçısı idik. Mən elə bir ailədə böyümüşəm ki, burada "xaltura" sözü güclü həqarət kimi səslənirdi. Planka çox yüksəyə qaldırılırdı. Mən bu günə qədər valideynlərimə məni gələcək müəllimim Rauf Atakişiyevlə tanış etdiklərinə görə olduqca minnətdaram. Bizim yaradıcı birliyimiz ibtidai sinifdə meydana gəldi. O zaman mən həyat yoldaşı Zulya Lvovnanın fortepiano sinfinin şagirdi idim, Rauf Atakişiyev isə proqramın bütün tərəflərini səlisləşdirirdi. Dərslər həm məktəbdə, həm də müəllimlərimin evində keçirilirdi. Beləliklə, mən, Atakişiyevlər ailəsinin, onların hər ikisinin sinfində olduğum kimi üzvü oldum. Bu, böyük bir ailə idi. Xatirələr olduqca çoxdur və buna bir kitab belə kifayət etməzdi, ona görə də şəxsiyyət, musiqiçi və müəllim kimi mənim üçün əsas və vacib olanları qeyd edəcəm.

Onun dərsdə fədakarlığı, erudisiyası, öyrənilən materialda dərin bilikləri sadəcə heyrətləndirici idi. Dərs heç vaxt solğun, adi və monoton keçməmişdir. Rauf Atakişiyev həyəcanlanırdı, sinifdə narahatlıqla gəzir, əgər haradasa nəsə alınmırdısa, yaxud istənilən kimi səslənmirdisə, o oxuyurdu və bizi də oxumağa, nəfəs almağa və nəfəsimizi musiqi frazalarında bölüşdürməyə məcbur edirdi. O, müntəzəm olaraq oxuduğumuza əmin olmalı idi. Bethoveni öyrəndiyim müddət ərzində biz Şekspir, Romen Rollan və Qeyliqenştadt vəsiyyəti, bəstəkarın C.Qviççardiyə olan sevgisindən danışırdıq. Dərsdə belə bir vüsət var idi. Rauf Atakişiyev sonatalardakı ornamentlərə çox pedantlıqla yanaşırdı, əgər iş o yerə varırdısa, riyazi formullar yazırdı.

İlk mənbədən kənara çıxmamağı, pedaldan sərbəst istifadə etməməyi tələb edirdi. "Pedaldan ayağınızla deyil, qulağınızla istifadə edin" – Rauf Atakişiyev təkrarlamaqdan usanmırdı.

Səs üzərində işə o, lazım bildiyi qədər vaxt sərf edirdi. Biz təcrübəsiz dalğıclar kimi alətə dalmağı öyrəndik. Bəs aləti onun barmaqları altında təsviredilməz şəkildə necə oxuyurdum.... Ancaq onun əsas əvəzolunmaz keyfiyyəti xeyirxahlıq, tələbəni hiss etmək və dinləmək, yanında

olmaq, şagirddə özünə olan inam hissini qoruyub saxlamaq bacarığıdır. Ətrafında hər şeyin alt-üst olduğunu zənn etdiyin anda öyüdçünün, müəllimin çiyni həmişə yanında idi.

Pedaqoji irs öz müəlliminin sənətkarlıq sirlərini artıq bütün qitələrdə öz şagirdlərinə ötürən tələbələrində uğurla yaşamağa davam edir. Karyeramda qazandığım hər şeyə görə müəllimim Rauf Atakişiyevə və bizim *Alma Mater*`ə borcluyam!

**Rauf QASIMOV**
*Zaqafqaziya və Beynəlxalq müsabiqələr laureatı,*
*Lenin Komsomolu Mükafatı laureatı, müəllim*
*(Şimali Kipr Türk Respublikası)*

## MƏN HƏMİŞƏ ONA MİNNƏTDAR OLACAĞAM

Hal-hazırda Şimali Kiprdə yaşayıram və ixtisas fortepiano üzrə müəllim olaraq işləyirəm; Rauf İsrafiloviç Atakişiyevin musiqili "nəvələri" olan tələbələrim 28 Beynəlxalq müsabiqədə mükafat qazanmışdır.

1973-1980-ci illərdə professor R.İ.Atakişiyevdə oxumaq mənə qismət oldu. İndi deyə bilərəm ki, bu illər mənim üçün ən xoşbəxt illər idi. Rauf İsrafiloviç yalnız görkəmli bir musiqiçi, pianoçu və müğənni deyil, eyni zamanda Tanrıdan bir pedaqoq idi. Bu qısa xatirədə insanlığı və dünyəvi müdrikliyi ilə rənglənmiş bir ömür boyu xatırlanacaq bütün hadisələri çatdırmaq mümkün deyil. Professor Atakişiyevin sinfinə gələndə sarı bir cücə idim, Bülbül adına məktəbi təzə bitirmişdim. İlk tanışlığımızdan etibarən hər şeyi əhatə edən, yaradıcı mahiyyətini hiss etdim. Eyni zamanda, daim özümdə onun həqiqətən ata qayğısını və diqqətini hiss edirdim.

Heç vaxt unutmayacağam, 1977-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının dördüncü kurs tələbəsi idim, professorla birlikdə Tiflisdə Zaqafqaziya müsabiqəsinə getdik. O zaman gəncliyimdə böyük bir axmaqlıq etdim: çox soyuq məşhur Lagidze suyundan inanılmaz miqdarda çox içdim. Bu, hərarətimi 40 dərəcəyə qaldıran kəskin follikulyar anginaya gətirib çıxardı. Rauf İsrafiloviçin bütün işimizin boşa gedəcəyini düşüncəsindən mənəvi olaraq necə əziyyət çəkdiyini çatdırmaq mümkün deyil. Gürcüstanda ən yaxşı həkimlər tərəfindən müalicə aldığımda (ertəsi gün ilk turda ifa etməli idim), Rauf İsrafiloviç mənim otel otağımdan ayrılmırdı və hey soruşurdu, bəlkə hər şeyi ləğv edək? Təkcə o fikir ki, onun bütün əməyinin üzərindən xətt çəkiləcək, məni əsəbiləşdirdi. Və yenə də nə baş verdiyini çətinliklə dərk edərək ifa etməyə çıxdım. Proqramı bitirdikdə Rauf İsrafiloviç məni səhnə arxasında qarşıladı və bu sözlərlə ilə uzun müddət məni qucaqladı: "Bublik (xüsusi əhval-ruhiyyəli anlarda o, məni belə adlandırırdı), mümkünsüz olduğunu etdin!" Onda mən Rauf İsrafiloviçlə üçillik təhsilin nəticəsi olan birinci mükafatı qazandım.

Hələ də zərbli-çəkicli alət olan fortepianoda kantilenanın bir çox sirlərini professor Atakişiyevdən öyrəndim və buna görə də həmişə ona minnətdar olacağam. Müxtəlif konsertləri müşayiət etmək üçün ikinci alətdə oturanda isə, bu, fortepiano toxuması və rənginin orkestr zənginliyi baxımından eşidilməmiş bir səslənmə idi. Əminliklə deyə bilərəm ki, barmaqlar altında sonradan indiyə qədər kimsədə belə bir "orkestr" eşitməmişəm.

Listin konsertləri ilə bağlı hadisəni unutmayacağam. Mən müsabiqədə Listin İkinci Konsertini ifa edirdim, professor Atakişiyevin başqa bir tələbəsi Boris Qusliser isə eyni müəllifin Birinci Konsertini. Borisə konsertləri dəyişib orkestrlə ifa etməyimizi təklif etdim. Borislə işimizə başladıq və öyrəndik, mən – Birinci, Boris – İkinci konserti. Hər şey hazır idi, Rauf İsrafiloviç dirijor Kazım Əliverdibəyovla bu konsertlər ilə dirijorluğu qəbul etmişdi. Çıxışımızdan tam iki həftə öncə Boris Qusliserin bir problemi oldu və ifadan imtina etdi. Yadımdadır, nəfəsimi kəsərək Rauf İsrafiloviçə bir axşamda hər iki konserti ifa etmək üçün icazə istəmək üçün müraciət etdim. Bu, onda elə bir duyğu fırtınasına səbəb oldu ki, mən sadəcə qorxdum: “Sən kimsən! Listin hər iki konsertini! Bir axşamda!" Fırtına keçəndən sonra professordan hər iki konserti ard-arda dinləməsini istədim. Çox narazı və hətta incikli halda o,

ikinci piano arxasına əyləşdi, sonra isa ifaya başladıq. Onun səsi hərdən bir eşidilirdi: “Burada bir az kreşendo, burada qaçma” və s. Nəticədə, Azərbaycan Dövlət Filarmoniyasının salonundakı konsert uğurlu keçdi. Bütün bunları pedaqoji hissiyyat adlandırıram, bu da R.İ.Atakişiyevdə fenomenal idi.

Onun bizimlə olmadığı onilliklər ərzində bir çox şey oldu, lakin ruhu mənim ürəyimdə və bir çox şagirdinin qəlbində əbədi yaşayacaqdır. Onun adı Azərbaycanın musiqi mədəniyyətinin salnaməsinə qızıl hərflərlə yazılmışdır.

**Fəridə NURİZADƏ (SADIXOVA)**
*Rusiya Federasiyasının Əməkdar müəllimi,*
*Moskva Konservatoriyası nəzdində*
*Mərkəzi Musiqi Məktəbinin müəllimi*

## İNCƏSƏNƏTDƏ MƏNİM HƏYATIMIN KAMERTONU

Unudulmaz müəllimimlə bağlı xatirələrimi bölüşmək dəvətinə böyük sevinclə cavab verdim. Şəxsən mənim üçün Rauf Israfiloviç Atakişiyev müəllimdən daha artıq məhfum idi. Bütün həqiqətən böyük müəllimlər kimi – və şübhəsiz ki, o da onlardan bir idi – Rauf İsrafiloviç şagirdlərinə peşəkar bacarıq aşılamaqla yanaşı, müqayisəedilməz dərəcədə daha vacib olan, onlara naməlum və ecazkar sənət dünyasını da açmışdır.

Ən güclü və ən müxtəlif həyat fenomenlərinin parlaq qavranılması. Sonsuz formalar və ifadələrdə musiqiyə sevgi. Etdiyi və söylədiyi hər şeyin iri miqyaslılığı, sönməyən qaynar enerji. Müxtəlif insanlarla ünsiyyət rahatlığı – üç qat məşhur və ya adi insan olsalar belə. Əsl və səxavətli təbii ianə. Bütün bunlar və bir çox digər qiymətli insan xüsusiyyətləri çox gözəl, mənim üçün çox əziz olan Rauf İsrafiloviç Atakişiyevin təbiətinə aid idi. Bu xüsusiyyətlər yalnız mövcud deyildilər, həm də birləşirdilər, amansızca cəmləşirdilər, güclərini və cəlbediciliyini on qat artırdılar, nəticədə məşhur musiqiçinin vahid, son dərəcə ayrılmaz bir şəxsiyyətini yaratmışdılar. Rauf İsrafiloviç mənim üçün istedadın, səmimiyyət və mənəvi aktivliyin təcəssümü idi. O, həyatda belə idi, sənətdə də belə parladı (işıqlandı).

Hamı onu sevirdi: tələbələri, dostları, tanışları və həmkarları – onunla təmasda olan hər kəs. Onu sevməmək mümkün deyildi. Dərhal bu canlı, ağıllı, savadlı və sadəcə fövqəladə bir insanın sehrinə düşürdünüz.

Əlbəttə ki, biz, tələbələr, professorumuzun qeyd-şərhsiz tərəfdarları idik. Rauf İsrafiloviçin evi həmişə tələbələri üçün açıq olmuşdur. Evini ziyarət edən hər kəs bu evin məşhur olduğu xüsusi istilik, səmimiyyət və geniş qonaqpərvərlik atmosferini unutmayacaqdır. Və bir çox gözəl səsyazmaları dinləmək şərt idi. Tələbələri və dostları ilə sevdiyi valları dinləməyi sevirdi. Həmişə səsyazmasının mahiyyətini hərarətlə müzakirə edir, tez-tez və dəfələrlə ayrı-ayrı fraqmentləri dinləyir, fortepiano qarşısında oturur, bəyəndiyi parçaları çalırdı.

Rəğbət və hörmətlə yanaşdığı musiqiçilərin fikri özününki ilə üst-üstə düşməsi onu çox sevindirirdi. Təəssüratların eyni olduğunu görmək üçün yalnız bir baxış kifayət edərdi və bu sevinc gətirirdi. Bunlar unudulmaz anlar idi.

Biz, onun Moskva Konservatoriyasında oxuduğu illər, keçmişin böyük musiqiçiləri və əlbəttə onun pərəstiş etdiyi müəllimləri: fortepiano üzrə – Konstantin Nikolayeviç İqumnov və vokal üzrə – Antonina Vasilyevna Nejdanova haqqında hekayələrini böyük maraqla dinləyirdik.

Məktəbi bitirdikdən sonra Moskva konservatoriyasına getməyim haqqında fikri irəli sürən də məhz Rauf İsrafiloviç idi. Fakt budur ki, görkəmli pianoçu, SSRİ Xalq artisti, Moskva konservatoriyasının professoru Yakov Vladimiroviç Fliyer dəfələrlə Bakıya konsert vermək üçün gəlmişdi. R.Atakişiyev və Y.Fliyer bir-birini çoxdan tanıyırdılar (hər ikisi K.N.İqumnovun tələbələri idi).

Y.Fliyerin ziyarətlərindən birində Rauf İsrafiloviç ondan məni dinləməsini xahiş etdi. Fliyer üçün mən böyük proqram ifa etdim və məni dinlədikdən sonra Yakov Vladimiroviç mənə Moskva konservatoriyasına öz sinfində daxil olmağımı tövsiyə etdi. Demək istəyirəm ki, Moskva konservatoriyasında və hətta Fliyerin "özünün" sinfində oxumaq mənim arzum idi! Və 1966-cı ildə mənim arzumun gerçəkləşməsi qismət oldu.

R.Atakişiyevin pedaqoji prinsipləri haqqında da danışmaq istərdim. K.İqumnovun şagirdlərindən biri olduğu üçün onun fortepiano məktəbinin ənənələrini qavraması tamamilə təbiidir. Rauf İsrafiloviçin özü də həmişə bütün nailiyyətlərini müəlliminə borclu olduğunu vurğulayırdı və tez-tez hər hansı bir göstəriş verərək İqumnova istinad edirdi. Dərsdə hər zaman səs üzərində iş, şagirdlərdə "tuşe" (əlaqə) mədəniyyətini inkişaf etdirmək və tembr duyğusunu inkişaf etdirmək üçün çox işlər görülürdü.

Təfsirin nəcibliyi, yüksək dərəcədə inkişaf etmiş bədii nisbət hissi, ifanın xarici tamlığı, – bunlar, mənim fikrimcə, professor R.Atakişiyevin fortepiano məktəbinin "üç sütunu"dur.

Dərsdə o, həmişə artist idi. Həyəcanlı və narahat idi, estrada səhnəsində olduğu kimi yalnız ilham duyğusu olan anlarında gələ biləcək qərarlar tapırdı.

Rauf İsrafiloviç – mənim peşəkar vicdanımdır və minnətdar yaddaşım isə – incəsənətdəki həyatımı müqayisə etdiyim kamertondur. Və indi əziz Müəllim ruhumda gizli və işıqlı bir yer tutur! Hər dəfə Bakıya gələndə müəllimimi ziyarət edirdim, hesabat verdim, ona ifa edirdim. Və doğma Bakıma gələndə və müəllimimin yaşadığı, mənə çox tanış olan evin qarşısından keçəndə keçmişin dönməzliyinin ağrılı bir hissi və böyük və gözəl ruhlu insana sonsuz minnətdarlıq hissi məni əhatə edir.

**Boris QUSLİSER**
musiqiçi-ifaçıların IV Zaqafqaziya müsabiqəsinin laureatı
və List adına Beynəlxalq müsabiqənin laureatı
(Melburn, Avstraliya)

## BÖYÜK HƏRFLƏ İNSAN

Mənim əziz, sevimli müəllimim Rauf İsrafiloviç Atakişiyev haqqında xatirələrimlə bölüşməyimə imkan yaratdığınız üçün təşəkkürümü bildirmək istəyirəm.

Təəsüf edirəm ki, yazıçı istedadına malik deyiləm, heç olmasa qısa da olsa ötən illərdə baş verənləri təsvir edim. Rauf İsrafiloviç boyük hərflə deyilən bir İnsan idi. O, necə deyərlər həyatdan daha böyük idi.

Rauf İsrafiloviç mənim üçün təkçə müəllim deyil, eyni zamanda tərbiyəçi olmuşdur. Mən onun simasında mənə həqiqi ata qayğısı göstərən bir müəllim, dost və insan tapdım.

1970-ci ilin lap əvvəlindən və 1975-ci ildə buraxılış imtahanıma qədər ki dərslərimizi xatırlayıram. Bu dərslər inanılmaz ruh yüksəkliyi ilə dolu idi. Zaqafqaziya müsabiqəsinə hazırlıq

zamanı, eləcə də müsabiqədən sonra hazırlanan proqramlar, və əlbəttə ki, buraxılış proqramını ərsəyə gətirmək üçün keçirdiyimiz gərginlik və xoşbəxtlik hissini heç vaxt unutmaram.

Bizim aramızda qəribə münasibət yaranmışdır. Rauf İsrafiloviç mənə dərslərdə azad davamiyyət imkanı vermişdir, mən proqram hazırlayırdım və özümü hazır hiss etdikdə ona zəng açırdım və görüşməyimizi xahiş edirdim. Rauf İsrafiloviç mənə güvənirdi və bilirdi ki, mən xaltura etmirəm. Amma necə dərslər idi! Bu musiqi ədəbiyyatı, təsviri incəsənət, pianizm tarixi və vokal haqqında mühazirələr idi.

O, heç vaxt mübahisə etmirdi və məni həmişə ədəblə yönəldirdi. Mənə elə gəlir ki, onun müəllimliyinin ən böyük sirri onda idi ki, o, ifaçılıq əsasının formal izahından çox şəxsiyyətin, xarakterin formalaşması üzərində işləyirdi.

Bəs o, necə müşayiət edirdi! Mənə onunla Bethovenin, Listin konsertlərini və buraxılışda Raxmaninovun Üçüncü konsertini ifa etmək xoşbəxtliyi nəsib olmuşdur. Bu dəqiqələri mən ömürlük öz qəlbimdə saxlamışam.

Mən Rauf İsrafiloviç ilə 9 il ünsiyyətdə olmuşam. Fərəh hissi duyuram ki, ilk tələbələrindən idim ki, 1972-ci ildə IV Zaqafqaziya müsabiqəsində laureat adına layiq görüldüm və bununla onun etibarını doğrultdum. Artıq Leninqrad konservatoriyasının aspirantı idim, professor Serebryakovun sinfində oxuyurdum və 1976-cı ildə List adına müsabiqəyə yola düşəndə onun mənə telefon vasitəsi ilə xeyir-duasını heç vaxt unutmaram. O, hədsiz səmimiyyətlə mənim uğurlarıma və qalibiyyətimə sevinmişdir.

Mən ölkədən getdikdən sonra illər keçmiş, və mən öz konsert və pedaqoji fəaliyyətimi davam etdirirəm, çoxlu ifa edirəm, və hər bir proqramımda xəyalən Rauf İsrafiloviç ilə məsləhətləşirəm, və ümid edirəm ki, bəlkə onun xoşuna gələrdi.

Bu Böyük insan, musiqiçi haqqında xatirə hər zaman mənim qəlbimdədir və mən fəxr edirəm ki, onun tələbəsi olmuşam!

# RAUF ATAKİŞİYEV
# MÜASİRLƏRİNİN RƏYLƏRİNDƏ[1]

***

Atakişiyev Rafiq İsrafiloviç çox istedadlı bir pianoçu və pedaqoqdur. K.N.İqumnovun tələbəsi və Y.V.Fliyerin şagirdi olaraq, o, özü ilə müəllimlərinin ecazkar ənənələrini gətirdi, buna görə şagirdlərinin ifası əsasən dərin nüfuz, mükəmməl səs, parlaq texniki bacarıqları ilə seçilir. Pedaqoji fəaliyyətinin nisbətən qısa bir vaxt kəsiyində Atakişiyev konservatoriyanın ən yaxşı müəllimlərindən biri olmuşdur. Atakişiyev səmərəli pedaqoji fəaliyyətindən əlavə olaraq tez-tez konservatoriyanın kamera konsertlərində çıxış edir. Son dövrdə violin ifaçısı A.Əliyevlə birlikdə Bethoven, Qriq, Frank, Ravel, Nikolayev, Azərbaycan bəstəkarı S.Ələsgərov və başqalarının sonatalarını ifa etmişdir.

Atakişiyev konservatoriyadakı işini aparıcı müğənni-solist fəaliyyəti ilə birləşdirir. Polşadakı son qastrolları ona böyük uğur gətirdi. Polşalı rəyçilər onun müğənni-musiqiçi kimi bacarığını qeyd edirlər [...]

**Mayor BRENNER**
*10 dekabr 1957-ci il*

***

[...] Təbii musiqi istedadı mükəmməl piano məktəbi ilə uyğunlaşaraq, eyni zamanda oxuma başlanğıcı ilə birlikdə Atakişiyevin pianoçuluğuna təəssüratlı təsir göstərdi. [...] Atakişiyevin böyük emosionallığa və sənətkarlığa malikdir və bu, onun pedaqogikasında çox qabarıq şəkildə öz əksini tapmışdır. Dosent vəzifəsini icra edən R.İ.Atakişiyevin tələbələri dövlət imtahanlarına bir qayda olaraq, mükəmməl musiqi və texniki cəhətdən hazırlanmış gəlirlər. Kafedranın elmi-tədqiqat işləri baxımından R.İ.Atakişiyevin məruzələrini qeyd etmək istəyirəm: "Azərbaycan musiqi mədəniyyətinin inkişaf yolları" və "Azərbaycan bəstəkarlarının kamera instrumental musiqisi". Bu işlərdə Azərbaycan musiqisinin inkişafının aktual məsələləri işlənilir [...]

**Georgi ŞAROYEV**
*11 dekabr 1957-ci il*

***

[...] Konservatoriyada çalışdığı beş il ərzində dosent vəzifəsini icra edən Atakişiyev R.İ. sovet pianoçu məktəbinin ən böyük nümayəndələrindən olan professor K.N.İqumnovun və onun tələbəsi professor Y.V.Fliyerin siniflərində qazandığı bilikləri ustalıqla sinfinin tələbələrinə ötürərək özünü bacarıqlı, böyüyən bir müəllim kimi təsdiqlədi.

Dosent vəzifəsini icra edən Atakişiyev R.İ. sinif tələbələrinin ifası, məzmunluğuna, yaxşı texnikaya, ifa miqyasına, duyğusallığına görə fərqlənir. R.İ.Atakişiyev bir sıra tələbələri məzunluğa mükəmməl hazırlamışdı. Hazırda onların hamısı musiqi məktəblərində işləyir. [...]

**Kövkəb SƏFƏRƏLİEVA**
*11 fevral 1958-ci il*

***

On ildən çoxdur ki, R.Atakişiyevin bir pianoçu kimi maraqlı və misilsiz istedadı ilə xoş görüşlər keçirirdim.

Bizim birgə musiqi ifamızda R.İ.Atakişiyev həmişə ifasının birbaşa parlaqlığı ilə orkestri və dinləyiciləri ovsunlayan dərin musiqiçi və düşüncəli bir pianoçu olduğunu sübut edirdi. İstər List, istər Çaykovskinin konsertləri ilə çıxışları davamlı olaraq R.İ.Atakişiyevi Azərbaycanın ən

---

[1] Rəylərin əlyazmaları Lalə Atakişiyevanın şəxsi arxivində saxlanılmışdır.

yaxşı pianoçusu kimi tanıyan geniş musiqi ictimaiyyəti və xalqımız tərəfindən bəyənmə və isti münasibət doğururdu. [...]

**NİYAZİ**
*14 sentyabr 1961-ci il*

***

R.İ.Atakişiyevi mən çox istedadlı ifaçı-musiqiçi kimi tanıyıram.

Əla pianoçu bacarıqları, səmimiyyət və emosionallıq, yüksək musiqi mədəniyyəti R.İ.Atakişiyevi bir pianoçu kimi səciyyələndirir.

Onun geniş və rəngarəng repertuarına həm klassik, həm də müasir bəstəkarların əsərləri daxildir. Mütəmadi konsert tamaşaları ona böyük və layiqli uğur gətirir.

[...] Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano kafedrasına rəhbərlik edən professor vəzifəsini icra edən R.İ.Atakişiyev pedaqoji və elmi-metodiki fəaliyyətlə aktiv məşğul olur. Konservatoriyanı R.İ.Atakişiyevin sinfini bitirən çox sayda pianoçu hazırda Bakıda və İttifaqın digər şəhərlərindəki musiqi məktəblərində uğurla çalışır. [...]

**Qara QARAYEV**
*25 noyabr 1969-cu il*

***

İlk dəfə R.İ.Atakişiyevin ifasını mən 25 il əvvəl eşitmişdim. Moskva konservatoriyasının tələbəsi olan və professor K.N.İqumnovun sinfində oxuyan R.Atakişiyev, artıq gəncliyindən öz ifası ilə çox sevinc gətirirdi. Sərt və tələbkar Konstantin Nikolayeviç İqumnov onun istedadı barəsində yüksək fikirdə idi. K.N.İqumnov vəfat etdikdə R.İ.Atakişiyev mənim sinifimdə məşğələlərə davam etmişdi.

Gənc aspirant böyük iş görmüşdü və özünü dərin və canlı bir musiqiçi kimi tanıtdırmışdı.

İnadkar pedaqoji və ifaçılıq əmək illəri keçdi. İndi Azərbaycan SSR Xalq artisti, professor vəzifəsini icra edən R.Atakişiyev Bakı konservatoriyasında fortepiano kafedrasına rəhbərlik edir. Bakıdakı qastrol səfərlərimdə tez-tez dinlədiyim bir çox gözəl pianoçu yetişdirən, konsert fəaliyyətini davam etdirən və repertuarını davamlı olaraq genişləndirdiyi R.İ.Atakişiyev Azərbaycanın musiqi mədəniyyətinin ən böyük nümayəndələrindən biri olmuşdur. [...]

**Yakov FLİYER**
*Moskva, 1969-cu il*

***

Uzun illərdir ki, Rafiq İsrafiloviç Atakişiyevi parlaq bədii xasiyyətə və sadiq bədii zövqə sahib yüksək istedadlı bir musiqiçi kimi tanıyıram. Hələ Moskva konservatoriyasının tələbəsi və aspirantı ikən Atakişiyev çoxşaxəli qabiliyyətləri ilə diqqəti cəlb etdi. Atakişiyevin istedadı xüsusilə, onun uğurla bir neçə il sinfində oxuduğu K.N.İgumnov tərəfindən yüksək qiymətləndirilmişdir. Sonradan Atakişiyev həm ifaçı kimi (Sovet İttifaqının bir çox şəhərlərində və xaricdə solo kamera çıxışları), həm də müəllim kimi (Azərbaycan Dövlət Konservatoriyasında iş) özünü gözəl göstərmişdi. [...]

Atakişiyevin iyirmi illik səmərəli bədii fəaliyyətini müşahidə edərək və pedaqoji işini yaxından tanıyaraq (Dövlət İmtahan Komissiyasının sədri kimi Bakıya dəfələrlə səfərlərim zamanı ətraflı tanış olmaq fürsəti tapdım) onun yüksək keyfiyyətinə şahidlik edə bilərəm. [...]

**Yakov MİLŞTEYN**
*Moskva, 3 iyun 1969-cu il*

# RAUF ATAKİŞİYEV MƏTBUAT SƏHİFƏLƏRİNDƏ

**İSTEDAD VƏ BACARIQ**
***(R.Atakişiyev Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti Ongünlüyündə)***
**Kulyaş Bayseitova**
SSRİ Xalq artisti

[...] Məni bir müğənni kimi Azərbaycan vokalçılarının və ilk növbədə gənclərin yaradıcılıq yüksəlişi xüsusilə sevindirir. […] Gənc artist R.Atakişiyev Ü.Hacıbəyovun eyniadlı operasından Koroğlunun ariyasını ilhamla oxuyaraq, böyük çətinliklərin öhdəsindən uğurla gəldi. [...]

*«Советское искусство», 1950, 2 dekabr*

**DÜNYA SƏFİRLƏRİ ÜMUMDÜNYA FESTİVALINDA İŞTİRAK EDİRLƏR**
***(R.Atakişiyev Çaykovskinin 1 saylı Fortepiano konsertini Berlində ifa edir)***
**P.Borisov**

Berlində Sülh uğrunda Gənclər və Tələbələrin üçüncü Ümumdünya Festivalı keçirilir. Festivalda [...] Sovet Sosialist Respublikaları İttifaqının nümayəndələri də daxil olmaqla dünyanın 90 ölkəsindən gənc elçiləri iştirak edirlər. Bu gün onların bəzilərindən bəhs edirik.

Çaykovskinin fortepiano və orkestr üçün birinci konsertinin qüdrətli, təntənəli finalı səsləndi; gurultulu alqışlar son musiqi sədaları ilə birləşdi. Uzun boylu bir gənc fortepiano arxasından ayağa qalxdı və utancaq bir təbəssümlə tamaşaçılara təzim etdi. Azərbaycan Dövlət Filarmoniyasının gənc pianoçusu Rafiq Atakişiyevin çıxışında həmişə belə olur.

O, bəstəkarların fikrini dərindən hiss edərək dünya klassiklərinin ən yaxşı əsərlərini – List, Raxmaninov və digər bəstəkarların konsertlərini səsləndirir.

1950-ci ilin dekabr ayı yada düşür. Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti Ongünlüyünün konsertləri. Yekun konsertdə ayaqda alqışa səbəb olan ən parlaq nömrələrdən biri də Üzeyir Hacıbəyovun eyniadlı operasından xalq qəhrəmanı Koroğlunun ariyası idi. Ariyanı komsomolçu Rafiq Atakişiyev ifa edirdi.

25 yaşlı pianoçu və müğənni Atakişiyev Azərbaycan sənətinin ən gənc ustadlarından biridir. Hələ uşaq ikən fövqəladə qabiliyyətlərini və musiqiyə olan böyük sevgisini göstərmişdir. [...]

Gənc azərbaycanlı ustadda istedadlı musiqiçi və müğənni xüsusiyyətləri birləşir. Onun bədii yaradıcılığı milli musiqi ənənələri və dünyanın ən böyük rus sənətinin məktəbini özündə birləşdirir. [...]

*"Смена" (Moskva), 1951, 16 avqust*

## "YEVGENİ ONEGİN"
## M.F.AXUNDOV adına OPERA VƏ BALET TEATRINDA
***(Lenski rolunda R.Atakişiyev)***
**Y.Podkolodnı**

[...] R.Atakişiyevin ifasında Lenski coşqun və alovlu bir gəncdir. Gənc müğənni, yaxşı bir səsi və şübhəsiz musiqililiyi ilə "Evinizdə" ariozosunu və duel səhnəsindəki ariyanı ifadəli şəkildə ifa edir. Sənətçi Larinalar qonaqlığında (bal) mübahisə səhnəsini uğurla aparır və Oneginlə (İ.Ağalarov) olan "Düşmənlər" kanonu ifası yeni tamaşanın ən yaxşı nömrələrinə (yerlərinə) aid edilə bilər. [...]

*"Бакинский рабочий", 1953, 29 oktyabr*

## "YEVGENİ ONEGİN"

[...] Gözəl, dolğun səsə malik olan R.Atakişiyev Lenskinin çətin partiyasını hərarətlə və cazibədar bir şəkildə oynadı. Onun ifası böyük musiqiliyi və səmimiyyəti ilə seçilir [...]

*"Молодёжь Азербайджана", 1953, 30 oktyabr*

## "ARŞIN MAL ALAN"
***(R.Atakişiyev Əsgər rolunda)***

[...] Artist Atakişiyevin gözəl səsi və yaxşı musiqi hazırlığı var. Qəhrəmanının hisslərinin dərinliyini və poetikliyini vurğulayan Atakişiyev böyük bir səmimiyyətlə birinci pərdədə Əsgərin ariyasını oxuyur, Gülçöhrə ilə səmimi və mehriban lirik səhnələr qurur [...]

*"Бакинский рабочий", 1953, 26 dekabr*

## "İOLANTA"
## OPERA VƏ BALET TEATRINDA YENİ QURULUŞ
***(R.Atakişiyev Vodemon rolunda)***
**Y.Podkolodnı**

[...] Soylu cəngavər Vodemonun vokal və səhnə obrazını yaratmaq son dərəcə çətin bir işdir. Qəfildən aşiq olan bir gəncin lirik həssas və alovlu təbiəti yalnız son dərəcə səmimiyyət və ifanın sadəliyi ilə təcəssüm etdirilə bilər. Eyni zamanda, bəstəkarın yüksək tessiturada yazdığı enerjili vokal hissəsi səsin ustalığını tələb edir. Vodemon partiyasının ifaçısı artist R.Atakişiyev, şübhəsiz ki, obrazın musiqi tərəfini uğurla ifa etmişdir. Müğənni Çaykovskinin musiqi ifadəsinin emosionallığını və mənaca məzmununu düzgün hiss edir və çatdırır. Müğənninin səsi yumşaq və ifadəli səslənir. Dünya opera ədəbiyyatının ən çətin səhnələrindən biri olan İolanta ilə dueti Atakişiyev romantik ruh yüksəkliyi ilə aparır.

*"Бакинский рабочий", 1954, 3 noyabr*

## ÜÇ TAMAŞA
## KRASNODARDA AZƏRBAYCAN OPERA VƏ BALET TEATRININ QASTROLLARI
### (R.Atakişiyev "Yevgeni Onegin"də Lenski rolunda)

[...] Artist R.Atakişiyevin Lenski rolunun ifası tamaşanın yaradıcılıq uğurlarına aid edilməlidir [...]

*«Комсомолец Кубани», 1955, 17 iyul*

## SOVET TENORUNUN QASTROL ÇIXIŞI
### (R.Atakişiyev Lodz Opera teatrının tamaşasında)

[...] Dünən qastrolçu – Sovet tenoru Rafiq Atakişiyev Lodz Operasında çıxış etdi. Qonaq aydın, mükəmməl bir səslə oxuyaraq özünün böyük bir mədəniyyətin sənətkarı olduğunu sübut etdi. Tamaşanın sonunda tamaşaçılar Sovet sənətçisini uzunsürən alqışlarla mükafatlandırdı. [...]

*"День Лодзи" (Polşa), 1957, 8 oktyabr*

## ÇOX ƏZİZ QONAQ
### (Krakov opera teatrında R.Atakişiyevin çıxışı)

[...] Krakov operasının qonağı Bakı operasının solisti R.Atakişiyev idi. O, "Sevilya Bərbəri"nin əsas tenor partiyası – qraf Almaviva rolunda çıxış etdi. [...] Artist böyük gözəl bir səs, ecazkar ifadə, musiqililik, oxuma və səhnə davranışı mədəniyyətini nümayiş etdirdi. Yeganə məşqdən sonra özgə komandada "özünkü"nə çevrildi, quruluşu və rejissorluğu mənimsəyərək, aydın düşüncəsi ilə bizi heyrətləndirdi [...]

*"Краковская газета", 1957, 15 oktyabr*

## OPERADA MƏŞHUR SOVET TENORU ÇIXIŞ EDƏCƏK
### *(R.Atakişiyevin Polşa şəhərlərində qastrolları)*

Bakı Opera və Balet Teatrının məşhur tenoru Rafiq Atakişiyev Polşaya gəldi və 17 oktyabrda Almaviva, 19 oktyabrda Varşava Operasında Alfred partiyalarında çıxış etmişdir. R.Atakişiyev həmin rollarda oynadığı Lodz və Krakovda da böyük uğur qazandı.

*"Вечерний експресс" (Varşava), 1957, 17 oktyabr*

## XARİCİ SOLİSTLƏRİN İKİ QASTROLU
### *(R.Atakişiyevin Varşavada çıxışı)*

[...] Paytaxt tamaşaçıları tərəfindən səmimiyyətlə qarşılanan ikinci qonaq, Rossininin "Sevilya bərbəri"ndə Almaviva partiyasını oxuyan Bakı Operasının gənc, çox istedadlı tenoru Rafiq İsrafiloviç Atakişiyev idi. Onun tamaşası çox xoş bir sürpriz oldu və tamaşaçılar tərəfindən hərarətlə qarşılandı. Sovet sənətkarının olduqca xoş, məxməri bir səsi var, hansını ki, olduqca yaxşı idarə edir. Onun ifası "Sevilya bərbəri"ni mövsümün ən yaxşı tamaşalarından birinə çevirdi.

*"Вечерний експресс" (Varşava), 1957, 20-21 oktyabr*

## R.ATAKİŞİYEV "SEVİLYA BƏRBƏRİ" VƏ "TRAVİATA"DA

Ötən həftə Bakının Opera və Balet Teatrının solisti Rafiq Atakişiyevin Rossininin "Sevilya bərbəri" və Verdinin "Traviata" operalarındakı çıxışı böyük və layiqli bir uğur qazandı. Qraf Almavivanın və Alfred Jermonun dünyanın ən böyük tenorlarının repertuarına daxil olan partiyaları ifaçıdan ən yüksək vokal bacarığını tələb edir. R.Atakişiyevin sənətini ən yüksək kriteriyalara görə qiymətləndirərək onu şişirtmədən görkəmli müğənnilər sırasına salmaq mümkündür. Gözəl tembrli yaxşı qoyulmuş tenor səsi, istedadının lirik təbiəti, yüksək emosionallığı Atakişiyevə unudulmaz Alfred obrazı yaratmağa imkan vermişdi. Digər tərəfdən, Atakişiyev qüsursuz vokal texnikası ilə bizi heyran etmişdi, məhz bunun sayəsində qraf Almavivanın texniki cəhətdən ən çətin partiyasının öhdəsindən gəlmişdir. Atakişiyev bu koloratur tenor partiyasının bir çox ifaçıların öhdəsindən gələ bilmədiyi bütün passaj və qammalarının həsəd doğuran asanlıq və aydınlıqla ifa etmişdir. R.Atakişiyevin İtalyan belkantosunun bütün virtuoz təsirlərinin belə parlaq bir ifasının sirri onun dünya şöhrətli tanınmış rus müğənnisi A.V.Nejdanovanın tələbəsi olmasındadır.

*"Жизнь Варшавы", 1957, 26 oktyabr*

## ÇAYKOVSKİ ADINA ZALDA
**S.Paxomova**

[...] T.Quliyevin mahnılarını çox gözəl ifa edən R.Atakişiyevin çıxışı maraqlı və parlaq idi. Atakişiyev "Evləri var xana-xana" Azərbaycan xalq mahnısını oxuyanda isə salonda alqış fırtınası başladı. Müğənni bu xalq mahnısının bənzərsiz orijinallığını, səmimi lirizmini və sehrli cazibəsini tamaşaçılara çatdırmağı bacarmışdı. [...]

*Moskva (xüsusi müxbirimiz)*
*"Бакинский рабочий", 1957, 29 noyabr*

## AZƏRBAYCAN ESTRADASININ KONSERTLƏRİ
**A.Qriqoryeva**

[...] Atakişiyev nəcib və təmkinli ifa tərzi ilə seçilir. Bu, böyük gücün parlaq bir səsidir. Onun ifasında populyar olan A.Babayevin "Bir qıza rast gəldim". Konsertdə T.Quliyevin "Sənə də qalmaz" mahnısını lirik şəkildə böyük duyğu ilə oxudu. [...]

*"Советская молодёжь", (Latviya), 1958, 26 avqust*

## AZƏRBAYCANIN ESTRADA ORKESTRİNİN KONSERTLƏRİ

[...] Onun (R.Atakişiyevin – *red.*) Azərbaycan mahnılarının, eyni zamanda filmlərdən olan mahnıların səmimi ifası, proqramın ən yaxşı nömrələrindən biri idi. [...]

*"Советская литература", 1958, 27 avqust*

## ŞƏHƏRLƏRDƏ KONSERTLƏR
***(müğənni və pianoçu R.Atakişiyevin maestro Niyazi ilə qastrol səfərləri)***
**M.Svetayev, E.Qolbrayx**

Üzeyir Hacıbəyov adına Azərbaycan Simfonik Orkestri Orta Asiya respublikalarına qastrol səfərləri həyata keçirdi (orkestrin baş dirijoru Niyazidir). Qastrol proqramlarına rus, Qərbi Avropa klassikləri və müasir Azərbaycan musiqisi daxildir. [...]

Gənc solist R.Atakişiyev konsertdə həm pianoçu, həm də müğənni kimi çıxış etdi. O, Listin Birinci Konsertinin ifasında mükəmməl pianizm texnikası və böyük ahənglilik nümayiş etdirdi. İkinci hissədə R.Atakişiyev F.Əmirov, T.Quliyev, A.Babayevin əsərlərini oxudu. [...]

*"Советская музыка", 1958, № 9, s. 119*

## M.F.AXUNDOV adına OPERA VƏ BALET SƏHNƏSİNDƏ "MOSART VƏ SALYERİ"

**İ.Kaqan**

[...] Rauf Atakişiyevin ifasında Mosart xüsusilə uğurludur. İncə bir musiqiçi, yalnız partiyanın vokal tərəfinin öhdəsindən asanlıqla gəlmir, həm də peşəkar bir pianoçu olduğu üçün özü də mükəmməl bir fortepiano solosunu – operanın musiqi ideyasını ortaya qoymaq üçün həlledici bir epizodu ifa edir. [...]

*"Вышка", 1962, 18 fevral*

## BRAVO, FİQARO!

***(R.Atakişiyev və M.Maqomayev Rossininin "Sevilya bərbəri" tamaşasında)***

**Polad Bülbüloğlu**

[...] 2 noyabr, Bazar ertəsi [1964-cü il], Müslüm Maqomayev üçün asan olmayan və çox məsuliyyətli bir gün olmuşdur. Asan deyildi, çünki onun qarşısında ən çətin opera partiyalarından birini – Rossininin "Sevilya bərbəri" operasındakı Fiqaronun partiyasını oxumaq kimi bir məsələ dururdu, məsuliyyətli isə, ona görə ki, bu çıxış onun opera səhnəsində debütu sayılırdı. [...]

Həmişə olduğu kimi, yüksək ifaçılıq mədəniyyətinə malik müğənni, Azərbaycan SSR-nin əməkdar artisti Rauf Atakişiyev tamaşaçıları sevindirdi. Rauf Atakişiyevin pianoçu kimi imkanlarından çox uğurla istifadə olunmuşdur (o, Azərbaycan Dövlət Konservatoriyasının fortepiano sinfi üzrə dosentidir). Üçüncü pərdədə qraf Almaviva Rosina ilə birlikdə oxuduğunda, o, özü səhnədə qədim bir alət – çelestada onu müşayiət edir. Və bu, yaxşı təsir bağışlayır. [...]

*"Вышка", 1964, 10 noyabr*

## BAKI ORQAN İFAÇISININ İLK KONSERTİ

***(R.Atakişiyev orqanın müşayiəti ilə qədim ustadların musiqisini ifa edir)***

**G.Rəhimzadə**

[...]Azərbaycan Dövlət Konservatoriyasının böyük zalında Azərbaycan orqan ifaçısı Zara Cəfərovanın ilk konserti böyük uğurla keçirildi. [...]

Konsertin ikinci hissəsində orqanın müşayiəti ilə M.F.Axundov adına Opera və Balet Teatrının solisti Rauf Atakişiyev qədim İtalyan bəstəkarlarının (Cordano, Stradella) bir neçə əsərini və Hendelin "Kserks" operasından bir ariya ifa etdi. Bu musiqinin sərt, əzəmətli gözəlliyinin çatdırıldığı zövq və nəciblik bizi bir daha bu müğənni haqqında düşünən, axtaran və maraqlı bir musiqiçi kimi danışmağa vadar edir.

Konsertin sonunda Şubertin parlaq "Ave Maria" mahnısı səsləndirildi. [...]

*"Bakı", 1964, 25 dekabr*

## "DEMON"

### *(R.Atakişiyev Opera və Balet Teatrının yeni tamaşasında)*

**Z.Stelnik**

[...] Tamaranın nişanlısı, Sinodal knyazının partiyası nisbətən kiçikdir, lakin R.Atakişiyev onu necə coşğuyla aparır! Həqiqətən sənətkar musiqi ilə doludur və hər yeni rolu həmişə dinləyicilərə həqiqi zövq verir. [...]

*"Бакинский рабочий", 1965, 5 yanvar*

## O, BAKILILARI HEYRAN ETDİ

### *(R.Atakişiyev Rossininin "Sevilya Bərbəri"ndə qraf Almaviva rolunda)*

**Şövkət Məmmədova**

*SSRİ Xalq artisti*

Rossininin "Sevilya bərbəri"nin Azərbaycan Opera Teatrının səhnəsinə tamaşaya qoyulması ilk dəfə deyil. Ancaq qonağımız Juja Erdesin iştirakı ilə tamaşa bir qədər dəyişik oldu. [...]

Tamaşada parlaq və çox istedadlı Macar aktrisası ilə birlikdə bizim müğənnilərimiz də iştirak etdilər. Qraf Almaviva rolundakı Rauf Atakişiyev böyük vokal mədəniyyətini göstərdi [...]

*"Вышка", 1965, 5 dekabr*

## SABİN MARKOV OXUYUR

### *(R.Atakişiyevin iştirakı ilə Verdinin "Traviata"sı)*

**K.Sabirov**

M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində Verdinin "Traviata" operasında Sofiya Operasının solisti Sabin Markovun ikinci çıxışı baş tutmuşdur. [...]

"Traviata"da S.Markovla birgə ansamblda respublikanın əməkdar artisti R.Atakişiyev (Alfred Jermon) çıxış etmişdir. [...] R.Atakişiyev, hər zaman olduğu kimi, yüksək oxuma mədəniyyəti, səhnədəki davranış rahatlığı və səmimiyyəti ilə valeh edirdi. Atakişiyevin yaratdığı obraz Alfredin sevgi və ümidsizliyə qapılmış bütün duyğu hərəkətlərini incə şəkildə çatdırır. Onun "Ruhuma hüzur və sakitlik" ariyası ifadəli şəkildə səsləndi. [...]

*"Баку", 1966, 20 yanvar*

## "BORİS QODUNOV"

### *(R.Atakişiyevin ifasında Yurodivının partiyası)*

**D.Danilov**

Nəhayət, "Boris Qodunov"un çoxdan gözlənilən premyerası baş tutdu. Bakılılar uzun illər "bütün rus musiqisinin ən gözəl və ən yüksək almazlarından biri" kimi tanınan opera klassikasının şah əsərini görmək və eşitmək imkanından məhrum olmuşdular. [...]

Operanın ecazkar obrazlarından biri Yurodivıdır. Onu gözəl səs tembrinə malik olan R.Atakişiyev oxuyur. "Vasili Blajennı" qarşısında səhnədə və operanın finalındakı Yurodivının mahnısı hərarətli, təsirli səsləndi... Eyni ürək titrədən intonasiyaları Borislə oglanların səhnəsindəki reçitativli dialoqda eşitdik. Yenə də görünür, istedadlı, böyük musiqi qabiliyyəti

olan sənətkar daha çox sadəliyə, ifadənin təbiiliyinə çalışmalıdır. Operada xalqın vicdanını təcəssüm etdirən, uşaq qatili-çarı damğalayan yoxsul Mikolka obrazı bundan yalnız qazana bilər. [...]

*"Бакинский рабочий", 1966 , 22 dekabr*

## İSTEDADIN ÇOXŞAXƏLİLİYİ
**L.Krivoşeyev**

[...] Vokal ifadəliliyi R.Atakişiyev üçün səhnə obrazının açılmasının əsas vasitəsidir. Mükəmməl səs idarə etməsi, gözəl tembr çaları, incə ifadə, aydın diksiya və cəlbedici səmimiyyət – bu, Atakişiyevin ifaçılıq tərzidir. Nisbətən qısa müddət ərzində Atakişiyev İttifaqın aparıcı vokalçılar sırasına daxil oldu. [...]

*"Баку", 1967, 21 avqust*

## "MONASTIRDA NİŞANLANMA"
***(R.Atakişiyev Don Jerom rolunda)***
**L.Məlikova**

Ötən ay Bakının musiqi teatr mövsümündə böyük bir hadisə ilə yadda qaldı – Azərbaycan teatr tarixində ilk dəfə görkəmli sovet bəstəkarı Sergey Prokofyevin XVIII əsrin ingilis komedioqrafı Şeridanın "Duenya" pyesinin süjeti əsasında yazılmış "Monastırda nişanlanma" komik operası səhnələşdirildi. [...]

Quruluşun ən diqqət çəkən simalarından biri də Rauf Atakişiyevin ifa etdiyi Don Jerom obrazıdır. Bakı dinləyicilərinə Alfred, Faustun lirik rollarında tanınan Atakişiyev gözlənilmədən özünü xarakterik rolda göstərdi.

Onun ifasında Don Jeromun qızının itaətsizliyindən qəzəblənən yaşlı atasının hirsi və kədəri, əllərində Luizanın sevgi məktubları olan bir qulluqçu ilə mübahisə səhnələri tamaşaçılar tərəfindən komediya teatrında yayılmış bir şarj kimi deyil, insan hisslərinin realist ifadəsi kimi qəbul edilir. Artist bu obraza xas olan əhval-ruhiyyəni çatdırmağı, izləyicini qəhrəmanının yaşadıqlarının həqiqiliyinə inandırmağı bacarmışdı. [...]

*«Вышка», 1969, 13 may*

## MUSİQİ İLƏ GÖRÜŞ
***(R.İ.Atakişiyevin fortepiano sinfinin tələbələrinin konserti)***
**T.Seyidov**

Azərbaycan Dövlət Konservatoriyasında keçirilən Respublikanın Xalq artisti professor R.İ.Atakişiyevin fortepiano sinfinin tələbələrinin konserti yeni il ərəfəsində özünəməxsus yaradıcılıq hesabatı oldu. Həmin axşam Bethoven, Şuman, Şopen, List, Raxmaninovun fortepiano əsərləri daxil olmaqla tamaşaçılara rəngarəng proqram təqdim edildi. Müxtəlif bacarıq səviyyələrində olan ifaçıları kompozisiya konsepsiyasına dərindən nüfuz etmək, musiqi əsərlərinin üslubunu və obraz məzmununu anlamaq istəyi birləşdirdi.

Konsert proqramında ən rəngarəng təqdim olunan Şopenin əsərləri idi, hansılar ki, hisslərin ifadə edilməsində böyük düşüncə yetkinliyi və incəlik tələb edir. [...]

*"Молодёжь Азербайджана", 1970, 8 mart*

## MUSİQİ TEXNİKUMUNDA (KOLLECİNDƏ) GÖRÜŞ
***(R.Atakişiyevin Gəncədə metodiki köməyi)***
**Ş.Rzayev**

Üç gün ərzində Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano şöbəsinin müdiri (kafedra – *red.*) professor R.Atakişiyev Kirovabad (indiki – Gəncə – *red.*) Q.Hüseynli adına Musiqi Kollecindəki tədris prosesi ilə ətraflı tanış olmuşdur.

O, yüksək ixtisaslı fortepiano müəllim-pianoçuların yetişdirilməsi sahəsində çoxillik pedaqoji təcrübələrini bölüşdü və eyni zamanda məktəbin işindəki çatışmazlıqları qeyd etdi, xüsusi fənlər üzrə tədrisin keyfiyyətinin yüksəldilməsinin vacibliyini bildirdi, yeni tədris ili üçün plan hazırlamağa, şagirdlərin imkanlarını və onlara fərdi yanaşmağı nəzərə alaraq bir proqram seçməyə kömək etdi.

Məktəbin fortepiano şöbəsinin müəllimləri ilə görüşən R.Atakişiyev tədris prosesinin bütün gedişatını ətraflı təhlil etdi. [...]

Respublikanın Əməkdar artisti R.Atakişiyev, Kirovabad Simfonik Orkestri, Azərbaycan Dövlət Konservatoriyasının tələbələri və Kirovabad Musiqi Kolleci tələbələrinin iştirakı ilə Musiqi Evində konsertlərin hazırlanması və keçirilməsi üçün tədbirlərin hazırlanmasında iştirak etmişdir.

*«Кировабадский рабочий», 1971, 15 sentyabr*

## XALQ ARTİSTİNİN SİNFİ İFA EDİR
***O.Abasquliyev***

Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Böyük zalında Respulikanın Xalq artisti, professor R.Atakişiyevin sinfinin tələbələri rəngarəng və mürəkkəb proqramla çıxış etmişdir. [...]

Əla məktəb – bütün ifaçıları birləşdirən və bu konsertə diqqət çəkən məhz bu amildir. Bütün ifaçılar müxtəlif yönlü və möhkəm bir texnikaya, parlaq, gözəl səsə, həqiqi sənətə və təfsirdə təbiiliyə malik idilər. [...]

*[İfaçılar arasında İ.Şur (Ravelin Sonatinası), M.Mirsəlimova (Prokofyevin Doqquzuncu Sonatası), M.Baqdasarov (Listin Sonatası), B.Qusliser (Şopenin Noktürnu, Fantaziyası və Parlaq Polonezi)].*

[...] Ümumiyyətlə, həm ayrı-ayrı ifaçılar, həm də bütün konsert tamaşaçılarda şübhəsiz uğur qazanmışdır ki, bu da böyük mədəniyyət və erudisiyaya sahib musiqiçinin, professor R.Atakişiyevin öz yetirmələrinə müvafiq keyfiyyətləri aşılaması, işinin və təcrübəsinin faydalı təsiri kimi qiymətləndirilir.

*«Баку», 1973, 1 may*

## "SAYAT-NOVA" AZƏRBAYCAN OPERA VƏ BALET TEATRININ PREMYERASI
***(R.Atakişiyevin ifasında Sayat-Novanın partiyası)***
**M.Mirzəyev**

[...] Respublikanın Xalq artisti, professor Rauf Atakişiyev Sayat-Novanın dərin orijinal obrazını yaratdı. Sənətçi öz partiyasını böyük hiss və şiddətlə aparır. Onun səhnədəki yaradıcılıq uğurları mənə təəcüblü gəlmir. Axı, R.Atakişiyev anadangəlmə istedada sahibdir, onun yüksək çoxşaxəli musiqi mədəniyyəti hər yerdə ona kömək edir. Bu yaxınlarda S.Prokofyevin "Monastırda nişanlanma" operasında yaratdığı don Jerom obrazında belə olmuşdur. İndi isə yeni bir yüksək keyfiyyətli uğur – Sayat-Novanın obrazı. [...]

*«Баку», 1973, 29 iyun*

## GƏNC İFAÇILARIN UĞURU
## ROYAL ARXASINDA – DÖRDÜNCÜ ZAQAFQAZİYA MÜSABİQƏSİNİN LAUREATLARI
***(professor R.Atakişiyevin sinif tələbələrinin konserti)***
**T.Seyidov**

Dekabr ayı Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında zəngin konsert həyatı ilə qeyd olunmuşdur. Bu da təbiidir: akademik semestrin sonunda, lakin imtahanlar başlamazdan əvvəl tələbələr auditoriya qarşısında hesabat verirlər, proqramlarını "işləyirlər".

Bəzi konsertlər ifaçılıq səviyyəsinə görə təhsil çərçivəsindən çox kənara çıxır. Konservatoriyanın Böyük Zalında keçirilən Respublikanın Xalq artisti, professor R.Atakişiyevin fortepiano sinfinin tələbələrinin akademik axşamlarından birində də məhz belə oldu. Həmin axşam IV Zaqafqaziya Musiqi İfaçıları Müsabiqəsinin laureatları Vasif Həsənov və Boris Qusliser geniş və fərqli bir proqramla çıxış etdilər. [...]

[Proqramda: Frankın Prelüd, xoral və fuqası, Şopenin 1 nömrəli Balladası, Listin mi minor Etüdü (Paqaninidən) və 1 nömrəli Konserti (ifa B.Qusliser), Haydnın do major Sonatası, Şopenin Etüdləri No. 8 və 25, “Navajdeniye” Prokofyev (ifa V.Həsənov).

*«Баку», 1974, 2 yanvar*

## DONİSETTİDƏN PROKOFYEVƏ QƏDƏR
***(R.Atakişiyevin Leninqraddakı qastrolları)***
**T.Muxina**

[...]Respublikanın Xalq artisti R.Atakişiyevin canlandırdığı don Jerom obrazı [Prokofyevin “Monastırda nişanlanma”] tamaşasının "hərəkətverici qüvvəsi" oldu. Onun partiyası səs və səhnə çətinlikləri ilə doludur.

Atakişiyev ifadəli, ağıllı, dəqiq, cazibədarlıqla yaşlı bir Sevilya zadəganını canlandırır. Eyni zamanda, sənətkarın ifası musiqiyə olan şərtsiz sədaqəti, bütün çalarlarına riayət etməsi ilə seçilir. Partiya həsəd aparacaq qədər rahatlıqla və asanlıqla oxunur: müğənni təbii gözəl səsinə ustalıqla yiyələnir. [...]

"Sevgi İçkisi"ndə [Donisetti] R.Atakişiyev yenə də əsas rolu oynayır. Burada o, kənd oğlanı Nemorino rolunu oynayır. Artist Nemorinonun məşhur "Şirin Adinanın oxşayıcı baxışları" romansını böyük hisslərlə ifa edir. Bütün diapazon boyu rəvan səslənən Atakişiyevin gözəl səsi tamaşaçıları heyran edir. [...]

*«Смена» (Leninqrad), 1977, 26 iyul*

## PİANOÇU MƏKTƏBİ
***(R.Atakişiyev sinfinin məzunu R.Qasımovun simfonik orkestr ilə konserti)***
**T.Seyidov**

Son zamanlarda önə çıxan gənc pianoçular arasında Azərbaycan Dövlət Konservatoriyasının yetirməsi, Respublikanın Xalq Artisti professor Rauf Atakişiyevin sinfinin məzunu, V Zaqafqaziya Musiqi İfaçıları Müsabiqəsinin laureatı Rauf Qasımovu xüsusi qeyd etmək istərdim. [...]

M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında R.Qasımov Respublikanın Əməkdar incəsənət xadimi Kazım Əliverdibəyovun rəhbərliyi altında simfonik orkestrlə çətin və məsuliyyətli proqramı – F.Listin iki konsertini ifa etdi. [...]

Gənc pianoçunun uğuru, şübhəsiz ki, bir sıra parlaq musiqiçilər yetişdirmiş görkəmli Azərbaycan musiqiçisi professor Rauf İsrafiloviç Atakişiyevin sinfində əsaslı bir məktəb keçdiyindən xəbər verir. [...]

*«Баку», 1978, 24 fevral*

## RUS ROMANSI SƏSLƏNİR
### *(ifa edirlər R.Atakişiyev və F.Bədəlbəyli)*
### X.Qaşqay

M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında rus kamera vokal musiqisinin konserti baş tutdu. Bu konsertdə səsləndirilən rus bəstəkarlarının vokal lirikası tamaşaçılara rus musiqisinin ən xarakterik xüsusiyyətlərindən birini təqdim etdi. Bu, insan və təbiətin vəhdəti mövzusudur, təbiətin psixoloji qavrayışının mövzusu və onun vasitəsi ilə – şəxsiyyətin, insan dramının, faciənin idrakı... Bu yanaşma ilə romans axşamının əsas qəhrəmanları – Rauf Atakişiyev və Fərhad Bədəlbəylinin qüsursuz zövqü, sənətkarlığı və yüksək bacarığı üzə çıxmışdır.

Rauf Atakişiyev – Azərbaycan SSR Xalq artisti, professor, geniş profilli musiqiçidir. O, vokalçı, pianoçu və müəllim kimi eyni dərəcədə istedadlıdır. Bu konsertdə ilk dəfə o, rus vokal lirikasından ibarət solo proqramı ilə çıxış etdi. Və bu, yəqin ki, təsadüfi deyil. Göründüyü kimi, yetkin bir musiqiçinin özünü məhz belə bir konsertdə dəqiq ifadə etməsi zamanı gəldi, zira belə bir proqramda rus vocal lirikasının möhtəşəm ifaçısı və böyük opera müğənnisi A.V.Nejdanovanın tələbəsi olan R.Atakişiyevin peşəkar bacarığı tam şəkildə özünü büruzə verdi.

Son konsert müğənninin səsinin ifadə qabiliyyətinin nə qədər geniş olduğunu göstərdi – ən zərif hisslərdən yüksək intensivli dramatizmə qədər. Müğənninin səsi bütün diapazon boyu rəvandır. Rus vokal ənənələri ilə yetişdirilən musiqiçi ən təmiz “piano” və güclü “forte”ni göstərərək böyük dramatik ekspressiyaya nail ola bilir. Rus vokal ənənələrindən gələn emosional bölüşmə səxavəti, incə psixoloji dərəcələr, temperament açıqlığı, səmimiyyət – Rauf Atakişiyevə xas olan məhz bu keyfiyyətlər konsertdə tam gücü ilə səsləndi. [...]

Bu ansamblda Çaykovskinin "Bu, erkən yazda idi" və "Səs-küylü balda" romansları, Raxmaninov və Rimski-Korsakovun bir sıra romansları möhtəşəm səsləndi. Beləliklə, “Bu, erkən yazda idi” romansında kamera lirikası və açıq duyğuların vəhdəti ansamblda fövqəladə həssaslıqla çatdırıldı. Müşayiət sanki bəzən gizlənmiş kimi görünürdü, bəzən də kontekstdən asılı olaraq tam səslə eşidilirdi. Eyni harmonik ahəng demək olar ki, o axşam səslənən bütün əsərlərə xas idi.

Rauf Atakişiyev və Fərhad Bədəlbəylinin böyük səhnə cazibəsi, tamaşaçıları özünə cəlb etmək kimi bacarıqları var. Konsertdə heyrətamiz dərəcədə sərbəst və yaradıcı musiqixiridarlıq mühiti hökm sürməsinin səbəbi də bu deyilmi?

*«Вышка», 1982, 24 dekabr*

## USTADLARIN BİRLİYİ
### *(müğənni R.Atakişiyev və pianoçu F.Bədəlbəylinin birgə konserti)*
### Z.Stelnik

M.F.Axundov adına Azərbaycan Opera və Balet Teatrının aparıcı solisti, Respublikanın Xalq artisti Rauf Atakişiyev Lenski, Faust, Alfred (Verdinin “Traviata”), Nemorino (Donisetti “Sevgi içkisi”) partiyalarında və digər tamaşalarda dinləyiciləri uzun illər sevindirirdi. Keçən mövsümün sonunda Xoze (Bizenin "Karmen") rolunu uğurla ifa etdi və indi, deyəsən bu illərdə onun ifaçılıq fəaliyyətində ilk dəfədir ki, tamaşaçı qarşısına kamera müğənnisi kimi çıxmışdır.

Nadir istedada malik musiqiçi olan R.Atakişiyev təxminən otuz romans ifa edərək tamaşaçıları iki saata yaxın gərgin diqqətdə saxlamışdır. Burada söhbət təkçə cazibədar yumşaq və çevik bir səsdən, isti tembrdən yox, eyni zamanda musiqinin üslubuna, xarakterinə, emosional əhval-ruhiyyəsinə dərin nüfuz olunmasından gedir. Məhz sırf vokal tərəfin musiqili-estetik tərəfi ilə bu xoş vəhdəti belə təsir edici effekt bağışladı.

Bütün birinci hissəni Pyotr İliç Çaykovskinin "rus musiqisinin qüruru və şöhrəti” romansları tutmuşdur. Bunlardan hansının “daha yaxşı” olduğunu söyləmək heç cürə mümkün deyil, lakin fərqli xarakter, emosional məzmun və hisslər dairəsinə əsaslanaraq seçilmişdilər. Burada – titrək həssaslığı ("Səs-küylü balda", "Bu, erkən yazda idi"), ehtiraslı coşma ("Tək bir

sözlə istərdim"), gizli bir ümid ("Dəhşətli an"), yorğun ruhun fəryadı ("Yenə əvvəlki kimi tənha", "Səninlə oturmuşduq", "Sarı zəmilərə")... Və Rauf Atakişiyev nə ifa etsə də, sanki hər romansın yeganə əsl açarını tapırdı.

İkinci hissədə Raxmaninov, Rimski-Korsakov, Qreçaninov, Qurilyovun romansları səslənirdi. Raxmaninovun romansları Çaykovskinin musiqisinə yaxındır, əksər hallarda xarakter və mövzular cəhətdən bənzəyirlər; eyni zamanda, ifadə vasitələri və ancaq böyük ustad, musiqi sehrbazına xas olan "hisslər seli" ilə fərqlənir.

Rauf Atakişiyev son dərəcə emosional bir musiqiçidir, lakin "özünə hakim olmağı" bacarır. Onun ifa etdiyi, Raxmaninovun şah əsərlərindən olan faciəvi "Hər şey keçir", "Necə ağırdır", "Yenidən tək qaldım" romanslarda bəzi ifaçıların göstərdiyi əsassız patetika, nəzərə çarpan gərginlik kimi xüsusiyyətlər tamamilə yox idi. Həqiqətən onlarda melodrama düşmək təhlükəsi var. Yalnız kəskin duyğu, daxili intizam ifaçını yüksək sənətkarlıq həddində saxlaya bilər. Rauf Atakişiyev onları məhz belə oxuyurdu. İ.Buninin şeirlərinə yazılmış "Gecə kədərlidir" dahi romansın incə ifasını qeyd etməmək mümkün deyil. Necə də bədii güclə kədər, tənhalığın acısı, həsrət hissi çatdırılır...

Rauf Atakişiyev möhtəşəm və istedadlı bir pianoçu, beynəlxalq mükafatlar laureatı, Respublikanın Xalq artisti Fərhad Bədəlbəyli ilə birlikdə çıxış ediridi. Afişada nahaq deyilir: "Konsertdə Fərhad Bədəlbəyli iştirak edir". Necə yəni iştirak edir! Pianoçu və müğənni vahid bədii bütövlük təşkil edirdi. Çaykovski və Raxmaninovun romanslarında fortepiano və səs bir-birindən ayrılmazdır. F.Bədəlbəyli necə də heyrətamiz məharətlə musiqini yenidən yaratdı, royal necə səslənirdi, musiqi ifadəsi necə təqdim olunurdu, necə də son dərəcə açıq hisslərin incə duyğusu!

Minnətdar dinləyicilərə unudulmaz təəsürat bağışlayan iki sənətkar diqqətlə dinləyən tamaşaçıları heyran etdi. Çox təəssüf ki, belə konsertlər indi nadir hallarda olur...

*«Бакинский рабочий», 1982, 24 dekabr*

## AZƏRBAYCANIN NÜMAYƏNDƏLƏRİ

***(R.Atakişiyev, M.Maqomayev və T.Sinyavskayanın Belçikadakı konserti)***

**A.Balebanov**

Brüssel, 7 Noyabr (TASS-Azerinform müxbiri). […] SSRİ Xalq artistləri M.Maqomayev və T.Sinyavskaya Sen-Gilen sakinləri üçün böyük konsert təqdim etdilər. Burada Azərbaycan SSR Xalq artisti R.Atakişiyev də iştirak etmişdir. Sovet ölkəsinin nümayəndələrinin çıxışları gurultulu alqışlarla qarşılandı.

SSRİ-nin Belçikadakı günləri başladı. [...]

*«Бакинский рабочий», 1983, 8 noyabr*

## MOSKVA ALQIŞLAYIR

***(Mərkəzi İncəsənət İşçilərinin Evində R.Atakişiyev və F.Bədəlbəylinin yaradıcılıq gecəsi)***

**T.İvanova**

Moskva sakinləri Azərbaycanın musiqi mədəniyyətinin iki aparıcı nümayəndəsi ilə birdən görüşdülər. Mərkəzi İncəsənət İşçilərinin Evində Azərbaycan SSR Xalq artistləri Rauf Atakişiyev və Fərhad Bədəlbəylinin yaradıcılıq gecəsi baş tutdu.

M.F.Axundov adına Azərbaycan Akademik Opera və Balet Teatrının solisti Rauf Atakişiyev bu dəfə Moskva musiqisevərlərini kamera proqramı ilə tanış etdi. Proqarama daxil edilən Çaykovski və Raxmaninovun romansları müğənniyə zəngin vokal və dramatik qabiliyyətlərini nümayiş etdirməyə imkan verdi.

R.Atakişiyevi müşayiət edən, daha doğrusu, ifanın həmmüəllifi – Azərbaycanın Lenin Komsomolu Mükafatı laureatı, Beynəlxalq müsabiqələr laureatı F.Bədəlbəyli oldu. [...]

Azərbaycan sənətçilərinin konserti tamaşaçıların böyük marağına səbəb oldu. İfaçıları Moskvanın aparıcı incəsənət xadimləri hərarətlə qarşıladılar.

SSRİ Xalq artisti Tamara Sinyavskaya TASS müxbirinə "Rauf Atakişiev əsl böyük ustaddır", – dedi. – Moskva Konservatoriyasının vokal və fortepiano siniflərinin məzunu olan R.Atakişiyev inanılmaz ifaçılıq mədəniyyətinə, musiqi duyumuna malikdir. [...]

*«Бакинский рабочий», 1984, 3 fevral*

## YÜKSƏK İSTEDAD
***(Çaykovskinin romansları R.Atakişiyev və Sibir violin ansamblının birgə ifasında)***
**S.Kərimov**

[...] R.Atakişiyevin çıxış proqramını (Mixail Parxomovskinin rəhbərliyi altında Bakıda qastrolda olan Sibir violin ansamblı ilə) P.İ.Çaykovskinin "Bu erkən yazda idi", "Divanə gecələr", "Səs-küylü balda","Tək bir sözlə istədim" təşkil etmişdir. Mübaliğəsiz demək olar ki, bu, dahi rus bəstəkarının musiqisinin son dərəcə titrək ifası olmuşdur, həqiqətən də etirafçı bir xarakterli ifadır. [...]

*«Баку», 1984, 24 mart*

## AZƏRBAYCAN PİANOÇUSUNUN BEYNƏLXALQ NÜFUZU: RAUF QASIMOV – İSPANİYADA MÜSABİQƏ LAUREATI

[...] Santanderdə (İspaniya) təşkil edilən Paloma O'Şa Beynəlxalq Pianoçular müsabiqəsində "Qran Pri"lərdən biri və laureat adı azərbaycanlı musiqiçi Rauf Qasımova verildi. Dörd sovet pianoçusunun iştirak etdiyi bu çətin yarışmada o, üçüncü yerə layiq görülərək mükafat qazanmışdır.

R.Qasımov [...] – Azərbaycan SSR Xalq artisti, professor Rauf Atakişiyevin tələbəsidir. [...]

*«Баку», 1984, 10 avqust*

## HƏVƏS VƏ BACARIQ
***(R.Atakişiyevin Sibir violin ansamblının konsertində iştirakı)***
**M.Baqdasarov**

[...] Görkəmli müğənnimiz, Respublikanın Xalq artisti professor Rauf Atakişiyev Qlinka, Rimski-Korsakov, Çaykovski, Bulaxovun romanslarını ifa edərək konsertdə iştirak etdi. Həmin vaxt Tümen musiqiçiləri özlərini həssas və diqqətli ansambl ifaçıları kimi göstərdilər. R.Atakişiyevi dinləyərkən istər-istəməz azərbaycanlı ifaçısının böyük rus bəstəkarlarının musiqisini necə düzgün və dərindən qavradığını, Moskva konservatoriyasında görkəmli rus pedaqoqları Nejdanova və İqumnovdan aldığı dərslərin nə qədər zəngin tumurcuqlar verdiyini düşünülürdü! Lakin – bütün bunlara görə və heç bir halda deyilənlərin əksinə olmayaraq – Şərqin müğənnisi ilə qarşılaşdığımız tamamilə açıq aydın idi. Bu məfhumu ümumi yaradıcılıq fərdiliyindən ayırmaq nə qədər çətindirsə, eyni dərəcədə də danılmazdır. Bəlkə də, Şərq – ehtiraslı "muğam" ifasındadır, səsin özünə və səs ifadəsi prosesinə son dərəcə diqqət yetirməkdə, melismatikanın və ştrixlərin incəldilməsində... Hər şeyi sözlə dəqiq müəyyənləşdirmək olmur,

xüsusən də musiqidə...

Azərbaycanlı bir müğənninin Tümen ansamblının konsertində iştirakı təsadüfi deyil və burada məmnuniyyətlə qeyd etmək lazımdır ki, Sibir violin ansamblı Azərbaycanla uzun müddətli və xoş əlaqələrə malikdir. [...]

*«Вышка», 1984, 5 dekabr*

## UKRAYNA DİNLƏYİCİLƏRİNİN ALQIŞLARI
### *(R.Atakişiyev və F.Bədəlbəylinin Kiyevdəki konsertləri)*

Kiyevdə Azərbaycan SSR Xalq artistləri Rauf Atakişiyev və Fərhad Bədəlbəylinin konsertləri böyük uğurla keçirildi. Onlar Çaykovski, Rimski-Korsakov, Qreçaninovun vokal musiqisi və Şumanın fortepiano əsərlərinin yer aldığı "Rus romans axşamı" proqramı ilə çıxış etdilər. Konsertlər Ukrayna Dövlət Filarmoniyasının N.V.Lısenko adına Sütunlu Salonunda və qardaş respublikanın paytaxtının maşınqayırma müəssisələrindən birinin işçi Mədəniyyət Sarayında baş tutdu.

– Azərbaycan sənətçilərinin çıxışları nəinki yüksək bədii səviyyəsi ilə diqqətəlayiqdir, – Ukrayna Dövlət filarmoniyasının direktoru və bədii rəhbəri, Ukrayna SSR Xalq artisti S.D.Kozak qeyd etdi. – Bu çıxışlarda qardaş xalqların milli mədəniyyətlərinin səmərəli qarşılıqlı əlaqə və təsirləri tam şəkildə əks olundu. Azərbaycan incəsənət ustaları Ukrayna dinləyicilərinə ifaçılardan Çaykovski, Rimski-Korsakov, Qreçaninovun vokal irsinə dərindən nüfuz etməyi, ən yüksək mədəniyyət və peşəkarlıq tələb edən rus bəstəkarlarının əsərlərindən ibarət bir proqram təklif etdilər.

Dahi rus müğənnisi Antonina Nejdanovanın tələbəsi – Azərbaycan Dövlət Konservatoriyasının professoru Rauf Atakişiyev bu keyfiyyətləri sərgiləyir və digər müəllimi, görkəmli pedaqoq K.N.İqumnovdan aldığı pianizm istedadının öz yaradıcılığında eyni dərəcədə parlaq vokal istedadı ilə uyğunlaşmasına müvəffəq olur. Müğənninin səsi təravətli, bədii palitrası çox zəngindir. Onun layiqli ortağı beynəlxalq müsabiqələr laureatı Fərhad Bədəlbəylidir. O, vokal ifaçısının müvəffəqiyyətini tam olaraq bölüşməklə kifayətlənməyib, özünü bir pianoçu və ən yüksək səviyyədə müşayiətçi kimi göstərmişdir.

*«Бакинский рабочий», 1985, 22 fevral*

## LENİNQRAD FİLARMONİYASININ SƏHNƏSİNDƏ
### *(R.Atakişiyev və F.Bədəlbəylinin birgə çıxışı)*

Neva üzərindəki şəhərin klassik musiqinin pərəstişkarları Azərbaycan sənətinin ustaları ilə görüşmək fürsəti əldə etdilər. D.Şostakoviç adına Dövlət Əmək Qırmızı Bayrağının Leninqrad Filarmoniyasının abunə konsertlərindən biri bütövlüklə Azərbaycanın Xalq artisti, M.F.Axundov adına Akademik Opera və Balet Teatrının solisti Rauf Atakişiyevin yaradıcılığına həsr olunmuşdur. M.İ.Qlinka adına Kiçik Zalın səhnəsində Çaykovski, Rimski-Korsakov və Raxmaninovun əsərlərindən ibarət solo vokal gecəsi baş tutdu. Fortepiano partiyasını Azərbaycanın Xalq artisti Fərhad Bədəlbəyli ifa etdi.

Ağzınacan dolmuş salon gur alqışlarla Azərbaycan sənətçilərini mükafatlandırdı, bir sıra əsərlər yenidən , "bir daha!" xahişi ilə, ifa olundu.

Kiçik Zalın bədii rəhbəri **K.Yeryomina** bu konserti şərh edərək Azerinformun müxbirinə bildirdi:

– Müğənninin ifası gözəl, güclü səs, yüksək peşəkarlıqla seçilirdi. Rus bəstəkarlarının əsərlərindən ibarət proqram diqqəti cəlb edirdi. Çaykovskinin "Səs-küylü balda", Rimski-Korsakovun "Yüksəkliklərdən rüzgarın əsməsi deyil", Raxmaninovun «Gecə kədərlidir», "Yenidən tənhayam" rus romans lirikasının incilərinin zərif psixoloji nüanslarını açmaqla

R.Atakişiyev emosional məzmunun dərinliyini çatdıra bilmişdir. Müğənninin səsi F.Bədəlbəylinin ustalıqla ifa etdiyi fortepiano partiyasının ansamblında yaxşı səslənirdi. Konsert tamaşaçı tərəfindən böyük marağa və səmimi qarşılanmaya səbəb olmuşdur.

*«Вышка», 1986, 23 yanvar*

## AFİŞA NƏDƏN XƏBƏR VERİRDİ

***(Filarmoniyada R.Atakişiyevin yetirmələrinin konserti – pianoçular R.Qasımov, H.Əliyev, V.Həsənov və F.Sadıxova)***

**S.Qasımova**

Afişa M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniysında qeyri-adi konsert haqqında məlumat verirdi. İfaçıların tərkibi də qeyri-adi idi: burada konservatoriyamızın tələbələri, Beynəlxalq və Zaqafqaziya müsabiqələri laureatları ilə yanaşı Moskva konservatoriyasının tələbələri, Moskva, Bakı, Sumqayıt musiqi məktəblərinin nümayəndələri də çıxış edirdilər.

Həmin axşam onları bir istək birləşdirdi: müəllimləri – böyük musiqiçi və bir pianoçu nəsli yetişdirən bir insana hörmət və ehtiramlarını nümayiş etdirmək.

Həmin axşam fərqli üslub və xarakterli bir çox əsər səsləndirildi. Skryabinin Poemasını mükəmməl ifa edən Beynəlxalq Müsabiqə laureatı R.Qasımovun istedadına, Zaqafqaziya Müsabiqəsi laureatı H.Əliyevin parlaq emosionallığına, parlaqlığına (Listin "İspan Rapsodiyası"), Beynəlxalq Müsabiqə laureatı V.Həsənovun ifasının dərinliyi və virtuozluğuna (Prokofyevin sonatası və Şopenin fantaziya-ekspromtu), F.Sadıxovanın Şopen musiqisinin şairanə səsləndirməsinə heyran olmamaq mümkün deyildi...

Onların ifasında bədii zövqü, həddi aşmama duyğusunu, nəzakəti – başqa sözlə, ifaçılıq mədəniyyəti məfhumunu birləşdirən və burada sözsüz ki, çiyinlərində son dərəcə zəngin yaradıcılıq həyatı, fasiləsiz iş və istedadın təkmilləşməsi olan müəllimləri – Azərbaycan SSR Xalq artisti, professor Rauf İsrafiloviç Atakişiyevdən aldıqları güclü bir professional məktəbin təsirini görməmək mümkün deyil.. [...]

Uğurla pianoçu və müğənni istedadını özündə birləşdirən Atakişiyev uzun illərdir özünü hər iki sahədə də fəal şəkildə ifadə edir. [...]

Təəccüblü deyil ki, onun haqqında danışarkən bəzən sənətkarın həyatda onun üçün daha vacib olan iki peşəsindən hansına üstünlük veriləcəyinə qərar vermək çətindir. Görünən odur ki, Atakişiyev özü belə bir suala birmənalı cavab verə bilmədi, çünki hər iki halda da onun üçün yalnız bir şey əsas, ilkindir – musiqi.

30 ildən çox səhnə və konsert fəaliyyətində olan respublikanın aparıcı müğənnilərindən biri R.Atakişiyev vokalçının bütün ifadə vasitələrini – intonasiyanın təmizliyini, səs gücünü və qüsursuz texnikasını ustalıqla mənimsəyir. [...]

Atakişiyev, ölkəmizdə və xaricdə layiqli tanınma və yüksək nüfuza malik bir pianoçu və vokalçıdır. Təsadüfi deyil ki, o, dəfələrlə beynəlxalq pianoçu müsabiqələrinin dinlənilmələrinin münsiflər heyətinin tərkibinə daxil idi (məsələn, Varşavadakı Şopenin adına, Parisdəki M.Lonq və J.Tibo, Svikkauda Şuman adına, həmçinin Rio-de-Janeyro, Monreal, Madriddə) neçə dəfə böyük beynəlxalq yarışların münsif üzvü olmuşdur.

Rauf Atakişiyev indi də fəaliyyətinin müxtəlifliyi və aktivliyi ilə heyran edir. Bu yaxınlarda Moskvada və Kiyevdə solo vokal konsertləri böyük müvəffəqiyyətlə keçirilmişdir, burada beynəlxalq müsabiqələr laureatı pianoçu Fərhad Bədəlbəyli ilə ansamblda rus

bəstəkarlarının romanslarını ifa etmişdir.

Professor, Azərbaycan Dövlət Konservatoriyasının ixtisas fortepiano kafedrasının müdiri, o, hər gün tələbələrlə işləyir, onları növbəti konsert və müsabiqələrə hazırlayır. [...]

*«Бакинский рабочий», 1986, 6 may*

## İTİ SATİRA İLƏ XOŞ YUMOR

***(R.Atakişiyevin "Monastırda nişanlanma" tamaşasında Mordoviya qastrolları)***

**T.Odinokova**

[...] Tamaşada [S.Prokofyevin "Monastırda nişanlanma"] bir çox aktyorluq uğurları var. Azərbaycanın Xalq artisti R.Atakişiyev Jerom rolunda möhtəşəmdir. İti xarakterli, parodiya və qrotesk elementləri ilə rolu o, çoxşaxəli və rəngarəng üslubda təqdim etmişdir, – yalnız satirik deyil, həm də yumoristik ifadələrlə. R.Atakişiyevin ifasında Don Jerom tamahkar, eqoist, daim daha çox zənginləşməyə can atır (öz qızını mənfur çirkin, lakin varlı qoca ilə evləndirmək lazım olsa belə); o, təlaşlı, hirslidir və tez-tez gülməli və axmaq vəziyyətlərə düşür. Eyni zamanda, R.Atakişiyev (qibtə ediləcək bir aktyor təbiəti ilə!) xarakterinin digər cəhətlərini – tükənməz enerjisini, həyat sevgisini və yumorunu ortaya qoyur.

Sənətçi hər cəhətdən çox çətin olan vokal partiyası ilə də təsirlidir. Onun ifası duyğusal mənalı intonasiya və bədii cəhətdən inandırıcı aydın ifadə, səs zənginliyi ilə seçilir. [...]

*«Советская Мордовия», 1986, 21 avqust*

## PORTUQALİYADA AZƏRBAYCAN GÜNLƏRİ

**Y.Katkov**

Azərinform-un xüsusi müxbiri, Lissabon

5 noyabrda rəsmi olaraq açılan Portuqaliyadakı Azərbaycan SSR Günləri çərçivəsində Portuqliyaya gələn respublikamızdan xüsusi bir tur qrupu artıq üç gündür ki, buradadır. [...]

Respublikanın Xalq artistləri R.Atakişiyev və F.Bədəlbəyli Portuqaliya ictimaiyyəti qarşısında böyük uğurla çıxış etmişdirlər. [...]

*«Вышка», 1987, 21 oktyabr*

## LENİNQRADDA AZƏRBAYCAN SSR-nın ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT GÜNLƏRİ

**G.Sadıxzadə *Ariyalar, romanslar, mahnılar***

Azərbaycan incəsənət festivalı çərçivəsində Filarmoniyanın Böyük salonunda vokal musiqisi konserti keçirildi. Burada respublikanın ən yaxşı səslərini eşidə bildik.

Birinci hissədə respublikanın tanınmış tenoru R.Atakişiyev çıxış etmişdir. Tərtib etdiyi proqram, ən populyar rus romans klassikasının toplusu idi. Hətta adların sadə bir siyahısı belə artıq müəyyən təsəvvür yaradır: Çaykovskinin "Səs-küylü balda", "Sarı zəmilərə", Raxmaninovun "Hər şey keçir", "Yenidən tənhayam", "O hər şeyi məndən aldı", nəhayət, Qlinka yaradıcılığının incisi – "Gözəl bir anı xatırlayıram"... Konsertin ilk hissəsini Qreçaninov və Titovun daha az tanınan cazibədar və sadə romansları tamalamışdır.

İfa olunan bəstələrin çoxunun, necə deyərlər, "qulaqda" olmasına baxmayaraq, müğənninin təfsirində təravətli, səmimi səsləndi.

Respublikanın ən yaxşı pianoçularından biri F.Bədəlbəyli solisti çox düzgün və həssaslıqla müşayiət edərək müvəffəqiyyətin böyük bir hissəsinə layiq idi. [...]

*«Вечерний Ленинград», 1988, 18 noyabr*

## RƏNGARƏNG BAYRAM PALİTRASI
***(Leninqradda R.Atakişiyev və L.İmanovun vokal axşamı)***

[...] Yalnız ölkəmizdə deyil, bütün dünyada klassik musiqinin pərəstişkarları arasında ən prestijli və nüfuzlu, D.D.Şostakoviç adına Leninqrad Dövlət Filarmoniyasının Böyük salonu sayılır. Burada M.F.Axundov adına Akademik Opera və Balet Teatrının solistləri – SSRİ Xalq artisti Lütfiyar İmanov və Azərbaycan SSR Xalq artisti Rauf Atakişiyevin iştirak etdikləri vokal gecəsi anşlaqla keçdi. Azərbaycan bəstəkarlarının əsərlərinin xarici və rus klassiklərinin musiqiləri ilə birgə olduğu proqram incə zövqü, ifa isə əsl ilhamlandırıcılığı ilə seçilirdi. Qlinka, Çaykovski, Qreçaninov, Raxmaninov, Verdinin əsərləri, Ü.Hacıbəyov, F.Əmirov, T.Quliyev, E.Sabitoğlunun romans və mahnıları səsləndirildi. Müğənniləri beynəlxalq müsabiqələr laureatı, həm də solist kimi çıxış edən Azərbaycan SSR Xalq artisti Fərhad Bədəlbəyli və respublikanın Xalq artisti Çingiz Sadıxov müşayiət etmişdirlər. [...]

*«Бакинский рабочий», 1988, 19 noyabr*

## ZƏFƏR AKKORDU
***(R.Atakişiyevin tələbəsi, pianoçu L.Mustafazadə – Fransada Beynəlxalq müsabiqə laureatı)***
**S.Mirzoyeva**

Fransadan yaxşı xəbər gəldi: gənc azərbaycanlı pianoçu Lalə Mustafazadə, Epinal şəhərində keçirilən Albert Russel adına nüfuzlu Beynəlxalq müsabiqədə parlaq qələbə qazandı. [...]

Birinci premiya pianoçu üçün layiqli bir mükafat idi. Əlbətdə ki, bu uğurun mümkünlüyü yeni zamanda müəlliminin böyük səyi nəticəsində həyata keçmişdir. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasındakı daha sonra aspiranturada onun sinfində oxuduğu yeddi il müddətində Laləyə həqiqətən musiqi dünyası açıldı. Vaxtilə Moskva konservatoriyasında məşhur pianoçular İqumnov və Fliyerin, böyük müğənni Nejdanovanın sinfində təhsil alan Rauf İsrafiloviç pedaqoji işində müəllimlərinin istedad işığı daşıyırdı. Respublikanın Xalq artisti, professor Rauf Atakişiyev qeyri-adi bir şəxsiyyətdir. Ensiklopedik biliyə malik, sənəti həssas hiss edən R.Atakişiyev geniş dünyagörüşlü, düşünən, narahat axtarışda olan, yaradıcı insan yetişdirmək üçün öz məktəbini yaratdı. Atakişiyev-pedaqoqun daha bir diqqətəlayiq xüsusiyyəti var. O, realistdir və narahat, nihilist çağımızda ümumbəşəri dəyərlərin necə dəyərdən düşdüyünü, ciddi sənətə necə ehtiyacın olduğunu görür. Bununla birlikdə, tələbələrinə necə inam aşılayacağını bilir: musiqidən gözəl bir şey yoxdur və dünyada ona xidmət etməkdən daha nəcib bir şey yoxdur.

Təsadüfi deyil ki, beynəlxalq müsabiqənin dörd laureatı məhz Atakişiyevin məktəbini bitirib – Rauf Qasımov, Vasif Həsənov, Boris Qusliser, keçən ilin yayında uğurlarına sevindiyimiz Samirə Aşumova. İndi də Lalə Mustafazadə! Fərhad Bədəlbəylinin Lissabondakı qələbə uğurundan bəri Azərbaycan musiqisində belə nüfuzlu mükafat qazanan ifaçı olmamışdır. Yenə də təəssüf ki, bir sual yaranır: məgər Rauf Atakişiyevin uğurları Sovet sənətində SSRİ Xalq artisti adına, ən yüksək ada layiq deyilmi?

Daim Fransadan xəbərlər alan, tələbəsinin hər addımını Bakıdan həyəcanla izləyən Rauf Atakişiyev indi sevinclə doludur:

– İşində öz gücünü əsirgəməyən istedadlı, ciddi bir qız, təbii olaraq beynəlxalq bir yarışmada qalibiyyətə çatdı. O, özünəməxsus şəxsiyyəti ilə parlaq, yetkin bir musiqiçidir – onun Vaqif Mustafazadənin qızı olması heç də boşuna deyil! Şübhə etmirəm ki, onun üçün çox şey irəlidədir, o, inkişafına davam edəcək, istedadının getdikcə daha çox yeni tərəflərini üzə çıxaracaq. [...]

*«Бакинский рабочий», 1991, 28 mart*

## ATAKİŞİYEVİN SİSTEMİ
**S.Mirzoyeva**

Azərbaycanın Xalq artisti Rauf Atakişiyev çoxşaxəli istedad sahibidir. Opera və Balet Teatrının solisti olaraq, o, uzun illərdir güclü, gözəl, təəccüblü dərəcədə səmimi səslənən səsi ilə tamaşaçıları sevindirdi. Bir vaxtlar Raufa Moskva konservatoriyasında dərs deyən dahi müğənni Antonina Nejdanova yetirməsindən razı qalmışdır... İstedadlı Azərbaycan musiqiçisinə fortepiano ifa etməyi öyrədən eyni dərəcədə dahi musiqiçi, pianoçu Konstantin İqumnovun da şagirdi ilə fəxr etmək üçün əsası var idi. Zaman keçdi və Rauf Atakişiyev özü böyük bir müəllim oldu. İndi isə şagirdləri ilə qürur duymaq onun növbəsidir.

Professor Atakişiyev, beynəlxalq müsabiqələr laureatlarını hazırlamaq sayına görə bir növ Azərbaycan Dövlət Konservatoriyasının rekordçusudur. Vasif Həsənov, Rauf Qasımov, Boris Qusliser, Lalə Mustafazadə, Samirə Aşumova...

Böyük musiqi istedadı, geniş erudisiya, incə psixoloq qabiliyyəti Atakişiyevə gənc istedadı dəqiq tanımağa, fərdi təhsil sistemini təyin etməyə imkan verir. Repertuar seçmək azadlığı, axtarış müstəqilliyi olan pedaqoji metodunu sərt "sistem" sözü ilə də adlandırmaq olmur. Xaricdə – azadlıq, lakin əslində ustadın təbii materiallarla yorulmaz, əziyyətli işi.

Mükafat isə – istedadın kəşfidir. Axı Hacı Əliyev də Atakişiyevin sinfinə sadəcə istedadlı gənc kimi gəlmişdir. Tezliklə isə Zaqafqaziya Gənc Musiqiçilər Müsabiqəsində çıxış etdi və birinci yerə layiq görüldü. Rauf Atakişiyev tələbənin istedadını cilalamağa davam edirdi. O, daim ədəbiyyata və sənətə marağı oyadarkən onun bütün yeni musiqi keyfiyyətlərini kəşf etdi. Bu, şagirdin Bethoven, Şuman, Şopen, Listi daha dərindən, daha parlaq şəkildə açıqlamasına kömək etdi. Artıq aspirant olan Hacı İncəsənət Muzeyində və Azərbaycan Dövlət Filarmoniyasında konsertlərdə çıxış etmişdir. Tamaşaçı ilə əlaqə çox vacibdir – musiqiçini dəyişdirir, artistin təşəkkül prosesinin bütün həyəcanverici anlaşılmazlığını hiss etməyə imkan verir.

[...] Bu il hər biri özünəməxsusluğu ilə seçilən üç gənc pianoçu – Nailə Hüseynova, Sevil Şirəliyeva, Lalə Sadıxova – Atakişiyev sinfini bitirərək sərbəst həyata qədəm qoyur. Lakin onları, sinifdəki bütün tələbələr kimi, yüksək peşəkarlıq, mənəvi mədəniyyət və zəka birləşdirir. Bütün bunlar Rauf Atakişiyev məktəbinin mahiyyətini təşkil edir.

*«Бакинский рабочий», 1993, 13 iyul*

## BAKIDA RAUF ATAKİŞİYEVİN XATİRƏSİ YAD EDİLDİ
**Rüstəm Qasımov**

Ötən həftə sonu M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində əfsanəvi Azərbaycan musiqiçisi, pianoçu, müğənni-solist, Azərbaycan SSR Xalq artisti Rauf Atakişiyevin 90 illiyinə həsr olunmuş xatirə konserti baş tutmuşdur.

Reportajdan öncə Azərbaycanın Xalq artisti, Bakı Musiqi Akademiyasının rektoru, virtuoz-pianoçu Fərhad Bədəlbəylinin çıxışından sonra Rauf Atakişiyev haqqında söylədiyi sözlərlə başlamaq istəyirəm. “Rauf müəllim böyük istedada malik inanılmaz bir insan idi. Maestro Niyazinin dirijorluğu ilə Üzeyir Hacıbəyli Orkestri ilə necə çıxış etdiyini heç vaxt unutmaram. Konsertin birinci hissəsində solist, ikinci hissəsində isə pianoçu kimi çıxış etmişdir. Bu nailiyyətin fikrimcə bənzəri yoxdur və “Ginnes”in Rekordlar Kitabına düşə bilərdi. Azərbaycanın qüruru sayılan bu görkəmli insanın nə qədər güc və enerjiyə sahib olduğuna həmişə heyran qalmışam. İnsan xatırlandığı müddətdə yaşayır. Bugünkü konsert bunun sübutu oldu, çünki hamımız böyük musiqiçinin xatirəsini ehtiramla yad etmək üçün toplandıq”, – Bədəlbəyli qeyd etdi və ardınca gurultulu alqışlar səsləndi. Ənənəyə görə Filarmoniyanın foyesində mərhum musiqiçinin fotoları sərgilənirdi və qonaqlar tərəfindən böyük maraqla izlənilirdi. Onlardan çoxları Rauf Atakişiyevin həyatının tarixi məqamlarını əks etdirən bu və ya digər kadrın qarşısında bir neçə dəqiqə dayanırdı. Bu axşam musiqiçinin xatirəsini yad etmək

üçün yalnız məşhur Azərbaycan musiqiçiləri və mədəniyyət xadimləri deyil, eyni zamanda Azərbaycan mədəniyyətinin bu kimi əfsanəvi nümayəndələrinə çox isti və məhəbbətlə yanaşan adi sənətsevərlər və bilicilər gəlmişdir.

Konsert Rauf Atakişiyevin haqqında kiçik bir filmlə başladı. Burada o, bioqrafiyasından maraqlı faktlar, musiqini necə öyrənməyə başladığını, niyə bu qədər məsuliyyətli və maraqlı sənət yoluna girdiyini izah edirdi. Bundan sonra səhnəyə Azərbaycanın Xalq artisti, professor, məşhur azərbaycanlı dirijor Yalçın Adıgözəlov çıxdı. Maestro görünəndə zalda alqış səsləri eşidildi və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin musiqiçiləri yerlərindən qalxaraq Adıgözəlovu salamladı. Gecənin ilk əsəri əfsanəvi rus pianoçu, bəstəkar və dirijor Sergey Prokofyevin “Romeo və Cülyetta” baletindən bir parça idi. Müəllifin görkəmli əsəri simfonik orkestr tərəfindən gözəl ifa olundu, hər bir musiqiçi ifasına ürəyini və ruhunu daxil etdi, bunun sayəsində Filarmoniya zalı xoş musiqi ilə dolduruldu. Əsər xatirə konsertinin mövzusuna mükəmməl dərəcədə uyğun gəldi.

Maestro Adigözəlovun hamar və ustalıqla cilalanan əl hərəkətlərini qeyd etməmək mümküm deyil, həmin axşam o, zirvədə idi. Musiqiçilər və dirijor, üz ifadələri, gözlərin baxışı və maestronun hamar hərəkətləri sayəsində tam qarşılıqlı anlaşmaya nail oldular ki, bu da ahəngdar bir tandemlə nəticələndi və minnətdar auditoriya tərəfindən alqış fırtınası qazandı.

Sonra filmin nümayişi davam etdirildi, burada Rauf müəllim müsahibələr verdi və xalq tərəfindən coşğuyla qarşılanan romanslar oxudu. Qeyd etmək lazımdır ki, konsert boyu müxtəlif əsərlərin ifası zamanı ekranda dahi musiqiçinin çoxşaxəli Azərbaycan mədəniyyətinin digər tarixi şəxsiyyətləri ilə fotoları nümayiş olundu. Fotoşəkillərə baxmaq çox xoşdu, çünki hər biri həyatımızın parlaq anlarının yaddaşını qoruyur. Rauf müəllimin Azərbaycanın qızıl səsi, ölkənin qüruru, əfsanəvi bariton Müslüm Maqomayevlə birlikdə olduğu şəkillər məni xüsusilə təsirləndirdi. Təəssüf ki, bu böyük musiqiçilər bu gün bizimlə deyil...

Bundan sonra səhnəyə Azərbaycanın Xalq artisti, BMA-nın rektoru Fərhad Bədəlbəyli çıxdı, orkestrlə birlikdə Sergey Prokofyevin əsərini, op.10 Re-bemol major 1 №-li Fortepiano Konsertini ifa etdi. Fərhad Şəmsiyeviçin ifası həvəs, enerji, qığılcım, virtuozluqla dolu idi. Zal sadəcə donub qalmışdı, musiqi sanki tamaşaçıları hipnoz etmişdi. Fərhad Şəmsieviçin fortepianonun şairi adlandırılması əbəs yerə deyildir, çünki ifasında incəlik, orijinallıq, ciddilik və həssaslıq hiss etmək olar. Həmişə insan hissinin bütün nüanslarını özündə cəmləşdirən canlı titrək səs, ifa olunan əsərin üslubundakı heyrətamiz bir hiss onun ifasını misilsiz edir. Yalnız əsər bitdikdən sonra, son not səsləndirildikdə tamaşaçı auditoriyası sarsıdıcı alqışlarla partladı. Heyran olan tamaşaçılar Fərhad Bədəlbəylini buraxmadılar, onu alqışlarla mükafatlandırdılar, nəticədə üç dəfə səhnəyə çıxdı və tədbirin qonaqlarından çiçəklər aldı.

Bundan sonra, məruzənin əvvəlində sitat gətirdiyimiz nitqlə çıxış etdi. Pianoçunun əfsanəvi musiqiçi Rauf Atakişiyevə hörmət göstərərək əlindən gələni etdiyi aydın görsənirdi.

Qısa bir fasilədən sonra konsert Rauf Atakişiyevin məşhur "Moskva gecələri" mahnısının səmimi ifası ilə davam etdi. Səsyazma olmasına baxmayaraq, elə bir təsəvvür yaranırdı ki, Rauf müəllim səhnədə dayanıb və təsirli ifası ilə bizi sevindirir. Tamaşaçılar onun səmimi ifasını o qədər bəyəndilər ki, zalda insanların pıçıltıyla oxuyaraq ifaçıya müşayiət etdikləri eşidilirdi. Heç də təəccüblü deyil ki, tamaşaçı sevgisi müğənni, yaradıcı insan üçün ən yüksək mükafatdır.

Bundan sonra tamaşaçılar tərəfindən yüksək alqışlarla qarşılanan Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, Azərbaycanın Xalq artisti Rauf Abdullayev səhnəyə çıxdı. Öncə Cuzeppe Verdinin "Taleyin gücü" operasından uvertüra səsləndi.

Sonra M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru, Respublikanın Əməkdar artisti Murad Adıgözəlzadənin ifasının vaxtı gəldi. O, orkestrlə birgə Robert Şumanın "Fortepiano və orkestr üçün op.54 lya minor Konsert" (üç hissəli) əsərini səsləndirdi. Adıgözəlzadənin virtuoz ifası həmin axşam Filarmoniyadakı xatirə konsertində olan heç bir dinləyicini laqeyd qoya bilmədi. Axı pianoçunun xüsusi hiss, enerji və sevgi ilə ifa etdiyi musiqi heyran etməyə bilməz. Murad Adıgözəlzadənin ifası o qədər dinamik idi ki, çıxışı onun gücünü aldı, bacarıqlarının zirvəsini göstərərək əlindən gələni etdi. Tamaşaçılar pianoçunun ifasını o

qədər bəyəndilər ki, onu buraxmaq istəmirdi, nəticədə Adıgözəlzadə dəfələrlə səhnəyə çıxdı və minnətdar dinləyicilərdən çiçəklər aldı. Zal dəfələrlə "BRAVO!" qışqırıqları ilə partlayırdı. Bununla da konsert başa çatdı. Minnətdarlıq əlaməti olaraq tamaşaçılar ayağa qalxaraq musiqiçiləri sonsuz alqışlarla yola saldılar. Tamaşaçıların musiqiçilərlə ünsiyyəti filarmoniyanın foyesində davam etdi. Bununla yanaşı, təbriklərin əksəriyyətini Murad Adıgözəlzadə və Araş ilə birlikdə Azərbaycanı "Evroviziya – 2009" mahnı müsabiqəsində təmsil edən məşhur azərbaycanlı R'n'B-müğənni, həyat yoldaşı Aysel Teymurzadə qəbul edirdilər.

Sonda qeyd etmək istərdim ki, Rauf Atakişiyev əfsanəvi Azərbaycan musiqiçisi idi və bu gün də belə olaraq qalır və dünənki konsert bunun bir daha təsdiqi olmuşdur.

ANN.Az xəbər portalı elm, incəsənət, mədəniyyət, təhsil və maarifləndirmə aparıcısı olaraq paytaxtımızda keçirilən mədəni tədbirləri diqqətdən kənarda qoymur və Rauf Atakişiyevin xatirəsinə həsr olunan yubiley konsertindən fotoları diqqətinizə təqdim edir.

*Ann.az, 2016, 14 fevral*

# RAUF ATAKİŞİYEVİN MƏQALƏLƏR, RESENZİYALAR VƏ MÜSAHİBƏLƏRİ

## *DİRİJOR VƏ REJİSSOR HAQQINDA...*

### UNUDULMAZ SƏNƏTKAR
***(maestro Niyazi haqqında)***

Uzun illərdir ünsiyyətdə olduğumuz insanlar və xüsusən də fərdi görünüşlərinin xüsusi bir bənzərsizliyi ilə seçilən insanlar qəlbimizdə və zehnimizdə dərin iz buraxırlar. Və onlar həyatdan ayrıldıqlarında başa düşürük ki, onların gedişləri ilə tərcümeyi-halımızın müəyyən bir mərhələsi bitdi, bir daha əsla təkrar olunmayacaq bir şey getdi.

Ölkəmizin bir çox böyük musiqiçilərindən təhsil almaq və sonra onlarla yaradıcı ünsiyyət qurmaq mənə qismət oldu. Bəziləri ilə münasibətlərimiz daha sonra yaradıcılıq və insani dostluğuna çevrildi. Lakin bir ifaçı-musiqiçi kimi formalaşmağım, Niyazinin diqqətinə çarpdığım gündən, uzun illərdir ortaq musiqi yaratmağımızın başlanğıcını qoyan ilk xoşbəxt konsertdən başladı. Bəli, mən qürurla deyə bilərəm ki, musiqi həyatımın böyük bir dövrünü ecazkar bir sənətkarla sıx təmasda keçirdim. Niyazi o vaxt artıq yaradıcılıq gücünün çiçəklənməsi dövründə idi. Maestronun məşqlərində oturmaq və bu məşqlərin nə qədər dəqiqliklə və eyni zamanda hansı ilhamla aparıldığını eşitmək xoşbəxtliyi nəsibim olmuşdur. O, sözün əsl mənasında yanırdı, səsin son dərəcə ifadəli olmasına nail olaraq sonsuz eksperiment edirdi. Xatırlayıram, Çaykovskinin "Françeska da Rimini"nin məşqində, violonçel ifaçılarının bir epizodu kifayət qədər parlaq ifa etmədiklərini düşündü. Dirijor bu yerdə demək olar ki, yarım saat çalışdı və hər bir musiqiçidən fərdi olaraq tələb etdiyi təsir gücü görünənə qədər artıq saxlamadan hər şeyi (bütün hisslərini) verməyə təşviq etdi. Dirijor-Niyaziyə təəccüblü şəkildə incə və zərif təqdim etdiyi eyni dərəcədə böyük musiqi əsərləri və miniatürlər tabe idi. Niyazi ən nadir cazibədarlığa malik dirijordur. Onun interpretasiyasında (təfsirində) Çaykovskinin dördüncü, beşinci, altıncı simfoniyaları, "Francesca da Rimini" poeması, "Romeo və Cülyetta" uvertürası, İtalyan kapriçiosu, Bethovenin beşinci simfoniyası, Berliozun fantastik simfoniyası, Dvorjakın Beşinci simfoniyası, Ravelin Bolerosu, Rimski-Korsakovun "Şəhrizad"ı unudulmaz dərəcədə nəhəng təəssürat bağışlayırdı. Hamısını sadalamaq olurmu?

Azərbaycan bəstəkarlarının musiqisinin təbliğində dirijor-Niyazinin rolunu qiymətləndirməmək mümkün deyil. Mübaliğəsiz demək olar ki, Azərbaycan müəlliflərinin istisnasız bütün mühüm əsərləri onun dirijor çubuğu altından həyata başlamış və ilk oxunuşunu tapmışdır.

Tamaşaçılarda qazandığı sevgi, konsertlərindən daim doğulan zövq – hamıya məlumdur. Belə bir fenomenin izaha ehtiyacı olduğunu düşünsək, bunu necə izah etmək olar? Əvvəla, onun böyük yaradıcılıq gücü, əsərin mahiyyətini dərk etməkdə təəccüblü intuisiya, güclü iradə, "ürək" və misilsiz dirijorluq bacarığı kimi keyfiyyətlərin birləşməsi. Niyazi, necə deyərlər, "Tanrıdan" bir dirijordur, lakin bəstəkarlıq fəaliyyətinin də çox orijinal və mühüm olduğunu unutmamalıyıq.

Niyazinin parlaq, cəlbedici gücündə həqiqi istedadın nəhəng gücü cəm olunmuşdur. Niyazinin günlərimizin görkəmli musiqiçiləri ilə birlikdə S.T.Rixter, G.Q.Neyqauz, L.N.Oborin, D.F.Oystrax, Y.V.Fliyer, Y.İ.Zak, V.K.Merjanov və bir çox başqaları, bu yaxınlarda isə Niyazi özünü ən gözəl, ən ilhamlı müşayiət ustası kimi göstərdiyi Fərhad Bədəlbəyli, Müslüm Maqomayevlə ilə birgə ifalarını canlı olaraq xatırlayıram.

Amma nə qədər yaxşı dirijorlar çətin olan müştərək musiqi ifaçılıq sənətində özünü bərabər şəkildə sübut edə bilmir. Unudulmaz müəllimim Yakov Vladimiroviç Fliyer və Viktor Karpoviç Merjanov şəxsən mənə dəfələrlə Niyazi-ansambl ifaçısı kimi ustalığına heyran olduqlarını bildirmişdilər. Xüsusilə Van Klibernin Bakıdakı konsertlərindən danışmaq istərdim. Amerikalı pianoçu, gəlişindən bir müddət əvvəl Raxmaninovun Üçüncü Konsertinin bir çox

məşhur pianoçularını parlaq şəkildə müşayiət edən və bu konserti xüsusilə sevən maestro Niyazi, həm dinamika, həm də ifadə tərzində yeni detallar axtararaq orkestr ilə yenidən heyranedici əzmlə çalışdı.

Unudulmaz konsert gecəsi indiki kimi yadımdadır. Dinləyicilərin heyranlığının sonu yox idi. Gözəl pianoçu ruhunun dərinliyinə qədər kövrəlmişdi və həyəcanla maestroya təşəkkür edirdi. Niyazi öz ətrafında həmişə gəncləri cəmləşdirirdi. Onun pedaqoji vergisi gənclərlə ünsiyyətdə, gənc musiqiçidə artistik başlanğıcını tanıma bacarığında möcüzəvi şəkildə özünü göstərirdi. Neçə-neçə gənc musiqiçiyə Niyazi öz bacarıqlarını göstərməyə kömək etdi və neçə nəfəri böyük yaradıcılıq yoluna çıxartdı. Dediyim kimi, bunu tam olaraq özümdə hiss etmişdim. Maestro ilə musiqi ifa etmək necə də zövqlü idi. Necə ilham, necə hisslər birliyi, nə qədər yaradıcılığın "anlıq" olduğunu duyması!

Mənə bir çox yüksək peşəkar dirijorlarla ölkəmizdə və xaricdə ifa etmək və oxumaq nəsib olmuşdur. Hamısını dərin minnətdarlıq hissi ilə xatırlayıram, lakin Niyazi pultun arxasında dayanarkən məni əhatə edən sevinc və həyəcan hissi başqa heç kimlə hiss etmədiyimi deməyə bilmərəm. Bu vəziyyəti sözlə izah etmək çətindir. Bu adamda orkestr kollektivini şərtsiz olaraq özünə tabe edən və musiqi partnyoru-solistdən ilhamlandıran bir növ maqnetik güc var idi.

Çaykovskinin konsertində, ikinci hissədə, fortepiano partiyasında unison əks quruluşla müşayiət olunan orkestrin əsas mövzusu olan epizod var. Maestronun çox sevdiyi bu yerdə, yalnız bizim qurduğumuz "ənənəyə" görə, o, mən tərəfə dönüb geniş gülümsəyirdi. Və hər dəfə bu konserti ifa edəndə – mən bilirdim – maestro bu yerdə mənə tərəf dönəcək və... gülümsəyəcək. Sevdiyim sənətçinin bu xeyirxah gülümsəməsinin mənə necə dəstək və ilham verdiyini sözlərlə söyləmək çətindir.

Niyazinin rəhbərlik etdiyi orkestrin Orta Asiya şəhərlərinə qastrol səfərini xatırlamaya bilmərəm. Bir axşam maestro mənə zəng etdi və onlarla birlikdə solist kimi iki rolda getməyə dəvət etdi: birinci hissədə opera və mahnı ariyalarını oxumaq, ikinci hissədə isə Listin 1 nömrəli konsertini ifa etmək. Bu, olduqca riskli idi, amma düşünmədən razılaşdım. Tamaşalar çox idi, səfər – uzun və yaradıcı heyət üçün olduqca yorucu idi, lakin ruh yüksəkliyi olmadan, süst keçəcək heç bir konsert xatırlamıram. Özünü necə hiss etməsinə baxmayaraq, maestronun yorulduğu günlər də var idi, lakin pult arxasında o, ani olaraq deyişilirdi və tam musiqinin gücünə təslim olurdu. Mən bəzən Niyaziyə növbəti çıxışımdan əvvəl şübhələrimlə "incidirdim".

— Maestro, özümü yaxşı hiss etmirəm – bəlkə bu gün yalnız ifa edim? - deyə soruşurdum.

— İfa et, - maestro sakitcə cavab verirdi.

— Ya mahnı oxuyum?

— Oxu, - Niyazi səbirlə cavab verirdi.

Nəticədə, əlbəttə ki, həm mahnı oxumaq, həm də ifa etmək barədə razılığa gəlirdik, lakin bu sənətkara qarşı ehtiyatlı və səbirli münasibət, ifaçının psixologiyasını bilmək mənə ürəkdən toxunurdu. Əminəm ki, bu keyfiyyətlər yalnız həqiqi sənətkara xasdır.

Sonda, təkrar etməkdən qorxmadan demək istəyirəm ki, mənim heyrətamiz, ziddiyyətli, lakin həmişə dürüst və prinsipial bir şəxsiyyət, böyük cazibə və istedada malik sənətkarla yaxın yaradıcılıq ünsiyyətim ürəyimdə dərin iz buraxmışdır.

Maestro Niyazi (xatirələr, məqalələr, məktublar) kitabından
Tərtibçilər: H.Hacıbəyova, Ə.Hüseynov.
B., İşıq, 1987, s. 100 – 103

## SƏNƏTKARI XATIRLAYARKƏN...

***(rejissor Şəmsi Bədəlbəyli haqqında)***

Şəmsi Bədəlbəylinin adı ilə ilk növbədə nə xatırlanır? Əlbəttə ki, onun heyrətamiz nəcib görünüşü. O, sümüklərin iliyinə qədər zadəgan idi... Ağıllı, intellektual, incə yumor hissi ilə ilk dəqiqədən özünə cəzb edirdi. Onun bu keyfiyyətləri ona yaradıcılıq fəaliyyətində kömək

etmişdir. Rejissor kimi Ş.Bədəlbəyli müxtəlif xarakterə və temperamentə malik aktyorlara tez bir zamanda yol tapırdı. Yaradıcılıq yüksəlişi və qarşılıqlı anlayış atmosferi həmişə onu respublikamızın teatrlarında, ölkə daxilində qastrol səfərlərində çalışmasında müşayiət etmişdir. Rejissorun dörd tamaşasında iştirak edərək – "Daisi", "Arşın mal alan", "Sevilya bərbəri", "İnsanın taleyi" operalarında əsas partiyaları ifa etmişdim. Bu və ya digər epizodu göstərən rejissor tez-tez personaj obrazına daxil olur və aktyorun öz qəhrəmanın obrazına qoşulmasına kömək edirdi. Parlaq özünəməxsus ustad ilə işlədiyim bu dövrü həmişə minnətdarlıq hissi və həyəcanla xatırlayıram. Tamaşalar böyük uğur və gözəl mətbuata sahib idi. Gürcü bəstəkarı Paliaşvilinin "Daisi" operası Tiflisdə nümayiş olunmuşdur və Azərbaycan rejissorunun işi burada layiqincə qiymətləndilimişdir. Onun respublikamızın konsert həyatına verdiyi böyük töhfəni xatırlamamaq olmaz. Azərbaycanda elə bir əhəmiyyətli hadisə olmamışdır ki, Şəmsi müəllimin quruluşunda təntənəli konsertlə bitməsin. Rejissorun böyük bədii zövqü ilə hazırlanmış Moskvada Azərbaycan incəsənətinin ongünlükləri və konsertləri paytaxt auditoriyası tərəfindən məmnuniyyətlə qəbul olunurdu.

Teatr Cəmiyyətinin yüksək sədr vəzifəsində olan Şəmsi Bədəlbəyli ölkəmizin çoxmillətli incəsənəti ilə sıx əlaqələrə ehtiyac olduğunu heç vaxt unutmadan milli sənətin təbliği üçün çox iş görmüşdür. Onun dəvəti ilə Azərbaycana ölkənin görkəmli aktyor və rejissorları gəlirdilər ki, onunla da şəxsi dostluq və yaradıcılıq əlaqəli var idi.

Həm də Şəmsi müəllim heyrətamiz dərəcədə təvazökar və xeyirxah bir insan idi. Ustad yaradıcı gənclərə necə də nəzər və diqqətlə yanaşırdı. Onların çoxu sənətdəki yerlərinə görə ona borcludur.

Mənə illərdir bu gözəl və istedadlı adamla sıx əməkdaşlıq imkanı verdiyi üçün taleyimə şəxsən təşəkkür edirəm.

*«Mədəniyyət», 1991, 20 fevral*

## *PİANOÇU VƏ PEDAQOQLAR HAQQINDA...*

### ƏZİZ MÜƏLLİMİMİN XATİRƏSİNƏ
***(Y.İ.Milşteyn haqqında)***

Əgər insan həyatını bir kitabla müqayisə etsən, o zaman səhifələrini vərəqləyərkən ən parlaq və ən maraqlılarını tapıb dayanırsan, onları təkrar-təkrar oxuyursan və sənin üçün əziz insanların surətləri, fərdi hadisələr, anlar yada düşür...

Yakov İsaakoviç Milşteynlə ilk görüşümüz Moskva konservatoriyasının 45 №li sinfində Konstantin Nikolayeviç İqumnovun ilk dərsinə gəldiyimdə olmuşdur.

O dövrdə Yakov İsaakoviç müstəqil iş aparırdı, eyni zamanda isə öz müəlliminə assistentlik edirdi. Yakov İsaakoviç Milşteyn istedadının təbiətinə görə K.N.İqumnova xüsusilə doğma və yaxın idi.

İki sənətkarın yaxın dostluğu 1948-ci ildə Konstantin Nikolayeviçin ölümünə qədər davam etmişdi. Yakov İsaakoviçin öhdəsinə professor İqumnovun sinfini buraxılış imtahanına çatdırmaq üçün şərəfli, lakin heç də asan olmayan bir tapşırıq düşmüşdü.

Həmin il konservatoriyanı bitirənlər arasında O.Boşnyakoviç, N.Ştarkman, D.Serov, K.Blyumental, E.Monaszon və digərləri kimi istedadlı musiqiçilər var idi.

Yakov İsaakoviç həqiqi bədii istedadı, nəhəng biliyi və üstəlik nadir insan cazibəsi ilə pedaqoji fəaliyyətinin ilk addımlarından tələbələrin hörmət və məhəbbətini qazandı.

Yakov İsaakoviç bizimlə bu cür məhəbbət və fədakarlıqla məşğul oldu!

Yadımdadır, buraxılış imtahanından bir az əvvəl, son məşqlərin birində həddindən artıq yorğunluq və həyəcandan bir çoxumuz öz imkanlarımızdan aşağı ifa etdik.

Yakov İsaakoviç başını sıxaraq ümidsizlik fəryadı etdi: "Siz nə edirsiniz?" Çox əsəb keçirtdi. Amma her şey mümkün qədər yaxşı keçdi.

K.N.İgumnovun ölümündən sonra şagirdlərinin buraxılışı böyük musiqiçinin xatirəsinə layiq olmuşdu.

Tezliklə konservatoriyanın Kiçik zalında K.N.İqumnovun xatirəsinə həsr olunmuş konsert keçirilmişdir. Onlarla Yakov İsaakoviç məşğul olmuşdu. Konsert uğurla keçərək böyük marağa səbəb olmuşdur.

Yakov İsaakoviçin həyəcanlanmış üzünü xatırlayıram. Konsertdən sonra biz hamımız unudulmaz müəllimimiz Konstantin Nikolayeviçin divardakı portretinin yanında şəkil çəkdirdik.

İllər keçdi... Bu illər ərzində bizim Yakov İsaakoviçlə münasibətimiz yaxın yaradıcılıq və insani dostluq halına gəldi, və mən bu günə qədər ecazkar musiqiçi ilə olan hər bir dərsimizi xatırlayıram.

Yakov İsaakoviçin səbrlə səs çevikliyi və oxunaqlıq, ifadəli frazirovka, son dərəcə səmimiyyət və rahatlığa necə nail olduğunu xatırlayıram.

